ДИАЛЕКТИЧЕСКАЯ
ГЕОГРАФИЯ

DIALECTICAL
GEOGRAPHY

AGHAZEYNAL A. GURBANZADE

DİALEKTİK COĞRAFİYA • AĞAZEYNAL A. QURBANZADƏ

# Dialektik coğrafiya

AĞAZEYNAL A. QURBANZADƏ

# DİALEKTİK COĞRAFİYA

***Nəzəri coğrafi-dialektik təhlil***

**AĞAZEYNAL A. QURBANZADƏ**

**"Kooperasiya" nəşriyyatı**
**Bakı – 2017**

87.5 (4) 569

Q -16
UDK 362 : 54 (69+ 94)
(09)

**Ağazeynal Alı oğlu Qurbanzadə**. Dialektik coğrafiya (Nəzəri coğrafi-dialektik təhlil). Bakı-2017, “Kooperasiya” nəşriyyatı, səh. 244.

Monoqrafiyada dialektik coğrafiya elminin nəzəri-konseptual əsasları, onun “çoxölçülü” tədqiqat məntiqi, virtual sistemləri təhlil edilir. Dialektik coğrafiya elminin rasional idrak funksiyalarının yeni məzmunlu, konstruktiv mənbələrinin elmi-tədqiqat baxışları önəmə gətirilmişdır.

Təqdim edilən coğrafiya elminin dialektik təfəkkür mənbələri ali məktəb müəllimləri, tədqiqatçılar, tələbələr və digər mütəxəssislər üçün faydalı ola bilər.

***

В монографии анализируются концептуально - теоретические основы диалектической географии, ее “многомерная” исследовательская логика, и виртуальные системы. Были выдвинуты на первый план научно-исследовательские ресурсы конструктивных источников с новым содержанием, рациональных, когнитивных функций диалектической географии.

Представленные источники диалектического мышления географии могут быть полезными для преподавателей высших учебных заведений, исследователей, студентов и других специалистов.

***

In the monograph theoretical-conceptual bases of dialectic geography, its “multidimensional” researching logic, virtual systems are analyzed.

Scientific-research reviews of new content, constructive sourses of dialectical geography`s rasional cognative functions have been brought forward.

The dialectic mentality sources of presented geography science may be useful for researches, students and other specialists.

Q $\frac{0503229412\text{-}141}{124\text{-}2017}$

© “Kooperasiya” nəşriyyatı - 2017
© Ağazeynal A. Qurbanzadə

## MÜNDƏRİCAT

Müəllifdən........................................................................................ 8

## BİRİNCİ BÖLMƏ
### DİALEKTİK COĞRAFİYA ELMİ:
#### TƏDQİQATIN RASİONAL İDRAK MƏNBƏLƏRİ

► **Önəm 1. Dialektik coğrafiya elmi idrakın metodoloji mənbələri**.. 11
- Dialektik coğrafiya elmi idrakın rasionallığı................................. 11
- Dialektik coğrafiya elmin ideya mənbələri.................................... 16
- Coğrafiya elmi idrakın empirik-nəzəri kodları.............................. 32
- Coğrafi-riyazi modellərinin rasionallığı......................................... 35

► **Önəm 2. Dialektik coğrafiya elmi tədqiqatın effektliyi**................. 39
- Dialektik coğrafiya elmi tədqiqatın effektli önəmi....................... 39
- Dialektik coğrafiya elmi tədqiqatın idrak paradiqması................. 44
- Hərəkətverici və korreksiya coğrafi-sisteminin effektliyi............. 46
- Sinergetika və coğrafiya elmi-tədqiqatın çağırışları....................... 48

► **Önəm 3. Coğrafi-iqtisadi elmi təfəkkürün rasionallığı**................. 52
- "Coğrafi-iqtisadi təfəkkür" elmi-tədqiqat anlayışın mədəniyyəti... 52
- Coğrafi -iqtisadi idrak məntiqinin qeyri-müəyyənlik halı............. 55
- İnnovativ coğrafi-iqtisadi tədqiqatın məzmunu............................ 57
- Coğrafi-iqtisadi "ideal" model funksiyasının rasionallığı............. 59

► **Önəm 4. Dialektik coğrafiya elminin klassik nəzəri "yaddaş" kodları**...................................................................... 62
- Dialektik coğrafiya elmi "yaddaş"ın klassik modenizm kodları.... 62
- Coğrafi zaman tsiklinin nəzəri "yaddaş"nın kodları........................ 65
- Dialektik coğrafiya elminin informasiya kodunun təbiəti............... 68

## İKİNCİ BÖLMƏ
### RADİKAL DİALEKTİK COĞRAFİYA
#### KONSEPTUAL ELMİ YANAŞMALARI

► **Önəm 5. Dialektik coğrafiya elminin radikal məntiqi**.................... 72
- Dialektik radikal coğrafiya elminin konstruktiv mahiyyəti............ 72
- Radikal coğrafi tədqiqatın "məkan-zaman" xronologiyası............. 75
- "Tədqiqat & dayanıqlı inkişaf"ın coğrafiya elmi məntiqi............. 78

► **Önəm 6. Radikal coğrafiyanın dialektik baxışları**.......................... 82
- Radikal coğrafiya: sivilizasiya nəzəri baxışları............................. 82

- Radikal coğrafiya elmində “zaman çoxluğu” anlayışı.................... 86
- Radikal coğrafi tədqiqatlarda yeni təkamül çağrışları.................... 88

► **Önəm 7. Radikal coğrafiya: iqtisadi-sosial inkişafın informasiya fenomeni**.............................................................................. 92
- İqtisadi-sosial inkişafının informasiya fenomeni........................... 92
- Qlobal informasiya coğrafiyasının indeksi.................................... 93
- Qlobal “coğrafi mühit-istiləşmə” informasiyası və nəticələri........ 95

► Ö**nəm 8.“Dünya-sistem”konsepsiyası və rasional elmi əsasları**.... 98
- “Dünya-sistem” konsepsyasının məntiqi....................................... 98
- “Dünya sistem”in qütbləşməsinin coğrafiyası............................... 100
- “Dünya sistem” ssenarisinin dialektik coğrafiyası......................... 103
- “Dünya sistemi”nin elmi-texniki tərəqqinin təsnifatı..................... 106


## ÜÇÜNCÜ BÖLMƏ
### DİALEKTİK İNSAN COĞRAFİYASI
#### GENETİK ANATOMİYASI, TƏKAMÜL TƏBİƏTİ


► **Önəm 9. İnsan coğrafiya elmi: təkamülü, dialektik anlamı**........... 110
- İnsan coğrafiya elminin dialektik modeli...................................... 110
- İnsan coğrafiya elminin xronologiyası.......................................... 112
- İnsan coğrafiya elminin funksional məntiqi................................... 113
- “Coğrafi mühit – insan” elmi baxışın məzmunu............................ 116

► **Önəm 10. Etnologiya elminin dialektik-genetik təbiəti**................. 121
- Etnologiya elmi mənbələrinin nəzəri təsnifatı............................... 121
- Etnik biliklərin genetik coğrafiyası............................................... 123
- Etnik irq qruplarının coğrafiyası.................................................... 127
- Dil qruplarının coğrafiyası............................................................. 129
- Dinin coğrafiyası və cərəyanları.................................................... 131
- Etnologiya və insan azadlığının təbiəti.......................................... 135

► **Önəm 11. İnsan həyat ritminin coğrafiyası**.................................... 136
- Oykumenin formalaşması və ərazilərin mənimsənilməsi............... 136
- İnsan artımın ritmik dialektik coğrafiyası...................................... 138
- Gepontologiya - ritmik inkişafının sərhədləri................................ 139
- İnsan miqrasiyasının (hərəkətin) ritmik coğrafiyası....................... 142
- İnsan fəaliyyət ritminin coğrafi mühitlə dialektik əlaqəsi.............. 144

► **Önəm 12. Qlobal dayanıqlı insan inkişafın funksional modeli**...... 147
- Dayanıqlı insan inkişafın konsepsiyası........................................... 147
- İnsan inkişafının coğrafiyası və proqramlaşması........................... 153

- "İnsan inkişaf fəaliyyət"nin qlobal çağrışları................................ 155
- Feminist coğrafiyanın funksionallığı............................................ 158

► **Önəm 13. İnsan potensialın genizisi və inkişaf mənbələri**............. 161
- İnsan potensialın çoxxətli mənbələri............................................ 161
- İnsan potensialının davamlı inkişafı............................................. 163
- İnsan potensialın funksional koordinat modeli.............................. 164
- İnsan kapitalın nəzəri baxışlarının strateji önəmi.......................... 165

► **Önəm 14. "İnsan-ətraf mühit"ə uyğunlaşma reaksiyası**............... 169
- İnsan orqanizmin ətraf mühitə uyğunlaşması................................ 169
- "İnsan-qida enerji"nin mənbələrinin coğrafiyası........................... 172


## DÖRDÜNCÜ BÖLMƏ
### DİALEKTİK FUNKSİONAL COĞRAFİYA
#### STRUKTURU, MODELLƏŞMƏ HƏSSASLIĞI


► **Önəm 15. Funksional coğrafiya elmin model həssaslığı**.................. 175
- Funksional coğrafiya: rasional məntiqi, modelləşmə elmi xətti..... 175
- Funksional strukturun klaster model həssaslığı............................. 177
- Funksional dayanıqlı inkişafının anatomiyası............................... 179
- Funksional struktur modelinin qlobal effektliyi............................ 181
- "Dünya İqtisadi Forum"un funksional strategiyası........................ 182

► **Önəm 16**. **Coğrafi-iqtisadi tədqiqatın funksional konturları**........ 186
- Coğrafi-iqtsadi tədqiqatın həssaslığı............................................ 186
- Sosial həssaslığının funksional konturları..................................... 187
- Funksional inkişafın həssaslıq kəmiyyətin parametrləri................ 188

► **Önəm 17. Həyat keyfiyyətinin funksional coğrafiyası**.................. 190
- "Həyat keyfiyyəti" anlayışının indikatorları................................. 190
- Həyat keyfiyyəti və yoxsulluğun coğrafiyası................................ 191
- Həyat keyfiyyəti və iqtisadi artım coğrafiyası............................... 193

► **Önəm 18. Dayanıqlı iqtisadi inkişafın funksional xəritəsi**............ 195
- İqtisadi inkişafın funksional xəritəsinə qısa xülasə........................ 195
- İqtisadi inkişafın qarşılıqlı asılılıq formulası................................. 198
- Geosiyasi xəritənin funksional strategiyası................................... 205

► **Önəm 19. Dialektik funksional strukturun həssaslığı**.................... 209
- Qloballaşma məntiqində funksional struktur həssaslığı................. 209
- Funksional həssaslığının dialektik anatomiyası............................ 210
- Transmilli korporasiya sistemi və funksional coğrafiyası............. 213

# BEŞİNCİ BÖLMƏ
## VİRTUAL DİALEKTİK COĞRAFİYA
### TAKTİKİ XƏRİTƏSİNİN ANATOMİYASI


► **Önəm 20. Virtual coğrafi mühütin dialektikası**............................ 217
- Virtual coğrafi mühitin dialektik məzmunu.................................. 217
- Virtual coğrafiya elmi tədqiqatın diaqnostikası............................. 218
- Virtual struktur təsnifatının coğrafiyası......................................... 221
- Virtuallaşan siyasi xəritənin anatomiyası...................................... 222

► **Önəm 21**. **Kreativ inkişafın virtual coğrafiyası**.............................. 224
- Kreativ iqtisadi inkişafın virtual coğrafi effektliyi......................... 224
- Virtual kreativ inkişaf müəyyənliyinin coğrafiyası....................... 226
- Virtual coğrafiya ilə kreativ inkişaf arasında dialektik əlaqə......... 227

► **Önəm 22. Virtual coğrafi məkan siyasəti**...................................... 229
- Virtual coğrafi məkanın siyasi dialektikası................................... 229
- Dayanıqlı sənaye ölkələrinin virtual siyasi-iqtisadi modelləri....... 231
- Virtual məkan siyasətin paradiqması............................................ 232

► **Önəm 23. Virtual coğrafiyanın monetar xəritəsi**........................... 235
- Monetar həssaslıq xəritəsinin formalaşması.................................. 235
- Qızıl-valyuta resurslarının virtual coğrafiyası............................... 237
- Virtuallaşma mühitində qızıl bazarın coğrafiyası........................... 241



## AĞAZEYNAL ALI OĞLU QURBANZADƏ

**coğrafiya elmləri doktoru, professor**

12 mart 1938-ci ildə Astara şəhərində anadan olmuşdur.

1962-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetində elmi-pedaqoji fəaliyyətə başlamışdır. Lənkəran Dövlət Universitendə "Coğrafiya və ekologiya" kafedrasını yaratmış və ona rəhbərlik etmişdir. Hazırda Azərbaycan Kooperasiya Universitetinin professorudur.

**Doktorluq dissertasiyası:** "Azərbaycan Respublikasının aqrar funksional strukturunun ərazi təşkili" (ixtisas şifri: 25.00.24-sosial – iqtisadi və siyasi coğrafiya).

**Elmi naliyyətləri:**

- aqrar strukturun nəzəri "ideal" modeli əsaslandırılmışdır;
- coğrafi konveyer metodunun potensial ideyası hazırlanmışdır;
- diversifikasiya tsiklinin dalğa metadologiyasını irəli sürülmüşdür;
- dayanıqlı inkişafın aqrar-sənaye klaster metodu təklif olunmuşdur;
- insan potensialının koordinat sistemi və dialektikası əsaslandırılmışdır.

**Monoqrafik və dərsliklərinə dair əsas elmi əsərləri:**

- Aqrar strukturun regional inkişaf modeli: iqtisadi-coğrafi konsepsiyası. Bakı, 2004. (Monoqrafiya).
- Təbiətşünaslıq (Ə.Həmzəyevlə birlikdə). Bakı, 2006. (Dərs vəsaiti).
- Ölkəşünaslıq. Bakı, 2008. (Dərslik).
- İnsanşünaslıq. Bakı, 2009. (Monoqrafiya).
- Ekologiya: sosial-iqtisadi əsasları. Bakı, 2010. (Monoqrafiya).
- Azərbaycanın kənd təsərrüfatı coğrafiyası. Bakı, 2011. (Dəslik).
- Dünya ölkələri: siyasi-iqtisadi və dialektik coğrafiyası. Bakı, 2013. (Dərs vəsaiti).
- Regionalogiya. Bakı, 2013. (Monoqrafiya).
- XXI əsr: dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Bakı, 2015. (Monoqrafiya).
- Dialektik coğrafiya. Bakı, 2017. (Monoqrafiya).

**Kadr hazırlığı:** elmlər namizədi - 2.

AMEA Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən dissertasiya müdafiə şürasının üzvüdür.

## MÜƏLLİFDƏN

Konseptal elmi mənbələrinin rasional konyuktura və dayanıqlı inkişaf konsepsiyalarına əsaslanan coğrafiya elminin metodologiyasına dair ideyaların tədqiqat sistemləri tarixən daha erkən dövrlərdən formalaşmışdır. Fəlsəfi coğrafi təfəkkürünün konseptual elmi baxışlarına əsaslan dialektik coğrafiya elminin məntiqi tədqiqat mənbələri fundamental elmlərinin reallıqlarına söykənmişdir. Rasional elmi reallıqlarının fəlsəfi dünyagörüşünün əsasında dialektik coğrafiya elminin anatomiyasına diqqət yetirilmiş və bu sahədə yeni məzmunda araşdırmalar aparılmışdır. Bu məqsədlə ümumi coğrafiya elminin fəlsəfəsində baş verən dinamik və ritmik dəyişikliklərinin məntiqində dialektik coğrafiya elmi təfəkkürünün rasional mənbələri önəmə gətirilmişdir.

Dialektik coğrafiya elminin ideyayasına uyğun olaraq, rasional coğrafi sistemlərin paradiqmalarının müəyyən edilməsi və onların proqramlaşdırılmasına üstünlük verilməsini məqsədəuyğun sayılmışdır. Son dərəcə aktiv funksional təbiətə malik olan coğrafi biliklərinin interpretasiyası və elmi biliklərin dialektikasına dair mənbələrindən istifadə olunması ilə yanaşı, müasir elmi dəyərlərinin diaqnostikasına dair müəllif tərəfindən coğrafiya elminin gələçək inkişafına aid nəzəri və metodoloji baxışları da önəmə gətirilmişdir.

Monoqrafiyanın məntiqi məqsədi coğrafiya elminin dialektik funksiyalarnı tədqiq etmək, onun təsnifat parametrlərinə aydınlıq gətirməkdən ibarətdir. Məsələnin kompleks həllinin ifadəsində virtual cəmiyyətin ərazi təşkilinin funksional mahiyyəti və dayanıqlı inkişafının coğrafiya elminin tədqiqat dəyərləri ilə izah edilmişdir. Reallıq ondan ibarətdir ki, dialektik coğrafiya elminin qarşısında düran problemləri və onun metodologiyası ümumi bəşəri elmlərinin təkamül konturlarına uyğun olaraq təhlillərinin aparılmasına səy göstərilmişdir.

Bütün bunlar monoqrafiyanın yaranmasında ümumi fəlsəfi baxışlarının reallıqları coğrafiya elminin davamlı inkişafına formula edilmişdir. Bu formulaya uyğun olaraq radikal, insan, funksional və virtual coğrafiya elmi sahələrinin dialektikasının monoqrafik təhlliləri zamanı nəzəri və metodoloji istiqamətlər tədqiqat obyektinə çevrilmişdir.

Məqsədə uyğun olaraq dialektik coğrafiya elminin konseptual anatomiyasının tədqiqat xətləri daxilində yeni məzmunda araşdırmalara və praktiki əhəmiyyətə malik ideyalara üstünlük verilməsinə səy göstərilmişdir.

Elmi mənbələrinin rasional tədqiqatlarına əsaslanaraq coğrafiya elminin qarşısında duran kompleks araşdırmalarna yeni məzmunda yanaşılmış və struktur kodlarının dayanıqlığının fərqli baxışlarına dialektik formada yanaşılmışdır.

Monoqrafiyada coğrafiya elmi təfəkkürünün formalaşmasına bir dialektik sistem kimi üstünlük verilmiş və dayanıqlı "Coğrafi mühit – cəmiyyət"in inkişafının tsiklli prosesinin xarakterik cəhətlərinin kardinal dəyişikliklərinin xronologiyasını əsas kriteriya kimi götürülmüşdür.

Monoqrafiyanın tərtibi metodikası, ənənəvi ümumi coğrafiya elmi tədqiqatlardan həm məzmun, əhatə dairəsi, həm də elmi-metodoloji cəhətdən fərqlidir. Əsas fərqlilik ondan ibarətdir ki, coğrafiya elmin "çoxölçülü" funksional məntiqinin kompleks xarakterik cəhətlərinin anatomoyası təyin olunmuş və konstruktiv dialektik-coğrafi təfəkkür mənbələrinin ehtiva etməsidir.

Dahi filosof **A.A.Mizəcanzadənin** fikri ilə desək: "Elmin inkişafı universal dialektik təfəkkür metodlarının köməyilə, hadisələr arasında bütün üzvi əlaqələr dolğunluğu ilə nəzərə almaqla baş verir".

# BİRİNCİ BÖLMƏ

## DİALEKTİK COĞRAFİYA ELMİ:
## TƏDQİQATIN RASİONAL İDRAK MƏNBƏLƏRİ

- *Dialektik coğrafiya elmi idrakın metodoloji mənbələri*
- *Dialektik coğrafiya elmi-tədqiqatın effektliyi*
- *Coğrafi-iqtisadi elmi təfəkkürün rasionallığı*
- *Dialektik coğrafiya elminin klassik nəzəri "yaddaş" kodları*

**Birinci önəm**

# Dialektik coğrafiya elmi idrakın metodoloji mənbələri

- **Dialektik coğrafiya elmi idrakın rasionallığı**

Hər bir elmi-tədqiqatın mənbəyi ilkin olaraq fəsəfi dünyagörüşə söykənərək formalaşmış və müasirləşmişdir. Ümumi fəlsəfi təfəkkürlə ifadə olunmuş elmi biliklər, sonrakı dövrlərdə müstəqil elmi sahələrinin yaranmasına səbəb olmuşdur.

Fəlsəfə elmin qanunlarına əsaslanan ümumi coğrafiya elminin idealogiyası və metodologiyası tarixi dövrləşməsi konsepsiyasına əsaslanaraq inkişaf etmiş və fundamental elmi sahəsinə çevrilmişdir.

Coğrafiya elminin fəlsəfi əsasları bir sıra komponenti ehtiva edir. Onlardan başlıca istiqamətlər bunlardır:

- fəlsəfi ideya və metodlar ilə coğrafiya elmi tədqiqatlarının reallaşdırılması;

- fəlsəfi metodologiyanın əsasında formalaşan coğrafiya elmi sonrakı dövrlərdə özünün konseptual tədqiqat sistemini yaratmışdır.

Ümumi coğrafiya elmi idrakın nəzəri-metodoloji önəminin fəlsəfi baxışlarınının əsasında dialektik coğrafiya elmi tarixi dövrləşmənin konsepsiyasına uyğun elmi təfəkkürə çevrlmişdir.

> Coğrafiya elmi təfəkkür=coğrafiya elmi ideyalarının "çoxölçülü" dialektikasının məntiqi əlaqələrinin və onun tamamlanması çərçivəsinin dərk edilməsidir.

Tarixi dövrləşmənin elmi konsepsiyasında "coğrafi məkan-zaman-cəmiyyət" oxu boyinca kardinal şəkildə dəyişilən, formalaşan coğrafiya elminin idrak formaları (nəzəri, metodoloji) xüsusi önəm daşımışdır. Bu önəmdə əlahiddə yer tutan və elmin məntiqi mahiyyətinin dərk edilməsinin anlamında dialektik təvəkkürə əsaslanan coğrafiya elminin mühüm rasional idraka malik olması ilə təbiət elmlərinin konseptual baxışlarından fərqlənir.

Coğrafiya elmi ədəbiyyatlarda metakartoqrafiya, riyazi coğrafiya, nəzəri coğrafiya, tarixi coğrafiya və s. “məhsuldar” coğrafiya elmi sistemlərinin problemlərinə dair geniş miqyasda təhlilləri əsaslandırılmışdır.

Fəlsəfi düşüncə tərzində ilkin coğrafiya elmi təfəkkür: abstrakt, müşahidə və qismən nəzəri elementlərindən ibarət olmuşdur. Sonrakı tarixi-elmi təkamül dövrlərində özünün hərfi mənasından kənara çıxaraq[1] real məntiqi-nəzəri və eksperiment metodlara əsaslanan konstruktiv müstəqil ümumi coğrafiya elminin tədqiqat təfəkkürü ilə əvəz olunmuşdur.

Bu məsələyə aydınlıq gətirməzdən əvvəl metod və metodologiya anlayışının funksiyalarına münasibət bildirək. Konseptual araşdırmalar, elmi-praktiki yanaşmalarının nəticələrinə əsasən metod və metodologiya arasında müəyyən funksional dialektik “təbiət” mövcuddur. Bu funksional dialektik “təbiət” fonunda coğrafiya elmi təfəkkürün rasional[2] metod və metodoloji tədqiqatın idealogiyası formalaşmışdır.

Elmi mənbələrin idrak funksiyalarına əsaslan rasional metod anlayışının elmi aparatının məzmununda geniş mənada yanaşmalar, ideyalar filosoflar tərəfindən önəmə gətirilmişdir [3].

**<u>Metod anlayışının məzmunu və təbiəti</u>**

▼

► *ABŞ filosofu **M.Kohenin** tədqiqatlarında belə bir nəticəyə gəlmişdir ki, “metod-rasional qaydanın və ya hər hansı sistemli yanaşmanın predmetə tədbiq edilməsi üsuludur”.*[4]

► *Fransız filiosofu **R.Dekartın** metod etimoloji ynaşmasına münasib bildirərək göstərir ki, “metod – dedikdə elə dəqiq və sadə qaydaları nəzərdə tuturam ki, bunların tətbiqi biliyi tədricən və ritmik olaraq zəkanın yalnız özünə aid olan həqiqi idraka nail olmasına imkan yaradır”.*[5]

► *Alman filosofu **F.Engels** “Təbiətin dialektikası” əsərində qeyd edir ki gerçəkliyin analoqu olmaq etibarilə dialektika eyni zamanda təbiət və cəmiyyətdəki inkişafı və ən ümumi əlaqələrini izah etmək metodudur.*

Fikrimizcə, “metod: tədqiqat gerçəkliyinin dərk edilməsi və nəzəri- praktiki məqsədə çatmaq üçün istifadə olunan dayanıqlı və rasional elmi təfəkkürün dialektik reallığını ehtiva edir”.

---

[1] Elmi mənbələrdə -“coğrafiya” sözünün məna obyekti “yer səthi” kimi qəbul olunmuşdur.
[2] Rasional-elmi təfəkkürün ən mühüm halı kimi qəbul edilir.
[3] Məmmədov Ə.B. Elmi idrak və onun inkişaf dialektikası. Bakı, 1998.
[4] Диалектика и логика. М., 2004.
[5] Декарт Р. Избранные произведения. М., 1958.

Elmi mənbələrdə “metod” anlayışı ilə yanaşı “metodologiya” ifadəsindən də geniş istifadə edilir. “Fəlsəfə ensiklopediyası”nda metodologiya anlayışı gerçəkliyin dərki və dəyişdirilməsi metodları haqqında təlim kimi təyin olunur. Həm də bu hal konkret elmi tədqiqatın metod və üsulları kimi nəzərdə tutulur. V.Ştoff qeyd edir ki, biz “metodologiyanı metod haqqında təlim və ya metod nəzəriyyəsi kimi təyin edə bilərik”.[6]

Bolqar filosovları Q.Kirkinov və M.Yankov göstərirlər ki: “metodologiya-metodlar haqqında təlimdir, nəzəriyyədir. Metodologiya metodları əhatə etmir, onları özünün tədqiqat predmetinə çevirir”.[7]

Coğrafiya elmi idrakın formalaşmasında metod və metodologiya[8] baxışlarının nəzəri-praktiki tətbiqində mövqeyi və dərk edilməsinin ümumi formaları mövcuddur. Coğrafiya elminin metodoloji sistemi nəzəri-praktiki baxımdan interpretasiyasını ehtiva edən tədqiqatlara söykənməlidir. Məntiqi olaraq dialektik idrak metodologiyasının sisteminə söykənən coğrafiya elminin tədqiqat mənbələrinin praktikası fundamental və strateji məzmuna çevrililməsinə səbəb olur.

Sistem (yun. “təşkil edilmiş”) -vahidliyə doğru dialektik əsaslarla bir-biri ilə bağlı strukturların kompleksliyidir. Bu səbəbdən də sistem mühitin daxilində müəyyən “məkan-zaman”dialektikasında struktur modellərinin kompleks birliyi durur.

Coğrafiya elminin nəzəri baxışlarının dərk edilməsi və praktiki gerçəkliyə çevrilməsi prosesində Qərb ölkələrinin, xüsusən ABŞ-ın Vaşinqton universitetinin elmi məktəbinin rolu və dəyərləri mühüm əhəmiyyət kəsb etmişdir. Elmi məktəbinin görkəmli tədqiqatçılarından sayılan Edvard Ulman ABŞ-da ilk dəfə olaraq coğrafiyanın riyazi sistemlərinə dair elmi məktəb yaratmışdır. Vaşinqton Universitetində coğrafiya elminin məhşur simalarılardan sayılan - V.Bunqe, A.Qettner, P.Xartşorn və b. geniş məzmunda tədqiqatlar aparmışlar. Aparılan tədqiqatlarının ideya mənbələrinin əsasında coğrafiya elminin fundamental, müstəqil bir elm kimi nəzəri-metodoloji anatomiyasına dair monoqrafik əsərlərinin yaradılmasında mühüm rol oynamışdır.

Coğrafiya elmi fəlsəfəsinin dünyagörüşü və metodologiyasının əsaslarına söykənən müxtəlif fundamental monoqrafik istiqamətli əsərlərinin **elmi ideyaları** əsasında formalaşmış və müasirləşmişdir.

Coğrafiya elmi metodologiyasıun ümumi əsaslarını tədbiqi xarakerli-sistemli, dayanıqlı tədqiqatlarını təmin edir. Bu təminat konstruktiv-praktiki ma-

[6] Штофф В.А. Моделирование и философия. М., 1972.
[7] Введение в философию. М., 2003.
[8] **Metodologiya**- tədqiqatçının idrak təlimində əldə etdiyi ümumi nəzəri-praktiki mənbəyidir.

teriallarının dialektikasının tələblərinə uyğun olaraq coğrafiya elminin metodologiyasının tərəfindən “aktivləşdirlmişdir”. Bu aktivləşmə sonrakı coğrafi tədqiqatların “nəzəri-metodoloji-praktika” sisteminin formalaşması ilə yanaşı, coğrafiya elmi təfəkkürünün dialektikasında yeni məzmuna çevrilməsinə səbəb olmuşdur. Coğrafiya elmin müxtəlif sahələrində aparılan fundamental tədqiqatlarının əksəriyyətində “aktivləşmə”müxtəlif tipli (təsnifatlı) coğrafi struktur sistemlərinin (sahələrinin) ərazi təşkilinin metodologiyası ilə əlaqələndirilməsi problemləri aşağıdakı məzmunda ifadə olunmuşdur.




Elmlərin konstruksiyasının tələblərinin çərçivəsində coğrafiya elmi tədqiqatlarda məntiqi-nəzəri (xüsusən məntiqi-riyazi) metodlarından konstruktiv istifadə edilməsinə üstünlük verilir.[9] Məsələ ondan ibarətdir ki, bu metodların praktiktikası - elmi idrakda, empirik və nəzəri səviyyələrində potensial funksional nəticələrə gəlmək mümkünlüyünün ideyaları meydana gəlmişdir. Bu funksional nəticələr coğrafiya elmi fəlsəfəsində məkan obyektlər arasında “reaksiyası”nı məntiqi-riyazi metodlar ilə tamamlayır, tədbiqi xarakterli strukturların kompleksinin dayanıqlı formalarını müəyyən edir. İlkin olaraq coğrafiya elmi yanaşmalarının dialektikasında dayanıqlı inkişaf formalarının coğrafi mühitlə “reaksiyaya”nın əsasında ərazi sistemlərinin tədqiqat prosesinə çevrilməsini aktivləşdirmişdir.

Müasir coğrafiya elmi idrakın praktikası göstərir ki, obyektiv ərazi sistem strukturlarların əlaqələndirilməsinin vəhdətinin prinsiplərinin üzərində qurulmuş coğrafi tədqiqatının əsasında daha çevik elmi nəticələrə gəlmək mümkündür. Bu səbəbdən də, ümumi coğrafiya elminin differensiyası nəticəsində tam bir sıra müstəqil coğrafiya elmlər sistemi yaranmışdır (Radikal coğrafiya, Siyasi coğrafiya, İnsan coğrafiyası, Regional coğrafiya, Təkamül coğrafiya və s.).

[9] Бунге В. Теоретическая география. М.,1967.

Müstəqil coğrafiya elmlər sisteminin metodologiyası ümumi elmi idrakın rasional və qeyri-rasional[10] tədqiqat mənbələrinin məzmununa söykənməklə obyektiv metodoloji prinsiplərinin və proseslərinin mənimsənilməsi mümkündür.

Dialektik elmi idrakın rasionallıq və qeyri - rasionallıq fonunda coğrafiya elminin metodoloji istiqamətlərində yeni tədqiqat formalarının yaranmasına və dinamik inkişafına səbəb olmuşdur.

| |
|---|
| Coğrafiya elmi məntiqi = coğrafi proseslərə rasional və qeyri - rasional formaları ilə yanaşı, həm də dialektik məzmun baxımından mənimsənilir. |

Bu səbəbdən də rasionallıq və qeyri - rasionallıq idrak metodologiyasının anatomiyasında coğrafiya elminin tədqiqat obyektinin dinamik sisteminin nəzəri-metodoloji yollarını müəyyən edən effektli nəzəri əsası və elmi dəyəridir. Rasionallıq və qeyri - rasionalıq idrak prosesinin coğrafi tədqiqatlarda özünəməxsus xarakterləri olan sahələrdir. Rasionallıq anlayışı coğrafiya elmin inkişafının konkret bir nisbi həqiqi metodlarını, qanunauyğunluqlarını, nəzəri baxışılarını və s. tədqiqatlarda tapan məntiqi bilik kimi fəaliyyət göstərir.

Ümumiləşdirilmiş nəticələrə əsasən - elmi baxımdan qeyri - rasionallıq: qəbul edilmiş nəzəri - metodoloji baxışların işlənməsi ilə bağlı olmayan nəzəri-metodologi baxışlarının aradan götürülməsinə və onların yeni elmi baxışlarla əvəz edilməsinə imkan verən fəaliyyət kimi qəbul edilir.[11]

Müasir coğrafiya elminin fəlsəfəsinin tələbinə uyğun olaraq, cəmiyyətin dayanıqlığını əhatə edən coğrafi mühitin inkişafı dialektikasına, onun keyfiyyət dəyişmələrinə kompleks yanaşmaq və dialektik məntqlə bu kompleksi idarəetməkdən ibarətdir:

- *cəmiyyətin dayanıqlığının fəlsəfəsinin coğrafiyası tarixi tsiklli fonunda gerçəkləşmişdir;*
- *coğrafi mühitin dərk edilməsi insan təfəkkürü ilə üzvi surətdə bağlı olub, cəmiyyətin hərəkətverici qüvvəsinin tərkib hissəsinə daxildir;*
- *coğrafi mühitin keyfiyyətcə kompleks dəyişilməsi ilkin olaraq dialektik qanunlarla ifadə olunur.*

---

[10] *Rasionallıq = "elmi təfəkkür"ün ən mühüm halıdır (empirik yoxlanma,hadsələrə təniqidi yanaşma,məzmunlu olmaq,ideyanın praktikada təsdiqləmə və s.).Rasional fəaliyyət: baxılnan konkret problemin məqsədinə doğru aparan metodoloji yanaşma kimi qəbul edilir.*
*Qeyri-rasionallıq = insanın şüur və iradəsindən asılı olmayan biososial qanunauyğunluqlar əsasında baş verir.*

[11] Məmmədov Ə.B., İsmayılov V.İ., Məmmədov F.Ə. Rasionallıq və qeyri-rasionallıq: fəlsəfi-metodoloji kontekst. Bakı, 2010.

Coğrafi mühitin dialektik qanunlarla tədqiqat xətləri daxilində formalaşan rasional metodoloji kompleks yanaşmaların təhlilləri coğrafiya elminin əsas ideya mənbələri hesab edilir. Bu məqsədlə konstruktuv elmi ideyalarının reallaşdırılması, konkret elmi-praktiki cəhətdən təhlillərə üstünlük verilməsi dialektik coğrafiya elminin mühün tədqiqat sahələrindən biridir.

- **Dialektik coğrafiya elminin ideya mənbələri**

Təbiətşünaslıq elminin fəlsəfi düşüncə tərzinə dair aparılan araşdırmalarının nəticələri göstərir ki, elmi tədqiqatlarının çərçivəsinin müəyyən edilməsində və kompleks inkişafında müxtəlif metodoloji yanaşma və çağrışlar bütün dövrlər üçün xarakterik olmuşdur.[12] Məntiqi olaraq, tarixən filosoflar təbiətşünaslığın ümumi nəzəri elmi metodologiyasına üstünlük vermişlər.[13]

Sonrakı dövrlərdə isə coğrafiya elminin inkişafı ilə əlaqədar olaraq daha konstruktiv dialektik ideyalarla aktivləşdirilmişini klassik filosoflar (coğraflar) tərəfindən önəmə gətirilmişdir. Coğrafiya elminin statusu = təbiətşünaslığın çoxfunksional metodoloji mənbələrinin üzərində qurulmuşdur = "coğrafi məkan-dialektik funksional əlaqələr"ini özündə birləşdirən ideyalarının önəmində müstəqil elm sahəsinə çevrilmişdir.

Təbiətşünaslıq elminin fəlsəfi-coğrafi bilik mənbələrini əsasən beş təsnifatla xarakterizə etmək mümkündür.

1. Antik dövrün fəlsəfi-coğrafi biliklərin mənbələri. Bu mərhələdə təbiətşünaslığın fəlsəfi-coğrafi bilikləri emossional-psixoloji, ontoloji ("ontos" – varlıq, "loqos" – təlim deməkdir) və s. təfəkkürü üzərində qurulmuşdur.
2. Orta əsrlərdə təbiətşünaslığın mexaniki-metofiziki qanunlarının əsasında fəlsəfi düşüncə mənbələrinin əsasında coğrafi biliklərinin mənimsənilməsi.
3. "Coğrafi mühit – cəmiyyət"in fəlsəfəsinin öyrənilməsində coğrafiya elmi təfəkkürünün yeniləşməsi və coğrafi biliklərinin tətbiqinə doğru ideyalarının (XVIII əsrin axırı) meydana gəlməsinin mənbələri.
4. Radikal coğrafiya elminin nəzəri mənbələrinin əsasında "coğrafiya elmi" məktəblərinin yaranması mərhələsi (XIX-XX əsrin əvvəlləri).
5. Tətbiqi və rasional coğrafiya elminin tamlığının yaranmasında konstruktiv metodoloji mənbələrinə əsaslanan problemlərinin sistemləşdirilməsi mərhələləri (XX əsrin axırı-müasir dövr).

---
[12] Chisholm M.F. General. Systems Teory and Geography. Trans. I. B. G., 43.1999.
[13] Xəlilov S. Elm haqqında elm. Bakı, 2011.

Coğrafiya elm sahəsinin "müstəqiliyin" formalaşmasında mütəffəkir filosoflarının tarixi dövrlər ərzində apardıqları tədqiqatları, ideyaları və dəyərli konsepsiyalarınnın praktikasının təsirinə məruz qalmış və müasirləşmişdir.

Azərbaycan fəlsəfi məktəbinin banisi sayılan Əbülhəsən Bəhmənyar Azərbaycani Şərq dünyasının mütəfəkkir şəxsiyyətlərindən sayılır. İbn Sinanın şagirdi olan Ə.Bəhmənyar yaşının erkən vaxtlarından başlaraq fəlsəfi düşüncə tərzi ilə fərqlənmişdir. Fəlsəfi düşüncə tarixində yeni bir idrak formalarınının dialektikasını yaratmışdır[14].

**Əbülhəsən Bəhmənyar: Azərbaycan**
X əsrin axırında yaşamış, İbn Sina məktəbinin davamçısı, Şərqin dahi filosflarından sayılır. Onun "Təhsil" adlı fəlsəfi əsəri dünya şöhrətinə malikdir.



Ə.Bəhəmənyarın fəlsəfəsinə görə:
- "hərəkət düzxətli və dairəvi xarakterə malikdir";
- "tərkibi qəbul edən cismlər - məcburu düzxətli hərəkəti qəbul edir";
- "hərəkət edən cisim hərəkətin mövcudluğu ilə birlikdə labüddür";
- "göy cisimlərinə məxsus dairəvi hərəkət təbiətən hərəkətin ilkinidir, fasiləsizdir, əbədidir" və s.

XII əsrin dahi Azərbaycan mütəfəkkiri N.Tusi və onun elmi məktəbinin sahibləri tərəfindən aparılan tədqiqatlar şərq və qərb elmi bilik mədəniyyətinin formalaşmasına, fəlsəfi təkamül elmi formalarının yaranmasına təsir göstərmiş və geniş miqyasda qəbul olmuşdur.

Coğrafiya elmi təfəkkürünün fəlsəfəsində N.Tusi yaradıcılığının məntiqi, riyazi önəmləri, astronomiya və eləcə də təbiətşünaslığına daır rasional yanaşmaları bütün dövrlər üçün metodoloji mənbə hesab edilmişdir.



**Nəsirəddin Tusi**.*Ensiklopedik mütəfəkkürə malik filosof.* Riyaziyyat, astronomiya, tarix, coğrafiya, mineralogiya, iqtisadiyyat və s. elmlərə dair çox saylı əsərləri dünya şöhrətinə malikdir. Mütəfəkkirin məzarı üzərində bu sözlər hək olunmuşdur: "Elmin köməkçisi, elm ölkəsinin şahı. Dövlətin anası belə oğul hələ doğmamışdır".

[14] Z.Məmmədov. Bəhmənyarın fəlsəfəsi. Bakı, 1983.

Mənbələrə əsasən, 1266-ci ildə Mağara rəsədxanasında N.Tusi ilə birlikdə elmi fəaliyyət göstərən azərbaycanlı mühəndis Ə.Səlmasın tərəfindən yaradılan qlobusda (qlobusa bənzər) yer kürəsinin meridian və iqlimlərinin riyazi formuluna dair təsfirləri verilmişdir.[15]

Dünyanın dərk edilməsində N.Tusi məktəbinin mühüm elmi-idealoji mövqeyi olmuşdur. K.Kolumdan qabaq Qərb yarımkürəsində sonralar Amerika adlandırılmış materikin varlığına dair N.Tusinin rəhbərliyi ilə Mağara elmi məktəbinin alimlərinin tərəfində hazırlanmış yer kürəsinin müəyyən coğrafi koordinatları üzrə riyazi hesablamalarında əsaslandırılmışına dair mənbələr mövcuddur[16].

Şərq ölkələrindəki təbiətşünaslığın fəlsəfi dünyagörüşünün əsaslarına söykənən və dinamik gerçəkliyinin məntiqinə uyğun olaraq, sonralar qərb ölkələrinin elmi mərkəzlərində müxtəlif istiqamətli konstruktiv, yeni məzmunlu nəzəri-metodoloji modellərinin əsasında tədqiqatlar aparılmışdır.

Orta əsrin dahi ərəb filosofu İbn Xəldun araşdırmalarında coğrafi mühitin insan orqanizminə, əxlaqi keyfiyyətlərinə təsirinə dair təfəkkürləri Şərq və Qərb elmi məktəblərinin proqram mənbəyi olmuş, filosoflar tərəfindən əsaslandırılmış və mənbə kimi istifadə etdirilmişdir.[17]



**İbn Xəldun**: *XIV əsrin ərəb filosofu.*
Çağdaş tarixin, sosialogiya, iqtisadiyyat, siyasət, coğrafiya və s. elmi təfəkkürünün formalaşmasında xidmətləri böyükdür. İngilis tarixçisi A.C.Toynbi onun haqqında belə bir fikir söyləmişdir: "Hər hansı bir zamanda, hər hansı bir ölkədə, hər hansı bir beyin tərəfindən yaradılmış ən böyük tarix fəlsəfəsinin sahibi".

İbn Xəldunun fəlsəfi ideyaları Avropa elmi məktəblərində konseptual problemlərlə məşğul olan mütəfəkkürlərin (o cümlədən, coğrafiya elmi üzrə) J.Bodern, Ş.Montesky, E.Reklyu, F.Ratsel və b.), alimlərinin maraq dairəsinə daxil olmuş və onların məntiqi ideya tədqiqatlarına təsir göstərmişdir.

Q.Qaliley tərəfindən müasir eksperimental-nəzəri təbiətşünaslıq modelin (*klassik coğrafiya elmi baxışların - A.Q.*) dünyagörüşünün fəlsəfəsini (hərəkə-

[15] Qərb mənbələrdə ilk qlobus alman M.Böhaymin (1459-1507) tərəfindən hazırlanması qeyd olunur.
[16] Eyvazov F. Nəsirəddin Tusi. Bakı,1980. Əkbərli F. Nəsirəddin Tusinin təkamül görüşləri. Bakı, 2000.
[17] Ümid Həsən. İbn Xəldunun metodu və siyasi nəzəriyyəsi. Ankara, 2010.

tin nisbilik prinsipini, ətalət ideyasını, cisimlərin sərbəst düşməsi qanunun formulasını) yaratmışdır.

**Qalileo Qaliley:** *italyan filisofu, fiziki, astronomu.* İlk dəfə göy cismlərini müşahidə edən teleskopu kəşf etmişdir. Eksperimental fizika elminin banisi hesab edilir.



Q.Qalileyin təfəkkür məntiqinə əsasən = zəkanın iştirakı olmadan yalnız idrakı hisslərlə təbiətin həqiqi dərkinə nail olmaq mümkün deyil = ifadəsi elm xadimləri tərəfindən dəyərləndirilmişdir. A.Eynşteyn göstərir ki, "…Qalileyin kəşfləri bizi öyrədir ki, bilavasitə müşahidəyə əsaslanan intuitiv nəticələrə heç də həmişə inanmaq olmaz..."[18]

Klassik təbiətşünaslığın dialektik inkişafında İ.Nyutonun "Natural fəlsəfənin riyazi prinsipləri" adlı kitabında və digər əsərlərində ümumdünya cazibə qanunun düsturunu vermiş, Yerin, Ayın, planetlərin hərəkətinin qeyri-bərabərliyi, dəniz qabarmaları, çəkinmələri və s. məsələlərini formula etmişdir.

İ.Nyutonun nəzəri baxışları praktiki olaraq coğrafiya elminin dinamikası və inkişafı üçün stimul olmuşdur. Nyutonun təbiət fəlsəfəsi = xüsusən coğrafiya elminin dialektik inkişafı mərhələsi üçün müsbət rol oynamış = bir çox coğrafi hadisələri mifoloji və sxolastik fikirlərdən azad edərək onların elmi dərkinin istiqamətlərini müəyyən etmək üçün ideya proqramı kimi mənbələrinin, təhlilinin imkanlarını yaratmışdır.

Coğrafiya elmi təfəkkürün formalaşmasında Ç.Layel, J.Lamak və başqa tədqiqatçılarının xidmətlərini qeyd etmək olar.Ç.Layel (ingilis geoloqu) Yer səthinin sabit geoloji faktorların təsirilə tədricən və arasıkəsilmədən dəyişməsi təliminin banisi hesab edilir. J.Lamak (fransız bioloqu) üzvi aləmin təkamülünün konsepsiyasını irəli sürmüş və bunula elm tarixində sistemli təkamül ideyasının rasional məntiqinə yeni məzmun vermişdir.

XIX əsrin ilkin mərhələsində A.Eynşteynin nisbilik nəzərəriyyəsinin yaranması "məkan-zaman" modelinin önəmində yeni, konstruktiv ideya mənbələrinin formalaşmasına stimul verdi. A.Eynşteynin məntiqi ondan ibarət olmuşdur ki, məkan və zaman mütləq deyil, materiya, hərəkət bir-birilə üzvi və qarşılıqlı sisteminin bağlılığından ibarətdir. Bu o deməkdir ki, məkan və zamanın bir-birilə, digər tərəfdən hərəkət və maddi kütlələrinin paylanması ilə müəyyən nisbətdə əlaqələr mövcuddur.

[18] Эйнштейн А. Физика и реальность. М.,1965.

Məntiqi olaraq, XIX əsrin ortalarından başlayaraq coğrafiyaşünaslıqda yeni bir yanaşma (*dialekktik təbiətşünaslıqda olduğu kimi - A.Q.*) = dialektik elmi dəyərlərinə, prinsiplərinə konstruktiv formada təhlillərinə üstünlük verilməsidir:

- *coğrafiya elminin inkişafında fəlsəfi düşüncə reallıqlarının qəbul edilməsi və inkişaf tərzinin artması. Məhşur danimarkalı alimi Nils Borun*[19] *fikri desək, elmin fəlsəfi tərəfi onu xüsusi nəticələrdən (o cümlədən coğrafi tədqiqatları - A.Q.) daha çox maraqlandırmışdır;*
- *coğrafiya elm araşdırmalarında fəlsəfi ideyalar - təbii mühitin potensial vəhdəti, insanın coğrafi mühitlə dialektikası,coğrafi obyektlərin və onun idrakı prinsipləri arasında kompleks əlaqələrinin davamlığı və s. məsələlərinin önəmə gətirilməsi;*
- *coğrafiya elmi dinamik informasiyası miqyasında riyazi-statistik metodlarının tədbiqinin mühüm əhəmiyyət kəsb etməsi;*
- *coğrafi elmi nəzəri ideyaların yaradılması mexanizmi haqqında düşüncə tərzinin dəyişilməsi və s.*

Coğrafiya elmi təfəkkür, onun dinamik varlığı ilkin olaraq elmi mənbə kimi emprik-nəzəri reallığa söykənminşdir. Bu səbəbdən də empirik davamlı reallıqlarının nəticəsində coğrafiya elminin nəzəri baxışlarında yeni məzmunlu formalarının yaranmasına səbəb olmuşdur. Sonrakı mərhələlərdə rasional idrak çağrışlarına söykənən coğrafiya elmi təfəkküründə "məkan-zaman" idealogiyası önəmə gətirilmiş və alternativ coğrafi obyektlərinin konstruktiv-yaradıcı məsələlərinin önəmində aparılan tədqiqatlara üstünlük verilmişdir. Bu üstünlük "abstrak yanaşmadan - konstruktiv yanaşmaya" doğru coğrafiya elminin nəzəri və metodoloji inkişafında radikal elmi ideyaları önəmli olmuşdur. Bununla yanaşı qərb coğrafiya elmi məktəblərində daha çox konstruktiv – praktiki məsələlərinə yönəldilən araşdırmalar problematik yaradıçılıq sferasına çevrilməsinə səbəb olmuşdur.

Qərb elmi məktəblərində (ABŞ-Kanada-Böyük Britaniya, Almaniya-Fransa-Avstriya və s.) idrakın rasional gerçəkliyində coğrafiya elminin problematik məsələlərinin, o cümlədən, müəyyən sosial coğrafi araşdırmalara meyilli "mütləq və mütləq deyil" ideyalarına üstünlük veilirdi (əsasən subyektiv – intersubyektiv baxışlara).

Tədqiqat mənbələrinin reallıq müstəvisinin əsasını araşdırarkən = elmi düşüncə fəlsəfəsinin reallıqlarını, onun "mütləq neytral deyil və ya mütləq həqi-

[19] Бор Н. Избранные научные труды. Т. 2. М., 1971.

qət deyil” miqyasına dair metodoloji təliminin hansı yol ilə aparılmasına dair coğrafiya elminin metodikasının arasında fərqli münasibətlərinin yaranmasına səbəb olmuşdur. [20]

Ümumiyyətlə, coğrafiya elminin fəlsəfəsi ilə məşğul olan tədqiatçılarin fəaliyyət dairəsində “coğrafi məkan-cəmiyyət” formulasının konstruktiv hallarının xarakterləri diqqət mərkəzində olmuşdur. Bu səbəbdən də Qərb universitetlərinin nəzdində fəaliyyət göstərən elmi-nəzəri coğrafi tədqiqatlar yeni innovasiya və rasional məzmunlu olub, akademik təhlillər üzərində qurulması ilə fərqlənirdi[21].

Avropada baş verən elmi revalyusiyasının nəzəri-metodoloji baxışlarının formalaşmasına uyğun olaraq faundamental elmlərlə yanaşı, coğrafiya elminin yeni istiqamətləri önəmə gətirilımiş və sonrakı dövrlərdə isə praktiki məzmunlu coğrafi elmi tədqiqat şəbəkələrinin yaranmasına səbəb olmuşdur.[22]

Coğrafiya elminin “yaradıcılıq” baxışlarının tədiqatçısı F.Ratsel [23] Berlin univesitetində coğrafiya elmi kafedrasının yaradıcılarından sayılır. F.Ratsel və onun əməkdaşları tərəfindən yaradılan və inkişf etdirilən **elmi məktəbin** (**E**) əsas önəmli tədqiqat ideyları məntiqi olaraq aşağıdakı kimidir:




* **G** = *orginallıq (yenilikli) - coğrafi elmi yeniliklərin praktiki tədbiqinə yönəldilən tədqiqatlarının aparılması və konseptual ideyalarının önəmə gətirilməsidir.*

* **R** = *kollegial formiyasıya mənbələrinə əsasən coğrafi tədqiqatlarının aparılması və praktikı istifadə edilməsinin kompleksliyinin əsaslandırılmasıdır.*



**F.Ratsel**:
Antropologiya, geosiyasi, coğrafi diffuziya və s. problemlərinə dair tədqiqatlar aparmışdır. İnsanın inkişaf kondekstində coğrafi məkan konsepsiyasının əsasını qoyan tədqiqatçılarından sayılır.

[20] Modellinq in geography. New York. 2002.
[21] Progress in Geography. London: Edward Arnold. 2001.
[22] W.K. Davies. The conceptual revolution in geography. London. 1972.
[23] Ф.Ратцель. Земля и жизнь. Т.1-2,СПб,1903-1904. Политическая география. СПб.1897.

Geosiyasət və coğrafi determinizm ideyalarının meydana gəlməsində Alman coğrafiya elmi məktəbinin, xüsusən F.Ratselin xidmətləri çox böyükdür. Coğrafi determinizmə görə, ölkələrin yerləşdiyi ərazinin coğrafi mövqeyi və təbii şəraiti mühüm rol oynayır.

Coğrafi determinizm cərəyanı, geosiyasi mənada götürülən "məkan" = fiziki "məkan" anlayışının sinomini kimi qəbul olunmur. Lakin coğrafi determinzm mövqeyindən "geosiyasi məkan" anlayışı dövlətin (regionun) virtual yanaşmalar sistemində üstün cəhətlərini əhatə edir. F.Ratsel tərəfindən irəli sürülən determinzm önəmli tədqiqatlarında ABŞ və Almaniyanın kontenental dövlətlər kimi gələcəyini müəyyən etməyə dair fikirləri üstünlük təşkil edirdi.

> Coğrafi determinizm ideyasında bir mütləqlik, radikallıq və öz iradəsini başqa ölkələrinə qəbul etdirmək meyli özünü göstərir.

F.Ratsel ingilis təbiətşünası Ç.Darvinin təkamül nəzəriyyəsinin sosial-siyasi sahəyə reduksiyasını əsas götürərək insanları və cəmiyyəti coğrafi mühitə tam uyğunlaşmalı olan varlıqlar kimi qəbul edirdi. F.Ratselin geosiyasi baxışlarında: dövlətlər və xalqlar arasında fərqləri də bu bölgü əsasında müəyyən etməyi tələb edilirdi. Dövlət və xalqların geosiyasi əhəmiyyəti bu prinsip əsasında, yəni birinci və ikinci dərəcəli dövlətlər bölgüsünün ayrılması kimi çağrışlarının yaranmasına səbəb olurdu.

Coğrafiya elminin fomalaşmasında radikal coğrafiya istiqamətli elmi məktəbinin mühüm yeri və mövqeyi olmuşdur. Bu məktəbin tərəfdarlarından sayılan U.Bunqenin tədqiqatlarının rolu və əhəmiyyəti çox böyükdür. Bunqe tərəfindən irəli sürülmüş "məkan təhlili" konsepsiyasının və "kəmiyyət" təhlilləri əsasında "Nəzəri coğrafiya" (1962-ci ildə) monoqrafiyasında geniş mənada araşdırmalar yerinə yetirilmişdir. Bu əsərdə U.Bunqenin məntiqi araşdırmasında ilkin olaraq nəzəri coğrafiya elminin tərkibində = sosial həyat tərzinə nəzəri-idealoji problemlərinin, riyazi-statistik, təhlilinin metakartoqrafik mövqe nümayiş etdirilməsinin məntiqi durur.

T.Haqerctrand (İsveç coğrafı) "İnnovasiya məkan diffuziyası" nəzəriyyəsini yaratmış və konstruktiv coğrafiya elminin yeni məzmunlu mənbələrinin konturlarının araşdırmalarını aparmışdır. Onun (1967-ci il) "İnnovasiya diffuziya-coğrafi proses kimi" adlı tədqiqat əsərində "coğrafi zaman" (Time-Geographu) ideyası Avropa elmi dairələrində qəbul olunmuş və istifadə edilməsi üçün əsas mənbə kimi coğrafiya elmində tətbiq olunmuşdur. Praktiki olaraq bu ideyadan İsveç ölkəsində elmi əsaslarla sosial coğrafiya şəbəkələrinin ərazi təşkili və idarəedilməsində kompleks formada tədbiqi daha çox səmərə vermişdir.

İngilis coğrafiya elmi məktəbinin yaradanlardan sayılan P.Xaqqet (Peter Haqqet) tədqiqatlarında "Məkan təhlilləri" nəzəri baxışlarına yeni prizmadan

yanaşmış və bu da coğrafiya elmi biliklərinin, təhlillərinin aparılmasına, praktikasına önəm yaratmışdır. Onun “Coğrafiya: müasir elmi biliklər” (1972-ci il) adlı sanballı monoqrafik tədqiqat işi coğrafiya elminin davamlı və kompleks inkişafında mühüm rasional idrak mənbəyi hesab edilir. P.Xaqqet həmçinin bir çox coğrafiya elmi istiqamətlərinə, o cümlədən tibbi coğrafiya elminin aktual məsələlərinə aid araşdırmaları da dəyərli hesab edilir.



**R.Xaqqet**:
Coğrafiya elmində “qovşaq rayon” şəbəkəsinin model paradiqma təliminin əsasını qoyan tədqiqatçıların sıralarındadır. Tədqiqatlarının kompleks nəticələri “Ümumi coğrafiya” elminin konstruktiv inkişaında əsas metodoloji mənbə kimi dəyərləndirilir.

Coğrafiya elmi istiqamətlərinin xarakterinə əsasən ABŞ tədqiqatçısı Riçard Hartşorn (“The Nature of Geography:a Critical Sarvey of Current Thought in the Light of the Past”) adlı monoqrafiyasında coğrafiya elmi sistemi üçün yeni məzmunda ideyalar təklif etmişdir. Onun ideya məqsədi ondan ibarət olmuşdur ki, coğrafiya elminin əsas fokus nöqtəsi = ərazinin potensial differensiyasının = müstəvisinin optimallıq dərəcəsinin təyini və praktikası ilə əlaqələndirilməsidir.



**Riçard Hartşorn:**
Coğrafiya elminin xorologiyasının formalaşmasına səy göstərmişdir. Əsas məqsədi vahid coğrafiya elminin yaradılması olmuşdur. Coğrafiya elmi tədqiqatlarında analitik metoduna üstünlük vermişdir.

R.Hartşorn “coğrafi məkan” anlayışına yeni prizmadan yanaşmış və oz sələflərindən fərqli olaraq coğrafiya elminin praktikasına, natural coğrafiya elmi[24] baxışlarına üstünlük verməsi ilə fərqlənmişdir. Onun siyasi coğrafiya elmi yanaşmaları və ideya istiqamətləri ümumi coğrafiya elminin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Aparılan araşdırmalar şəbəkəsində morfoloji sistem paradiqmasında Corli (Chorley)[25] və Kennedi (Kennedy) [26] tərəfindən statisatik təliminin metodiki

[24] R.Hartshome. Pecspective on the nature of geograpu. Chicago: Rand McNally.1959.
[25] Chorley R.J. Directions in geography. London.1973.
[26] Kennedy B.A. Physical geography:a systems approach. London.1976.

anlayışlarının əhali və yaşayış məntəqəsinin yerləşməsi, istehsalın idarəedilməsi və müxtəlif sahələr arasında sistem funksional əlaqələrin məntiqinə dair yanaşmalara, təhlillərə üstünlük verilmişdir. Corli və Kennedi tərəfindən morfoloji və dayanıqlı özünütəmin edən homostatistik (morfostatistik) funksional sistem əlaqələrinin təminatına dair bloklarının coğrafi parametrləri təklif olunmuşdur.

Elmi medodologiyasının konseptual inkişafına dair U.İzardın (ABŞ) xidmətləri coğrafiya və iqtisadiyyat elmlərinin funksional formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Sənaye kompleksin təşkili və idarə edilməsinin coğrafiya yönümlü tədqiqatları elmi məktəbləri tərəfindən dəyərləndirilmişdir və praktiki olaraq tədbiqi reallaşmışdır. Coğrafiya elmi araşdırılmalarında coğrafi sistemlərinin formalaşması prosesində riyazi modelləşmə metodologiyasına üstünlük vermişdir.

U.İzardın coğrafiya elminin rasional idrak ideyalarından sayılan və müasir dövrdə də öz aktuallığını saxlayan regional təhlil modellər sisteminə dair araşdırmaları fundamental xarakter daşıyır. Bu sistemin əsas ideya miqyasında iqtisadi dəyər modelinin nəzəri və praktiki elmi əsaslarının müəyyənliyi durur.



**U.İzard**:
Regional coğrafiya elminin banisidir. Bu sahədə geniş mənada tədqiqatlar aparmışdır. İzardın təlimində təcrüməsi çətin ifadə olunan = regional scince = ideyası coğrafiya elminin tədqiqatlarında geniş istifadə edilir.

Ümumi məntiqi baxımdan coğrafiya elmi tədqiqatlarının aparılmasının önəmində müəyyən bir konsepsiya çərçivəsində tədqiqat apamaq qeyri-mümkündür. Əks təqdirdə, nəzəri baxışlardan kənar öyrənilən hər hansı bir coğrafi tədqiqat obyektin ərazi təşkilinin təhlili konkret elmi nəticələrinin reallaşdırmasının effekti rasional dəyər daşıya bilməz. Problemə kompleks yanaşsaq, rasional idrak kondekstində coğrafiya elminin tədqiqat fəlsəfəsinin məzmunun dialektikası və ərazi təşkili idealogiyasının müstəqillik əldə edilməsi ilə fərqlənir.[27]

U.İzardın tədqiqatlarının mühüm nəzəri-metodoloji yanaşmalarından müasir dövrdə də coğrafiya elmi məktəblərın praktiki tədqiqatlarında geniş istifadə edilir. “Regonal analizin metodları: regional elminə giriş” (Methods if Regio-

[27] Qurbanzadə A.A. Qloballaşma şəraitində coğrafiya informasiya sisteminin formalaşması. // Az CC əsərələri. XVI. 2011.

nal Analysis: an İntroduetion to Regional Seience) monoqrafiyasında İzard = riyazi modellərinin tədbiqinnin fonunda kompleks formada istifadə etməklə = regional coğrafiya elmi problemlərini önəmə gətirmişdir. Regional iqtisadi inkişafın indeksləşdirmə modelinin praktiki məsələlərinin coğrafi reallıqları müasir dövr üçün də effektlidir. U.İzardın təklif etdiyi regional ərazi-istehsal kompleksinin optimal səviyyədə təşkili və idarə edilməsinin nəzəri baxışlarından ABŞ, Böyük Britaniya və s. ölkələrində istifadə edilmişdir.

Elmi-nəzəri araşdırmalarının tədbiqi kodlarına əsasən coğrafiya elminin çoxfunksional informasiya mənbələrində "pradiqma"[28] anlayışının meydana gəlməsinə səbəb olmuşdur. Formalaşmış paradiqma ideyalarının informasiya modellərinin reallıqları əsasında: coğrafiya elminin tədqiqat obyekti yeni məzmun kəsb etmişdir. Yeni məzmunun önəmində coğrafiya elminin metodoloji-dialektik kodunun gerçəkləşməsinə və davamlığına dair tədqiqatlarının aparılması üçün imkanlar yaranmışdır.

XX əsrdən başlayaraq coğrafiya elminin dialektik paradiqma istiqamətləri üzrə aparılan tədqiqatlar inkişaf etmiş sənaye ölkələrinin iqtisadi və sosial inkişafının siyasətinin tərkibinə daxil olmuşdur. Dialektik paradiqma məsələləri ABŞ, Fransa və s. elmi mərkəzlərində T.Kun, V.Barnes, Vadal de La Blans, E.Reklyu, J.Brayun və başqaları tədqiqatçılar tərəfindən müəyyən səviyyələrdə problemin təhlillərinə üstünlük verilmişdir.

Fikrimizcə, paradiqma məsələlərinin elmi araşdırmalarının "nüvəsi"ndə "gerçəklik" və "məkan-zaman" kodlarının informasiya mənbələrinin təyini, praktikası coğrafiya elminin dialektikasında mühüm xarakterə malikdir.




G = **Gerçəklik** ($G_1$ – obyektiv; $G_2$ –subyektiv)
D = **Məkan və zaman** ( $D_1$ – hərəkət, $D_2$ –informasiya, $D_3$ – funksional, $D_4$ – praktika)

***Coğrafiya elminin struktur dialektik paradiqma kodları.***

Məntiqi nəticə ondan ibarətdir ki, dialektik paradiqma kodlarına uyğun olaraq "məkan-zaman" kontekstində tədqiqatların aparılması məsələlərinə kompleks yanaşmaqla ərazi-istehsal strukturlarının təşkili və idarəedilməsi coğrafiya elmində yeni bir mərhələnin yaranmasına səbəb olmuşdur.

[28] **Paradiqma** (lat. nümunə, model, misal deməkdir) = ideya istiqaməti elmi naliyyətlərinin fundamental vəhdəti deməkdir.

Coğrafiya elminin təhlillərinin miqyasında paradiqma formalarının önəmə gətirilməsi və ümumi inkişaf prosesində praktikası bir çox ölkələrdə (Böyük Britaniya, Şimali Avropa ölkələrində və s.) mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusi ilə sənayenin inkişafı ilə əlaqədar baş verən dəyişikliklər nəticəsində Avropa və Şimali Amerika ölkələrində dayanıqlı inkişafının təminatında paradiqma məsələlərinin önəmə gətirilməsi faydalı hesab edilmişdir.[29]

**T. Kun: (ABŞ)**
"Paradiqma" = anlayışını elmə ilk dəfə olaraq (1962-ci ildə) təklif etmişdir. Paradiqma anlayışı sonrakı tədqiqatçılar tərəfindən geniş istifadə olunmuşdur.



Elmi araşdırmalarında mühüm əhəmiyyət kəsb edən paradiqma anlayışı (modeli) daha geniş mənada, yeni məzmunda fərqlənir. Aktuallığı ilə seçilən tədqiqatlarının əksəriyyəti demək olar ki, T.Kunun paradiqma aparatının təsnifatına uyğun elmi araşdırılmalarına üstünlük verilir. T.Kunun elmi paradiqma təsnifat aparatının əsas məqsədi = nəzəri-metodoloji istiqamətli ideyalarının praktiki həllindən ibarət olmasıdır. Burada simvolik ümumiləşdirmə model faktoru ilə dayanıqlı strateji proqramlarının həllinə nail olunması problemlərinin reallqları nəzərdə tutulur. T.Kunun elmi paradiqma aparatının nəticələri sonrakı tədqiqatçılar tərəfəfindən yeni məzmunda öz ifadəsini tapmışdır.

Ümumiləşdirilmiş nəticələrinin rasional idrak formalarına uyğun olaraq coğrafiya elmin tədqiqatlarının önəmində aşağıdakı təklif etdiyimiz **pradiqma kodlarının (PK)** reallqlarının ifadəsində özünü göstərir:

**PK ⟶ R + G + D**

**R** = tədqiqatın rasional ideyaları və metodları (elmin miqyası və onun davamlı inkişaf yolları);

**G** = coğrafiya elminin qanunauyğunluqları, yeni məzmunda tədqiqat aparatın yaradılması və inkişafı;

**D** = coğrafi elmi tədqiqatın struktur fonunda əsaslandırılması.

Coğrafiya elmi-tədqiqatın metodları (R) davamlı inkişafa nail olmağın mümkünlüyünü artırır. Bu mümkünlük ilk növbədə coğrafiya elminin tədqiqatının aparatında (G) rasional qanunauyğunluqlar önəmə gətirir və praktiki mövqeyinin artırılmasında iştirak edir. Coğrafiya elmi tədqiqatının struktur fonunda (D) ərazi istehsal tsikllərin potensial imkanları formalaşır ki, bu da ölkənin (regionun) kompleks inkişafına səbəb olur.

---

[29] В.Л. Бабурин . Эволюционная география. М., 2006.

Elmi paradiqma mənbələrində tarixən baş verən radikal dəyişikliklərinin müəyyən edilməsinə uyğun olaraq coğrafiya elmində də bir sıra sıçrayışlar baş vermişdir.

İlkin sıçrayış mənbə kimi antik dövrün fəlsəfəsinə uyğun coğrafi təfəkkürün meydana gəlməsini göstərmək olar. Bunun əhəmiyyəti ondan ibarətdir ki, elmi idrakla dünyanın dərkinin və nəzəri formalarından istifadə edilməsinə meyillərin meydana gəlməsidir. Məsələn, Aristitel məntiqində "kateqoriya-anlayışlar" elmi aparatı əsaslandırılmışdır. Onun təklif etdiyi biliklərin elmliyi normalarına dair ideyaları bütün elmlər miqyasında, o cümlədən coğrafiya elmində də rasional elmi istiqamət kimi istifadə edilmişdir.

Coğrafiya elm tarixində ikinci sıçrayış Böyük Coğrafi kəsflər dövründən sonra baş verən dəyişikliklərini hesab etmək olar. Bu dövrdə dünyanın coğrafiyasının yeniləşməsində aydın nəzərə çarpan əlamət olsa da, həmin dövrdə elmdə baş verən dəyişkənliklərin konstruktiv mahiyyəti tam açılmamışdır.

XIX-XX əsrin qovşağında coğrafiya elminin üçüncü sıçrayış dövrü başlanmışdır. Bu sıçrayışda başverən əsaslı dəyişkənliklər coğrafiya elmin müxtəlif sahələrini özündə birləşdirdi. Sistem-struktur nəzəri baxışlar meydana gəlməsi ilə coğrafi tədqiqatlarının xarakteri yeni məzmuna çevrildi; klassik elm ideyaları və metodları dəyişilərək mürəkkəb sistemlərinin vəhdəti fəlsəfi-coğrafi istiqamətli araşdırmalar ilə əvəz olundu.

Coğrafiya elminin yüksəliş səviyyəsi prizmasında dördüncü sıçrayışı XX əsrin sonundan başlayaraq elmi tədqiqatlarda coğrafi innovasiya sistemlərinin virtual inkişafa doğru dəyişiklərinin meydana gəlməsidir. Bu dövrdən başlayaraq coğrafiya elmin tədqiqat obyektlərinin proqnozlaşdırılması, elmi axtarışlarının mərkəsində duran insan coğrafiyasının dəyərlərinin şəhr edilməsi və s. məsələlərinin əsaslandırılması elmi-praktiki əhəmiyyət daşımışdır..

Tarixi-sistem tsikllər nəzəri baxışlarına dair N.D.Kondratyevin[30] araşdırmaları coğrafiya elmi tarixinin öyrənilməsi cəhətdən faydalı konsepsiya sayılır. "Kontrateyev tsiklləri" ifadəsi ilə elmə daxil edilən bu konsepsiya iqtisadiyyat və eləcə də coğrafiya elmində metodoloji əsas kimi istifadə edilir.



**N.D.Kondratyev**:
Tarixi-iqtisadi tsikllər konsepsiyasının inkişaf edirilməsində xidmətləri elm aləmində qəbul olunmuşdur. O, Avropa ölkələrinin tarixi - iqtisadi tsiklli inkişafında 100-150 ildəki dəyişikliklərini təhlil etmişdir.

[30] Кондратьев Н.Д. Проблемы экономической динамики. М.,1989.

Elmi tədqiatlarda dayanıqlı sistem tsiklinin coğrafi əsaslarına dair mənbələrinin olmasına baxmayaraq, onun tamlığını əhatə edən coğrafi araşdırmalar yetərincə təhlil olunmamışdır. Məntiqi yanaşma ondan ibarətdir ki, sistem tsikli inkişaf ilkin olaraq = ölkənin iqtisadi, sosial və siyasi həyat tərzini hərəkətə gətirir, ritmik olaraq funksional effektliyinin artırılmasına perspektivlər açır. Məsələ onunla ölçülür ki, ölkə daxilində iqtisadi-sosial və siyasi sistem tsikllərinin arasında tarazlıqlarının pozulması nəticəsində yaranan problemlərinin bərpası üçün uzun dövr tələb olunur.

Elmi mənbələrinin təhlil və proqnozlarının "tarixi-zaman" fəlsəfəsinin kontekstində rasional idrak məzmununa dair problemlər tarixən tədqiqatçıların diqqət mərkəzində olmuçdur. Problemə dair L.Qrinin[31] "tarixi-zaman" kontekstində riyazi modelləri sistemli tsiklli inkişafının formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Onun "təkrarlan tsikllər" konsepsiyası coğrafiya elminin dialektikasında istifadə edilməsi önəmli mənbələrdən biri kimi praktiki mahiyyət daşıyır.

Tsiklləşmənin əsas ideya istiqaməti ondan ibarətdir ki, coğrafi obyektinin strukturlaşması prosesində iqtisadi-sosial və siyasi sistemində keyfiyyət tsiklli dəyişkənliyi baş verir. Elmi təhlil baxımdan reallıq ondan ibarətdir ki, tsiklli dəyişkənlik səbəbindən, digər struktur sahələrinin dövrü olaraq dəyişilməsinə səbəb olur. Məntiqi önəm onunla izah edilir: coğrafi struktur sahələr "tarixi-zaman" etibarı ilə tsiklli (təkrarlanma) xarakterə malikdir; hər bir coğrafi strukturun zaman məsafəsi və kombinasiyaları arasında sabit riyazi tənasüblük mövcuddur. Elmi dəyər ondan ibarətdir ki, coğrafi struktur tsikllər - dayanıqlı "coğrafi mühit-istehsal" kompleks modelinin çərçivəsini tamamlayır.

Coğrafiya elminin formalaşmasında, konstruktiv ərazi-istehsal kompleksinin tədqiqatlarına dair N.Kolosovski[32] və Y.Sauşkinin[33] (Moskva Dövlət Universiteti) xidmətləri çox böyükdir. Bu xidmətlərə görə də "Kolosovski coğrafiya elmi məktəbi", "Sauşkin coğrafiya elmi məktəbi" fəaliyyət göstərir.



**N.N.Kolosovski:**
İqtisadi rayonlaşma aparatına, sənaye coğrafiya elminin nəzəri-praktiki problemlərinin tədqiqinə dair kompleks ideyalar irəli sürmüşdür. "Ərazi-istehsal kompleks", "enerji-istehsal tsikllər" konsepsiyasının əsasını yaradanlardan biridir.

[31] Гринин Л. Периодизация история: Теоретико-математический анализ. М., 2006.
[32] Колосовский Н.Н.Научные проблемы географии //Вопросы географии.1955, № 37.
[33] Саушкин Ю.Г. Географическая наука в прошлом, настоящем, будущем. М.,1980.

N.N.Kolosovskinin coğrafi ideyalarının əsasında Ural-Kuznesk kombinatı, Trans Sibir dəmir yolu, Sibir regionunda bir sıra sənaye komplekslərinin təşkilinə dair lahiyələrinin praktikası həyata keçirilmişdir. Bu mənada N.N.Kolosovski tədbiqi coğrafiya elminin banilərindən sayılır. “Kolosovski elmi məktəbi” müasir coğrafiya elmi təfəkkürünün formalaşmasında xüsusi mövqeyi vardır.

N.Kolosovskinin eneriji istehsal tsikllər nəzəri baxışları ümumi coğrafiya elminin davamlı tədqiqatları sahəsində bütün dövrlərdə öz aktuallığını saxlamaqdadır. Onun coğrafiya elmi baxışları və praktikası nəyinki Rusiya elmi üçün, eləcə də qloballaşan coğrafi təqiqatlarının kompleksliyinə yönəldilən elmi məktəblərdə metodoloji əsas kimi istifadə edilir.

Ümumi nəticə ondan ibarətdir ki, N.N.Kolosovski ərazi-istehsal kompleksinin təsiri nəticəsində sənaye rayonlarının əmələ gətirən strukturlarının formalaşması və ərazi təşkili problemlərinin coğrafiyasını önəmə gətirmiş və praktiki cəhətdən əsaslandırmışdır.



**Y.Q. Sauşkin:**
Ümumi coğrafiya elminin nəzəri-metodologiyasına dair tədqiqatları fundamental məsələlərinin təhlilində əhəmiyyət kəsb edir. Coğrafiya elminin konstruktiv sintezinin kompleks yanaşmasına dair ideyaları iqtisadi-sosial coğrafiya elm məktəblərində geniş miqyasda istifadə edilir. Tədqiqatlarında ümumi (vahid) coğrafiya elminin modernizasiyasına üstünlük vermişdir.

Dialektik məna baxımından coğrafiya elminin konstruktiv tədqiqat mənbələri və dayanıqlı təhlilləri faktoru mühüm mövqe üstünlüyü ilə fərqlənir. Coğrafiya elminin genetik aparatının modernizasiyasında kompleks yanaşma, innovasiya və məntiqi funksional strukturların təhlilinə dair tədqiqatlar üstünlük təşkil edir.[34]

Dayanıqlı inkişafa malik olan coğrafiya elmi tədqiqatlarının innovasiya xəritəsinin miqyasına görə fiunksional strukturun ərazi təşkili formalarına üstünlük verilməsi ilə fərqlənirlər.

Aparılan tədqiqatlarının gerçəkliklərində məqsədi dayanıqlı kompleks-istehsal differensiyasının təşkili və idarəolunmasının dialektik fonunun konstruktiv meyillərinin müəyyən edilməsindən ibarətdir. Coğrafiya elmi aparatın-

[34] Blij H.J. Geography: Regions and Concepts. J.Wiley and Sons. New York,1981.
Ackerman E.A. Geography as a Fundamental Research Discipline. Chicago,1989.
Бабурин В.Л. Эволюционная геогафия. М., 2006.

da rasional idrakın dialektikası fonunda differensiyasının məntiqi təhlilləri əsas kimi götürülür.

**Rasional coğrafi idrakın dialektikası fonunda differensiyası**

↓

Funksional strukturlarının coğrafi obyektlərinin ritmik inkişafının differensiyası

↕

Coğrafiya elminin aparatında dialektik sintez əlaqələrinin differensiyası

↕

Coğrafi obyektlərinin ərazi təşkili və dayanıqlı inkişafının differensiyası

Problemə rasional idrakla yanaşsaq, hər bir yanaşmanın özünəməxsus tədqiqat sahəsi və məntiqi coğrafiya elmi istiqamətində izahı vardır.

Tarixən bəşəriyyətin nəzəri ideya dəyərlərinin ilk məntiq nəzəriyyəsi Aristotelin məntiqi hesab edilir. Aristotelinin binar (binar-ikili deməkdir) məntiqi elmi dəyərlərinin ilkin və üzünmüddətli praktiki əhəmiyyət kəsb etmişdir. Təhlillər göstərir ki, bu məntiq - öz məzmununa görə xətti nəzəri baxışların dialektikasını özündə birləşdirməklə elmlər sistemində yeni nəzəri-metodoloji və praktiki formalarının meydana gəlməsinə səbəb olmuşdur. Aristotelin binar məntiqi anlayışların kəmiyyət dərəcəsinə toxunmadan, onların yalnız bir keyfiyyət halını qəbul etməsi ilə fərqlənir.

Ümumi olaraq Aristotel məntiqi ilə Lütfi Zadə məntiqi arasında bir sıra kəskin fərqə baxmayaraq hər iki məntiq nəzəriyyəsi həqiqətdir. Deməli, dünya eyni zamanda həm xətti, həm də qeyri-xəttidir. Xətti dünyanın qanunauyğunluqları klassik rasionallıqda, qeyri-xətti dünyanın qanunauyğunluqları isə qeyri-klassik rasionallıqda öyrənilir.

Məsələn, qeyri-səlis məntiq nəzəriyyəsinə görə, coğrafi mühit anlayışı quruluşca amorf olmayıb, müxtəlif funksiyalara görə təsnif edilə bilər. Məlumdur ki, eyni bir anlayış həm müxtəlif məna çalarlarına, həm də müxtəlif şiddətləndirmə dərəcələrinə malik ola bilər. Beynəlxalq Coğrafiya İttifaqı qeyri-səlis məntiq gerçəkliyi önəmində çağrılan konqreslərində müzakirə edilən və dialektik **ideyaya** söykənən coğrafiya elmi tədqiqat mövzularına konstruktiv yanaşılır:

**İDEYA**

▼

*Ərazi: coğrafiya elminin tədqiqat obyektidir*

▼

*Coğrafiya və tədbiqi elmlər*

▼

*Texnologiya və coğrafiya*

▼

*İnvestisiya-innovasiya və cöğrafiya*

▼

*Qloballaşma mühiti və coğrafiya və s.*

L.Zadə məntiqinin ideyalarına söykənən "coğrafi məkan modeli", "istehsalın dayanıqlı modeli", "coğrafi informasiya modeli" və s. modellərinin tədbiqi xarakter alması nəticəsində yeni coğrafiya elmi dialektik təlimə çevrilmişdir. Müasir coğrafiya elminin qeyri-səlis məntiq nəzəriyyəsinin tədbiqi önəmində rasional "ideal" modellərinin elmi-praktikası hər bir ölkənin (regionun) inkişafı üçün strateji mahiyyət daşıya bilər.

Rasional "ideal" modellər – dayanıqlı inkişafın funksional anatomiyasını yaradır, onun qeyri-xətti təffəkürü fonunda coğrafiya elminin dialektik mövqeyinin optimallıq səviyyəsini aktivləşdirir. Bu önəmdə coğrafi tədqiqat obyektinin gerçəkliyi xəttinin funksinallığında alınan nəticələr reallığa çevrilir.



*L.Zadə 1921-ci ildə Bakı şəhərində anadan olmuşdur. Hazirda L.Zadə Soff Computing mərkəzinin rəhbəridir. L.Zadə fundamental elmi nəzəriyyələr təklif etmişdir. ABŞ-ın Berkli şəhərində Zadə adına İnformasiya Texnologiyası İnsitutu yaradılmışdır. L.Zadənin elmdə Z-çevirmə kimi tanınan tədqiqat işi diskret və rəqəmli idarəetmə informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoymuş funtamental elmi-praktiki nəzəriyyədir.*

*L.Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi elmi-praktiki əhəmiyyətinə görə dünya şöhrətinə malikdir. Elmdə bu nəzəriyyə təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaratdı. Alimin Soft Computinq nəzəriyyəsi qeyri-səlis məntiq, süni neyron şəbəkələri, genetik alqoritlər, xaos nəzəriyyəsi və ehtimal nəticə çıxarma paradiqmilərinin intellektual kombinasiyalarını özündə əks etdirərək yeni texnologiyaların əsa-*

*sını təşkil edir. Onun təəsürat nəzəriyyəsi dəqiq ölçmə aparmadan ətraf aləm haqqında tez və dolğun informasiya almaq üsullarını verir.*

Müasir coğrafiya elmi tədqiqatların fəlsəfəsində L.Zadə məntiqinin reallıqlarına söykənməsi daha çox praktiki effekt yarada bilər. Xüsusən, qloballaşan coğrafi mühitin yaratığı reallıqlarının kompleksliyi hər bir ölkənin dayanıqlı və şaxələnmiş struktur sahələrinin optimallığının səviyyə göstəricilərinin təyinində L.Zadə məntiqi faydalıdır. Şaxələnmiş istehsal modellərinin qurulması və onların gerçəkliyi qeyri-səlis məntiq nəzəriyyəsində daha çox sərbəstlik nümayiş etdirir.

- **Coğrafiya elmi idrakın empirik-nəzəri kodları**

Coğrafiya elmi idrakın ən ümumi nəzəri-praktiki fəaliyyətinin formalaşmasında empirik-nəzəri kodları dinamikdir,o cümlədən həssaslıdır. Məsələ onunla ölşülür ki,coğrafiya elminin ümumi qanunauyğunluqları dialektik məntiqə söykənir və bu məntiqin nəticəsi isə coğrafi tədqiqatların nəzəri-metodoloji fəaliyyətininin əsasında formula edilir.

Ölçmənin əsasən üç tendenaiyası mövcuddur.

Coğrafiya elminin idrakın empirik-nəzəri kodların **funksiyasında *ölçmə* - mühüm metodoloji və** praktiki əhəmiyyət kəsb edir.[35] Coğrafiya elmi biliyinin formalaşmasında ölçmə haqqında təsəvvürlərin yaranması tarixi bir funksional texnoloji prosesinin nəticəsidir.

*Birincisi* - Pifaqor konsepsiyası hesab edilir. Pifaqor konsepsiyasına əsasən qədim dövrlərdə (e.ə. VI-V əsrlər) suvarma sistemlərin yaradılmasında, şəhər memarlığında və s. riyazi üsullarla ölçmə proseslərini inkişaf etdirmişlər. Ölçmə haqqında ilkin mənbələr qədim misirlilərin memarlıqda istifadə etdikləri modulyarın nəzəri baxışlarından götürülmüşdür. Sonrakı dövrlərdə bu nəzəri baxışlar Pifaqor məkətinin nümayəndəlri tərəfindən inkişaf etdirilmişdir.

*İkinci* ölçmə tendensiyası – ölçmə metodunun məntiqi konsepsiyası adlanır. Bu qədim dövrdən XIX əsrin sonlarına qədərki mərhələni əhatə edir.

*Üçünçü* ölçmə tendensiyası isə XIX əsrin sonundən başlayaraq müasir dövrə qədəri əhatə edən zaman kəsiyinin texnoloji funksiyalarını özündə birləşdi-

[35] "Ölçmə" verilmiş kəmiyyətin müqayisə vahidi kimi qəbul edilmiş kəmiyyətlə fiziki eksperiment yolu ilə müqayisədən ibarət idrak prosesidir. Coğrafiya elminin dialektikasının bütün inkişaf mərhələlərində əsas kodlarından biri də ölçmənin əsaslandırılması hesab edilir.

rir. Bu dövrlərdə eksperimental coğrafiya elmi tədqiqatların nəzəri baxışlararın effektliyinin yoxlanılması ölçmənin keyfiyyətnidən çox asılı olaraq funksional informasiya təhlilləri aparlmışdır. Müasir ölçmə probleminin reallaşmasının tələblərinə verilən cavablar metokartoqrafiya, kvalimetriyanın inkişafı üçün mühüm praktiki əhəmiyyəti vardır. Kvalimetriyanın coğrafi idrak prosesində əldə edilmiş informasiyaların keyfiyyətinin, onların nə dərəcədə fərqlənməsinin ölçülməsi məsələsi bu elm tərəfindən reallaşdırılır.

Elmi tədqiqatlarda *eksperiment* metodlarından geniş stifadə edilir. Nəzəri fikir tarixində[36] empirik - eksperiment (nəzəri - praktiki) metodunun əsasını F. Bakon tərəfindən irəli sürülmüşdür.



**F.Bakon** *(ing. Francis Bakon)-İngilis filosofu, siyasi xadimidir.*
Elmdə empirizmin banisi sayılır. İnduktiv-empirik metodologiyasının əsasında eksperiment metodunu təklif etmişdir. Buna görədə "Bakon metodu" kimi elm tarixində yer almışdır.

Müasir dövrdə coğrafiya elmi tədqiqatlarında eksperimental tədqiqatın əhəmiyyəti o dərəcədə artmışdır ki,məntiqi olaraq elmin tərkib hissəsinə çevrilmişdir. Coğrafiya elmi tədqiqatlarında müşahidədən fərqli olaraq eksperimental araşdırmalar daha elmi-nəzəri məsələlərinin təhlillərini və aşağıdakı aksiomlarının nəticələrini əhatə edir.

**Aksiom 1**. Coğrafiya elmində eksperiment metodunun üstün cəhətlərindən biri də onun idrak obyektinin davamlı inkişafının müxtəlif ekstremal coğrafi mühitdə: istilik rejiminin dəyişilməsi,təbii fəlakətlərinin yaranması, qlobal ərazi-istehsal komplekslərinin dialektik formalaşması və s. problemlərinin araşdırılmasına, bu sahələrdə optimal variantlarının tədbiqinə imkan verməsindədir.

**Aksiom 2**. Eksperiment = coğrafi hadisəinin cəryan etdiyi real tədqiqat şəraitinin dəqiq təyin etməyə,onun praktika ilə əlaqələndirməsinə imkan verir.

**Aksiom 3**. Eksperiment yalnız praktika ilə deyil, həmçinin coğrafiya elminin nəzəri təfəkkürürün "məhsuldarlığı" ilə də bağlıdır.

Coğrafiya elmi təfəkkürün formalaşmasında **"zaman - məkan"** metodoloji yanaşma tərzi tarixən daima zəka sahiblərinin diqqət mərkəzində olmuşdur.

► "Zaman-məkan" mütləqdir. Dünyada baş verən mexaniki proseslərdən asılı deyil (***İ.Nyuton***)

[36] Методы науки. М., 2004.

► “Zaman-məkan” hərəkət edən materiyanın obyektiv varlıq formasıdır (***F.Engels***)

► Nisbilik nəzəriyyəsinə görə “zaman-məkan” hərəkət mövcud deyildir (***A. Eynşteyn***).

“Zaman-məkan” kontekstinin coğrafiya elminin məzmunuda çox mühüm iqtisadi, sosial və siyasi xarakterlərinin müəyyənlik funksiyaları mövcuddur. Misal olaraq müəyyən zaman kəsiyində dünya ölkələrinin iqtisadi inkişafında sənaye revolyusiyasının kodları öz təsirini göstərmişdir:

| Zaman | Məkan | Göstərici |
|---|---|---|
| XIX əsrin sonu:<br>-1890-cı il | B.Britaniya<br>Almaniya<br>ABŞ | 62<br>56<br>39 |
| XX əsrin əvvələri:<br>- 1900-cu il | B.Britaniya<br>Almaniya<br>ABŞ | 79<br>66<br>54 |

***XIX –XX əsrin “zaman-məkan” gerçəkliyində sənaye istehsalının dinamikası (dünya üzrə-%).***

Sonrakı dövrlərdə dünya sənayesindəki liderlik statusu əsas etibarən ABŞ-a keçmişdir. Böyük Britaniyanın Birinci Dünya müharibəsindən sonra sənaye istehsalında xüsusi çəkisi azalmışdır. Məntiqi formada desək, XIX əsrdən başlayaraq müəyyən zaman ölçüsündə Qərb ölkələrində ümumi inkişafının dinamikasında yeni məzmunlu taktika və strategiya formaları dəyişilmiş və hegemonluğunun statusu İEÖ arasında aktivləşməyə başlanmışdır.

“Zaman-məkan” kəsiyinin genezisi kondekstində hegemonluq siyasəti Qərb-Şərq ölkələrinin formalaşmasının mühüm tarixi əhəmiyyəti dinamik olaraq dəyişkənliyə məruz qalmışdır. Misal olaraq göstərə bilərik:

Qlobal ədalətsizliyinin meydana gəlməsi və dinamikası. Səbəb olaraq Yer kürəsində məskunlaşan əhalinin təxminən 3.5 mlrd.-dan çoxu normal yaşamaq hüququna malik deyildir.

İqtisadi potensiala malik olan “yeddilər”in - (ABŞ, Almaniya, Yaponiya və s.) fəaliyyəti nəticəsində ölkələrarası asimmetrik formalarının yaranmasına səbəb olmuşdur.

Qərb və Şərq ölkələri ayrı-ayrılıqda vahid sivilizasiya kimi şıxış etmir. Bu səbəbdən də həm Qərb, həm də Şərq sivil dəyərlər önəmindən homogen deyildir.

Ölkələrarasında baş verən iqtisai-sosial və siyasi problemlərinin kəskinləşməsi.

Ümumi cəmiyyət miqyasında yeni dayanıqlı inkişafının meydana gəlməsi, insan həyat səviyyəsinin dəyərləri yüksəlmişdir. Qərb ölkələrində "iqtisadi insan"ın kodları "zaman-məkan" və onun formalaşdırdığı rasionalizm aparıcı mövqelərinə uyğunlaşdırılmış və ritmik, dayanıqlı inkişaf yolu ilə müasirləşmişdir.

- **Coğrafi-riyazi modellərinin rasionallığı**

Coğrafiya elmi təfəkküründə maddi və ya xəyali göstərilə bilən elə tədqiqat prosesləri mövcuddur. Burada dayanıqlı, strateji xarakerə malik rasional və iqtisadi-sosial texniki formalarını özündə birləşdirən coğrafi modellər [37] fəaliyyət göstərir.

Coğrafi model – effektli tədqiqatın özünəməxsus bir elmi idrakın dialektikasının rasional halıdır. Coğrafiya elmi tədqiqatlarının effektli və praktiki varlığını məhz onun köməyi ilə öyrənmək mümkündür. Bu səbəbdən də coğrafiya elminin dialektik fonunda konstruktiv model və modelləşdirmə anlayışlarının geniş yayılmasına baxmayaraq, tədqiqat mənbələrində onların müxtəlif istiqamətli izahatlarına rast gəlinir. Coğrafiya elminin kompleks tədqiqatlarında digər təsnifatlı modellərlə yanaşı, riyazi modellərinin tətbiqinə daha çox üstünlüklər verilir. Tədqiqatın məqsədinə uyğun olaraq coğrafi-riyazi modelləşmə təsnifatına diqqət yetirək.

Coğrafi-riyazi modelləşdirmə coğrafi obyektlərin və onların dialektik əlaqələrin mümkünlüyünün, hadisələrinin riyazi yanaşmalarla öyrənilməsi və proqnozlaşdırılması problemlərindən biridır. Coğrafi-riyazi modelin, daha doğrusu funksiyalarının dialektik əlaqələrinin köməyi ilə inikas edilən istənilən təbiətli obyektinin (coğrafi, iqtisadi, sosial və s.) müvafiq riyazi məsələlərinin öyrənilməsi və həll etmək yolu ilə anlaşıla bilər.

Demək olar ki, riyazi modelləşdirmə bir tərəfdən fundamental araşdırmaların nəticələrinin coğrafiya elminin praktikasında tətbiqi vasitəsidir, digər tərəfdən isə rasionallıq fonunda ən mühüm işləmələrin dayanıqlığının təminatı üçün effektli tədqiqatın idrak formasıdır.

1) obyektin axtarılan xarakteristikaları (məchul kəmiyyətlər) – vektor: $Y = (y_i)$;

2) modelləşdirilən obyektə nəzərən xarici şərtlərin xarakteistikası: $X = (x_j)$;

*Riyazi-coğrafi modellər üç elementi özündə birləşdirir.*

[37] **Model -** fran. modele, ölçü, nümunə deməkdir. Burada tədqiqat obyektin orjinalı haqqında yeni bilik formalaşır.

3) obyektin daxili parametrlərinin toplusu – D. Modeldən kənarda təyin olunan X şərtləri və D parametirlər toplusu ekzogen kəmiyyətlər, modelin köməyi ilə təyin olunan Y vektoruna daxil olan kəmiyyətlər endogen kəmiyyətlər adlanır.

Coğrafi - riyazi modelin obyektin X xarici şərtlərini ("giriş") obyektin axtarılan Y xarakteristikasına ("çıxış") çevirən xüsusi qurup kimi interpretasya etmək olar.

Xarici şərtlər, daxili parametrlər və axtarılan xarakteristikalar arasındakı münasibətlərin ifadə üsuluna görə coğrafi-riyazi modellərini iki əsas təsnifata: ərazi struktur və funksional modellərə ayrılır. Ərazi struktur modellərin tipik nümunəsi sahələrarası əlaqələr modelidir. Funksional modellərdə isə iqtisadi-sosial strukturun optimal varintlarında tətbiq edilir. Bu zaman coğrafi obyektin "giriş" parametirlərini dəyişməklə fəaliyyətinin çərçivəsi aktivləşir.

Coğrafi struktur modellər obyektin daxili qurluşunu (onun tərkib hissələrini, daxili parametrlərini, onların "giriş" və "çıxış" arasında dialektik əlaqələrini) özündə əks etdirir. Bu tip modellərin üç növünü ayırmaq mümkündur.

1. Bütün strukturların daxili parametrlərinin və xarici şərtlərin aşkar funksiyaları şəklində ifadə olunurlar:

$$Y_ı = F_i \ ( D, X ); \qquad (1.1)$$

2. Coğrafi strukturlar dialektik əlaqələr sistemində birgə təyin olunurlar:

$$F_i \ (D, X, Y) = 0; \qquad (1.2)$$

3. Coğrafi model (1.2) dialektik əlaqələ tipli funksiyalardan ibarətdir, lakin bu model müəyyən mənada "yarımçıqdır" tamamlanmamışdır.

Coğrafi-riyazi modelin əsas ideyasını sistem haqqında bütün mövcud informasiyadan maksimum istifadə etmıklə analitik təhlillərinin əsaslandırılmasından ibarətdir. Araşdırılan proseslər üçün obyektin elementlərinin qarşılıqlı əlaqəsini təmin edən və verilən D və X parametirlərinə görə Y məchulunu təyin etməyə imkan verən müəyyən rasional coğrafi model qurulur. Bu zaman bütün prosesin ayrı-ayrı hissələrinin və onların əlaqələrinin təsviri üçün adi riyazi modellərdən istifadə oluna bilər.

Ekisperimentin gedişində modelin ekzogen dəyişənləri, parametirləri variyasiya edilir, onun strukturu aktivləşdirilir, qəbul edilmiş elmi-metodoloji yanaşmalarının nəticələri dəqiqləşdirilir.

Funksional coğrafi-riyazi modellərdə tədqiqat obyektinin daxili strukturu öyrənilmir və təbii ki, struktura dair informasiyadan da istifadə olunmur. Başqa sözlə desək, funksional modellərin köməyi ilə öyrənilən coğrafi obyektinin daxili strukturu tamamilə görünməyən abstrakt bir obyekdir ("qara qutu" prinsipi). Funksional model coğrafi obyektin fəaliyyətini elə ifadə edir ki, "girişdə", X qiymətini verməklə, "çıxışda" Y qiymətinə almaq mümkün olsun:

$$Y = Z\ (X) \qquad (1.3)$$

burada: D-informasiyası iştirak etmir. Belə tip modelləri qurmaq, X və Y dəyişənləri arasında əlaqə formasını (Z funksiyasını) tapmaq deməkdir.

Beləliklə, coğrafi-riyazi təhlillərinin əsasında modelli yanaşma daha effektli olub, elmi cəhətdən rasional idrak funksiyasını yerinə yetirir. Coğrafi-riyazi modelləşmə əməliyyatı mürəkkəb və **<u>çoxfunksionaldır</u>** və aşğıdakı yanaşmalarda özünü göstəriri.

▼

Coğrafi-riyazi modelin qurulmasının təsnifatında coğrafi strukturun formalaşması, tədbiqi xarakteri və onun dinamikasının əks olunması önəmlidir. Bu idrak nəticəsində riyazi model coğrafi dialektik gerçəkliyinin keyfiyyət fonunda fəallıq göstərir.

▲▼

Coğrafi-riyaz modelinin funksional şəbəkəsinin eksperimentinin səviyyəsi founuda tədqiqatın elmi-praktiki hərəkətinin dayanıqlığını təmin edir.

Baxılan məsələnin müəyyən dərəcədə hər hansı xassələri və hadisələrini modelləşdirən ayrı-ayrı sistemlər fəaliyyət göstərə bilər. Coğrafiya elmi tədqiqatlarında riyazi modelli yanaşma ilə birlikdə sistemli yanaşmanın da zəruriliyi meydana çıxır. Məsələ ondan ibarətdir ki, coğrafi sistemlərinin müxtəlif həlqələrinin idarə olunmasının optimal yollarını tapmaqda riyazi modellərinin tədbiq edilməsi optimal strukturlu variantlarının formalaşmasına imkan yaranır.

Təhlillər göstərir ki, modelləşmə elmi-praktiki mahiyyəti ilə yanaşı, bir sıra dialektik baxışlarda öz ziddiyətli hallarında da özünü göstərir. Bu hər şeydən əvvəl, model coğrafi obyektin dialektik imkanlarını geniş miqyasda təhlil etməyə qadir olsada, coğrafi funksional obyektn dialektikasının rasional prosesində qismən informasiya mənbəyinin forması kimi hesab etmək olar. Coğrafi-riyazi modelləşmə onunla xarakteriza olunur ki, o tədqiqat obyektinin kompleks təbiətinin funksiyalarını özündə birləşdirməklə yanaşı, həm də təd-

qiqat prosesində abstrakt meyillidir. Ümumi məzmunda söyləsək, coğrafi-riyazi modellər nisbi səciyyə daşısa da, bu yanaşma coğrafiya elminin idrakda çoxfunksional strukturlarının kompleks ərazi təşkili istiqamətində effektli nəticələrə nail olmaq imkanını yaradır.

Coğrafi-riyazi modelinin fəlsəfəsi ilk növbədə elmi-texnoloji əsaslarla tədqiqat koordinasiyasının təmin edilməsidir. Konstruktiv modernizasiya **{R & D}** funksiyalarının tədqiqat **{R}** və inkişaf **{D}** arasında dialektik modelinin yaradıması coğrafiya elmi dədqiqatlarının önəmli gerçəkliklərindən sayılır.[38] R & D paradiqması funksional olaraq üç xətti model çərşivəsində fəaliyyət göstərir: *nəzəri model ↔ praktiki model ↔ dayanıqlı model*. Fəaliyyət göstərən xətti modellər optimal dərəcədə coğrafi-riyazi və “dalğa” spektrinin effektini elmi cəhətdən yeni məzmuna çevirir.

[38] A.A.Qurbanzadə. XXI əsr: Dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Bakı, 2015.

**İkinci önəm**

# Dialektik coğrafiya elmi tədqiqatın effektliyi

- **Dialektik coğrafiya elmi tədqiqatın effektli önəmi**

****Elmi biliyin emprik və nəzəri önəmi***. Elmin hər hansı bir sahəsi – öz növbəsində emprik faktlara, nəzəri yanaşma və dərk etmə formalara, konseptual məsələlərinin təhlili və nəticələrinə əsaslanır.[39] Coğrafiya elmi təfəkkürün mühüm əlaqələrini əks etdirən nəzəri biliklər özünün məntiqi strukturu və effektli xarakteri ilə gerçəkləşir.



**İ.Kant**: *Alman flosofu*
İ.Kandın fikrinə görə "Adi bilik yalnız struktur elmli vəhdət hesabına elmi bilik olur, başqa sözlə, biliyin sadə aqreqatından sistemə çevrilir".

Elmi araşdırmaların emprik və nəzəri çərçivəsinin struktur məzmununda coğrafiya elmi təfəkkürünün dinamik effektliyinin məsələsi aktuallıq kəsb edir. Aktuallıq onunla ölçülür ki, coğrafya elmi təfəkkürünün formalaşdırdığı bütün inkişaf mərhələlərində empirik nəzəri tədqiatlar önəmli olmuş və olmaqdadır.

XIX əsrin sonu və XX əsrin əvvələrində coğrafiya elmi araşdırmalarında dialektik kateqoriyalarının rasional istiqamətli mövqelərinin üstünlüyü önəmli təşkil edirdi. Bu dövrlərdə elmi biliyin emprik və nəzəri sistemli təhlillərində, coğrafiya elmi tədqiqatlarda fəlsəfi biliklərin üstünlük təşkil edilməsi; coğrafi mühitin insan cəmiyyətinin varlığının dialektik vəhdətində yeri və məskunlaşması ideyasının gerçəkləşməsi; coğrafiya elmində dinamik ərazi – istehsal strukturların müəyyənedici əhəmiyyəti, praktikası və s. məsələlər ya-

[39] Кант И. Сочинение. Том 3. М., 1968.

radıcı diskusiyalarının mərkəzində yerləşirdi. M.Bornun ifadəsi ilə desək, "təbii-elmi idrakın hər bir fazası öz dövrünün fəlsəfi sistemi ilə üzvi sürətdə bağlıdır".[40]

Coğrafiya elminin tarixi inkişafının mənbələrində biliyin emprik səviyyəsi coğrafi obyektlərin (müşahidə, təsvir, eksperiment və s.) qanunayuğunluqlarının dərk edilməsi ilə əlaqələndirilir. Bu məqsədlə coğrafi biliklərin sintezi və miqyası, obyektiv tədqiqat motivləri ilə önəmə gətirilir və emprik - nəzəri təsnifat göstəricilərini xarakteriza edən konstruktiv elmin tədqiqat obyektinə çevrilir.[41] Bu yanaşma tərzinə uyğun olaraq coğrafiya elmində tədbiq olunlan CİS (coğrafi informasiya sistemi), kartoqrafik yanaşmalar, ideal modellər və s. araşdırmalarının nəticələri elmi-praktiki baxımdan daha effektli hesab edilir. Buna görə də, emprik nəzəri coğrafi biliklər hər şeydən əvvəl rasional idrakın metodoloji tədqiqatının təsnifatında mühüm əhəmiyyət kəsb edir.

**Coğrafiya elmi məntiqinin struktur formaları*. Coğrafiya elmi idrakın məntiqinin əsas formalarında biri = coğrafi tədqiqatlarında *fakt* = dəyərləridir. Təhlillər göstərir ki, tədqiqat prosesində struktur təlim formasında fakt ilə nəzəri baxışlar arasında dialektik oxşar kodlar və qarşılıqlı "reaksiya"sı mövcuddur. Bu "reaksiya" bir sistem forması kimi coğrafiya elminin struktur təhlili zamanı fakta çevrilir. "Fakt və nəzəriyyə elmi tədqiqatın müxtəlif, bir-birinə əxs olunan sonluqlardır, bilik sisteminin effektli formasının tamamlanmış naliyyəti, idrakın növbəti mərhələsində özü fakta çevriləcək səhih elmi nəzəriyyənin qurulmasıdır".[42]

Coğrafiya elmində dialektik fakt anlayışının müəyyənliyi çoxcəhətli və problemli məntiqdir. Elmi araşdırmalar məqsədində istifadə edilən faktlar ilkin mənbə kimi kəmiyyət və keyfiyyət fonunda fəaliyyət göstərir. Elmi idrak üçün faydalı sayılan ayrı-ayrı coğrafi faktlar nəzəri məsələlərinə aydınlıq gətirməsində iştirak etməsinə baxmayaraq, onun tamamlanmasına tam önəm vermək qabiliyyətinə malik deyildir. Mahiyyət ondan ibarətdir ki, riyazi-statistik, sistem-struktur elmi ideyalarına söykənən məntiqi təlimlər coğrafiya elminin nəzəri baxışlarının ümumiləşdirilməsində aktivlik nümayiş etdirir. Məntiqi baxımdan faktlarla nəzəri baxışlarının dialektikası səbəbindən coğrafiya elmi təfəkkürünün formalaşması tərzi və interpretasiyası tədqiqatçının yeni ideya istiqamətini müəyyən etməklə yanaşı, həm də onu səmərəli hala çevirir.

[40] Борн М. Физика в жизни моего поколения. М., 1963.
[41] A.A.Qurbanzadə. Regionalogiya. Bakı, 2013.
[42] П.В.Копнин. Диалетика как логика и теория познания. М., 1973.

Coğrafiya elminin tədqiqat sistem mənbəyinin funksialarından biri də idrakın *ideya* gerçəkliyi hesab olunur. Elmi mənbələrdə "İdeya = obyektiv reallıq hadisələrinin fikrən mənimsənilməsi prosesi olub,məqsədlərin və idrakın sonrakı davamının proyeksiyalarını ehtiva edir".[43] İdeya öz mənasına görə məntiqi təfəkkürün anlayış formasına yaxın olmasına baxmayaraq, bunlar arasında müəyyən yanaşma fərqləri də mövcuddur. Məsələ ondan ibarətdir ki, hər bir ideya anlayış olduğu halda, hər hansı anlayış ideya ola bilməz. Məsələn, coğrafiya elmində "təbii zonalar" anlayışı konkret təbii kompleks anlayışlar olmaqla yanaşı, həm də təbii zonalarını əmələ gətirən həmin nəzəri baxışlarının əsasını təşkil edən ideyalardır.

*Nəzəriyyə ilə ideyanın əsas fərqi = elmi nəzəriyyə həm baxılan ideyanı, həm də ondan yaranan anlayışlarını özündə sintez edir və reallaşdırma funksiyasına malikdir. Coğrafi təfəkkürə əsaslanan tədqiqat ideyalar dialektik vəhdədinin sintezini yaradır,elmin nəzəri istimaqətini aktivləşdirir.*

Coğrafiya elmi təfəkkürün mənbələrindən sayılan *prinsip* = hər hansı bir konsepsiyanın effektli nöqtəsidir. Prinsip elmi nəzəri baxışlarının əsasını təşkil etməklə yanaşı, coğrafi elmi biliklərinin bir sistem halında birləşdirməsinə imkan yaradır.



**A.Eynşteyn**:
"Təbiətdən dəqiq formulə edilmiş-eksperimental yolla qazanılmış çoxsaylı faktların ümumi cəhətlərini əks etdirən ümumi **prinsiplər** çıxarılmalıdır. Deduksiyalar üçün əsas rol oynaya bilcək tamamilə əhəmiyyətsizdir, belə ki, o, emprik müəyyən edilmiş qanunanuyğunluqlar ilə iş görməyə qadir deyildir".

Elmi tədqiqatlara kompleks ynaşmaq,onu yaradan nəzəri baxışların dayaq nöqtəsinin bir qayda olaraq prinsipin dialektik vəhdədini müəyyən etdikdən sonra başlanır. Prinsip sükünətli deyildir, daimi olaraq ritmikdir. Məsələn, coğrafi mühitin elmi prinsipi aristotel məntiqindən başlamış müasir qeyri-səlis (L.Zadə məntiqi) nəzəriyyəsinə qədər öz inkişafında ritmik olaraq dəyişikliklərə məruz qalmışdır.

Elmi tədqiqatlara kompleks ynaşmaq, onu yaradan nəzəri baxışların dayaq nöqtəsinin bir qayda olaraq prinsipin dialektik vəhdədinin müəyyən etdikdən sonra (o cümlədən cəmiyyətin dialektikasnda) fəaliyyət göstərir. Coğrafiya elmində prinsip ideyası daimi olaraq coğrafi mühitlə əlaqədar olaraq cəmiyyətin dialektikasının inkişafının ritmlərini yaradır və inkişaf etdirir.

[43] Философский энциклопедический словарь. М., 2002.



**F.Engels:** *Alman təbiətşünası, filisofu*
Təbiətin dialektikasına dair dəyərli tədqiqatlar aparmışdır. Onun fikrincə, prinsip tədqiqatın başlanğıc nöqtəsi deyil, son nöqtəsidir.

Coğrafiya elmi idrakın metodoloji yanaşmalarının konstruktiv təhlillərinin strukturunda *problem* gerçəkliyi mühüm mövqeyə malikdir. Elmi-metodoloji araşdırmalarının kontekstində problem gerçəklikləri davamlı coğrafiya elmi tədqiqatlarının nəzəri baxışlarının komponenti, idrakın başlanğıc xəttinin əsası hesab edilir. Bu elmi yanaşma tədqiqatın dialektik struktur funksiyalarının fəallaşmasını təmin edir, tədqiqat prosesinin davamlı ritmilik çərçivəsininin miqyasına söykənməklə formalaşır və tamamlanır.

Coğrafiya elmində problem situasiyasının təsnifatları funksional, tsiklli və dayanıqlı kodları ilə xarakterizə olunur.[44] Coğrafi elmi idrakın məntiqinə uyğun olaraq problem situasiya kodlarının strukturun formalarını təyin etmək olar.




**{S}** = *coğrafiya elmi məntiq problemi*. **{D}** = *dialektik struktur*.
**{F}** = *funksional struktur*. **{G}** = *tsikilli struktur*. **{R** }= *dayanıqlı struktur.*

***Coğrafiya elmi struktur sistem problemin situasiya kodları.***

[44] Курбанзаде А.А. Анализ системы географических наук с розиции концепции структурных уровней //сб.III Все.- союз. теор. географ. Киев, 1989.

İlkin olaraq coğrafiya elmi araşdırmalarının kontekstində problem situasiyası empirik və ya nəzəri tədqiqatın yeni formalı nəticələrinin praktiki həlli üçün faydalıdır. Ən ümumi halda problem situasiya yeni ideyaların məqsədini və praktikasını özündə birləşdirir.

Praqmatik məzmunda problem situasiyasının coğrafi tədqiqatın məqsədi ilə onun dayanıqlığı arasında uyğunluğunun ifadəsi kimi yanaşmaq olar. K.Popper öz araşdırmalarında belə bir nəticəyə gəlmişdir ki, “həqiqi fəlsəfi problemlərin fəlsəfədən kənar zəruri məsələlərdə həmişə kökləri vardır. Əgər həmin köklər dağılarsa, onlar da yox olar”.[45]



**K.Popper**: *Avstriya filosofu və sosialoqu*
Klassik elmi məntiqi tənqit etmiş və kritik rasionalizm elmi fəlsəfi konsepsiyasını yaratmışdır.

K.Popper elmi fəlsəfi yaradıcılığında problem situasiyasının ardıcılığını aşağıdakı sxemlə ifadə edir:

$$P_1 \leftrightarrow SN \rightarrow EE \rightarrow P_2$$

Burada: $P_1$ = çıxış problemi ; SN = sınaq nəzəriyyəsi (thentatine theory);

EE = nəzəriyyədən kənarlaşdıran xətalar; $P_2$ = alınmış yeni problem.

Sınaq nəzəriyyəsi dedikdə elə bir hipoteza başa düşülür ki, onun xətasının aradan qaldırılması yeni bir problemin meydana gəlməsinə səbəb olur. Məlum məsələdir ki, elmi tədqiqat zamanı bir qisim problemlərin həlli yeni problemin yaranmasına, dinamikasına imkanlar yaradır.

İkinci məsələ, rasional prakmatik situasiya gerçəkliyinə söykənən və tədqiqat xarakterli coğrafiya elmin təsnifatının ***genetik struktur sisteminin kodlarının*** təyin olunmasıdır: ▼

Morfoloji sistem → korrelyasiya coğrafi təhlili əsasında fiziki xassəsəli sistemdir.
Kaskad sistem → coğrafi məkan strukturunun dimamik sistemidir.
İdarəetmə sistem → fiziki proseslərin (enerji, dəyişkənlik və s.) idarəetmə sistemdir.
Ekosistem → üzvi aləmin dialektik coğrafi-ekoloji struktur sistemidir.
İnsan ekosistem → sosial coğrafi mühitlə ətraf mühitin qarşılıqlı əlaqə sistemidir.

---

[45] К.Поппер. Логика и рост научного знания. М., 1963.

Təhlillər göstərir ki, hər bir coğrafi struktur sisteminin formalaşması və dinamikasının yaranmasında müəyyən səviyyədə onun komponentlərinin dominatlığının xarakterini təyin edən çərçivə kodları fəaliyyət göstərir. Bu situasiyalı kodların fəaliyyəti nəticəsində coğrafi struktur sistemləri təyin olur və coğrafi genetik struktur tsiklli inkişafının tamlığının formalaşmasında iştirak edir.

▪ **Dialektik coğrafiya elmi tədqiqatın idrak paradiqması**

*****_Struktur yanaşma paradiqması._ Tədqiqat idrakın konseptual anatomiyasında struktur paradiqması geniş potensial imkanlara malik olan metodlarından biridir. Coğrafiya elmi təfəkkürün formalaşmasında struktur ideyalarının mövqeyi, ilk növbədə coğrafi idrakın geniş miqyasda inkişaf etdirilməsi ilə əlaqələndirilməsi elmin fəaliyyətində mövcud olmasıdır.

Struktur adlanan metod təlimi paradiqmaların coğrafiya elmi idraka "reaksiyası"nın nəticəsində formalaşmış və praktiki olaraq istifadəsi önəmlidir.[46] Məsələnin mühüm cəhətlərindən biri də, struktur paradiqması tədqiqatının elmi effektini artırmaqla yanaşı, dialektik yanaşmalarının ümumiləşdirilməsində konseptual məzmununa çevrilməsidir.

Coğrafiya elmi: maddi strukturun paradiqması miqyasında formalaşmış və fundamental elmlərin tərkibinə daxil olmuşdur. Konseptual önəmli coğrafiya elminin dialektikasının təhlillərinin miqyasında funksional struktur paradiqmasının əsasında fəaliyyətinin əsasında dayanıqlı inkişafının formaları yaranmışdır:

**İdrakın struktur paradiqması**

_Struktur_: coğrafi maddi obyektinin "səbəb - nəticə" fonunda davamlı inkişafı, onun kəmiyyət ölçüsü ilə yanaşı, keyfiyyət ölçüləri də fəaliyyət göstərir.

_Struktur_: coğrafi məkanın genetik enerji-maddi varlığının dialektik dəyişilməsi qanununa tabedir. Başqa ifadə ilə desək, struktur "məkan-zaman" kontekstində ərazinin kompleks istifadə edilməsinin dayanıqlı inkişaf fazasını yaradır.

_Funksiya_ = strukturun dayanıqlı varlığını təmin edir, coğrafi komponentlərin bir-birilə, sistemin isə digər sistemlərlə dialektik əlaqəsini tamamlayır.

---

[46] A.A.Qurbanzadə. Qloballaşma mühitində coğrafi struktur sisteminin formalaşması məsələləri. Milli inkişaf modelinin formalaşması problemləri. Bakı, 2010.

Yuxarıda göstərdiyimiz yanaşmalarının struktur paradiqmasının spesifik nəzəri-idrakı konstruksiyaları coğrafiya elmində dialektik funksiyalarının təhlillərinə istiqamət vermiş və elmi tədqiqatlarının kompleks sintezinə nail olmağa şərait yaratmışdır. Bu səbəbdən də biz struktur yanaşmanı müasir coğrafiya elmi təfəkkürün əsas funksiyalarından biri kimi dəyərləndirirk.

Beləliklə, strukturun paradiqma funksiyaları coğrafiya elminin tədqiqatlarında tamamlanmış nəticələrinin dayanıqlı əlaqələrinin optimal variantlarıdır. Bu optimal variantlar həm koordinasiya, həm də subordinasiya əlaqələri hesab edilir. Koordinasiya əlaqələrinin daxilində sistemin heç bir komponenti onun digər komponentləri dəyişmədən dəyişilə bilməz. Subordinasiya əlaqələr dedikdə, sistemin komponentləri müxtəlif tərkiblidir, onların arasında dialektik funksional asıllıq vardır.

* *Funksional idrak paradiqmasının tipologiyası*. Struktur paradiqmasının tipoloji funksiyalarının təyini coğrafiya elmi üçün mühüm effektli kardinal dəyişkənlik[47] yanaşmalarından biridir. Coğrafiya elmi aparatının funksional reallığının təyini ilkin olaraq onun daimi hərəkətdə olmasıdır. Coğrafi sistemdə baş verən dəyişkənlik (hərəkət) arasında müəyyən səviyyədə dialektiklik çərçivəsinin funksional ideal modellərinin dinamik təbiəti mövcuddur. Coğrafiya elmi kontekstində funksional struktur paradiqması önəmi istiqamətində Çorli[48] (Chorley), Kennedi[49] (Kennedy) tərəfindən morfoloji-statistik informasiyaya uyğun tipoloji varintlar irəli sürmüşlər.




***Coğrafi strukturun funksional paradiqma tipləri***

**D** = Dayanıqlı struktur **G** = Coğrafi məkan struktur

A; B; C = struktur funksional tipləri

F = giriş L= çıxış

[47] "Kardinal dəyişkənlik"= ifadəsi cəmiyyətin (qlobal sosium) yeni keyfiyyət mərhələsinə keçid anlamı daşıyır.

[48] Chorley R.J. Directions in geography. London,1973.

[49] Kennedy B.A. Physical geography. London, 1974.

Elmi araşdırmalarına əsasən funksional struktur topoloji olaraq: dayanıqlı və coğrafi məkan sisteminə ayırmaq olar. Dayanıqlı strukturlar coğrafi mühitlə dialektik əlaqəli formada həyata keçirilir. Coğrafi məkan sitemində maddi varlığının dinamik səviyyəsi və coğrafi obyektlərarası enerji mübadiləsi baş verir. Dialektikanın fonunda isə elmin perspektiv inkişafının dəyərli və konseptual ərazi struktur funksiyalarının formalarının effektliliyi yaranır.

Funksional idrak struktur paradiqma tipləri (dayanıqlı; coğrafi məkan) coğrafiya elminin fundamental, praktiki gerçəkliyini fəallaşdırır və tədqiqat obyektinin informasiyasını zənginləşdirir.

Coğrafiya elminin tədqiqat "orqanizm"də struktur paradiqmasının praktiki istiqamətli araşdırmaları bütün dövrlər üçün xarakterik olmuşdur. Coğrafi məkan strukturuna dair funksional sistem təsnifat göstəricilərinin elmi-praktiki məzmuna çevrilməsinə dair ideyalar önəmlidir. Təhlillər göstərir ki, coğrafiya elmi idrakın funksional struktur-sisteminin tədbiqi olmadan müəyyən səviyyədə elmi-praktiki nəticələrə gəlmək qeyri-mümkündür. Ellison və Lindmiqin (ABŞ) tədqiqatlarında göstərir ki, "biz atom və ya kosmos əsrindən daha çox struktur- sistem əsrində yaşayırıq".

- **Hərəkətverici və korreksiya coğrafi-sistemin effektliyi**

Aparılan araşdırmalarının nəticələrinə əsasən dialektik coğrafiya elminin tədqiqat obyektində funksional-sistem differensiyasının dinamik və coxşaxəli miqyas çərçivəsini özündə birləşdirir. Məntiqi baxımdan dialektik coğrafiya elminin çoxşaxəli nəzəri çərçivəsinin əsasının önəmində = "coğrafi resurs mühitinin potensialı və dayanıqlı inkişaf" = optimal modelinin təşkilinin konsepsiyasını əhatə edir.

Təhlil metodlarının (xüsusən optimal metodları) əsas prinsiplərinin nəzərə alınması coğrafi-sisteminin resurslarından istifadə edilməsi elmi xarakter kəsb edir. Məsələ ondan ibarətdir ki, təhlil metodu konkret elmi aksiomların deyil, ehtimallar metodlarının praktiki fəaliyyətinin tədbiqinə əsaslanır.

Optimal modelinin təbiətində mövcud olan nisbətlər çox sayda individual xarakterlərə və coğrafi çoxxətli dəyişkənliklərinə malikdir. Bunu nəzərə almaq şərti ilə çoxxətli dəyişkənliklərini optimal modelindən istifadə etməklə coğrafi-sistemin effektliyinin dərəcəsini müəyyən etmək olar.

Problemə məntiqi yanaşıldıqda hərəkətverici və korreksiya coğrafi-sistemlərinin çox mühüm elmi-metodoloji nəticələrinə gəlmək mümkündür. Hər bir yanaşmanın özünəməxsus tədqiqat sahəsi və məntiqi izahı vardır. Hərəkətverici coğrafi-sistem = ərazi-istehsal sistemlərini xarakterizə edən taksonomik

vahidlərini təhlil edir. Fikrimizcə, coğrafi-sistemin struktur aparatının təlimi-nin coğrafi məkana baxışlarının kompleks inkişafının effektliyi ilə bağlıdır. Digər tərəfdən isə bu kompleks inkişafa həm də nəzəri-metodoloji baxımdan diqqət yetirilməlidir. Əsas istiqamət ondan ibarətdir ki, coğrafi-sistemin gene-tik aparatının ümumi cəmiyyətşünaslıq elmi çərçivəsində akademik profilli tədqiqat sahəsinə çevrilməsini tələb edir. Bu səbəbdən də konstruktiv ideyala-rının əsaslandırılmasının məntiqi baxımından dialektik coğrafiya elminin fun-damental coğrafi-sisteminin hərəkətverici və korreksiya tədqiqat aparatınının formalaşmasına dair araşdırılmasını önəmə gətirilməlidir.

Coğrafiya elminin tədqiqat konsepsiyasına əsaslanaraq coğrafi sistemin aparatı, differensiyasının miqyası, ölçüsü, optimal idarə edilməsi, ilk növbədə müxtəlif istiqamətlər müəyyən edilməlidir.

**Coğrafi-sistem aparatı**




Coğrafi-sistem anlayışına elmi mənbələrində müxtəlif baxışlar mövcuddur. Təhlillər göstərir ki, problemə dair elmi baxışların arasında müəyyən fərqləri-nin olmasına baxmayaraq, ümumi mənada coğrafi – sistemlərin təlimi dialek-tik coğrafiya elmində daim diqqət mərkəzində olmuşdur. Tədqiqat obyekti ki-mi coğrafi-sistemin öyrənilməsi və praktikası öz funksiyasının mənasına görə nəzəri-metodologiyası ilə fərqlənmişdir.[50]

Elmi baxışlar çərçivəsində coğrafi-sistemin əsas vəzifəsi dayanıqlı ərazi və regional (qlobal) sistem strukturun, keyfiyyət və kəmiyyət səviyyəsinin müəy-yən edilməsindən ibarətdir. Coğrafi-sistem öz dialektik xarakterinə uyğun ola-

[50] Пространство циклов (сборник). М., 2007; Chishjlm M.F.General Systems Theory and Geography. Trans. İ.D.G., 43. 1999.

raq dinamikdir, daima "hərəkətdə"dir. Coğrafi sistemlər ölkənin istehsal strukturlarının kompleksli çərçivədə formalaşmasına səbəb olur.

Coğrafiya elminin tədqiqatlarında coğrafi-sistem həm nəzəri və həm də praktiki cəhətdən kifayət qədər təhlillər olunmamışdır. Əsas məsələ ondan ibarətdir ki, coğrafi-sistemin ritmilik səviyyəsinin təyini, onun diferensiyasının meyilləri, tipologiyası tədqiqat sahəsinə çevrilməsinə diqqət yetirilməlidir. Dialektik məna baxımından coğrafiya elminin funksional tipoloji tədqiqat meyilləri dayanıqlı inkişafının tipoloji faktoru (hərəkətverici və koreksiya sistemləri) mühüm mövqe üstünlüyü ilə fərqlənir. Tipoloji faktorunun əsas elmi mövqe üstünlüyünün mahiyyəti – struktur komponentlərinin riyazi-matris proqramlaşdırılması ilə ölkənin inkişafının dinamikası, ərazi resurslarının optimal səviyyədə istifadə edilməsi və idarəetmə formalarından ibarətdir.

Tipoloji dialektik coğrafi-sistemin strateji tədqiqatının parametrlərinin təyini və funksional təsnifatı konstruktiv məzmuna malikdir. Problemin həlli ilk təsnifatda = strateji dayanıqlı inkişafda = baş verən tipoloji sistem dəyişikliklərin proqnozunun məntiqi çərçivəsinin müəyyən edilməsidir. Əsas ideya istiqamət: elmi tədqiqatlarda baş verən keyfiyyət dəyişkənliyinin əhəmiyyətli nəzəri və funksional coğrafi-sistemlərinin təsiri mexanizmlərinin müəyyənləşdirilməsi və praktiki konsepsiyaya uyğunlaşdırılmasından ibarət olmasıdır.

Bununla yanaşı coğrafi-sistem aparatının genetik çərçivəsinin miqyasına dair radikal yanaşmalar da mövcuddur. Əsas radikal yanaşma ondan ibarətdir ki, dialektik coğrafiya elminin tipoloji aparatının formalaşması miqyasında genetik sisteminə geniş diapazonlu əlaqələrinin daxil edilməsindən ibarət olmasıdır. Bir qrup alimlər isə genetik tipoloji funksional sfruktur modelinə bir mənalı yanaşmırlar. Ümumi formada coğrafiya elminin genetik aparatı, inkişafın dialektik ierarxiyasının formalaşma prosesinə məruz qalması ilə fərqlənir. Fikrimizcə, dialektik coğrafiya elminin tədqiqat prosesində coğrafi-sistem aparatının təyini və elmi-metodoloji parametrlərinə dair müəyyən səviyyələrdə araşdırmalara ehtiyac duyulur.

## ▪ Sinergetika və coğrafiya elmi tədqiqatın çağırışları

Coğrafiya elmi tədiqatının idrak gerçəkliyində özünütəşkil edən çoxfunksional strukturlarının idarə edilməsinin mühüm əhəmiyyəti vardır. Bu sahədə özünə geniş məzmun almış sinergetika (lat. "birgə fəaliyyət") elmi yanaşmanın əhəmiyyəti və dialektik mövqeyi vardır. "Senergetika" məfhumu ilk dəfə elmə alman tədqiqatçısı G.Haken gətirmişdir. G.Haken sinergetikanı yeni "tədqiqat istiqaməti" kimi göstərərək: "Mən bu sahənin ümumi təsvirini ver-

dikdən sonra bu tədqiqat istiqaməti bir qədər başqa şəkildə və müxtəlif adlar altında təklif olunmuşdur.” [51]



**G. Haken:** *alman, nəzəri fizika alimi*
Sinergetika elminin banisidir. Elmlərarası sistemin birgə fəaliyyəti ilə elmin idarəedilməsi problemlərini əsaslandırmısdır.

Coğrafiya elmdə tədqiqatın və onun reallıqları özünütəşkiletmə funksiyalarının öyrənilməsində sinergetika elminin bəzi zidiyyətlərinə baxmayaraq, dəyərlərindən istifadə edilməsi metodoloji məzmuna malikdir. Elmlərin rasional ideyalarının birgə fəaliyyəti ilə coğrafiya elmində tədqiqatlarının aparılması aktual məsələ kimi qəbul olunur.

Məlumdur ki,sinergetika kompleks[52] strukturlarının özünütəşkili haqqında elmdir. Kompleks təbii-dinamik struktur fonu: (məsələn, təbii zonalar, iqlim dəyişkənliyi, istehsal tsikllər) qeyri-xəttidir və xətti funksiyalarından fərqli olaraq ən kiçik dəyişkənlik böyük, gözlənilməz nəticələrə gətirib çıxara bilər. Başqa ifadə ilə desək, dinamik coğrafi kompleklər “zaman-məkan” dəyişkənliyinə malik olub, struktur sahələrinin davamlığı ilə fərqlənir.

Təhlil zamanı G.Hakenin sinergetika təliminə əsaslanaraq dialektik coğrafiya elmi tədqiqatları üçün aşağıdakı önəmli məsələlərinə aydınlıq gətirə bilərik. Sinergetik yanaşma tərzi ikin olaraq = “coğrafi mühit–cəmiyyət” vəhdədinin reallıqlarını, harmoniyasını və dialektik coğrafiya elminin metodologiyasında idrak formalarını aktivləşdirir. İkinicisi, sinergetika – coğrafiya elmində dayanıqlı inkişaf kodunun yeni dialoqu, coğrafiya elmi təliminin kompleks idarəedilməsi üsuludur. Məsələ ondan ibarətdir ki, coğrafiya elmi tədqiqatlarda sinergetik metodologiya müxtəlif elmlərin tədqiqatlarının birləşdirilməsindən deyil, qlobal məzmunlu sintetik elmi mənbələrindən tədqiqat prosesində kompleks istifadə edilməsindən ibarətdir. Üçünçü isə coğrafiya elmi mənbələrində biliklərin dərk edilməsində elmlərin differensiyası təlimi tədqiqatçıların nəzərindən yayılmış, yeni bir metodoloji yanaşmalarının sinergetika elminin vasitəsilə fəallıq göstərir.

---

[51] Г.Хакен. Тайны природы. М., 2003.
[52] Синергетическая парадигма. М., 2002.

Bu baxımdan coğrafiya elminin sinergetik baxışları müxtəlif elmlərin (fizika, geologiya, riyaziyyat, iqtisadiyyat, sosialogiya, kibernetika və s.) sərhədləri deyil, onların ideya mənbələrinin vəhdətindən istifadə etməklə formalaşmışdır. Buna görə də sinergetikanın ümumi təlimlərindən coğrafiya elmi mənbələrində metodoloji əsas kimi istifadə edilməsi məqsədəuyğundur.

Sinergetika elmi ilə coğrafiya elmi arasında dayanıqlı bir ritmik mühit mövcuddur. Coğrafi məkanda formalaşan özünütəşkiletmə funksiyalarının qanunauyğunluqlarının sinergetika təlimi ilə öyrənilməsini düzgün yol hesab edirik. Coğrafiya elmində istifadə edilə bilən məsələlərindən biri də sinergetikanın elmi-metodoloji və nəzəri ideyalarının praktikasının gerçəklikləridir.

Coğrafiya elminin ilkin tədqiqat mənbəyində ərazi sistemlərin olduğunu nəzərə alsaq, o zaman sinergetikanın coğrafi obyektlərinin komplekslilik strukturlarının dinamikası və onun ərazi təşkiliinin nəzəri praktiki istiqamətləri daha effektli sayılır. Sinergetikanın təliminə uyğun olaraq coğrafi məkanda dinamik-sistem proseslərini aşağıdakı kimi dərk edilməsi mümkündür :

- *coğrafiya elmi tədqiqat obyektinin təhlilində dinamik proseslərinin dialektik vəhtədindən ibarətdir;*
- *coğrafi məkanda dinamik sistemlər qeyri-bərabərdir;*
- *dinamik inkişaf coğrafi məkanda kəmiyyət-keyfiyyət dəyişikliklərinin davamlı olaraq baş verməsi xarakterikdir.*

Yuxarıdakı mülahizələrini nəzərə alaraq, coğrafiya elminin metodoloji anatomiyasının mənbəyi üçün mühüm cəhətlərini də göstərə bilərik. Sinergetika – coğrafiya elminin konstruktiv tədqiqatlarının aparılmasında struktur harmoniya yaradır. “Coğrafi mühit-cəmiyyət” in dialektikasında real baxışlar sistemini gerçəkləşdirir və coğrafi məkan funksional strukturnun optimal səviyyəsini tamamlayır.

Mühüm məsələlərindən biri də sinergetikanın elmi mənbələri coğrafiya elmi üçün yeni tipli metodologiya kimi faydalıdır. Bu metodologiya təbiət və cəmiyyətdə baş verən proseslərlə ərazi sistemlərinin arasında dialoq yaratmaq qabiliyyətinə malikdir. Praktiki olaraq sinergetika elmi dəyərlərin keyfiyyət metodologiyası dialektik coğrafiya elmi baxışlarının empirik və nəzəri biliklər sisteminin əhatə dairəsini genişləndirməsinə imkanlar yaradır.

Coğrafiya elmi idrakın forması, biliyin sistemli təşkili və məntiqi ardıcılığını əks etdirilməsində sinergetika elminin əsaslarına söykənməlidir. Dialektik əsaslara söykənən elmlər sistemində coğrafiya elminin özünəməxsus sinergetik baxışlar sisteminə malikdir. Məntiqi olaraq coğrafiya və sinergetika metodoloji cəhətdən bir-birinə dilalektik əlaqələrlə bağlıdır. Onların genetik fərqi ondan ibarətdir ki, coğrafiya elminin əsasını “ərazi sistemlər-enerji-dəyiş-

kənlik" kodu, sinergetikanın nüvəsində isə sistemin əlaqəsinin xaos vasitəsilə formalaşdıran "xaos–nizam" kodu mövcuddur

Coğrafiya elmi təfəkkürün klassik baxımından ərazi sistemlərin qeyri–tarazlıq vəziyyətlərinə üzün bir dövr ərzində neqativ hal kimi qəbul edilirdi. Mürəkkəb ərazi sistemlərə klassik zəkanın təsnifatında xarici təbii hadisələrin nəticəsinin sxeminə xətti xaraketerinin formasında dərk edilməsi coğrafiya elmində aktuallıq kəsb edirdi. Ərazi strukturlara (obyektlərə) klassik yanaşma ilə müqayisədə coğrafi sinergetika hadisə və proseslərə qeyri–xətti, yeni rakursdan dərk etməyə imkanlarının yaratmaq funksiyasına malikdir.

Üçüncü önəm

# Coğrafi–iqtisadi elmi təfəkkürün rasionallığı

## ▪ “Coğrafi - iqtisadi təfəkkür” elmi tədqiqat anlayışın mədəniyyəti

Coğrafi-iqtisadi elmi tədqiqat mədəniyyəti: coğrafi model funksiaları və davranışları ilə fərqlənən radikal institusional dialektik ərazi və iqtisadi biliklər sistemini özündə birləşdirir. Radikal ərazi-iqtisadi model sistemləri nəzəri və praktiki təsnifatda biri digərindən tədqiqat obyektininin fərqlənməsinə baxmayaraq, məntiqi olaraq vahid ümumi coğrafiya elminin tədqiqat sahəsi kimi fəaliyyət göstərir. Dialektik coğrafiya elminin çoxsaylı tədqiqat variantlarının müxtəlifliyinə baxmayaraq, məsələyə konstruktiv formada yanaşsaq coğrafi-iqtisadi tsiklinin tədqiqat obyektində ərazi (coğrafi) resurslarının konteksti və sektorial iqtisadi bölgüsü əsas parametr kimi qəbul edilir.

Ərazi resurs tsiklinin dialektikasını təhlil etmədən, onun potensial imkanlarının təyinatına yönəldilən ideyalara söykənmədən iqtisadi dayanıqlı inkişafa nail olmaq imkanı məhdud formaya çevrilə bilər. Coğrafi-iqtisadi təvəkkürün fonunda: nəzəri və praktiki əsaslarla ərazi resursların potensialının təyinatında iqtisadi tədqiqat mədəniyyətinin ərazi təşkilinin formaları və optimallığının rasional parametrləri meydana gəlir. Bu səbəbdən də iqtisadi inkişafın sektorial təsnifatını gerçəkləşdirə bilən “coğrafi-iqtisadi təvəkkür” anlayışına yeni prizmadan, radikal çağrışlara ehtiyacı duyulur.

Coğrafiya elminin nəzəri və metodoloji reallıqlarına uyğun iqtisadi tədqiqat mədəniyyəti = ilkin olaraq konseptual coğrafi & iqtisadi dialektik funksiyanal əlaqələrinin diverensiyasının mənbələrinə söykənərkən optimallığının artırılmasına səbəb olur və nəticədə isə ölkənin şoxfunksional struktur formalarının effektliyini təmin edir. Nəzəri-metodoloji yanaşma mədəniyyətinə söykənən coğrafiya və iqtisadiyyat elmlərin özünəməxsus idrak formalarının uzlaşması ilə yanaşı, hər bir ölkənin ərazi- istehsal sahələrinin idarəedilməsi və optimal səviyyədə təşkilinə nəzərə alsaq, o zaman aparılan kompleks araşdırmalar səmərə vermək iqtidarına malik olması üzrə fərqlənir. Məntiqi nəticə ondan ibarətdir ki, coğrafi obyektləri idarə etməklə onun nəzəri & tədbiqi ideyaları-

nın miqyasının həllinə çevirə bilən rasional metodlarının tədbiqi effektliyinin önəmə gətirilməsi ilə yekunlaşır.[53]

Coğrafiya elmi tədqiqat mədəniyyətinin metodoloji baxış fələsəfəsinə radikal yanaşmaq ideyasına əsaslanmaq lazımdır. Fikrimizcə, ideya istiqamət onunla izah olunur ki, coğrafiya elminin metodoloji baxış fəlsəfəsinin əsasını "coğrafi zaman & coğrafi məkan", "dayanıqlı inkişaf & ərazi-istehsal tsikl"in dialektikasını əhatə etməklə yeni elmi məzmun kəsb etməsidir.

Coğrafi-iqtisadi tədqiqat çağrışının" coğrafi zaman & coğrafi məkan" differensiyasının dialektik idarəetmə mədəniyyətinin obyektivliyinin ümumi iqtisadi-sosial inkişafının qanunauyğunluqları ilə bağlıdır. Praktika göstərir ki, hər bir ölkənin (regionun) coğrafi-iqtisadi tədqiqat mədəniyyətnin əsasında yaradılan kompleks proqramlarının tətbiqi, obyektiv strateji məqsədlərə nail olamaq imkanına malik olur. Ona görə də bir məna yanaşma: "dayanıqlı inkişaf & ərazi-istehsal tsikl" coğrafi-iqtisadi idarəetmə mədəniyyət təfəkkürünün konseptual və struktur hərəkətinin praktiki dəyişdirilməsi inkişaf etmiş ölkələrinin yaranmasına səbəb olan faktorlarından sayılır.




Coğrafi-iqtisadi elmi mədəniyyət çərçivəsinin sərhəddi = dialektik "coğrafi məkan & dayanıqlı iqtisadi inkişaf" oxu boyunca ardıcıllıq və dinamik transformasiyanın tsiklli strukturun mövqeyini nümayiş etdirir. "Coğrafi məkan & dayanıqlı iqtisadi inkişaf" dialektikasının sərhəddinin təyinində coğrafi-iqtisadi elmi mədəniyyətini öyrənmədən və onun elmi-praktiki mahiyyətini dərk etmədən ümumi inkişafa nail olmaq qeyri-mümkündür.

Coğrafi-iqtisadi mədəniyyətin sərhədinin təsir funksiyası çoxvariantlı olduğu üçün hadisə və proseslərə konstruktiv yanaşmasını tələb edir. Məsələnin elmi mahiyyəti ondan ibarətdir ki, coğrafi-iqtisadi təvəkkürün ərazi & istehsal struktur kompleksinin dialektik əsaslarını tədqiq edən elmlər sistemi daha aktual məsələrinini tədqiq edir. Buna görədə, iqtisadiyyat elmi təvəkkür ilə coğ-

[53] A.A.Qurbanzadə. Regionalogiya. Bakı, 2013.

rafiya elmi təvəkkür arasında özünəməxsus məntiqi tədqiqatın mədəniyyət fərqləri mövcuddur.

Bu məqsədlə aşağıda göstərilən müəyyən səviyyə çərçivəsində terminoloji təsnifatının məqsədyömlü əsasla **<u>coğrafi-iqtisadi təvəkkürün</u>** fərqli cəhətlərinə aydınlıq gətirilməsini məqsədəuyğun sayırıq.




Yuxarıda göstərilən ideya yanaşmasının məntiqi ondan ibarətdir ki, ümumi inkişafa doğru aparılan coğrafi və iqtisadi tədqiqatlar sisteminin oxu istiqaməti daha effektli və optimal sayılır. Optimallıq səviyyəsinin əsasında coğrafi-iqtisadi tədqiqat mədəniyyətinin önündə ölkənin praktiki-strateji reallıqlarının vəhdətini özündə ehtiva edir. Məsələ ondan ibaraətdir ki, bu vəhdət ölkənin iqtisadi-sosial strukturunun kompleks ərazi təşkili formalarının müəyyənliliyində aktivlik nümayiş etdirir. Bu səbəbdən də, coğrafi-iqtisadi təvəkkürə əsaslanan hər bir ölkənin (regionun) iqtisadi inkişafının strategiyasına, ərazi təşkilinin dayanıqlı formalaşmasına, potensial imkanlarının artırılmasına doğru məqsədinə xidmət edir.

Müxtəlif istiqamətli elmi tədqiqatlarla yanaşı, peşəkar kreativ resurs potensialının hazırlığının hesabına ölkənin dayanıqlı iqtisadi-sosial və siyasi inkişafına nail olmaq məqsədi üçün daha effektlidir. Önəm ondan ibarətdir ki, tədqiqat "texnologiyası"metodunun "tələb & təklif" sisteminə uyğun gələn coğrafiya elmi təfəkkür ilə iqtisadi tədqiqatlarının uzlaşması nəticəsində ölkənin potensial imkanlarına geniş miqyasda effektli mühitinin artırılmasını tələb edir. "Tələb & təklif" tədqiqata söykənən istehsalın ərazi təşkili və idarəedilməsi məntiqinə uyğun olaraq yeni iqtisadi-sosial nəticələrinin alınmasına imkan verən coğrafi və iqtisadi resurs mənbəyindən kompleks (klasterial) məzmunda istifadə edilməsi hər bir ölkənin (regionun) əsas məqsədlərindən sayılır.

Coğrafiya elminin metodologiyasında empirik və konseptual tədqiqatlar üçün coğrafi-iqtisadi təvəkkür müstəsna əhəmiyyətə malikdir. Problemin həlli

onunla ölçülür ki, coğrafiya elmi təfəkkür tədqiqatın optimal səviyyəsində reallıqları müəyyənləşir və onun “təbii resurs-istehsal “sferası həcmində ölkənin “güc qüvvəsi”ni hərəkətə gətirir. Coğrafi tədqiqatının nəzəri nəticələrinin məzmununu əhatə edən elmi təfəkkür xaotik formada deyil, məsələyə konstruktiv yanaşma tərzini, qarşıya qoyulan ideyaları düzgün dərk etməyi və onların ərazi təşkilinin praktiki yollarına aydınlıq gətirməkdən ibarətdir. Məntiqi olaraq, coğrafiya elmi idrakının rasional metodologiyasına söykənməklə ölkənin iqtisadi əsaslarla idarəedilməsində “təbii resurs-istehsal” sferası fəallıq göstərir.

Coğrafiya elmi təvəkkürün yanaşma tərzinin məzmun və struktur fəlsəfəsinin ilkin iqtisadi təhlili onun elə komponenentlərini aşkara çıxarmağa imkan verir ki, bu komponentlər yalnız müəyyən bir subyektin deyil, eləcə də tədqiqat obyektin “enerji tutumu”nu müəyyən edir. Bu səbəbdən də coğrafi elmi idrak təlimində “enerji tutumun”un metodunun seçilməsi ilkin olaraq coğrafi tədqiqat obyektinnin xarakteri ilə səciyyələndirilməlidir. Məsələnin məntiqi səlisliyi onunla ölçülür ki, hər bir tədqiqat sahəsinin “enerji tutumu”ilə təhlil edilən elmin obyekti özünün tədqiqat “texnologiyası”nın, elmi yanaşma təhlillərinin məxsusi metodikasının tədbiqini tələb edir. Önəm ondan ibarətdir ki, tədqiqat “texnologiyası” metodunun tələbinə uyğun gələn coğrafiya elmi tədqiqat ilə iqtisadi tədqiqatların birgə, kompleks şəkildə aparılmasının effektliyini tələb edir.

- **Coğrafi - iqtisadi idrak məntiqinin qeyri-müəyyənlik halı**

Qlobal dayanıqlı inkişafının miqyasında coğrafi-iqtisadi idrak modellərinin və onlarda baş verən qeyri-müəyyənlik çərçivəsinin reallıqları ilə rastlaşır. Coğrafi-iqtisadi modellərinin informasiyasın mənbəyində olan qeyri-müəyyənlik halları başqa modellərdən köklü surətdə fərqlənir. Elmi cəhətdən təhlil apararkən mənbə kimi coğrafi-iqtisadi idrak modelinə aid aşağıdakı məzmunda yanaşmalarını, rasional mənbələrini və informasiyalarını göstərmək mümkündür.

| | | |
|---|---|---|
| D ⟶ | $D_1$, $D_2$, $D_3$ ... $D_n$ | D = Coğrafi idrak biliyinin “məhsuldarlığı”. |
| G ⟶ | $G_1$, $G_2$, $G_3$ ... $G_n$ | G = Qeyri-müəyyənllik modelinin keyfiyyət ifadəsi. |
| R ⟶ | $R_1$, $R_2$, $R_3$ ... $R_n$ | R = Qeyri-müəyyənlik modelinin informasiya mənbələri. |
| E ⟶ | $E_1$, $E_2$, $E_3$ ... $E_n$ | E = “Tələb-təklif” arasında rasional mənbələr. |

***Coğrafi idrak məntiqinin qeyri-müəyyənlik mənbələri.***

Qeyri-müəyyənliyinin təsnifatının əsasında coğrafi-iqtisadi struktur sahələrinin təşkili və idarə edilməsinin optimal variantlarının müəyyənləşdirilməsinə şərait yaranır. Bu variantların əsasında coğrafi-iqtisadi idrak funksional elementlərinin informasiya faktlarına istinad edilərək kompleks proqramların həyata keçirilməsinə reallıqlar yaradılır. Ona görə də variant proqnoz göstəricilərini ancaq müəyyən ehtimalda coğrafi-iqtisadi inkişafın funksiyalarının taktiki və faktiki göstəriciləri ilə üst-üstə düşə bilər.

Qeyri-müəyyənlik funksional proseslərinin ehtimal informasiyanın mənbəyinin tədbiqi, nəticələri qloballaşan cəmiyyətinin optimal inkişafı üçün ideya gerçəkliyinə çevrilmişdir. Bu səbəbdən də dayanıqlı inkişafın idarə edilməsində əsas problem qərarların qəbulu əsasında qeyri-müəyyənlik təsnifatının dialektikasında özünü biruzə verir.

Dialektik coğrafiya elmi araşdırmalarında qeyri-müəyyənliyinin təminatında siyasi, texnoloji, coğrafi mühit, sosial-psixoloji və s. faktorlar özünü tənzimləmə funksiyalarinda göstərir.



**F.Nayt**: *ABŞ iqtisadisadçı alimi.*
İqtisadi inkişafın qeyri-müəyyənlik ideyasını təklif etmişdir. Müasir dövrdə qloballaşan cəmiyyətin dialektik önəmində qeyri-müəyyənlik yanaşmalarından geniş istifadə edilir.

Qeyri-səlis məntiq nəzəriyyəsinə görə (L.Zadə məntiqi) idrak sistemləri fizru sistemlərə aid edərək əsaslandırmişdır ki, insan düşüncə və biliklərinin əsas rol oynadığı humanistik sistemlərinin araşdırılmasında adi kəmiyyət təhlilinin metodlarını effektli hesab etmək olmaz

Coğrafi-iqtisadi idrak modelnin "məhsuldarlığı"nın artırılması, makrostruktur səviyyənin qorunması, monetar və fiskal siyəsətin koordinasiyasının,qlobal mühitinin yaxşılaşdırılması və s. effektli ideyalarının tədbiqinin əsaslandırılması prosesində qeyri-müəyyənliyin optimal mənbələri daha çox effektli hesab edilir.

Coğrafiya idrak məntiqinin informasiya məlumat və göstəriclər proseslərini xarakterizə edən tədqiqatlar göstərir ki, insanlar qərar qəbuletmə mərhələsində hər şeydən əvvəl sözlə düşünür. Bu da keyfiyyətin kəmiyyətlə əvəz edilməsində köməkçi rol oynayır**.**

Qeyri - müəyyənlik şəraitində qərarlarının qəbul edilməsinin "keyfiyyətlə ifadəsi" coğrafiya elminin mühüm dialektik tədqiqatın gerçəkliklərinin əsaslarına daxildir.

Qeyri-müəyyənliklə,qeyri-səlisliklə mübarizədə vaxti ilə formal məntiqin yaranması müvəffəqiyyət kəcb edilirdi. Bu sahədə tədbiq edilən məntiqi nəticələr ehtimal nəzəriyyəsinin yaranmasına geniş miqyasda imkan yaratmışdır.

- **İnnovativ coğrafi - iqtisadi tədqiqatın məzmunu**

İnnovativ coğrafi-iqtisadi idrak ifadəsinin təsnifatında: coğrafiya elmi müstəvisində iqtisadi inkişafın praktikasının həyata keçirilməsinin vəhdəti kimi anlayışlarını özündə birləşdirir. Bu vəhdət anlayışı innovativ tərəqqi və coğrafiya elmi təvəkkür təbiətinin iqtisadi struktur funksiyalarının miqyası ilə ölçülür:

*resurs potensialının "kəmiyyət - keyfiyyət" transformasiyasının elmi-texniki və intellektual tədbirlər sistemi kimi qəbul edilir;

*qlobal-innovativ "reaksiyası"nin dayanıqlığında "ərazi-istehsal tsikllik" ritminin dinamik kompleks prosesidir və s.

Müasir dövrün tələbləri baxımdan innovativ coğrafi-iqtisadi inkişafının səviyyə göstəricilərinin əhəmiyyətli dərəcdə dəyişiklikləri qlobal məzmunla ifadə olunur. Məsələ ondan ibarətdir ki, inkişaf etmiş makrosənaye ölkələrin sıraları (ABŞ, Yaponiya və s) "bilik iqtisadi inkişafı"nın optimallıq səviyyəsinin yüksəlməsinin nəticəsində dünyanın"güc qüvvəsi"nə çevrilmişdir. İnnovativ-texnologiyalarının tədbiqi siyasətinin nəticəsində dünya iqtisadiyyatının inkişaf sferasında çalışanların xüsusu çəkisinin qloballaşan cəmiyyətinin bir hissəsinə çevrilməsinə cəbəb olmuşdur.[54]

İnnovativ makrosənaye ölkələrinin davamlı inkişafına paralel olaraq şaxələnmiş ərazi-istehsal struktur tsikllərin sərhədlərinin "coğrafi genişləndirilməsi" siyasəti həyata keçirilir. Buraya daxildir: elmtutumlu, kapitaltutumlu və eləcə də xammal tutumlu makroiqtisadi struktur sahələrinin ərazi təşkili və şaxələnmiş iqtisadi strukturun diversifikasiyasının müəyyən edilməsi və s.

Müasir dövrdə dünyanın yüksək texnologiyalar bazarı ildə 2,5 trilyon $ həcmində qiymətləndirilir. Bunun 39%-i ABŞ-ın, 30%-i Yaponiyanın, 16%-i Almaniyanın, yerdə qalan dövlətlərin payına isə 15% düşür.

Dünya dövlətlərinin siyasi mövqeyi intellektual potensialının yüksəldilməsinə, texnologiyalarının yaradılmasınaüstünlük verirlər.

Fransa tədqiqatçısı M.Korzye göstərir ki, dünya hazırki mərhələdə istehsalda prioritet əhəmiyyət kəsb edən insan amilinin irəli çəkilməsindən ibarətdir. Bu o deməkdir ki, müasir rəqabət bazarında hərtərəfli yeniləşməyə görə mübarizə gedir. Burada insan resurslarının mərkəzi rolunun dərk edilməsi, yeni texnoloji ideyalarının praktikası, elmtutumlu məhsullarının istehsalı ön plana çəkilir.

[54] Динамическая теория информасия. М., 2012.

Məsələ ondan ibarətdir ki, coğrafiya elminin kompleks tədqiqat prosesinin miqyasında iqtisadi siyasətin konturlarının inkişafında innovativ proseslərinin tədbiqi daha çox aktivlik nümayiş etdirir. Aktiv mövqeyə malik olan innovativ funksiyalarının əsaslandırılması prosesinin elmi təhlilində *"qlobal informasiya indeksi"* metodiki miqyasından istifadə olunur (Metricinet.com "The Global New Economy Index:a Cyber-Atlas", 2-nd edition, 2000).

Qlobal informasiya indeksindən istifadə əsasında aparılan təhlillər göstərir ki, ABŞ-ın texnoloji yenilikləri və bunun nəticəsində formalaşan innovativ strateji-iqtisadi mexanizminin əsasını təşkil etdiyi üçün dünyanın lider ölkəsinə çevrilməsinə səbəb olmuşdur. Belə ki, ABŞ-ın ÜDM-də elektron ticarətin xüsusi çəkisi 15.6%-ə bərabərdir. Yaponiya informasiya iqtisadiyyatı indeksinin tempinə görə ikinci yerdə durur. Yaponiya iqtisadiyyatının qloballaşma indeksi də maksimum səviyyəyə çatmışdır.

Şimali Avropa ölkələri (İsveç, Norveç, Belçika, Finlandiya) kifayyət qədər telekommunikasiya sferasının dayanıqlığı ilə fərqlənirlər. Asiya ölkələri son dövrlərdə (Çin, Hindistan, Sinqapur, İndoneziya və s.) innovativ iqtisadi inkişafının telekommunikasiya sahələr üzrə fəallıq göstərirlər. İnkişafın qeyribərabərliyi və qlobal assimmetrikliklə yanaşı ayrı-ayrı ölkələrinin (İsrail, Rusiya, Braziliya, Argentina və s.) innovativ iqtisadi inkişafa malikdirlər. [55]

Son dövrlərdə "insan resursları = kapital resursları = təbii resursları = texnoloji resursları" strategiyası əhəmiyyətli dərəcədə transformasiyaya məruz qalmışdır. Bunun müqavilində qlobal miqyas çərçivəsində innovativ iqtisadi inkişafın təkamülü üçün "Elektron kommersiya üzrə qlobal dialoq çərçivəsi", "Qlobal internet-layihə çərçivəsi" və s. konstruktiv tipli layihələr tətbiq olunmaqdadır.

İnnovasiya fəallığının praktikasında TMK-ın mühüm metodiki proqramları həyata keçirilir. Yaponiyanın "Soni" TMK-nın ilkin mənbəyi kiçik emalatxana (1946-cı ildə) radioqəbuledicilərin yığılması ilə məşğul olmuşdur. Sonrakı illərdə şirkət tərəfindən dünya bazarlarında analoqu olmayan məhsulların istehsalına, məhsulun keyfiyyətinə və s. diqqət yetirilmişdir. Məsələ ondan ibarətdir ki, "Soni" kompaniyası hər il elmi-tədqiqat və sınaq layihələri işləri üçün texniki laboratoriyalara milyardlar sərf edir.

Dünyanın ən qabaqcıl TMK-dan biri ABŞ-ın İBM "İnternational Bussines Machines"-dir. Onun illik gəliri 5,3 milyard $ hesablanmışdır. İBM-in inkişafının səbəbləri işgüzarlıq mədəniyyətinin yüksək olması ilə əlaqələndirilir. Korporasiyada istehsal olunan məhsul, onun istehsal həcmi, işçilərin sayı, is-

[55] Qurbanzadə A.A. Dünya ölkələri: Siyasi-iqtisadi və dialektik coğrafiyası. Bakı, 2013.

tehsal texnologiyası dəfələrlə dəyişmiş və dəyişməkdədir. Lakin, korporasiyada dəyişməz bir şey vardısa, o da onun işgüzar fəaliyyət prinsipləridir. İBM yaradan Uiltsonlar ailəsinin “Biz mənəviyyatımızdan başqa hər bir şeyi dəyişirik” ifadəsi bütün dövrlər üçün əsas ideya mənbəyi hesab edilir.

- **Coğrafi - iqtisadi “ideal” model funksiyasının rasionallığı**

Təklif etdiyimiz ideyanın əsas elmi-praktiki mahiyyəti ondan ibarətdir ki, coğrafiya elminin öyrəndiyi funksional iqtisadi “ideal” modelinin diversifikasiyasının tsiklləri yeni məntiqə söykənir. Məntiqi məzmunu ondan ibarətdir ki, funksional tsiklinin “ideal” model informasiyası effektlik yaradır, bununla yanaşı coğrafi-iqtisadi inkişafının fonunda “energetik güc”ün formalaşmasını tamamlayır. Bu səbəbdən də “ideal” model ölkənin dayanıqlı iqtisadi-sosial və siyasi inkişafın təsadüfi ideyası deyil, o, bütovlikdə cəmiyyətin dialektikasının təbii vəhdədi kimi fəaliyyət göstərir.[56] Dayanıqlı inkişaf fonunda baş verən “energetik güc”ün dəyişkənliyinin cazibə qüvvəsinin miqyasının çərçivəsində regionun (ölkənin) struktur modelinin “məhsuldarlığı”nın rəqabətqabiliyyətliyini aktivləşdirir.

Dayanıqlı inkişafın “ideal” *modeli* və onun tsiklli diversifikasiyası sosial-iqtisadi inkişafının şaxələnmiş sahələrinin ərazi təşkilini təmin edir. Qlobal struktur siyasətində baş verən dəyişikliklər prosesi duzxətli asılılıq üzrə deyil, dialektik hərəkət çərçivəsinin tsikllinin asıllıq gerçəkliyinin fonunda dəyişilir. Bu asılılıq səbəbindən də ölkənin iqtisadi inkişafında baş verən dəyişikliklər prosesinin “zəncirvari” (tsikli) struktur funksiyalarını özündə birləşdirir.

Elmi təhlilin fonunda “ideal” model: şaxələnmiş ərazi-istehsal strukturunun dayanıqlı inkişafının (istiqamətlənmiş) nəzəri = modelidir. Nəzəri “ideal” modelinin dayanıqlı inkişafında “hərəkətverici ideya” ərazi-istehsal diaqnostikasının bazisi hesab edilir; funksional modeli isə ərazi-istehsal diaqnostikasının ümumi dayanıqlı tendensiyaya əks səviyyədə dəyişməsinin funksiyalarını özündə birləşdirir.

*“İdeal” model* = hər bir ölkənin optimal inkişafının elə bir sistemdir ki, o tədqiqat obyektini əks etdirməklə yanaşı, dialektik coğrafiya elminin tədqiqatının məzmununda praktika ilə uzlaşmasını təmin edir və onu aktivləşdirir. Bu səbəbdən də “ideal”model ümumi coğrafiya elminin tədqiqat metodologiyasının hərəkətverici mənbəyidir.

[56] Qurbanzadə A.A. Regionalogiya. Bakı, 2013.

Funksional "ideal" modelinin anatomiyasının müqayisəsi göstərir ki, hər bir tsiklli inkişafın tərəqqisi və ya tənəzülü hərəkətin "tədqiqat & praktika" səviyyəsi ilə bağlıdır. Bu ideyanın elmi-praktiki əhəmiyyəti ondan ibarətdir ki, tsiklli inkişafının dəyərləri ön plana çəkilir və bəşəri xarakterə çevrilməsi ilə əlaqələndirilir. Bu çevrilmələr öz təbiəti etibarilə coğrafiya elminin nəzəri tədqiqat obyekti olub ərazi resurslarının kompleks istifadəsində struktur sahələrinin optimal səviyyəsini müəyyən edir.

Ərazi-istehsal strukturunun optimal təşkili, idarə olunmasının kompleksliyində funksional coğrafi "ideal" modelinin qurulması və praktikada istifadə edilməsi coğrafiya elmi tədqiqatlarının effektli aparılmasında mühüm əhəmiyyəti vardır. Bu səbəbdən də "ideal" modelinin əsasında nəzəri coğrafiya elminin məntiqində funksional struktur siyasətinin həlli yollarında imkanlarının yaranmasıdır.

Coğrafi-iqtisadi "ideal" modelin reallıq dərəcəsi göstərir ki, təbii xammal resursları ilə zəngin olan İEOÖ inkişafına uyğun optimallıq səviyyəsi daha çox yüksək göstəriciyə malik olmur. Dayanıqlı inkişaf konsepsiyasının ümumiləşmiş strategiyasının gerçəkliyinə uyğun olaraq inkişaf etməkdə olan ölkələrdə baş verən konyuktur dəyişkənliklər resurslardan kompleks istifadə edilməsinə mənfi təsir göstərir.

İnkişaf etmiş sənaye ölkələrində "ideal" modelinin təminatında resurs potensialından kompleks istifadə edilməsi səbəbindən struktur sistemləri dayanıqlı iqtisadi güc qüvvəsinə çevrilməsinə səbəb olmuşdur. Buraya daxildir = resurslardan elmi əsaslarla istifadə edilməsi, istifadə edilən resursun "kəmiyyət-keyfiyyət" potensialının yüksəldilməsi; istehsal tsikllərinin əsasında ərazi-iqtisadi kompleksinin optimallığının yaradılması; bazar konyukturunun iqtisadi-sosial təminatı və s.

Resurs potesialından "kəmiyyət-keyfiyyət" kontekstində kompleks istifadəsinin nəticəsində ÜDM-lun effektli idarəedilməsi ilə yanaşı, ölkənin ərazi-istehsal strukturunun "ideal" modelinin yaradılmasının təminatında da iştirak edir. Bu təminatının ideya motivi ondan ibarətdir ki, "ideal" modelinin əsasında elmtutumlu və yüksək texnologiyaya əsaslanan, rəqabətədavamlı və ixracyönümlü məhsullarının istehsalına nail olmaqdan ibarətdir.

Elmi mənbələrinin təhlilləri və ümumiləşdirilmiş göstəricilərə əsasən qloballaşan iqtisadi-sosial dayanıqlı inkişafının əsasında **dialektik coğrafiya elmində dörd "ideal"** modeli (**R**) daha effektlidir:




*Bilik istehsal edən model* (**G**) BMT-nın ekspertlərinin təhlillərinə əsasən bilik istehsal edən ölkələrinin qloballaşma mühitində daha çox dayanıqlıqlı halları ilə fərqlənirlər (ABŞ, Yaponiya, Almaniya və s.).

*Texnoloji model* (**A**) Bu model bilik istehsal etmir, amma idxal edib, uğurla tədbiq olunur və texnoloji metodlarla çoxşaxəli və ixrac potensiallı məhsullarının istehsalına kompleks istimul yaradır.

*Xammalyönümlü model* (**D**) Bu model ilkin olaraq xammal ixracına yönəldilən ölkələr üçün daha şox xarakerli sayılır.

*Aqrar-sənaye kompleks modelin* (**L**) tərkibinə kənd təsərrüfatı məhsullarının texnoloji emalı, realizasiyası, qlobal bazar mühitinə uyğunlaşdırılması və s. daxildir.

Azərbaycanda aparılan “ideal” modeli siyasətinin nəticəsidir ki, makroiqtisadi sabitlik reallaşır, iqtisadi artım tempinə görə qlobal iqtisadi inkişafının dialektikası təmin olunmaq üzrədir. Bu sahədə bir cox elmi və iqtisadi beynəlxalq təşkilatlarının fəal üzvlərinin tərkibibənə daxil olmuşdur.

Azərbaycan beynəlxalq səviyyədə investisiya imkanlarına malikdir. Bu səbəbdən də ölkənin iqtisadi inkişafı maliyyə böhranına qarşı Mərkəzi Asiya regionunun əksər inkişafda olan keçid iqtisadiyatlı ökələrindən daha yaxşı davamlılıq nümayış etdirir. Məntiqi olaraq ölkənin təbii resurs potensialı həlli tam kəşf edilməmiş qalır. Azərbaycanın iqtisadi inkişafı səviyyəsi təbii resurslarından “ideal” modeli çərçivəsində faydalanmaqla yanaşı, son illərdə struktur siyasətinin diversifikasiyası həyata keçirilir.

**Dördüncü önəm**

## Dialektik coğrafiya elminin klassik nəzəri "yaddaş" kodları

- **Dialektik coğrafiya elmi "yaddaş"ın klassik moderinizm kodları**

Coğrafiya elminin formalaşmasında klassik modernzm[57] baxışlarının dəyərləndirilməsinin təsnifatını XIX əsrin axırı XX əsrin əvvəllərində yaranmış fəlsəfi cəryanlarının təsirinin nəticələri ilə əlaqələndirilir. Bu fəlsəfi modernizm cərəyanı XX əsrin ortalarından başlayaraq qərb coğrafiya elmi məktəblərində konstruktiv əsaslarla təhlilləri aparılmış və dəyərli mənbə kimi geniş istifadə edilmişdir. Modernizm fəlsəfəsinin inkişafında A.Şopenhauer, R.Vaqner, M.Veber və başqa qərb elmi tədqiqatçılarının xidmətlərinin mühüm əhəmiyyəti vardır.



**A.Şopenhauer**: *Polşa filosofudur*.
İdrak nəzəriyyənin banilərindən biridir. Onun fikrinə görə dünya ancaq zəka ilə dərk edilə bilər.

A.Şopenhauerinin[58] dünya ancaq zəka ilə dərk edililə bilər fəlsəfi düşüncəsi elm aləmində geniş müzakirə obyektinə çevrilmişdur. A.Şopenhauerin modernizm fəlsəfəsinin nüvəsində qərblə şərq təfəkkürünün sintezini yaratmaq ideyası üstünlük təşkil etmişdir. Onun fikrincə qərb təfəkkürü rasional, şərq təfəkkürü isə irrasionaldır; hər şey təkcə rasionallıqla davranılmaz, dərk olunmayan reallıqlar da vardır. Filosof göstərir ki, empirik (duyulan) praktikadan başqa onu tamamlayan intuitiv praktika da mövcuddur. Bunların sintezi dünyanın dərk edilməsi üçün əsas ideyalarından birirdır.

Ümumi elmi-metodoloji təliminin ideoloji çərçivəsində, modernizm cərəyanının fəlsəfəsinin əsasını "qərbləşmə", "avropalaşma" anlamında tendensiya-

[57] **Modernzm** (ital. sözü olub) - çağdaş, müasirləşmə, yenilik ifadəsinə uyğun gəlir.
[58] Щопенгауэр А. Мир как воля и представление. М., 1961.

larının üstünlük təşkil edilməsidir. Bu tentensiyanın ideya kodları = industrial modernləşmə, iqtisadi-sosial və siyasi dəyişkənliklərinin yeniləşməsi, idarəetmənin demokrattikləşməsi, çağdaş yeni inkişafın strateji modellərinin yaradılması = və s. ibarətdir.

Modernizm cəryanının fəlsəfəsində revaliosion: aqrar, industrial və informasiya "dalğası"nın formalaşması və yeniləşməsi prosesləri tarixən üstünlük təşkil etmiş, həm də öncə geniş miqyasda diskusiyalara məruz qalması ilə fərqlənmişdir.

Modernizmini öyrənən tədqiqatçılar bu nəticəyə gəlmişlər ki, birincisi ölkələrin inkişafı dalğavari gedir; ikincisi ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinə texnoloji, siyasi, mədəni və bu kimi faktorlar təsir edir; üçüncüsü isə ölkələrin inkişafının hərəkətverici dalğası yeni dayanıqlı informasiyanın inkişaf səviyyəsidir.

Modernizm "dalğası"nın ilkin informasiyasının XVI-XIX əsrdə Qərbi Avropa və Şimali Amerika ölkələrini əhatə etmişdir. İkinci modernizm "dalğası" Yaponiya, Çin, Cənubi Amerika və s. ölkələrdə əmələ gəlmişdir. Üçüncü modernizm "dalğa"sının təsiri isə sonrakı illərdə bir sıra yeni sənaye ölkələrinə (Sinqapur, Tailant, Avstraliya və s.) "miqrasiya" olunmuşdur.

Modernizm cəryanın rasional kodlarının reallıqlarının əsasında sonrakı yüzillikdə elmi tədqiqatlarda, o cümlədən coğrafiya elmində yeni düşüncə tərzinin formalaşmasında əhəmiyyətli movqeyə malik olmuşdur. Bu düşüncə gerçəkliyi fonunda coğrafiya elminin fundamentallığı yeni məzmuna çevrilmiş, tədqiqatlarının praktika ilə əlaqələndirilməsi geniş konseptual anlayış kimi qəbul olunmasına imkanlar yaratmışdır.

Dialektik coğrafiyanın ideoloji baxımında modernizm elmi cəhətdən yeniliyə meyl göstərilmiş, coğrafi rasional idrakın elmi-praktiki fəaliyyətində aktivlik müşahidə olunmuşdur. Avropada XVI-XIX əsrdə baş verən modernizm "dalğası"nın kodları konstruktiv coğrafiya elminin radikallaşması prosesinin sürətləndirməsinə və yeni elmi məktəblərinin yaranmasına səbəb olmuşdur.

Modernizm cəryanının formalaşmasında Maks Veber (alman. Max Weber) tərəfindən "Sosial fəaliyyət modernizm" nəzəriyyəsinin əsasında sosial – coğrafiya elminin yaranmasında və inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.



**M.Veber**:
Alman sosialogiya elmi məktəbinin banilərindən sayılır. M.Veber ideal tiplər adlanan (ənənəvi, xarizmatik - liderlik və rasional - məntiqlə, qanunla) konsepsiyanın müəllifidir.

Modernizm: coğrafiya elminin nəzəri və praktiki cəhətdən özünü dərkedilməsində mövqe nümayiş etdirmişdir. İlkin olaraq elmdə modernizm cərəyanının tədqiqat obyekti olaraq qəbul etsək, məntiqi cəhətdən modernizm həm siyası və sosial, həm də radikal coğrafiya elmi sahəsinin aktual bölmələrindən biri kimi faydalı hesab etmək mümkündür.

M.Veber[59] cəmiyyətin iqtisadi-sosial inkişafının modernizm nəzəriyyəsini, M.Berman[60] isə modenizmi davamlı bir proses olaraq cəmiyyətin sosial həyat tərzinin fuksional nəzəri baxışlarına dair ideyalarını təklif etmişlər.

Klassik modernizm cərəyanına əsasən coğrafiya elmi tədqiqatlarının aparılmasında əsasən coğrafi obyektlər arasında kompleks əlaqələrinin fərqləndirmə yanaşmalarına və bu məqsədlərə görə təhlillərinin aparılmasına üstünlük verilməsini qarşıya məqsəd qoyur. Tənqidlərə baxmayaraq  klassik modernizm cərəyanının təsiri coğrafiya elmi araşdırmalarında öz üstünlüyünü tarixən müəyyən səviyyələrdə saxlamışdır.

S.Lipsetin[61] modernizm nəzəriyyəsinə dair apardığı elm tədqiqatlarında: coğrafiya və iqtisadiyyat elmlərinin məntiqində pozitiv dəyişikliklərinin yaranmasına və formalaşmasına səbəb olmuşdur. Lipsetin modernizm nəzəriyyəsinə qarşı çıxanlar da olmuşdur. Bunlara ilkin olaraq, qərb ölkələrində sənaye iqtisadi inkişafının təsiri ilə əlaqədar olaraq inkişaf etməkdə olan ölkələr arasında dərin sosial dəyişikliklərə gətirib çıxarmaq və sair məsələlərinin təhlilləri daxil edilir  (S.P.Hintington və b.).

Modernizmin nəzəri baxışlarının fəallığı müəyyən dövrlər ərzində dəyişikliklərə məruz qalmışdır. Qeyd etmək lazımdır ki, XX əsrin ortalarından başlayaraq modernizmin nəzəri gerçəklikləri kreativ inkişaf potensialına çevrilməsi kimi qəbul edilməsinə səy göstərilmişdir.

Coğrafiya elminin “yaddaşın”da modernizminin inkişafının kreativ fonunda dünya ölkələrinin iqtisadi-siyasi inkişafının təminatına uyğun təhlillərinin üstünlüyü nəzərə alınmışdır. Kreativ iqtisadiyyatının dayanıqlığının informasiyasına söykənən ölkələrdə  modernizm prosesi aktivlik göstərilməsi ilə fərqlənir. Məntiqi olaraq inkişaf etmiş ölkələrdə modernizm ilkin olaraq özlüyündə yeniliklərin-innovasiyaların tətbiqində özünü göstərmişdir. Dialektik elmi kodlarına söykənən modernizm cəryanı coğrafi sistemlərinin dayanıqlığının səviyyəsinə uyğun vahid çoxfunksional strukturlarının yaranmasına stimul verir.

[59] Weber M. The  Protestant Ethic and the Spirit of Capitalism Bern.1979.
[60] Berman M. All That Is Solid Mets into Air. London. 1988.
[61] Lipset S.M. Som Sosial Pequsites of Democracy. New York. 1959.

Vahid çoxfunksional inteqaral coğrafi sistemlər dialektik modernizm kodlarının şəbəkəsinin transformasiyasına meylinin artmasına səbəb olur.

- **Coğrafi zaman tsiklinin nəzəri "yaddaş"nın kodları**

Coğrafiya elmi "yaddaş"ın formalaşmasının şəbəkəsində tsiklli nəzəri biliklərinin mövqeyi və taktikası mühüm əhəmiyyət kəsb edir. Elmi mənbələrdə funksional tsikl tipinin zaman çoxluğunun nəzəri baxışlarına dair əsaslı araşdırmalar mövcuddur. F.Brodelinin[62] tədqiqatlarında tsiklli sistemlərinin təsnifatı elmi mənbələrdə aktual mövzu kimi qəbul olnumuşdur. Məsələ ondan ibarətdir ki, aparılan tədqiqat işlərinin əsasını coğrafi zaman tsiklli elmi təfəkkür faktorları üstünlük təşkil edir.

İ.Vallerstayn[63] öz tədqiqatlarında coğrafi zaman tsiklinə yeni prizmadan yanaşmışdır:

Birinci: struktur zaman = ləng gedən və uzunmüddətli trendləri özündə cəmləşdirən "böyük uzunluqda "zaman kəsiyi; ikinci isə tsiklik zaman – daha sürətli konyunktur ritmlərinin əhatə edən zaman kəsiyi.



**İ.Vallerstayn:**
*ABŞ-ın görkəmli elm xadimlərindən sayılır.*
"Dünya-sistem" elmi məktəbinin banilərindən biridir. Coğrafi məkanda asimmetrik inkişafın konsepsiyasını təklif etmişdir.

İ.Vallerstayan tədqiqatlarında belə bir nəticəyə gəlmişdir ki, zaman kəsiklərinin uzunluğu (davamlıq) dərəcəsinə uyğun coğrafi məkan paralelliyinin arasında dialektik əlaqələri mövcuddur. Məntiqi olaraq "coğrafi məkan-zaman" kəsiyinin rasional vəhdət kimi qəbul edilməsi dialektik coğrafiya elminin konseptual çərçivəsinə daxil olan ideyalarından biri kimi mühüm elmi-metodoloji əhəmiyyətə malikdir.

XIX əsrin 60-70-ci illərindən başlayaraq "coğrafi zaman tsikllinin sistem" anlayışı coğrafiya elmi tədqiqatlarının dövriyyəsinə daxil edilmişdir. Fikrimizcə, bu anlayış yeni konstruktiv ideyalarının yaranmasına və dialektik məzmun kəsb etməklə coğrafiya elmində yeni bir mərhələnin başlanmasına səbəb ol-

[62] Ф.Бродель. Материальная цивилизация. М., 2006.
[63] И.Валлерстайн. Миро - системный анализ. М., 1998.

muşdur. Bu dialektik idealoji məzmun ilkin olaraq coğrafiya elminin metodologiyasında keyfiyyətcə kompleks araşdırmalarının üstünlüyünə imkanlarının yaradılmasından ibarət olmasıdır.

Coğrafi zaman tsikllinin **nəzəri baxışları** aşağıdakı məzmunu ehtiva edir:

| Coğrafi tsikllər = zaman kəsiyində dinamikdir və aktiv funksiyaya malikdir. | ↔ | Coğrafi tsikllər = geniş spektrli iqtisadi-siyasi inkişafının caoğrafi zaman tsiklinin variantlarını müəyyən edir. | ↔ | Coğrafi tsikllər = tarixən ölkələrinin dialektik inkişafının sər**hədlərinin çərçivəsini** tamamlayır. |
|---|---|---|---|---|

Coğrafi zaman tsikllər ölkənin struktur potensial dəyişmələrinin tələblərinə cavab olaraq yeni məzmuna çevrilməklə fəaliyyət göstərmiş və tarixən hər bir iqtisadi və siyasi formalaşmalarına məruz qalmışdır. Coğrafi tsiklli sisteminin fəaliyyətində çoxxətli nəzəri baxışlarında mühüm mövqeyi və önəmi vardır. Bu nəzəri baxışa ilk dəfə Ş.Monteskye[64] tərəfindən münasibət bildirilmişdir. Çoxxətli nəzəri baxışın elmi mahiyyəti ondan ibarətdir ki, eyni zaman çərçivəsində bir neçə anımda coğrafi sisteminin müxtəlif məzmunlu "ölçülməsi" ilə həyata keçirilən ideyalarının tədbiqi kimi qəbul edilir.

**Şarl Monteskye**: *fransız filisofu.*
Cəmiyyətin idarə edilməsinin hüquqi əsaslarına dair araşdırmaları, insan coğrafiyasının aktual problemləri, tədqiqatçılar tərəfindən qiymətləndirilmişdir. Onun "Qanunların ruhu"adlı (1748-ci il) əsəri Avropada coğrafiya elmi məktəbinin yaranmasına təsir göstərmişdir. Monteskyenin siyasi və hüquqi ideyalarından ABŞ Konstutusiyasında istifadə edilmişdir.



Elmi mənbələrə əsasən ölkələrinin inkişafının prosesində baş verən dəyişikliklər müəyyən sahələr arasında tsiklli əlaqələrini pozur.[65] Coğrafiya elmi "yaddaşın"da tsiklli dəyişmələr sistemində Dou-Jons tərəfindən irəli sürülən istehsalın tsiklli indeksləşdirilməsi formulası mühüm tədqiqat mənbəyi kimi istifadə edilir. Dou-Jonsun nəzəri baxışına əsasən tələb və təklif səviyyəsinə təsir edə biləcək hər bir faktor qiymət indekslərinin hərəkət dinamikasında

[64] Ш.Монтескье. Избранные произведения. М.,1955.
[65] Моделирование и аналогия. М., 2009.

mütləq şəkildə öz əksini tapacaqdır. Bu ideyalar iqtisadi inkişafının tsiklli idarə olunmasının coğrafi zaman kodlarından biri kimi istifadə edilir.[66]

Ralf N.Elliot tərəfindən bazar təhlilinin rasionallığını özündə əks etdirən dalğa (tsikl) nəzəriyyəsini təklif etmişdir. Onun fikrinə görə əsasən bazarda coğrafi zaman kəsiyində hər hansı bir qiymət dəyşikliyi müəyyən əhəmiyyətli informasiyanın nəticəsidir və eyni zamanda özü də müəyyən əhəmiyyətli informasiyalar yaradır. Dalğa nəzəriyyəsində həmçinin bazarda qiymətlərin tsiklli hərəkəti ciddi struktura malik ardıcıllığını da özündə əks etdirir. Mövcud şəraitdə ərazi-istehsal tsikllər sistemini dalğa nəzəriyyəsinə uyğunlaşdırmaq coğrafiya elminin konstruktiv məsələsi kimi faydalıdır. Hər bir ölkənin kompleks iqtisadi strukturlarının təşkili və idarə ediləsində = resurs-istehsal-bazar = tsiklinin formalaşdırılması və optimallaşdırılması ilkin olaraq dalğa nəzəriyyəsinə uyğunlaşdırılmasını tələb edir.

Fikrimizcə, coğrafi zaman tsikllinin inkişafı hər bir ölkənin dayanıqlı iqtisadi-sosial önəminə doğru diversifikasiya hərəkətinin göstəricisidir. Bu hərəkət ritmik olaraq ərazi-istehsal strukturunun funksional effekliyini yaratmaqla yanaşı, onun optimal səviyyəsində coğrafi zaman tsikllik qabiliyyətini də formalaşdırmışdır.

Problemə aid alman iqtisadi fikir tarixinin banilərindən sayılan K.Marks tsiklli inkişafa dair fəlsəfi yanaşmaları geniş məzmun kəsb etmişdir. Onun ideyasına görə tsiklli inkişaf 40-50–100 il deyil, hər 8-10-12 ildən bir baş verir.

Məlumdur ki, tsiklli inkişaf hər bir ölkədə baş berən iqtisadi, siyasi gerçəkliklərindən asılıdır. Məntiqi olaraq, 1825-ci ildə ABŞ və Avropanın bəzi ölkələrində sənaye böhranı; 1990-1993-cü illərdə Yaponiya və Avropanın bəzi ölkələrində istehsal sahələrinin həcminin enməsi baş vermişdir. Dünya iqtisadiyyatında (2009-2010-cu illərdə) baş verən maliyyə böhranı demək olar ki, iqtisadi inkişafının sabitliyinə mənfi təsir göstərmişdir.

Coğrafi zaman tsikllik inkişafına uyğun olaraq aşağıdakı ümumiləşdirilmələrini göstərə bilərik.

Coğrafi zaman tsikllik dinamikası müəyyən tarixi inkişaf dövrlərdə yaranmış və təkrarlanmaya (təxmini olaraq 50 ildən bir) məruz qalmışdır.

Təxmini olaraq XVIII əsrin axırlarında istehsalın ərazi təşkili üçün ilkin texnologiyalarının tətbiqi ilə coğrafi zaman tsiklliyinin formalarının yaranmasına səbəb olmuşdur. İkinci coğrafi zaman tskillik – Avropa ölkələrində yeni tipli kapitalist formasiyalı iqtisadi struktur sahələrinin elmi əsaslarla təşkilin-

[66] Dörd Dou-Jons indeksi mövcuddur: sənaye indeksi, nəqliyyat indeksi, kommunal indeksi, ümumiləşdirilmiş Dou-Jons indeksi.

dən ibarət olan dövrü. Bu dövrü tsiklli inkişaf XIX əsrin əvvələrindən başlamış, əsrin ortalarına qədər davam etmişdir. Avropa ölkələrində əl əməyinin mexaniki çevrilməsi, nəqliyyat-iqtisadi əlaqələrinin formalaşması, istehsal komplekslərinin inkişafı və s. coğrafi zaman tsikllinin dinamikasının artmasına səbəb olmuşdur.

Coğrafi zaman tsikllinin üçüncü dövrü üçün xarakterik olan: elmi kəşflərinin praktikaya tətbiqi, makrosənaye sahələrinin optimal varinatlarının fəaliyyəti, TMK-nin inkişafı, dünya ölkələrinin sistemində "qütbləşmə"nin hökmranlığı və s. baş vermişdir (XX əsrin əvvəllərindən başlamış, ortalarına qədər davam etmişdir).

Dördüncü dövr üçün optimal sayılan innovasiya, informasiya, biotexnologiya, gen mühəndisliyi, yeni enerji mənbələrinin kəşfi, insan kapitalının gerçəkliyi və s. nailiyyətlərə əsaslanan coğrafi zaman tsikllik dayanıqlı inkişaf proseslərinin qloballaşmasının təsiri altında formalaşmışdır.

- **Dialektik coğrafiya elminin informasiya kodunun təbiəti**

Elmi mənbələrində coğrafiya və informasiya anlayışlarının ideya məzmunu dialektik məntiqinin özünəməxsus kodları fəaliyyət göstərir. Məna ifadəsi onunla izah edilir ki, coğrafiya elmi məntiqinin araşdırmaları bilavasitə informasiya və onun genetik kodlarının əlaqə vəhdədliyi ilə baxlıdır. Bəşəri xarakter daşıyan informasiyanın təbiəti müasir və gələcək inkişafının "genefondunu"nun davamlığını təmin etmək qabiliyyətinə malikdir. Coğrafiya elmi "yaddaşın"ın infornasiya təbiətinin praktikasının tədbiqi xarakterinə əsaslanan "genefond"nu aktivləşdirməsi və elmi inkişafının təminatında informasiya mənbələri mühüm əhəmiyyət kəsb edir. Elmi informasiya təminatına uyğun olaraq ərazi potensialının iqtisadi-sosial cəhətdən kompleks mənimsənilməsinin statusuna çevriməklə optimal mühit yaradır.

Dialektik coğrafiya elmi mənbələrində informasiya sisteminin əsasını da konstruktiv tədqiqatlarının rasional ideyaları üstünlük təşkil edir. Məsələnin önəmi ondan ibarətdir ki, informaisyanın kompleks **məntiqində mürəkkəb strukturlar** fəaliyyət göstərir:

▼

$\{D_1\} \longrightarrow \{D_2\} \longrightarrow \{D_3\} \longrightarrow \{D_n\}$
$\{R_1\} \longrightarrow \{R_2\} \longrightarrow \{R_3\} \longrightarrow \{R_n\}$
$\{G_1\} \longrightarrow \{G_2\} \longrightarrow \{G_3\} \longrightarrow \{G_n\}$
$\{K_1\} \longrightarrow \{K_2\} \longrightarrow \{K_3\} \longrightarrow \{K_n\}$

{D} = *informasiyanın coğrafi mühitlə əlaqəsi;*
{R}= *informasiyanın enerji-istehsal tsikllin "cazibə qüvvə"si ilə əlaqəsi;*
{G}= *informasiyanın rasional mənbələrinin effektliyi;*
{K}= *informasiyanın kompleks coğrafi tədqiqatlarda tədbiqi.*

Dialektik coğrafiya elmi informasiyasının "resurs-istehsal-dayanıqlı inkişaf" reaksiyası nisbətində ölkənin makroiqtisadi strukturunun optimallığını təmin edir. İnkişaf etmiş sənaye ölkələrində baş verən keyfiyyətli inkişaf səviyyəsi bununla ölçülür. ABŞ, Yaponiya, Almaniya, Faransa, Böyük Britaniya və s. ölkələrin dayanıqlı inkişafı elm tutumlu, kapital tutumlu informasiya şəbəkəsinə malik olması ilə digər ölkələrdən fərqlənirlər.

Coğrafiya elmi informasiyasının önəmli tərəflərinə aşağıdakıları aid etmək olar.

Coğrafiya elmi informasiya - ərazi resurs potensialının" enerji-istehsal" sahəsinin "güc" qüvvəsində fəallıq göstərir. Bu fəallığının nəticəsində "resur-istehsal-dayanıqlı inkişaf" modeli ölkənin kompleks diversifikasiya sahələrini hərəkətə gətiməklə yanaşı,iqtisadi-siyasi sabitliyinin formalaşmasında effektli mövqe nümayiş etdirir.

İnformasiya - dayanıqlı inkişafın əsas elementlərindən biri sayılır. Bu səbəbdən də ölkədaxili və ölkələrarası kompleks iqtisadi-sosial sisteminin yaradılmasında və idarə edilməsində funksional effektliyini təyin edir.

Coğrafi informasiya - ölkənin strateji-siyasi maraqlarının sərhədlərini genişləndirir, ölkələr arasında yaranan asılılıq dərəcəsini nisbətən zəiflədir, aktiv həyat şəraitini formalaşdırmaqla yanaşı, sosial sahələrinin idarə edilməsində yenilik yaradır.

Dialektik coğrafiya elmi mənbələrində informasiyanın mühüm əlamətlərindən biri də hər bir ölkənin (rayonun) dayanıqlı inkişafının təminatında şaxələnmiş iqtisadi-sosial strukturlarının formalaşması səviyyəsinin aktivləşməsinin təmin edilməsidir. Bu təminat ilk növbədə ölkədə kapital yığımının fəaliyyətini və o cümlədən geosiyasi, geoiqtisadi böhranlarının qarşısının alınmasının faktorlarını özündə nümayış etdirir.

Dialektik coğrafiya elmində informasiyanın məntiqi təbiəti bir çox sahələrini əhatə edir. Bunu nəzərə alaraq aşağıdakı yanaşmada problemlərə aydınlıq gətirilmişdir.




**Elmi mənbələrin**in təhlili və ümumiləşdirmələrinə əsasən, coğrafiya elminin nəzəri-praktiki yanaşmalarının və onların funksional idarəedilməsi yalnız məntiqi informasiya mənbələrinə əsaslanmaqla effektli tədqiqatlarının apaılmasını mümkün edir.

İdealoji elmi yanaşma kimi “funksional təbiətinə görə” və “coğrafi-tarixi təbiətinə görə” “zaman-məkan” təbiətinə görə informasiya məntiqi ümumi coğrafiya elminin fundamental tədqiqat bölmələrindən sayılır. Bu səbəbdən də elmi informasiya təminatı ümumdünya xarakterli olub, fundamental iqtisadi-sosial və siyasi problemlərinin həlli yolunda rasional mənbələrinin tərkib hissəsi kimi tədqiqat prosesində aktuallıq kəsb edir. Təhlilərə əsasən, demək olar ki, fundamental coğrafiya elmi baxışlarının dialektikasında müxtəlif tipli informasiya əlaqələrinin məntiqinin mənbə fərqlərinin praktikası daha faydalı sayılır.

# İKİNCİ BÖLMƏ

## RADİKAL DİALEKTİK COĞRAFİYA
### KONSEPTUAL ELMİ YANAŞMALARI

- *Dialektik coğrafiya elminin radikal məntiqi*
- *Radikal coğrafiyanın dialektik baxışları*
- *Radikal coğrafiya: iqtisadi-sosial inkişafının informasiya fenomeni*
- *“Dünya sistem” konsepsiyası və rasional elmi əsasları*

**Beşinci önəm**

# Dialektik coğrafiya elminin radikal məntiqi

- **Dialektik radikal coğrafiya elminin konstruktiv mahiyyəti**

Radikal coğrafiya = dialektik mənbələrə söykənən və coğrafiya elminin nəzəri-metodoloji sintezindən formalaşmış konstruktiv elm sahəsidir. Radikal coğrafiya yönümlü ilkin araşdırmalar ABŞ coğrafiya elmi məktəbinin nümayyəndələri tərəfindən konstruktiv olaraq dəyərləndirilmişdir. Radikal coğrafiya elminin yaradıcılarından sayılan Harvi D. (Kharvi D.) tərəfindən aparılan tədqiqatlarının konstruktiv yanaşma tərzinin əhəmiyyətinin mühüm mövqeyə malik olması ilə fərqlənir. D.Harvi tərəfindən irəli sürülmüş "sıxılmış məkan və zaman" anlayışı coğrafi məkanın miqyasına baxışında dialektik dəyişmələrinin fonunda mühüm əhəmiyyət kəsb etmişdir.



**Harvi Devid (ABŞ):** *Radikal coğrafiya elminin banilərindən sayılır.* Coğrafi məkan elmi məktəbinin yaradanlarından biridır. Onun "Coğrafiyanın elmi təhlili" ("Explanation in Geograpu") əsəri nəzəri və fəlsəfi cəhətdən qiymətlidir. "Kosmopolitizm və coğrafi azadlıq" monoqrafiyası coğrafiya elminin dəyərli tədqiqat əsəri hesab edilir.

Radikal coğrafiya elmi araşdırmalarında istifadə edilən və bu gündə öz dəyərini saxlayan müxtəlif medologiyanın elmi-praktiki əsasları ilə fərqlənən coğrafi problemlər fəaliyyət göstərir. Bu mənada radikal coğrafiya elminin metodologiyasını aktuallaşdıran iki mühüm konstuktiv yanaşma ideyalarını göstərmək olar.

Birincisi, coğrafiya elminin həm fəlsəfi baxışlarında və həm də onun tədqiqat metodologiyasında müəyyən səviyyələrdə çatışmamazlıqlarının olması müşahidə olunur. Bu çatışmamazlıqlarının səbəbindən XIX əsrdən başlayaraq radikal coğrafiya elmi tədqiqatlarının məzmunu aktivləşmiş, yeni ideyalarının əmələ gəlməsinə şərait yaranmşdir. Məntiqi yanaşma bundan ibarətdir ki, konstruktiv dialektik tədqiqatlarının nəticələrinin əsasında coğrafiya elmi mək-

təbləri formalaşmış və radikal məzmunlu əsərlərinin yaranmasına səbəb olmuşdur.

İkinci yanaşma isə - elmi məntiqi-nəzəri metodlarının və radikal elmi ideyalarının coğrafiya elminin formalaşmasına, praktiki önəminə, konstruktivliyinə geniş imkanlar yaratmışdır.

Radikal coğrafiyanın fəlsəfəsinə əsasən ilkin olaraq çoxlu sayda elmi-tədqiqat mənalarından ibarət olması ilə əlaqəlidir. Bu mənaların hər biri sistemli olaraq müstəqil elmi-metodoloji tədqiqat mənbəyindən asılı olaraq kompleks inkişaf etməsidir. XIX əsrin sonu - XX əsrin əvvəllərində coğrafiya elmində "tədqiqat-coğrafi təfəkkür" diskussiyalarının praktikası önəmli sayılırdı. Radikal coğrafi tədqiqatlarda coğrafiya elmi təfəkkürünün praktiki problemlərinə dair araşdırmaları XX əsrin sonlarına yaxın daha da aktivləşmişdir.

Bu dövrlərdə "coğrafi məkan potensialı" konsepsiyasının yaranmasında D.Harvi, V.Bunqe və b. aparılan coğrafiya elmi tədqiqatlarında geniş məzmun kəsb etmişdir. Coğrafi elminin praktiki tədbiqinə dair elmi mənbələr" coğrafi məkan potensialı" ilə uzlaşdırılmışdır. Bu uzlaşmalar mühüm konseptual əhəmiyyət kəsb etmiş və elmi təhlillərdə riyazi, iqtisadi, bioloji və s. tədqiqatlarından istifadə etməklə kompleks radikal coğrafiya elmi mənbələrinin dəyərlərində aktual  mövzularının predmetinin fəallaşmasına səbəb olmuşdur.

Radikal coğrafiya elminin formalaşması prosesinin aktivləşməsində ABŞ coğrafiya elmi məktəbinin görkəmli tədqiqatçılarından biri V.Bunqenin fəaliyyəti çox genişdir. V.Bunqe "coğrafi məkan" konsepsiyasını yaradarkən (The oretical Geogufphy, 1962) araşdırmalarında riyazi təfəkkür metodlarından istifadə etmiş və nəzəri radikal coğrafiya elminin istiqamətlərini müəyyənləşdirmişdir.[67]



**Vilyam Bunqe:** *ABŞ-ın görkəmli coğrafiya elm xadimidir.* Riyazi coğrafiya, nəzəri coğrafiya və coğrafi proqnoz konseptual elmi istiqamətlərinə dair tədqiqatlar aparmışdır. Bunqenin ideyasına əsasən nəzəri coğrafiya elminin predmetini – məkan əlaqələrinin tədqiqatları təşkil edir.

Edvard Ullman tərəfindən yaradılan riyazi coğrafiya elmi məktəbinin davamçılarından sayılan V.Bunqe coğrafiya elmi nəzəriyyəsində yeni mərhələnin əsasını qoymuşdur. Aparılan tədqiqatlarının ilkin nəticələrinə əsasən coğrafiya elminin yaradıcılıq sferasında məkan struktur əlaqələrinin sintezindən

[67] В. Вунге. Теоретическая  география. М.,1967.

(riyazi-coğrafi təfəkkürundən) asılı olmasına dair ümumi fikirlərinin elmi-praktiki istiqamətləri müasir dövrdə də aktuallıq kəsb edir.

V.Bunqe məkan struktur əlaqələr sisteminin xəritəsini təklif edərkən riyazi metodlarının reallıqlarını (həndəsi) əsas kimi qəbul etmişdir. Onun ideyasının gerçəkliyində coğrafi məkan strukturunun formalaşması (riyaziləşməsi) və dinamikası riyazi modellərə söykənməsinə üstünlük verməsidir. Sonrakı dövrlərdə V.Bunqenin riyazi-coğrafi modellərinin konsepsiyası konstruktiv radikal coğrafiya elminin fundamental inkişafı üçün ideya mənbələrinə çevrilməsinə səbəb olmuşdur.

Coğrafi biliklərinin önəmə gətirilməsi, "antiməntiqli" coğrafi ideyalarının qarşısının alınmasında radikal coğrafiya elmində müəyyən konstruktiv imkanlarının yaranmasına səbəb olmuşdur. Elmin yeni istiqamətdə formalaşması, kəmiyyət ölçülərindən keyfiyyət aspektlərinə keçid axtarışının mənbələri radikal coğrafiya elminin müəyyən bir bölməsini təşkil edir. Coğrafi radikal biliklərinin təbliğində, konseptual məsələlərinin təhlilində və tədbiqində görkəmli elm xadimi R.C.Constonun xidmətləri çox böyükdür.



**R.C. Conston (Ronaid John Johnston):**
Coğrafiya elmində ən çox tədqiqatlar aparan alimlərdən biridir**.** Şəhər sosial coğrafiya, Elektron coğrafiya və s. çox saylı monoqrafiya, məqalələrinin müəllifidir. O,1999-cu ildə "Coğrafiya Nobel mükafatı"na layiq görünmüşdür.*

R.C.Conston coğrafiya elminin dinamik inkişafında, kompleks tədqiqatlarının yekunlaşmasında, coğrafiyanın terminoloji cəhətdən zənginləşməsində xidmətləri təqdirəlayiqdir. Sosial coğrafiyaya dair fundamental ideyaları bütün dövrlərdə aktuallıq kəsb etməsi ilə reallaşmışdır.

R.C.Constonun coğrafiya elminin evolyusion metodologiyasına dair tədqiqatlarının fəlsəfi düşüncə tərzinə söykənməsi ilə fərqlənir. Tədqiqatlarında coğrafi mühitlə sosial coğrafiya arasında nəzəri əlaqələrinin fəlsəfi baxışlarının nəticələrinin əsasında radikal coğrafiya elminin məzmunuda mühüm metodoloji mövqe nümayiş etdirmişdir.

---

* Votrin Lud adına Beynəlxalq Coğrafiya Nobel mükafatı (Nobel mükafatın modelinə əsaslanmışdır). Bu fəxri ad P.Xaqqet, D.Harvi, M.Betti, E.Soya və b. coğrafiya elm xadimlərinə verilmişdir.

R.C.Constonun fikrincə, coğrafiyanı yalnız peşə təlimi kimi qəbul etmək olmaz, bu elm fundamental elmlər sırasına daxildir və müstəqil nəzəri-metodoloji elmi istiqamətinə malikdir.[68]

Radikal coğrafiya elminin metodologiyası ilə bağlı analoji situasiyalarda bir çox mənbələrdə müxtəlif yanaşmalarla nəzəri cəlb edir. Məsələn, Avropada baş verən iqtisadi inkişafda gedən dinamik proseslərin (qloballaşma, iqtisadi böhran, yoxsulluq və s.) daxili təbiətində binar (Aristotel məntiqi) məntiqə sığışmayan yeni keyfiyyət çalarlarının yaranması radikal coğrafi tədqiqatlarının dünyagörüşündə daha qabarıq nümayiş olunurdu. Bununla yanaşı XIX sonu - XX əsrin əvvələrində və sonrakı dövrlərindən başlayaraq coğrafiya elmində yaranmış situasiyanın dialektik baxışlarında **bir sıra çatışmayan problemlərinin** önəmli mahiyyət daşıması ilə izah etmək olar: ▼

Praktiki mahiyyət daşıyan problemlərinin reallaşdırılmasında coğrafiya elmi tədqiqatlarının kifayət qədər olmaması.

↕

Coğrafiya elmi nəzəri baxışlarının dayanıqlı inkişafını təmin edən araşdırmalarının praktikası üçün çox vaxt real həqiqətdən uzaq olması.

↕

Coğrafi-iqtisadi problemlərlə bağlı tədqiqatlarının kompleksliyinin tamamlanması və s.

Radikal coğrafiya elminin təbiəti ilkin olaraq rasional ideyalara əsaslanır və müstəqil tədqiqat mövqeyə malikdir. Bu səbəbdən də “elmlərarası” rasional dialoqlarının əsasında araşdırmalarına daha çox meyl göstərir. İlkin olaraq radikal coğrafiya nəzəri mənbələrindən rasional istifadə etməklə coğrafiyanın potensial varlığının optimal səviyyəsinin üstünlüklərinin formalaşmasının yollarını önəmə gətirir.

## ▪ Radikal coğrafi tədqiqatın “məkan-zaman” xronologiyası

“Məkan-zaman” xronologiyası coğrafiya elminin effektli yaradıcılıq mənbələrindən sayılır. Elmi mənbələrdə tarixi & coğrafi sistemlərinin xronoloji dövrlərinin təyinində “məkan-zaman” ideayasına əsaslandırılmasına dair məsələlər mühüm aktualıq kəsb etməsi ilə fərqlənmişdir. Bəşəri tərəqqinin var-

[68] Р. Джонстон. География и географы. М.,1987.

lığının və həssaslığının simmetriyası məhz “məkan-zaman” gerçəkliyinin üzərində qurulması faktları danılmazdır. Bu gerçəklik fonunda xronoji olaraq antiq dövrdən başlamış, müasir coğrafi informasiya-texnologiyalar dövrünə qədər aparılan müxtəlif istiqamətli tədqiatlarınını özündə birləşdirmişdir.

Xronoji dövrlər sistemində zaman ölçüsünün nisbətində ən uzun dövr = ən qədim antik dünya dövrü hesab edilir. Bu dünya dövr Yer kürəsində üzvi aləmin yaranmasından (≈ 3 mlrd. il əvvəl) insanın meydana gəlməsinə (≈3-4 mln. il) qədər evalyusion inkişafının dialektikasını əhatə etmişdir. Buna qədər elmdə heç bir mübahisəli anımlar demək olar ki yox dərəcəsindədir. Lakin sonrakı proseslər həm zaman, həm də məkan baxımdan radikal fikirli tarixi, coğrafi, bioloji və s. elmi biliklərində mənbələrinin formalaşmasının xronologiyası üstünlük təşkil etmişdir.

“Coğrafi-məkan” modeli yer kürəsində insanın müxtəlif istiqamətlərdə fəaliyyət formalarını özündə birləşdirir. Bu səbəbdən də tarixi-coğrafi mərhələlərdə regional səviyyədə “mədəni” funksional tiplərinin formalaşmasının dinamikası yaranmışdır. Yan Broek (Jan Broek) [69] “coğrafi məkan” regional tiplərinin iqtisadi və siyasi inkişaf səviyyələrini müəyyən edərkən dörd iri əsas rayon və iki kiçik taksonomik təsnifata bölünməsini təklif etmişdir.




***Yer kürəsində “mədəni”funksional tiplərinin taksonomiyası (Yan Broekə görə).***

Radikal coğrafiya elmində dinamik elmi təhlillərinin aparılması, “məkan-zaman” idealogiyasının mühüm xronoloji mənbələrindən biri də teoloji (dini) paradiqmadır. Teololji paradiqma insanın “məkan-zaman” dialektik dövrləşməsinin məzmunu və gerçək həyat tərzinin məna çalarlarını özündə birləşdirir.

[69] Broek J.O. M.A. Geoğraphy of Mankind, Mc Graw-Nill. New York, 2002.

"Məkan-zaman" xronologiyasının sistemində XIX əsrin ortalarında Formasiyalı, Sivilizasiyalı, XX əsrdə isə Rassonar və s.paradiqmalar gerçək məzmuna çevrilmişdir. Elmi mənbələrdə xronoloji tarixi-coğrafi dövrləşmənin kompleks təhlilində və alınan nəticələrinə görə L.Qumilyovun tədqiqatları aktual düşüncə kəsb edir. L.Qumilyovun Rassonar (etnosun inkişafı dinamikası) nəzəri ideyası radikal coğrafi araşdırmalarında mühüm mövqeyə malikdir.[70]

"Məkan-zaman" kontekstində xronoloji təsnifat paradiqmalarının təhlilləri göstərir ki, epoxolar müəyyən mərhələyə: qədim dünya→orta əsrlər→yeni dövr→ən yeni dövr sistemlərinə ayrılır. Sonuncu dövrü çıxmaqla əsrlər boyu qəbul edilmiş üçlük öz həyat qabiliyyətini saxlamaq imkanında olmuşdur. O.Şpenqlerin[71] "mistik üçlük" adlandırdığı təsnifatının tarixi baxımdan filosoflar tərəfindən (İ.Kant, K.Marks, M.Veber və s.) qəbul edilmişdir.

"Məkan-zaman" dialektikasının təsnifatında mütləq həqiqətinin dərk edilməsi kimi elmi metodoloji mənbəlrdə **xronoloji təsnifat paradiqmalarının** geniş miqyasda üstünlüyə malikdir.

**Teoloji paradiqma: dövrlənmə kriteriyası = İlahi öngörmə**
Tarixi-coğrafi dövrlənmənin ilahi iradənin dialektikasının dərk edilməsi.

**Formasiyalı paradiqma: dövrlənmə kriteriyası = sosial-iqtisadi önəmi**
Cəmiyyətin tarixi inkişaf tipi; ərazi-istehsal üsulu; dialektik bazis, üstqurum.

**Sivilizasiyalı paradiqma: dövrlənmə kriteriyası = sosial-mədəni gerçəklik =**
Sivilizasiya – universal tərifi yoxdur. Əsas əlamətləri: coğrafi "məkan-zaman" önəmi; insanların həyat tərzinin formalaşması; unikallığı.

**Passionar paradiqma: dövrlənmə kriteriyası = etnosun inkişaf dinamikası**
Etnos-vahid davranış stereotipləri olan, daxili struktura malik insan qrupları. Etnosda əsas hərəkətverici qüvvə passionarlıqdır. Rassionarlıq- ayrı-ayrı insan fərqlərin yüksək səviyyəli məqsədyönlülüyün olması mənasını əhatə edir.

***Xronoloji radikal-tarixi-coğrafi təsnifat paradiqmaları***

Qeyd etmək məqsədəuyğundur ki, Maltus xronoloji təsnifatda əsas kriteriya kimi əhali artımını, Ş.Monteskye isə öz tədqiqatlarında coğrafi mühiti və s. götürmüşlər.

[70] Qumilyov L.N. Etnogenez və yerin biosferi. Bakı, 2005.
[71] Шпенглер О. Закат Европы. Новосибирск.1993.

Müasir dövrdə formasiya tipli xronoloji metodologiyaya dair qısman az olsa da müəyyən dərəcədə təhlillər aparılmışdır. Elmi mənbələrdə "köhnəlmiş" formasiyalarını sivilizasiya formaları ilə əvəz etməyə üstünlük verirlər.[72]

- **"Tədqiqat & dayanıqlı inkişaf"ın coğrafiya elmi məntiqi**

Eklektik[73] xarakterli müəyyənlik sistem çərçivəsində coğrafiya elmi tədqiqatlarda yanaşmalarının olmasına baxmayaraq, bunların daxilində orjinal, elmi-praktiki məzmuna dair nümunələr də mövcuddur. Dəyərli nümunələrinin daxilində "tədqiqat & dayanıqlı inkişaf" paradiqmasında ekletik xüsusiyyətinə baxmayaraq, o, elmlər sistemində (o cümlədən, coğrafiya elmində) geniş tədqiqat dairəsənə malik olan  dialektik konsepsiyalarından biridir.

Tədqiqatın rasionallığının önəmində dayanıqlı inkişafının dəyərləri tarixi proses olmaqla yanaşı, həm də müasirliyi özündə birləşdirir. Müasir dövrün revalyusion dəyişiklikləri dayanıqlı inkişafının optimal virtuallığının genişləndirilməsini tələb edir. Bu sahədə sistem tsiklli təhlilin məntiqində ölkənin dayanıqlı inkişafını təmin edən tədqiqat metodlarının vəhdədi kimi fəaliyyət göstərir. Odur ki, sistem tsikllərinə əsasən onun elementlərini və bunlar arasındakı dialektik əlaqələri öyrənməklə kifayətlənmək olmaz. Bu halda sistem tsikllərinin dayanıqlığının kompleks formada təhlili daha effektliyi zəruridir. Ümumi sistem tsiklli mülahizələrinin nəticələri qabaqcadan söyləməyə imkan verir ki, ölkə iqtisadi siyasətinin formalaşması və həyata keçirilməsinin praktikasında coğrafi biliklərin (coğrafi tskillər təlimi üzrə) istifadəsinə əsaslanmalıdır.

> Hər bir tədqiqat sahəsi müəyyən "coğrafi düşüncə sisteminə" malik olmalıdır və buna riayət olunması həmin tədqiqatın daha elmli və daha məqsədyönlü etməyə imkan  yaradır.

Konstrukiv "tədqiqat & dayanıqlı inkişaf" paradiqmasının aparatı ölkənin koordinasiyasının diversifikasiya strukturunun optimallığını önəmə gətirir**.** Bu önəm dialektik coğrafiya elminin obyektiv tədqiqatının varlığını özündə əks etdirir. Fikirimizcə, coğrafiya elmi metodologiyasına söykənən tədqiqat (**R**) və dayanıqlı inkişaf (**D**) paradiqması ölkənin iqtisadi-sosial struktur funksional münasibətlərnə konstryktiv yanaşmasının dialektikasıdır.

Dialektik coğrafi tədqiqatların kontekstində fəaliyyət göstərən **R&D** paradiqmasının məntiqində ərazi-istehsal tsikllin dayanıqlı effektli spektrinin müəyyənləşdirilməsindən ibarətdir. Nəzəri coğrafiya elmi tədqiqatlarla məşğul

---

[72] Ито Ш. Схема для сравнительного исследования цивилизаций. М., 2001.
[73] **Eklektik** - bir-birinə zidd əsərlər, ideyalar daxildir.

olan alimlər XX əsrlərdən başlaraq R&D əlaqələr sistemində müəyyən rasional fəaliyyətli ideyalar irəli sürmüşlər. Bununla yanaşı tədqiqat (R) və dayanıqlı inkişaf (D) arasında kompleks ideyalarının qarşılıqlı nisbətlərinə söykənən radikal ideyalar da hökmranlıq edir.

Elmi tədqiqatlarında R&D paradiqmasının morfologiyasının məntiqinə dair ideyalar nəzəri-praktiki cəhətdən önəmlidir.[74] "Tədqiqat & inkişaf" paradiqması dialektik coğrafiya elminin konseptual tədqiqat sahəsi olmaqla yanaşı, həm də iqtisadi-siyasi xarakter daşıyır.

Aparılan təhlillərinin metodikasının məntiqinə görə, R&D arasında dialektik vəhdət mövcuddur və tipik nəzəri coğrafi morfoloji qanunauyğunluğuna söykənən müstəqil tədqiqat sahəsidir. Fikirimizcə, R&D paradiqması kodlarının rasional təyini = coğrafiya elmi tədqiqat obyektinin fəaliyyətində, onun sərhədlərinin daxilində effektli dayanıqlı və optimal mühit yaradır.

| | | |
|---|---|---|
| | * R&D funksiyasında coğrafi bilik yaratmaqla tədqiqatın aparılması<br>* R&D coğrafi resurs səfərbərliyi<br>* R&D dayanıqlı strukturlarının yaradılması<br>* R&D tədqiqatın praktika ilə uzlaşdırılması<br>* R&D funksiyasında dayanıqlı innovasiyaların tədbiqi | |

***"Tədqiqat & Dayanıqlı İnkişaf" paradiqmasının funksional kodları***

Ümumi məntiqlə yanaşsaq, effektli modernizasiya kodları klassik paradiqma nəzəri baxışlarının əsasında yaranmışdır. Məsələ ondan ibarətdir ki, R&D paradiqmasının aparatı klassik nəzəri baxışlara söykənməklə yanaşı, müasir nəzəriyyələrdən yaradıcılıqla istifadə edir və iqtisadi-siyasi inkişafının sintezini aktivləşdirir. Bu səbəbdən də R&D paradiqması kodlarının modernizasiyası məqsədli tədqiqat obyektinin tələb və normalara, texnoloji və istehsal sahələrinin keyfiyyət parametrlərinə uyğunlaşmasını tələb edir. Bu paradiqmanın keyfiyyət parametrləri cəmiyyətin ərazi təşkilində önəmli konseptual tədqiqat sahəsi hesab edilir.

---

[74] Berry B.J.L. The Global Economy.İnc.,Englewood Cliffs, 2002; Knox R. The Geography of the Word Ekonomy. Arnold, London, 1998; V.Ə.Qasımlı. İqtisadi modernizasiya. Bakı, 2014.

R&D paradiqmasının elmi sistem formasında təhlilinin ideyasının mənbələrinin yaradılması coğrafiya elminin dialektikasında və onun tədqiqat obyektinin öyrənmək məqsədində mühüm mövqeyə malikdir. Coğrafiya elminin tədqiqat obyektinə sistem kimi dəyərləndirmək məqsədində aşağıdakı tələblərini ödəməlidir.

1. *Coğrafiya elminin tədqiqat sistem obyektinin tamlığı müəyyən olunmalıdır.*
2. *Sistemin tədqiqat obyektinin spektri elmi-praktikiya söykənməlidir.*
3. *Coğrafi sistem obyektlərinin arasında dialektik əlaqələr olmalıdır.*
4. *Sistemin dialektikası innovasiya – texnologiyaların modelinə əsaslanmalıdır.*
5. *Coğrafi sistemlərin son həddi ölkənin (regionun) strategiyasına ideyalar ötürməlidir.*

Coğafiya elminin tədqiqat sistem obyektlərinin formalaşması özünün zəruri müxtəlifliyi ilə seçilir. A.X.Mirzəcanzadənin fikri ilə desək = “...elmi problemləri həll etmək üçün zəruri şərtdən müxtəliflikdən başqa bir çox özgə şərtlər də lazımdır: müəyyən bilik səviyyəsi, təfəkkürün dərinliyi və gücü. Bu müxtəliflik olmadan tədqiqat öz-özlüyündə nəticəsizdir”.



**Mirzəcanzadə A.X.:** *Mütəffəkir filosof, intellektual zəka sahibi, tədqiqatları dünya şöhrətinə çevrilmişdir.* Elmi-fəlsəfi konsepsiyaları dünya elm mərkəzlərində qəbul olunmuşdur. Mexanika və neft-qaz yataqlarının işlənməsi sahəsində elmi praktikasında ilk dəfə təklif etdiyi qanunlar və sistemli ideyaları ilə məşhurdur. O, müasir Azərbaycan elminin fəxri və onun zivəsidir.

Müxtəliflik sistem tsiklinə əsaslanan R&D effektin spektri müəyyən coğrafi strukturlarnın “hərəkətinə”malikdir. Məntiqi önəm ondan ibarətdir ki, strukturun “hərəkəti” ölkənin iqtisadi və siyasi dayanıqlığının təminatında mühüm mövqe tutur. İnnovasiya tsikllərinin tədbiqi sisteminin müxtəlifliyinin kompleksini dəyərləndirir və müəyyən qanunlarla idarə olunur və reallaşır.

Hər bir ölkə müəyyən resurslara (xammal, insan, kapital və s.) malikdir və həmin resurslardan istifadə ediməsi və realizasiyası daha məqsədyönliyə malikdir. Bu da təbiidir ki, sənaye ölkələrində sistem müxtəlifindən dayanıqlı və elmi əsaslarla istifadə etdikləri üçün dünyanın “güc” qüvvəsinə çevrilmişlər. Odur ki, dayanıqlı sistem müxtəlifliyin elementləririnin öyrənilməsi ilə yanaşı, bunlar arasındakı dialektik əlaqələrinə kompleks coğrafi strukturların təhlillərinə üstünlük verilməsi də zəruridir.

Bu zəruriyyətə daxildir: coğrafi tədqiqatının mövzu və obyektinin düzgün seçilməsi; müəyyən bilik səviyyəsinə malik olmaq; coğrafiya elmi metodlarından effektli istifadə edilməsi; ümumiləşdirilmiş konstruktiv məntiqi nəticələrinin meydana gəlməsi praktikası və s. məsələlər daxildir.

Bu məsələlər R&D coğrafiya elmi tədqiqatlarında aşağıdakı məntiqi sistem müxtəlifliyi ilə əlaqədardır:

Coğrafi təfəkkürə malik olan tədqiqatçı, hec vaxt məntiqsiz dialektik coğrafiya elm sahibi ola bilməz.

- ✓ Məntiqi coğrafiya elmi tədqiqat metodunun seçilməsi ilə;
- ✓ Coğrafi strukturlarının ərazi təşkili potensialının diaqnostikası ilə;
- ✓ Coğrafi məntiqinin əsasında qərar qəbuletməsi ilə və s.

Məntiqi sistem müxtəlifliyi bütövlük effektinin tədbiqinə əsaslanan coğrafiya elmi tədqiqatlarının dayanıqlı inkişaf funksiyasını yerinə yetirə bilər. Sistem alqoritminin formalaşmasında bir çox coğrafi funksiyalarından da istifadə etmək olar.

Altıncı önəm

# Radikal coğrafiyanın dialektik baxışları

- **Radikal coğrafiya: sivilizasiya nəzəri baxışları**

XIX əsrin sonlarında cəmiyyətin ərazi təşkili və formalaşmasının önəmində yeni ideyalar əmələ gəlməyə başlamışdır. Bu tipli ideyalarının təsnifatında sivil strukturun miqyası, sivil ictimai tərəqqinin təsir dairəsi və s. məsələlər elmi mənbələrdə geniş istifadə olunurdu.

Elmi mənbələrdə "sivilizasiya" anlayışının məzmunu ilə bağlı yekdil ideya istiqmətinə dair yanaşmalar mövcud deyildir. "Fəlsəfi ensiklopedik lüğət"də sivilizasiyaya (1989 ) 3 tərif verilir:

✓ *Sivilizasiya - mədəniyyətin sinonimidir;*

✓ *Sivilizasiya - maddi və mənəvi mədəniyyətin, ictimai inkişafın səviyyə pilləsidir;*

✓ *İctimai inkişafın barbarlıqdan sonra gələn pilləsidir.*

XX əsr fəlsəfəsinin dünyagörüşündə və təkamülündə aparalına elmi-metodoloji yanaşmalarının cərgəsində sivilizasiyanın formalaşmasına dair **dörd radikal** konstruktiv baxışlar diqqəti səlb edir:

➢ *Sivilizasiya = ölkələr və xalqlarda mədəniyyətin dinamikasının və onun inkişafının müəyyən mərhələsidir ( A. Toynbi,[75] Le Qoff J,[76] M.Z.Bor[77]);*

➢ *Sivilizasiya = əksər xalqlar üçün "xətti"mədəniyyətinin dəyərliyidir (K.Yaspers[78]);*

➢ *Sivilizasiya = xalqların (ölkənin) mədəni inkişafının son anıdır (O.Şpenqler[79]).*

---

[75] Тоюби А. Постижение истории. М.,1996.
[76] Ле Гофф Ж. Цивилизация средневекового Запада. М., 1992.
[77] Вор М.З. История мировой экономики. М.,1998.
[78] Ясперс К. Альтернативные пути к цивилизации. М., 2003.
[79] К теории цивилизационных формаций. 2001.

➢ *Sivilizasiya = "zaman-məkan" fərqlərinin nəzəri baxışlarıdır (Ş.İto[80]).*

Problemə kompleks yanaşmaq tərzinin reallıqlarını irəli sürən radikal coğrafiya tədqiqatçılarının əksəriyyəti sivilizasiya önəmində "coğrafi mühit-cəmiyyət"in təkamülü ilə əlaqələndirilməsinə səy göstərmişlər. "Coğrafi mühit-cəmiyyət"in dialektik fonunda sivilizasiya inkişafının tsiklli nəzəri baxışlarına uyğun olaraq dörd əsas istiqamət götürülr:

1. Onillik = ortamüddətli amplitudalı tsikl.
2. Yarıməsrlik (Kontratyev tsikli) = insan nəslinin, texnoloji, eləcə də iqtisadi-siyasi mühitinin dəyişilməsini əks etdirən tsikl.
3. Əsrlik = sivilizasiyalarının dövri dəyişmələrini özündə birləşdirən tsikl.
4. Minillk = sivilizasiyalarının "qohum"luq dialektikasını əhatə edən super tsikl.

Tədqiqatların əksəriyyətində tarixi-xronoloji sistemlərini önəmə gətirməklə yeni sivil yanaşmalarının formalaşmasına səbəb olmuşdur. İlkin olaraq, K.Marks, A.Toyubi və başqaları cəmiyyətin inkişafını təmin edən sivil strukturlarının gerçəkliklərinə dair ideyalar irəli sürdülər.

Problemə kompleks yanaşsaq ümumi sivilizasiyanın inkişafını təmin edən strukturlarının dinamikasında coğrafi təfəkkürun mütləq üstünlük cəhətlərində özünü göstərmişdir. Fikrimizcə, coğrafi təfəkkürünün dialektikası sivilizasiyanın formalaşmasında mövqeyi və dinamikası daha, erkən dövrlərdən başlayaraq öz təsirini göstərmiş və müasir dövrdə də davam edir.

XIX əsrin sonu, XX əsrin əvəllərində Avropada və Şimali Amerikada baş verən elmi-tərəqqili strukturlarının dinamikası sivilizasiya meyli tədqiqatlarının meydana gəlməsinə səbəb olmuşdur.

Buraya daxildir: cəmiyyətin ərazi təçkilinin birxətli inkişafının struktur tsiklləri; ölkənin idarəedilməsində coğrafi-iqtisadi mədəniyyətinin və sivilizasiyasının mövcudluğu; tarixi inkişafının rasional təkamülünün müasirləşdirilməsinə diqqətin artırılması və s.

Praktiki olaraq müasir dünyanın dərk edilməsinin coğrafiyasında şərq və qərb sivilizasiyası arasında dialektik gerçəkliklərinin dinamik "tsiklli xətinin hərəkəti" davam edir.

XX əsrin fəlsəfəsinnin tələblərinə uyğun sivilizasiya anlayışının təsnifatında müəyyən çərçivədə elmi düşüncə tərzi meydana gəlmişdir. Tədqiqatçılar[81] sivilizasiya düşüncə tərzinin sosial-iqtisadi, siyasi və coğrafi kontekstində irimiqyaslı problemlərinin araşdırmalarına üstünlük vermişlər. Bu baxımdan si-

[80] Ито Ш. Схема для сранительного исследования цивилизаций. М., 2001.
[81] История мировой цивилизации. Киев, 2002.

vilizasiyanın nəzəri baxışları bəşəri problemlərinin dərk edilməsində, kompleks strateji proqramlarının həyata keçirilməsinin praktikasında öz həllini tapmışdır. Müasir dövrdə sivilizasiyanın coğrafi baxışlarının metodologiyasında aşağıdakı məsələlər daha aktualdır:

1) Coğrafi fikir tarixinin dialektikasında sivilizasiyanının "məkan-zaman" mövqeyi.

2) Coğrafi məkanda ölkələrinin dayanıqlı inkişafını təmin edən sivil yönümlü tədqiqatlarının praktikası.

3) Coğrafiya elminin sivil tədqiqatlarında intellektual, kreativ faktorlarına önəm verilməsi və s.

Yuxarıdakı ideya mənbələrinə əsaslanaraq "Şərq-Qərb" ifadəsi üzrə sivilizasiya formalarına dair anatomiyasını şərh edilməsini məqsədəuyğun sayırıq.

1. Şəxsiyyət və cəmiyyət arasında dialektik gerçəklik

| ▼ | ▼ |
|---|---|
| Şərq sivilizasiya cəmiyyətin dialektik mənafeyini üsütün tutur | Qərb sivilizasiya şəxsiyyətin dialektik mənafeyini üstün tutur |

2. İnsanın sosial –psixoloji dialektikasının önəmi

| ▼ | ▼ |
|---|---|
| Şərqdə adət-ənənlərin dialektikası balans halında olmasını zəruri hesab edir | Qərbdə insanın dialektikasının daha da aktivləşdirilməsinə səy göstərilir |

3. Dialektik həyat fəaliyyətinin dəyişilməsi dinamikası

| ▼ | ▼ |
|---|---|
| Şərqdə dəyişmə təkamüllə, ruhi-mənəvi dəyərlərə istinadla baş verir | Qərbdə həyat tərzi sıçrayışla baş verir, mənəvi dəyərlər önəmi yüksək səviyyə daşımır |

4. Sosiumun davamlı strukturu və fərqlilik dialektikası

| ▼ | ▼ |
|---|---|
| Şərqdə kənd cəmiyyəti, kənd, tayfalar, ənənələri üstündür | Qərb də şəhər cəmiyyəti, şəhər, müasirlik ön cərgədədir |

***Şərq - Qərb sivilizasiyasının dialektik anatomiyası***

Radikal coğrafiya elminnin dialektik baxışlarında Şərq və Qərb sivilizasiya fərqlərinin anatomiyası tədqiqatlarda geniş məzmuna malikdir. Problemin

dəyəri ondan ibarətdir ki, tarixi inkişafının bütün mərhələlərində Şərq və Qərb sivilizasiyası arasında qlobal proseslərinin arasında rəqabətin davamlı olaraq dinamikliyi ilə fərqlənmişdir.[82]

Tarixi-coğrafi mənbələrdə **nəzəri sivilizasiya** dövrləri[83] daha çox hallandırılılır:

Ənənəvi cəmiyyət (buraya kapitalizmə qədərki ) dövr

XVII-XVIII əsrlərdə Qərbi Avropada formalaşan industrial dövr

XX əsrin ortalarından başlayan posindustrial dövr

Ənənəvi cəmiyyətdə kənd təsərrüfatı, industrial cəmiyyətdə sənaye və post-industrual cəmiyyətdə əsasən xidmət sferasının coğrafiyası üstünlük təşkil edir. İndustrial dövrdə "əsas institut"a görə, postindustrial dövr isə "yaradıcı bilik" kimi fərqləndirilir.

Radikal coğrafiya elmində cəmiyyətin ərazi təşkili problemlərinin araşdırılarkən, bir sara məsələlərlə yanaşı, sivilizasiya konsepsiyalarının rasional idrak formalarından effektli mənbə kimi istifadə edilir. Bu sahədə ilkin olaraq *A.Toyubinin* "Lokal sivilizasiyalar" nəzəriyyəsi radikal coğrafiya elmində aktual mövzu kimi daha çox dəyərləndirilir.



**A.Toyubi**: *Böyük Britaniya*
Fəlsəfə, tarix, sosialogiya, siyasi elmlərə dair 12 cildlik elmi əsərləri çap olunmuşdur. Başlıca tədqiqat sahəsi cəmiyyətin sivilizasiyasına dairdir. O, 21 sivilizasiya "ocaqları"nı müəyyən etmiş və təhlillərini aparmışdır.

A.Toyubinin nəzəriyyəsində mərkəzi idealogiya - müxtəlif formalaşma mənbələrinə əsaslanan sivilizasiya ocaqlarını qapalı cəmiyyət anlayışı kimi təqdim olunur. Onun ideyasına görə sivilizasiyanın təsnifatında *din* və onun təşkili forması və *ərazi* əlaməti kriteriyaları dəyişilmir, sabit qalır, Digər kriteriyalar isə dəyişkənliyi ilə fərqlənirlər.

Bu kriterayalara adekvat olaraq A.Toyuba əsas sivilizasiya ocaqlarını = Misir, And, Çin, Minoy, Şumer, Maya, İnq, Ellin, Qərb, Provoslav, Uzaq Şərq, İran, Ərəb, Hind, Meksikan, Yukatan və Babilistan = fərqləndirmişdir (Ues-

[82] Конрад Н.И. Запад и Восток. М.,1972.
[83] Бор М.З. История мировой экономики. М.,1998.

kott R. bu sivilizasiyalardan[84] 14-ünü “ölü” adlandırmışdır). A.Toyubanın fikrincə sivilizasiyanın genezisini nə irqi amillə, nə də coğrafi mühitlə izah etmək olmaz. Sivilizasiya o vaxt formalaşır ki, bunun üçün “neytral” situasiya meydana gəlsin, yəni nə çox pis olmasın və cəmiyyətdə kütləni arxasınca apara biləcək yaradıcı azlıq mövcud olsun.[85]

Bəşər tarixi = diskret sosial təşkilolma vahidlərinin (sivilizasiyaların) məcmusudur.

S.Xanqinqtonun sivilizasiya nəzəriyyəsi çərçivəsidə 8 müasir təsnifatı elmi mənbə kimi maraq doğurur (Qərb, Pravoslav, Çin, İslam, İndus, Yapon, Latın Amerikası və Buddist). Elmi mənbələrdə bununla bərabər sivilizasiya məntiqinə dair müxtəlif yanaşmalar da nəzəri cəlb edir:

Sivilizasiyalı yanaşma “zəiflərin idealogiyasıdır”, etnik millətçiliyin dünyanın güc mərkəzlərinə etiraz formasıdır (İ.Vallerstayn) .

Qərb ölkələrinin müasir tədiqatçıları əsas ağırlıq mərkəzini sivilizasiyaların müqayisəli tədqiqinə yönəldilir. Bu aspektdən sivilizasiyanın “zaman-məkan” fərqliliklərinin “genetik ağac”ın sxemnin tərtib edilməyə çalışan tədqiqatlar da mövcuddur (Hord D.).

- **Radikal coğrafiya elmində “zaman çoxluğu” anlayışı**

Elmi mənbələrdə “zaman çoxluğu” yanaşma metodologiyasına tədqiqatçılar tərəfindən müxtəlif müstəfindən baxılmışdır. Məntiqi olaraq elmi mənbələrdə istifadə edilən zaman ideya istiqaməti demək olar ki, coğrafiya elmi tədqiqatlarda ön planda istifadə edilir. “Zaman çoxluğu” metodologiyasının formalaşmasında və nəzəri əsaslarla tədqiqatlarda qərb coğrafiya elmi məktəblərində daha çox təsnifatlar aparılmışdır.

F.Brodelin[86] elmi əsaslarla irəli sürdüyü zaman çoxluğu təhlili metodikası coğrafiya elmində mühüm məsələ kimi aktual kəsb edir. Onun tədqiqatlarında irəli sürdüyü zaman və struktur tiplərinin funksional yanaşmasından coğrafiya və iqtisadiyyat elmlərində geniş istifadə edilmiş və müxtəlif mövzularda oz əksini tapmışdır.

[84] Уэскотт Р. Исчисление цивилизаций. М., 2001.
[85] Тоунби А. Постижение истории. М., 1996.
[86] Бродель Ф. Пространство и история. 1994.



**Fernam Brodel:** *Fransanın görkəmli elm xadimidir.*
Tarixi dövrləşməsi prosesini təhlil edərkən coğrafiya və iqtisadiyyat elmi faktorlarını əsas mənbə kimi götürmüşdür. Zaman çoxluğu nəzəriyyəsini yaratmışdır.

Qeyd etmək lazımdır ki, F.Brodelin "Zaman çoxluğu nəzəriyyəsi"nin əsasında Qərbi Avropa ölkələrində formalaşan coğrafiya elmi məktəblərinin tədqiqat sahələrində geniş miqyasda istifadə etməklə yanaşı, aparıcı elmi mənbə kimi əhəmiyyət kəsb etmişdir. "Zaman çoxluğu nəzəriyyəsi"nin orijinallığı ondadır ki, bu nəzəriyyə sosial, iqtisadi və siyasi proseslərinin təhlilində prinsipcə yeni tədqiqatların aparılmasına stimul yaratmasıdır.

F.Brodelin məntiqi ondan ibarətdir ki, zaman çoxluğu nəzəriyyəsini yaradarkən müxtəlif coğrafi məkan səviyyələri və miqyaslarının qarşıqlı nisbətlərinin strukturlarını tədqiqat obyektinə çevrilməsidir. F.Brodelin təklif etdiyi bir-biri ilə dialektik əlaqələrdə olan iki yeni zaman (temporallıq) tsiklliyi əsaslandırılmışdır:

1) strukturların tədricən, sadədən mürəkkəbliyə doğru dəyişən temporallığı tsiklliyi;

2) həmin strukturların daxilində konyuktur tərəddüdlərin temporallığı tsiklliyi.

Yuxarıdakı təsnifatının əsasında İ.Vallerstayn[87] tərəfindən = struktur zaman və tsiklik zaman tipini təklif etmişdir:

1) struktur zaman tipində - tədricən gedən və uzunmüddətli trendləri özündə birləşdirən "böyük miqyasda (uzunluqda)" zaman kəsiyi;

2) tsiklik zaman – daha sürətli konyunktur ritmlərinin "reaksiyasını" əhatə edən zaman kəsiyi.

Qeyd etmək məqsədəuyğundur ki, zaman problematikası demək olar ki, coğrafiya elmi tədqiqatlarının əksəriyyətinin dövriyyəsinə daxil edilmişdir. Zaman problematikasının dəyərliyi onunla ölçülür ki, bu konsepsiya coğrafiya elminin metodologiyasında yeni bir ideyalarının yaranmasına səbəb olmuş və tədqiqatlarda geniş istifadə edilməsidir.

Son dövrlərdə radikal coğrafiya elminin nəzəri zaman çoxluğu ideyasının təyini və praktiki əlaqələrinin matris termini altında konkret olaraq bir sıra araşdırmalar, nəticələr yer almışdır.

[87] Wallerstein I. Unthinking Social Science.Cambridge: Polity Press,1991.

Funksional struktur zaman ideyasının əsasında təşkil edilən iqtisadi strategiyasının təyini radikal coğrafiya tədqiqatlarda geniş məzmunda araşdırmalar aparılmışdır. Fikrimizcə, ölkənin iqtisadi potensialının optimallığı, strateji məhsul istehsalınıni və diversifikasiya tipinin təyini məntiqi olaraq struktur zaman kodunun subektdir (homo economicus).

Nəzəri-pratiki baxımdan zaman çərçivəsində struktur sisteminin matrisinin əsasını funksional inkişaf modellərinin yaradılması və praktikasının həlli yollarının tədbiqiindən irəli gəlir. Hər bir funksional inkişaf modeli ilə onun tədqiqat metodologiyası arasında zaman çoxluğunun əlaqələri mövcuddur. Müasir zaman çoxluğunun fəlsəfəsi = sosial-iqtisadi-siyasi struktur funksiyalarının dialektik əlaqə mexanizmlərinin və effektiv elmi araşdırmalarının üstünlüklərindən istifadə edilməsindən ibarətdir.[88] İdeya istiqamət ondan ibarətdir ki, zaman çoxluğunun modeli və onun matrisi optimal olaraq ölkənin klaster inkişafının effektliyini nümayiş etdirir.

Müasir dövrdə coğrafiya elmində istifadə edilən zaman çoxluğuğunun konsepsiyası mühüm əhəmiyyət daşıyır: zaman kəsiyində kompleks inkişafının əsas hərəkətverici "güc" qüvvəsi formalaşır; ərazinin resurs potensialından istifadəsini optimallaşdırır; ölkədaxili ərazi-istehsal sahələrinin yeni məzmuna çevrilməsinə səbəb olur.

## ▪ Radikal coğrafi tədqiqatlarda yeni təkamül çağırışları

Müasir dövrün aktual məsələlərindən biri də radikal coğrafiya elmi tədqiqatlarının məzmununda sosial təkamül prosesləri ilə nisbi qeyri-müəyyənlik əlaqələrinin kəsişmə nöqtəsindən çıxış etməsidir.

İlkin olaraq L.Uayt [89] mədəni təkamüldə iki mərhələ: "primitiv" cəmiyyət və sivilizasiya, həmçinin mərhələli keçidin formalaşmasında 3 revolyusiya keçidin = aqrar, yanacaq və "nüvə yanacağı" = fərqləndirmişdir.



**L.Uayt (ABŞ)**:
*Görkəmli antropoloq, etnoloq və kulturoloq.*
Kulturologiya elmi evolyusiyasına dair tədqiqatları coğrafiya elmi mənbələrində yüksək qiymətləndirilir.

[88] Qurbanzadə A. A. XXI əsr dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Bakı, 2015.
[89] Уайт Л. Избранное: эволюция культуры. М., 2004.

XX əsrin ortalarından başlayaraq antropoloqlar[90] belə bir fikrə gəlmişlər ki, insan birliklərin ilkin forması "lokal qruplar" formasında olmuşlar. Tarixi inkişafının dövrlərində isə insan birlikləri ictimai struktura malik olmuş, müəyyən səviyyədə "istehsal" - əkinçilik – maldarlıq inkişafı qəbilələrinin yaranmasına səbəb olmuşdur. İnkişafın tələbinə uyğun olaraq cəmiyyətlər arasında sosial təbəqələşmə ilə əvəz olunmuşdur. Bu istiqamətdə formalaşan sosial təbəqələşməyə yönəldilən konseptual baxışlar meydana gəlmişdir.[91]

Radikal coğrafi çağrışlarının məntiqində tarixi-coğrafi prosesinin xətti inteqrasiyası ilə diskret (sivilizasiyalı yanaşma) şəhri arasında orta mövqe mövcuddur. ABŞ sosioloqu Daniel Bell "Postindustrial cəmiyyət" nəzəriyyəsində elmi-texniki, elmi-iqtisadi və siyasi sferadakı dəyişikliklərini nisbi səviyyə göstəricilərini orta mövqe kimi götürür. O, cəmiyyətin təkamülünə texnologiya və biliklərinin mövqeyi prizmasından baxır:

*1) elmin artan rolu; 2) elmin insan fəaliyyətinin mühüm sferasına çevrilməsi; 3) məşğulluq sferasında proqressiv dəyişikliklər; 4) kooperasiya olunmuş əməyin rolunun artması və s.*

Radikal coğrafiya elminin konseptual təkamül ideyalarında çox mühüm nəzəri baxışları sistemində "dalğa" çağrışları daha önəmli və coğrafiya elmi tədqiqatları cəhətdən aktuallıq kəsb edir.

Radikal coğrafiya elmi tədqiqatlarının təkamülündə "dalğa" nəzəri çağrışlarına dair aparılan araşdırmalarının nəticələri rasional məzmuna malikdir. Dalğa nəzəriyyəsinin tədbiqi ölkənin potensial inkişafının tendensiyalardakı real mənzərəni daha aydın görə bilməklə yanaşı, gələcək dəişiklik istiqamətlərinin proqnozlaşdırmağa geniş imkanlar yaradır.

Qərb ölkələrinin müasir tədiqatçıları əsas ağırlıq mərkəzini sivilizasiyaların müqayisəli tədqiqinə yönəldilir. Bu aspektdən sivilizasiyanın zaman-məkan fərqliliklərinin nəzərə alan təkamül sxemlərinin tərtib edilməsinə dair çağrışlar effeklidir.

Dalğa nəzəriyyəsinə əsasən dayanıqlı inkişafda hər hansı iqtisadi-sosial dəyişikliyinin kompleks informasiyanın elmi-metodologiyasına stimul verir. Mövcud şəraitdə ölkənin kompleks iqtisadi-sosial inkişaf tsikllərinin hansı səviyyəsi ilə uyğunluğunun müəyyənləşdirilməsi dalğa nəzəriyyəsinin ən mürəkkəb məsələlərindən biridir.

Qloballaşma mühitində yeni dayanıqlı inkişaf tsiklinin "dalğa reaksiya"sının formalaşarkən yeni yaranmaqda olan stukturun hansı dalğa səviyyəsinə

[90] Классен Х.Й. Пробемы,парадоксы и перспективы эволюционизма. М., 2000.
[91] Earle T. Chiefdams in Archaelogical and Ethnohistorical Perspective. London,1987.

uyğun gəldiyinin müəyyənləşdirilməsi bir sıra çətinliklər yaradır.[92]

“Dalğa reaksiyası”nın səviyyəsi müvafiq ərazi-istehsal strukturunun formalaşmasını tarazlaşdırmaqla yanaşı iqtisadi inkişafın tsiklliyini optimallığını müəyyənləşdirir. Başqa ifadə ilə desək, hər bir dayanıqlı inkişaf “dalğa reaksiyası”* ya özündən daha yüksək səviyyədə yeni “dalğa reaksiyası”nın inkişafına yardımçı olur və ya “dalğa reaksiyası”na əks təsir göstərir.

*E.Toffler* “Üçünçü dalğa” (“The Third Wave”) adlı əsərində **“...**yeni sivilizasiya həyatlarımızda əmələ gəlir və onu görməyə qadir olmayanlar, onu boğmağa çalışırlar” ideyasını utopiya adlandıranlar, sonrakı dövrlərdə isə iqtisadi inkişafın kompleksliyinin nəticəsində bu ideya daha çox praktikaya doğru əsaslandırılmağa cəhd olmuşdur.



**Elvin Toffler: (ABŞ)**
Fəlsəfi, sosioloji və cəmiyyətin posindustrial qlobal problemlərinə dair geniş profilli tədqiqatlar aparmışdır. Onun fikrincə müasir cəmiyyət yeni texnoloji revolyusion dinamikasının mərhələsindədir.

E.Toffler nəzəri cəhətdən əsaslandırmışdır ki, tarixi inkişaf prosesində tsiklli olaraq özünü göstərən “dəyişik dalğaları” son nəticədə “yeni sivilizasiya”nın yaranması ilə nəticələnir. E.Tofflerin tədqiqatlarında, sivilizasiyanın yaranması və inkişafının üç mərhələsini və ya üç dalğanın ardıcılığını fərqləndirir:

1) -*”sivilizasiyanın aqrar dalğası”nın formalaşması;*

2) - *”sivilizasiyanın sənaye dalğası”nın yaranması və formalaşması;*

3*)* - *“sivilizasiyanın elektron - informasiya dalğası”nın inkişafı.*

Məntiqi olaraq E.Tofflerin “Üçünçü dalğa” nəzəriyyəsi konseptual olaraq ölkənin kompleks inkişafının anatomiyasında yeni radikal coğrafi meyillərinin yaranmasına səbəb olmuşdur.

**Dəyişkənlik dalğaların sivilizasiya gerçəkliyi (E.Toffer təsnifatı)**

| Sivilizasuyanın aqrar dalğası (b.e.ə.10 minillik) | Sivilizasiyanın industrial dalğası (Avropa XVIII əsr) | Sivilizasiyanın super industrial dalğası (XX əsrin 60-ci illəri) |
| --- | --- | --- |

Müasir dünyanın E.Tofflerin “Üçünçü dalğası”nın fəaliyyəti oldyğu bir bir

[92] Qurbanzadə A.A. Regionalogiya. Bakı, 2013.
* “Üçüncü dalğa” nəzəriyyəsi 1980-ci ildə yaranmışdır.

vaxtda, informasiya cəmiyyətinin reallıqlarını moderləşmə "reaksiyası" ilə əvəz edilməyə başlanmışdır. Bu mənada yeni yanaşmalar çərçivəsində *Z.Bjezinskinin* "Texnotop era" terminin adekvat təsəvvürü meydana gəlmişdir. Müasir elmi düşüncə tərzində "Vahid sivilizasiya" nəzəriyyəsi özünəməxsus yer tutur. Bu nəzəriyyənin elmi mahiyyəti ondan ibarətdir ki, dünya ölkələri liberallaşma yolu ilə gedərək belə bir quruluşa nail olduqda, vahid cəmiyyətin sivilizasiyasına çevriləcəkdir.

Cəmiyyətin revalyusion inkişafının təhlilinin faktoru göstərir ki, dalğa nəzəriyyəsinin tədbiqi ilə əlaqədar olaraq qlobal inkişafının hər hansı bir dəyişikliyində müəyyən əhəmiyyətli informasiyalar mövcuddur. Bu nəticə əsasında eyni zamanda özü də cəmiyyətin müəyyən inkişafının informasiyasının kodlarını yaradır. Bu kodlar eyni zamanda cəmiyyətin davamlı inkişafının səviyyəsində iqtisadi və sosial sistemində müəyyən struktur keyfiyyətlərini aktivləşdirir.

Minilliklər ərzində mövcud olmuş sivilizasiyanın aqrar dalğası cəmiyyətin inkişaf müxtəlifliyinə baxmayaraq, təkamül proseslərinin xarakterlərini özündə birləşdirilməsi ilə fərqlənmişdir. Elmi mənbələrə görə inkişafın aqrar dalğasının formalaşması ilkin olaraq real dünyanın dərk edilməsinin və reallaşmasının fəallığı kimi meydana gəlmişdir.

> Fikrimizcə, dayanıqlı inkişaf çərçivəsində = iki dalğa modeli: əsas və nisbi dalğalar aktivlik göstərir. Əsas dalğalar dayanıqlı inkişafının bazası hesab edilir. Nisbi dalğalar isə müvəqqəti dalğalardır.

Qlobal inkişafın dəyişkənliyi və yaxud sivilizasiyanın industrial dalğası əvvəlki epoxa dalğasından fərqli olaraq elmtutumlu, resurstutumlu sənaye strukturlarının inkişafı ilə xarakterizə olunur. Bu da insan yaşayış tərzində dəyişkənlik yaratmış və innovasiya iqtisadi inkişafının rasional xətləri önəmə gətirilmişdir. Sivilizasiyanın industrial dalğası qlobal dəyişkənliyinin yeni mərhələsinin baş verməsi ilə seçilir. Tədbiqi texnoloji innovasiya konsepsiyalarının yaranması səbəbindən qloballaşan industrial epoxasında inkişaf etmiş ölkələr müasirləşmişlər. İnkişaf etmiş ölkələrinin qlobal səviyyədə optimallaşması ilə əlaqədar ölaraq dünya ölkələri arasında "qütb"ləşmə prosesinin baş vermsinə səbəb olmuşdur. Qərb ölkələrinin qloballaşması səviyyəsinə uyğun dayanıqlı inkişafının "hökmdarlığının"aktivliyi səbəbindən onların sürətlə inkişafının mərhələsinə çevrilməsinə səbəb olmuşdur.

XX əsrin ortalarından başlayaraq bərpa edilən enerji mənbələrinin strategiyasını təmin edən siyasətinin meydana gətirilməsi, daxili bazarların beynəlxalq bazar sisteminə qovuşması, sosial həyat tərzinin sürətlə dəyişilməsi, nəzəri təfəkkürün praktika ilə üzvi surətdə birləşməsi və s. məsələlərinin aktuallıq səviyyələrinin variantları radiakal coğrafiya elminin tədqiqatlarında mühüm rol oynamışdır.

**Yeddinci önəm**

# Radikal coğrafiya: iqtisadi-sosial inkişafının informasiya fenomeni

- **İqtisadi -sosial inkişafının informasiya fenomeni**

Elmi məna cəhətdən informasiya – “coğrafi mühit-cəmiyyət”in dialektikasının yanaşma tərzinin məntiqinə uyğun formalaşmış, effektli iqtisadi inkişafının formalaşmasına xidmət etməsi ilə fərqlənmişdir. Bu prosesin ölkənin iqtisadi və sosial inkişaf səviyyəsinin tələblərinə uyğun olaraq XIX əsrin ortalarından başlayaraq struktur sahələrinin ərazi təşkili sistemində informasiya fenomenin tədbiqi xarakterlərinə çevrilməsinin nəticələri mövcud olmuş və olmaqdadır.

“Fəlsəfi ensiklopedik lüğət”də informasiya anlayışının dörd mənası açıqlanmışdır:”*... bilgi, xəbər, məlumat”; “məlumatların alınması prosesində azalan, aradan qaldıran qeyri-müəyyənlik”; “canlı və cansız təbiətin istənilən obyektlərindəki müxtəlifliyinin inkikası (əksi)”; “idarəetmə ilə bağlı məlumat = sintetik, sematik və praqmatik siqnallar”.*



**Klod Elbud Şennon: (ABŞ)**
“Rabitənin riyazi nəzəriyyəsi” (1948-ci il) adlı əsəri informasiya elmində yeni eranın başlanğıcının əsasını qoymuşdur. Bu səbəbdən də informasiya texnologiyalar elminin banisi hesab edilir.

İnformasiya - texnologiya sisteminin yaranması ümumi coğrafiya elminin fundamentallığnı artırmış və onun tədqiqat prosesnin yeni məzmunla ifadəsini özündə birləşdirmişdir. Radikal coğrafiya elmi anlayışında informasiya - “məkan-zaman” gerçəkliyində ərazi strukturunun istehsal dəyişkənliyinin fonunda kəmiyyətin keyfiyyətə keçidin məqsədəuyğun məntiqinə əsaslanır. Məsələ onunla ölçülür ki, informasiya formalarının təsiri ilə iqtisadi-sosial sahələrinin strateji məqsədli reallıqlarını müxtəlif mənbələrini keyfiyyətcə yeniləşdirir və onun tədqqat “reaksiyası”nın sürətləndirilməsinə xidmət edir.

İnformasiya və elmi bilik strategiyasının vəhdətinin nəticələrinin əsasında ölkənin maddi resurs potensialına çevrilir və nəticədə isə ölkənin iqtisadi inkişafında diversifikasiya struktur sahələrinin şaxələnməsinə səbəb olur. İnformasiya resursunun emalı sferasının xüsusi çəkisinin yüksəlməsi, məntiqi olaraq iqtisadi inkişafının dayanıqlığını artırmaqla yanaşı, strateji məqsədlərə də xidmət etməsi ilə də fərqlənir. Məntiqi olaraq, ABŞ dövlətinin yarandığı ilkin mərhələsindən başlayaraq ölkənin informasiya reallıqlarının coğrafiyası genişləndikcə, onun maddi istehsal sahələrinin aktivliyi artmış və dayanıqlığının fəaliyyətinin miqyası virtual mühitdə çevrilmişdir.

> Dünyanın dayanıqlı "güc" qüvvəsinə malik ölkələrin iqtisadi-sosial inkişafının əsas səbəblərindən biri də dayanıqlı informasiyanın coğrafi strukturlarinin kompleksliyinə əsaslanmasıdır.

XX əsrin sonrakı dövrlərindən başlayaraq dayanıqlı "güc" imkanlarına malik olan ölkələrdə "kreativ informasiya"nın inkişafına paralel olaraq maddi istehsalın (informasiya istehsalı) qovşaqlarının sərhədlərinin təsiri dairəsi genişlənməyə başlanmışdır. Bu cəhətdən də informasiya xidmətinin coğrafiyası virtual iqtisadi-sosial miqyasının xarakterinə çevrilməsinə səbəb olmuşdur.

## ▪ Qlobal informasiya coğrafiyasının indeksi

Elmi araşdırmalarda qlobal informasiya coğrafiyasının əsaslandırılmasında "qlobal informasiya indeksi" medodiki çərçivəsindən istifadə edilməsi tövsiyə edilir.[93]

Sənaye cəhətdən inkişafa malik olan ölkələrin təcrübəsi göstərir ki, qlobal informasiya indeksdən istifadə edilməsi ilkin olaraq optimal iqtisadi-sosial strukturlara malik olmasını tələb olunur. Təhlillərə strateji baxımdan yanaşsaq, qlobal informasiya indeksindən kompleks istifatə edən ölkələr dünyanın iqtisadi-strateji siyasətinin aparıcı dövlətlərinə çevrilmişlər (ABŞ, Yaponiya, Almaniya, Fransa və s. ölkələr).

Müasir qloballaşma mühitində formalaşmış iqtisadi informasiya strategiyasının coğrafiyası məqsədli olaraq genişlənməkdə davam edir. Bunun nəticəsində informasiya mənbələri - yeni ticarət bazarları, iqtisadi əlaqələr kanalları iqtisadi informasiyaya malik olan ölkələrinin dayaq mənbələri hesab edilir. Məsələn, ABŞ dövlətinin ÜDM-də elektron ticarətin payı 15-17% arasında dəyişilir. Qlobal informasiya indeksi modelinə əsaslanan ABŞ,Yaponiya,

[93] Mercinet. com "The Global New Ekonomy Index: a Cyber-Atlas", 2-nd edition, 2012.

Almaniya, Çin və s. dövlətlər iqtisadi-sosial inkişafının optimallığının artırılmasına səbəb olan yeni ideyalarının kompleks tədbiqinə üstünlük verirlər. Buraya daxildir, elektron ticarət, telekommunikasiyaya investisiya qoyuluşu, texnoloji yeniliyinin tətbiqi imkanları və s. BMT-nın məlumatına əsasən dünya ölkələri üzrə yalnız 43 dövlətin informasiya yaradılması və bu prosesdə iştirak etmə imkanına malikdir.

Son dövrlərdə inkişaf etməkdə olan ölkələrdə (Hindistan, Brazilya və başqa dövlətlər) qlobal informasiya mənbələrinə əsaslanaraq texnoloji yeniliklərinin (xüsusi ilə L.Zadə məntiqinə) tədbiqinnə üstünlüyünü artırmaqdadır. Bu səbəbdən də, texnoloji yeniliklərinin tədbiqi sferasında qlobal informasiya indeksi dərəcəsnin optimallıq səviyyəsi xeyli yüksəlmişdir.

Qlobal informasiyanın iqtisadi-sosial indeksi Şimali Avropa ölkələrində (Norveç, Belçika, Hollandiya və s.) müəyyən səviyyələrdə artması müşahidə olnunur. Şimali Avropa ölkələrində telekommunikasiya sferasına qoyulan investisyaların həcminə görə hazırda irəlidə gedən dövlətlərinin sıralarına qoşulmasına səbəb olmuşdur.

Orta Avropa ölkələri (Almaniya, Fransa, İsveçrə və s.) qeyd edilən yönümündə qabaqcıl mövqelərini saxlamaqla yanaşı, yeniliklərə də üstünlük verilir. Orta Avropa ölkələrində iqtisadi-sosial səviyyə artımı optimallığı ilə fərqlənirlər. Bu sahədə qloballaşma indeksinin reytinqdə Böyük Britaniya eddinci yerdə müşahidə olunur. Son dövrlərdə inkişaf etmiş bir sıra ölkələrdə (Kanada, İsrail, Avstraliya və s.) qlobal informasiya indekslərinin səviyyə göstəriciləri də artmaqdadır.

Asiya ölkələrində informasiya coğrafiyası arasında müəyyən iqtisadi islahatlar və siyasi mühitin adekvat olmaması səbəbindən fərqlər mövcuddur. Cənubi Koreya, Tayvan, İndoneziya, Hindistan və s. ölkələrində bu sahədə əhəmiyyətli dərəcədə irəliləyişlər mövcuddur.

Latın Amerikası ölkələri isə qlobal informasiya iqtisadi-sosial indeksinin reytinq cədvəlində (Braziliya, Argentina, Meksika) aşağı pillələrdə mövqe nümayiş etdirirlər. Məsələ ondan ibarətdir ki, digər ölkələrlə müqayisədə reytinq cədvəlində Latın Amerikası ölkələri daha aşağı yerdə cəmləşmişlər.

Dünya ölkələrinin qeyri-bərabər iqtisadi və siyasi inkişafının olması səbəbindən qlobal asimmetrikliklə yanaşı, informasiya texnologiyalarının zəif inkişafına səbəb olmuşdur. Əhalisi azsaylı ölkələrdə informasiyanın iqtisadi inkişafında sistemli tədbirlər çərçivəsində həyata keçirirlər. Məsələn, Azərbaycanda “Elektron hökumət”sistemi inkişaf etməkdədir.

XXI əsrin əvvəllərindən başlayaraq beynəlxalq səviyyədə ərazi-istehsal resursları çərçivəsində (“resurs-istehsal-bazar”) ayrı-ayrı şaxələnmiş sahəlrinin

strateji əhəmiyyəti qlobal informasiya indeksinindən asılı olaraq dəyişkənliyə məruz qalmışdır. Bu sahədə "Yeddilər" ölkələrində təhsil sferası, texnoloji biliklərin mənimsənilməsi yönümündə yüksək miqyasda kapital sərf edirlər. "Eddilər" sistemində insan kapitalı informasiyası sistemi qlobal iqtisadiyyatının əsas idealogiyasının tərkib hissəsidir.

Radikal coğrafiya elmi araşdırmasında virtual informasiya fenomeni coğrafi məkanda çoxlu sayda müqayisəli nöqteyi-nəzərdən müstəqil strukturların model imitasiyasını formalaşdırır. Coğrafi virtuallaşma informasiyasının dayanıqlı inkişaf xarakterli olub, coğrafi məsafə ilə gerçəkləşir. Müasir dövrdə virtuallaşma prosesi milli səviyyədə yüksələn xətlə formalaşmaqdadır. Yüksələn xətlə formalaşan gələcəyin iqtisadi və sosial inkişaf strategiyasının tələblərinə uyğun olaraq "Homo vitualis" = virtual insan = probleminin daha da aktivləşməsinə dair çağırışlarının miqyası bəşəri xarakterə çevrilməkdədir.

- **Qlobal "coğrafi mühit-istiləşmə" informasiyası və nəticələri**

Qlobal "coğrafi mühit-istiləşmə" informasiyası planetar xarakterli olub, ətraf mühitin dəyişkənliyi ilə səciyyələnir. Tarixən kainatda baş verən meteoroloji və geoloji proseslərinin dəyişkənliyi bir sıra planetar istiqamətli fəlakətlərinin yaranmasına səbəb olmuş və ölkələrin coğrafi və iqtisadi-sosial strukturlarının ərazi təşkilində gərginliklər yaratmışdır.

Antraktidada 3 km dərinlikdən qaldırılmış buzun izotop analiziləri keçmiş minilliklər ərzində mövcud olmuş temperatur və yağıntının miqdarını təyin etməyə imkan vermişdir. Məntiqi olaraq hər 100 min ildə Antraktida materikində temperatur orta hesabla 8-9$^0$C dəyişdiyi halda, son 50-60 ildə ən böyük dəyişmə qeydə alınmışdır.

Planetar miqyasda soyuqlaşma dövrdən 100 il ərzində 0.010$^0$C dəyişmə müşahidə olunurdusa, müasir qlobal istiləşmə dövründə isə 0.10$^0$C hesablanmışdır. Bu göstərici əvvəlki dövrlərlə müqayisədə 10 dəfə çoxdur. Qlobal istiləşmə davam edərsə yer kürəsində ən böyük təbii fəlakətlərinin meydana gəlməsinə səbəb ola bilər. İlk növbədə dünya okeanın 1-2 metr qalxması və okean sahil boyu ölkələrinin çox hissəsi su altında qalma imkanları yarana bilər.

Digər bir tərəfdən isə, ölkələrdə sənaye komplekslərinin sürətlə artması, ətraf mühitin ekoloji gərginliyin artmasına səbəb olmuşdur. Bütün bunlar beynəlxalq səviyyədə qlobal istiləşmənin qarşısını almaq məqsədilə, Yaponiyanın Kioto şəhərində (1997-ci il) BMT-nin iqlim dəyişkənliyi haqqında konvensiya protokolu imzalanmışdır. Protokola inkişaf etmiş 38 ölkə istehsal nəticəsində əmələ gələn karbon qazı tullantılarının həçmini azaltmalıdırlar (5%). Məlum-

dur ki, yüksək inkişaf etmiş sənaye ölkələri sayılan ABŞ, Yaponiya, Almaniya və s. ölkələr onun səviyyəsinin 6-8% arasında endirməyini təklif edirlər. Avropa Birliyi ölkələri havaya buraxılan qazların ümumi miqdarını 2020-ci ilədək təxminən 20% azaldılmasını nəzərdə tutulmuşdur.

Qlobal istiləşmə ilə bağlı bir sıra lahiyələr hazırlanır. Arktikada, Antraktida buzlaqların sahəsi azalmaqdadır. Yalnız 1978-2006-ci illərdə Arktika dəniz buzlaqlarının ümumi sahəsinin 8% -i azalmışdır. Qrelandiyanın buz örtüyünün qalınlığı hər il 1 metr azalır. Məsələ ondan ibarətdir ki, buzlaq Yer səthinə çatan günəş şualarını əks etdirərək planetimizin həddən artıq qızmasının qarşısını alır.

Qlobal iqlim dəyişkliyinin nəticələrindən biri də dünya okeanında mütəmadi olaraq iri aysberqlərin dreyfidir. Son illərdə Yeni Zelandiya sahillərində aysberqlərin "hərəkəti" müşahidə olunur (uzunluğu 2 km, eni 1.0-1.5 km). Beynəlxalq səviyyədə iqlim dəyişkənliyi qlobal problem olaraq xüsusi diqqət yetirilir. İqlim dəyişkənliyi inkişaf etmiş ölkələrdə dövlət siyasətinin tərkibinə daxildir. ABŞ prezidenti idarəsinin nəzdində fəaliyyət göstərən institut 2010-2020-ci illərdə Yer kürəsində baş verən qlobal iqlim dəyişkənliyinin probleminə dair hazırlanmış proqnoz proqramlar həyata keçirilir.

Qlobal istiləşmə ilə xarakterizə olunan iqlim dəyişmələrinin təhlükələri dünya ölkələrini narahat edən ploblemlərdən biridir. Bir faktı göstərmək lazımdır ki,gələcəkdə Maldiv adalarının və Venetsiyanın su altında qalma təhlükəsi yaranmışdır. Qleyşer və Pataqoniya buzlaqlarının sahələri vaxt getdikcə azalmağa başlamışdır. İstiləşmə nəticəsində Şimali Alyaska meşələri, Böyük Sədd Rifi yox olmaq təhlükəsi ilə üzləşmişdir. Müşahidələr göstərir ki, Saxara Səhranın sahəsi hər ay 0.5 $km^2$ artır və s. Yer kürəsinin müxtəlif regionlarında iqlim dəyişkənliyi ilə əlaqədar təbii fəlakətlərinin vurduğu zərərin miqdarı artmaqdadır. Beynəlxalq miqyasda coğrafi tədqiqad larda təbii fəlakətlərinin öyrənilməsinə dair proqramlar yerinə yetirilir.

İqlim tərəddüdləri və onun proqnozu ilə bağlı problemin həlli yalnız meteoroqlar və iqlimşünaslar üçün deyil,üumbəşəri qlobal bir problem olaraq hazırda gündəmdədir. BMT-nin 20-ci Yüziliyin yekunlarına dair hesabatında iqlim tərəddüdlərinin səbəblərinin və onun proqnozu ilə bağlı məsələlərin öz həllinin tapmadığı haqqında qeyd edilmişdir.

Qlobal iqlim dəyişkənliyinin yaranmasında ilkin səbəb olaraq karbon qazının konsentrasiyasının atmosferdə artması hesab olunur. Böyük iqlim optimumunda isə (5-8 min il əvvəl), temperatur indikindən 2-$3^0$ yuxarı olmuşdur. Hətta temperatur yaxın 10 ildə $2^0$C artsa belə,yenə temperatur artımını "parnik effekti"lə səbəbləndirmək olmaz. Məsələ ondan ibarətdir ki, iqlim dəyişkən-

liyinin səbəbləri daxilində başqa amillərin təsiri ilə izah edilir (xüsusi halda Yerin orbitinin dəyişməsi ilə).

Elmi mənbələr göstərir ki, İkinci dünya müharibəsinin davam etdiyi zamanlarda, bütün Avropada ağır sənayenin inkişafı dövrdə, yəni atmosfera atılan tullantıların maksimum həddə çatdığı, hətta nüvə silahından istifadə edildiyi bir dövrdə Yer kürəsinin temperaturunda istiləşmə yox, soyuma müşahidə edilmişdir.

Qlobal iqlim dəyişməsində planetar təsirlərin aparıcı rol oynadığını inkar etmək olmaz. Məhz bu təsirlər Günəş sistemi planetləri arasında balansın pozulmasına imkan vermir. Məlumdur ki, Günəş sistemi daxil olmaqla Qalaktikanın bütün ulduzlar sistemi müəyyən bir mərkəz (Oxatan bürcü) ətrafında fırlanır. Günəş sistemi qalaktika mərkəzi ətrafında tam bir dövrünü (250 km/san sürətlə) 200- 250 mln. ilə başa çatdırır, həmin dövr Qalaktika ili adlanır. Qlobal iqlimin dəyişməsi isə hər qalaktika ilində iki dəfə (buzlaşma və istiləşmə) baş verir. Yer kürəsində baş verən istiləşmənin səbəblərini isə onun kütləsinin artması ilə izah edlir. Məlumdur ki, Yer kürəsinə hər ildə təqribən 16-17 min ton səma hissəcikləri tökülür. Balansın saxlaması üçün,həmin miqdarda kütlənin hər ildə Yür kürəsini tərk etməsi lazımdır.

Aparılan araşdırmalara görə, hər ildə Yer səthinə düşən səma hissəciklərinin miqdarı qədər kütlənin (balansın təmin olunması üçün) onu tərk ehtimalı çox aşağıdır. Bunun nəticəsində, hər ildə müəyyən qədər yaranan kütlə artıqlığı müəyyən bir dövrdən sonra balansın pozulması üçün artıq özünü büruzə vermiş olur. Balansın, hissəciklərin sürətlərinin azalması ilə pozulması antropogen amillərinin təsiri ilə izah olunur. Kütlənin artması isə Yerin daxili enerjisinin artmsına səbəb olur, bu isə textonik hərəkətlərin, anomaliyaların yaranmasına zəmin yaradır.

**Səkkizinci önəm**

## "Dünya-sistem" konsepsiyası və rasional elmi əsasları

- **"Dünya-sistem" konsepsiyasının məntiqi**

Elmi mənbələrində "dünya-sistem" konsepsiyasının ifadəsini İ.Vallerstayn (ABŞ) tərəfindən əsaslandırılmışdır. Onun əsas ideyası ondan ibarət olmuşdur ki, ölkənin inkişafı ilkin olaraq öz məntiqinə söykənməlidir.[94] Demək olar ki, "dünya-sistem" konsepsiyası keyfiyyətcə yeni tədqiqat obyekti olmaq şərtində "zaman & məkan" təhlilin metodikasına uyğun gələn dialektik funksional struktur kimi qəbul edilir.

Məntiqi olaraq "dünya-sistem" anlayışı təsnifatında elmi mahiyyəti cəhətdən müəyyən ifadələrini (məzmunlarını) özündə birləşdirir = sistemin fəaliyyəti nisbidir, yəni daxili resursun mənimsənilməsi ilə gerçəkləşir; tarixi-coğrafi sistemlər əbədi deyildir, müəyyən zaman sərhədləri çərçivəsindədir (başlanğıcı və sonu mövcuddur); dünya sistemləri müəyyən coğrafi-məkan sərhədləri daxilində formalaşmışdır. Reallıqlarının tələblərinə əsasən bu sərhədlərinin strategiyasının dəyişilməsinin imkanları da mövcuddur.

**Tərəqqi** = dəyişikliklərin daimi və birmənalı yönümlülüyünü ehtiva edir.

"Dünya-sistem" konsepsyasinin məntiqi onunla ölçülür ki, inkişafın xətti (sosial elmlərin ənənəvi analyışlardan) tərəqqidən geniş mənada istifadə edilmir. İ.Vallerstayanın məntiqinə əsasən sistemli inkişaf fonunda tərəqqi, birölçülü, intensivliyi isə qeyri-bərabərdir. Tərəqqi-tədricən "güclənir (və ya tədricən zəifləyir) və ölkənin davamlı inkişafınının potensial imkanlarının artmasına, effektli mühitinin formalaşmasına şərait yaradır.

"Dünya-sistem"inin elmi və metodoloji təliminin üstünlüyü ondan ibarətdir ki, bu konsepsiya hər bir ölkənin dayanıqlı inkişafını önəmə gətirir, yeni idealoji tədqiqalarının perspektiv funksiyalarının hərəkətini aktivləşdirir. Qloballaşan cəmiyyətinin tərəqqisində, milli sosiumlu və ərazi strukturluğu-

[94] Wallerstein I. The West, Capitalizm, and the Modern Wolld-System, Review, Vol. XV, 4.1992.

nun tamlığının formalaşdırılması və idarəedilməsində bu konsepsiyanın mütləq üstünlüyü nəzəri cəlb edir.

Dünya dövlətlərinin tarixi-coğrafiyasının reallıqları göstərir ki, bir çox ölkələrinin ölkələrinin iqtisadi-sosial və siyasi dinamikasının kodlarında dünya-sisteminin dialektik qanunlarına söykənməsi ilə xarakterizə olunur. Məntiqi düşüncə tərzinə uyğunluğunun əsasında İ.Vallerstaynın “dünya-sistem”nin konsepsiyası bir sıra **dialektik rasional elmi baxışlarının** əsasına isdinadən yaranmışdır.

| |
|---|
| “Geotarix” nəzəriyyəsi (F.Drodel) və “ Annallar”məktəbinin nəzəri irsi |
| “Asıllıq” nəzəriyyəsi (A.Framun) |
| Qeyri-ortodoksal iqtisadi nəzəriyyələr (K.Polanin, N.Kondratyev və b.) |

Dialektik baxımdan dünya sistemi = qloballaşan iqtisadi inkişafının tərkibi, onun coğrafi genişlənməsinə uyğun olaraq müstəqil elmi tədqiqat mənbəyidir. Onun sərhədləri coğrafi məkan dialektikasını özündə birləşdirir və müəyyən zaman çərçivəsində dəyişilə bilər.

“Dünya sistemi”in elmi konsepsiyasında metakartokartoqrafik dəyərlərinin obyektiv varlığının özündə əks etdirməsində mühüm əhəmiyyəti vardır. Obyektiv coğrafi məkan varlığının kondeksində fəaliyyət göstərən “metakartoqrafiya”[95] kartoqrafiya biliklərinin radikal istiqamətlərindən fərqlənir. Kartoqrafiyanın istiqamətlərindən fərqli olaraq metakartoqrafiya yanaşmalarında balavasitə müxtəlif xəritələrinin yaradılmasını həyata keçirmir. Metakartoqrafiya elmi yanaşmasının əsasını coğrafi məkan funksialarını əhatə etməsilə fərqlənir. Burada coğrafi məkan: diaqramma, şəkil, riyazi-qrafik, model və s. ifadə olunur.

Məkan əlaqələr simmetriyasının elmi konsepsiyasında obyektiv dialektik coğrafi varlığını özündə əks etdirən metakartoqrafik təhllilər “dünya sistemi” in formalaşmasında mühüm mövqe nümayiş etdirir. Məkan varlığının kontekstində fəaliyyət göstərən dünya sistemlərinin coğrafi simmetriyanın məntiqində təbii-iqtisadi-siyasi biliklərinin gerçəkliklərinin effektli tədqiqat mənbələri durur. Nəzəri coğrafiya elmi tədqiqatlarla məşğul olan alimlər məkan əlaqələr sistemində müəyyən ideyalar irəli sürmüşlər. “Məkan əlaqələr” ifadəsi XIX-XX əsrlərdən başlaraq nəzəri coğrafiya elmi mənbələrində rast gəlinir.

Coğrafiya elmi mənbələrində “məkan əlaqələr” (*spatial relations*) morfologiyasının ideya məntiqinə dair F.K.Şeffer (Schafer F.K.) tərəfindən irəli sürül-

[95] “Metakartoqrafiya” termini ilk dəfə T. Heqerstrand (1953) tərəfindən qəbul olunmuşdur.

müş nəzəri əsaslar daha çox önəmlidir.[96] Onun tədqiqatlarında məkan əlaqə sistemi = tipik nəzəri coğrafi morfoloji qanunauyğunluğuna söykənən müstəqil tədqiqat sahəsidir.

V.Bunqe öz araşdırmalarında məkan əlaqələrini coğrafiya elminin effektli metodoloji tədqiqat obyekti kimi qəbul etmişdir.[97] V.Bunqe məkan əlaqələrinin fəaliyyət sərhədlərinin təyininə dair fikirləri nəzəri coğrafiya elminin və o cümlədən "dünya sistemi"in aktual məsələlərinin təhlilində geniş istifadə edilir.

- **"Dünya sistem"in qütbləşməsinin coğrafiyası**

Virtuallaşan dünya sistemlərinə geniş miqyasda yanaşsaq, zaman və məkan sərhədlərinin daxilində müəyyən səviyyəli qütbləşmənin yaranmasını təyin etmək mümkündür. Bu təyinatda dünya ölkələrinin arasında müəyyən dialektik əsaslarla iqtisadi-siyasi "ağırlıq" mərkəzləri; funksional inkişafının monopoliya "paytaxtı"; hərbi-siyasi və s. qütləşmə təsnifatların formalaşması meyillərinin mövcudluğunun coğrafiyası aydın ifadə olunur.

Dünya sistemlərinin ilkin variantında = lokal "mənimsəmə" sistemlərinin (mini-sistemlər) yaranışları hesab edilir və məkanca kiçik,nisbi qısamüddətliyi ilə fərqlənir. XVI əsrdən başlayaraq Qərbi Avropada funksionallığı ilə fərqlənən lokal (mini-sistemlər) sistemlərinin ilkin mənbələri yaranmışdır. Dunya sistemlərində formalaşan "istehsal" iqtisadi inkişafa geçidlə bağlı olaraq lokal mini-sistemlərinin funksionallığının səviyyəsinin dəyişilmələrə məruz qalmışdır. Lokal sistemlərinin fəaliyyəti nəticəsində Qərbi Avropada sənaye srturuktur kompleksinin formalarının elmi əsaslarına ilkin şərait yaranmışdır.Sonrakı mərhələdə lokal sistemlərinin zəiflənməsi əsasən ya iqtisadi inkişafla, ya da siyasi böhranlarla əlaqəlidir.

XIX əsrin əvvələrindən başlayaraq "istehsal" iqtisadi inkişafının xarakeri ilkin olaraq geniş miqyasda ("məkan-zaman" sərhədləri daxilində) dünya sistemləri yaranmağa başlanmışdır. Bu ilkin olaraq Qərbi Avropa və Şimali Amerika ölkələrində daha optimalıq kəsb etmişdir.

"Dünya imperiyaları" tipli siyasi və iqtisadi yaranışlarının meydana gəlməsi ilə əlaqədar dünya sistemlərində yeni strateji meyillərin yaranmasına səbəb olmuşdur. Bu meyillər dialektik vəhdəd təşkil etməklə yanaşı, həm də istehsalın tsiklli xarakterə çevilməsinin dairəsi də genişlənmişdir. Belə ki, Asiya "istehsal tsiklli" formalarının texnoloji əsaslara uyğun yeni məzmun (Çin, Yaponiya) kəsb etmişdir.

[96] Schafer F.K. Exceptionalism in geography: a metodological examination. Annais of the Association of Amerikan geographers, 43(3).1953.
[97] В.Бунге. Теоретическая география. М., 1967.

**“Dünya imperiyaları” formulasının cəhətləri**

Dünya imperiyaları sisteminin hərəkətverici inkişafın “yük” qüvvəsi ilkin olaraq:
*fasiləsis kapital resurslarının yığılma prosesi;
* innovasiya yönümlü texnologiyanın tədbiqi;
*kreativ resurs potensialının yüksək olması və s. şəbəkələri ilə bağlıdır. Bu ölkələrdə texnoloji inkişaf prosesləri daha erkən dövrlərdə XVIII-XIX əsrlərdən başlaraq sürətlə formalaşmağa başlanmışdır.

Dünya sisteminin daxilində baş verən zidiyyətli tsikll ritmlər ölkələrin inkişafına təsir etmiş və nəticə də isə = qismən inkişaf etmiş, üçüncü ölkələrin yaranmasına səbəb olmuşdur. Müasir dövrdə üçüncü dünya ölkələri dinamikdir, bir sıra istehsal modellərində innovativ dəyişikliklərinin mənbəyi kimi çıxış edirlər (Hindistan, Meksika və s.).

Dünya sistemində hegemonluq siyasətinin üstünlük təşkil edilməsi və qısadövr ərzində ABŞ-ın aparıcı “nüvə” dövlətinə çevrilməsi nəticəsində qütbləşmə yeni məzmun kəsb etdir.1945-ci ildən sonra ABŞ-ın dünya sistemindəki hegemonluğu qlobal xarakterə çevrilmişdir.

Elmi mənbələrə (ilkin olaraq İ.Vallerstaynın ideyaların görə) əsasən dünya sistemlərinin qütbləşməsi ümumi iqtisadi və siyasi inkişafının xarakterindən asılı olaraq müəyyənləşmişdir: 1) yüksək iqtisadi-siyasi potensiala malik olan “nüvə” ölkələr; qismən inkişaf etmiş ölkələr; 2) inkişaf etməkdə olan və ya üçüncü dünya ölkələri.

Məntiq ondan ibarətdir ki, dünya ölkələrinin qütbləşməsinə əsas səbəb = ümumdünya xarakterli geosiyasi və geoiqtisadi dəyişikliklərlə bağlıdır. XVIII əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq ABŞ, Böyük Britaniya, Fransa və Almaniya dövlətlərindən ibarət “nüvə” dünya sistemi meydana gəlmişdir. Sonrakı dövrlərdə İtaliya, Yaponiya, Kanada, Avstraliya və Şimali Avropa və s. ölkələr ikinci “nüvə” sisteminə daxil olmuşlar.

Təhlillər göstərir ki, qloballaşma mühitində dünya sistemlərinin qütbləşməsi geoiqtisadi və geosiyasi gerçəkliklərinin təsiri mexanizminin əsasında dövlətlərarası mütləq üstünlüyünün nəticəsidir.[98] Bu dövlətlərarası üstünlüklər = qütbləşmiş coğrafi məkanlar = yaratmışdır. Yapon tədqiqatçısı Keniçi Omaye “Triada

[98] A.A. Qurbanzadə. Dünya ölkələri: siyasi-iqtisadi və dialektik coğrafiyası. Bakı, 2013.

hakimiyyəti" adlı əsərində (1985 il) göstərir ki, dünya sistemlərinin qütbləşməsində "ABŞ – Qərbi Avropa - Yaponiya" üçbucağının makroiqtisadi formalaşmasının və qüvvəsinin təsiri daha böyükdür.

XX əsrin sonunda "dünya sistem"də = Şimali Amerika – Qərbi Avropa-Asiya - Sakit Okean = makrosistem qütbləşməsinin çərçivəsi formalaşmışdır. Makrosistem qütbinə ABŞ, Almaniya, Yaponiya; Asiya- Sakit Okean qütbünə isə Çin liderlik edirlər. Ekspertlərin proqnozuna əsasən yaxın onilliklərdə Çin makroiqtisadi inkişaf qütbündə ikinci dünya dövlətinə çevrilməsi prosesinin baş verməsi önəmə gətirilir.[99]

"Dünya sistem"in iqtisadi və siyasi baxımdan müxtəlif qütbləşmə prosesinə malikdir.Şimali Amerika qütbündə azad sahibkarlıq; Qərbi Avropa – vahid iqtisadi sivilizasiya nümunəsidir. Asiya-Sakit Okean qütbü isə qərb texnologiyasının effektliyindən istifadə edilməsi üzərində formalaşmışdır.

> "Dünya sistem"in ümumi valyuta əməliyyatlarının 50%-dən çoxu London, Nyu-York və Tokio şəhər qütblərinin banklarında mərkəzləşmişdir.

Elmi mənbəlrə[100] əsasən Şərq ölkələrinin iqtiadi-sosial dinamik inkişaf səviyyəsi Qərbi Avropa ölkələr ilə müqayisədə yüksək olmuşdur. Belə ki, XI əsrdə hər bir nəfərə görə ÜDM-in həcmi Çində 600-700 $, Hindistanda 550- 650 $, Misirdə isə 470-530 $ (1980-ci ilin qiymətləri ilə) olmuşdur. Eini zamanda, Çində 2 min əhalisi olan şəhərlərdə əhalinin 20%, islam ölkələrində - 15-20%-i məskunlaşdığı halda, Qərbi Avropa ölkələrində analoji göstərici isə 11-13 % təşkil edirdi.

Böyük Coğrafi kəşflərdən sonra dünya sistemində Qərb ölkələrində hegemonluğun komponentərinin sürətlənməsi artmış və müasir dövrə qədər də davam edir. Belə ki, Şərqlə Qərb arasında iqtisadi-siyasi vəziyyətinin nisbətində XVIII əsrin ortalarından başlayaraq Qərbin dünya sistemində hegemonluğunun dövri həlledici mərhələyə çatmışdır.[101]

Elmi-metodoloji təhlillərə əsasən Qərb ölkələrinin müstəmləkiçilik siyasətinin nəticəsində Şərqin zəiflənməsinə səbəb olmuş, sonrakı dövrlərdə isə yüksək texologiyaya malik olan Qərb ölkələri cənaye strukturunun davamlı inkişafına nail olmuşlar. Dünya ölkələrində baş verən qütbləşmə demək olar ki, Şərq ölkələrinin iqtisadi-siyasi inkişafına mənfi təsiri özünü göstərirdi. Məntiq ondan ibarətdir ki, Qərbin yüksəlməsi siyasəti, bir o qədər də Şərq ölkələrinin zəiflənməsinə səbəb olmasına çərait yaranmışdır. Bələliklə, Qərbin hegemon-

---

[99] Robert K. Coorperation and Discord in the Word Politcal Ekonomy. N.Y. 2010.
[100] Tümertekin E. Beşeri Ekonomisi. Ankara, 2004.
[101] Hacıyev Ş.N., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Bakı, 2012.

luğu Şərqin tədricən "qərbləşməsi" prosesinə uyğunlaşması davam etdirilməsinin siyasəti qütbləşməyə geniş imkanlar yaratmışdır.

- **"Dünya sistem" ssenarisinin dialektik coğrafiyası**

Dialektik coğrafiya elmində geniş məna daşıyan "dünya sistem"nin rasional ssenarisinin iqtisadi və texnologiyalar əsasında yaradılması və idarəedilməsi məsələləri tədqiqatçılar tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür. Problem ilə məşğul olan Manuel Kastels dünya sisteminin ssenarisi modelini vahid struktur kimi qəbul etmişdir. Onun ideyasına görə ölkənin iqtisadi inkişaf modeli dünya sistemin qloballaşma mühitində geniş məna daşıyır.[102] Qloballaşan cəmiyyətin inkişafı dünya sistemlərinin strateji effektliyindən asılı olaraq yüksəliş və enişinə səbəb olmuşdur.

İ.Vallerstayn "Kapitalist sivilizasiya" əsərində (1992-ci il) qlobal səviyyə çərçivəsində dünya sistemlərinin inkişafının üç ssenarisini əsaslandırmışdır.

- Neofedalizmə keçid ssenarisi. Bu ssenarinin ideya istiqaməti - avtoritar ölkələrinin sistemində yalnız üfüqi əlaqələrinin "mozaikası" formalaşır və inkişaf edir;
- Dünya sisteminin təbəqələşməsi ssenarisi. Əsas ideya mənbəyi yer kürəsində məskunlaşan əhalinin kastaya bölünməsindən ibarətdir. Birinci kastyaya daxil edilir: dünya əhalisinin təxminən 20%-ni əhatə edən eqalitar təbəqə. Bu eqalitar təbəqə dünya sisteminin idarə edilməsində mühüm mövqe nümayiş etdirir və etdirəcəkdir. İkinci isə əhalinin 80%-ni əhatə edən siyasi-sosial-iqtisadi hüquqlardan demək olar ki, məhrum olan aşağı təbəqə.
- Yüksək eqalitar dünya qaydasına keçid ssenarisi. Bu ssenari utopik səslənsədə, lakin bunu inkar etmək də olmaz. Bu ssenarinin reallaşması yüksək eqalitar mühitinin siyasi, iqtisadi, sosial dəyişkənliyinin keyfiyyətinin artırılmasına imkanların yaradılması ilə fərqlənir.

İ.Vallerstyan dünya sistemlərini (2050-2075-ci illər) təhlil edərkən,belə bir nəticəyə gəlmişdir ki, "*...biz gələcəkdə yeni tarixi sistem, yaxud sistemlərdə yaşayacağıq, ...yaxud ondan da pis variantla rastlaşacağıq...*"[103]. Məntiqi baxımında yanaşsaq, dünya-sistem yanaşmasında müəyyən sahələrinin arasında nöqsanların olmasına da rast gəlinir. İ.Vallerstyan "dünya sistem" konsepsiyasında tarixin xətti-mərhələli inkişafının prinsiplərini qəbul etməmiş, eyni zamanda da tərəqqi inkişaf anlayışını inkar etmişdir.

[102] Мировая экономика XX1 века. М., 2009.
[103] Wallerstein I. The Esetial Wallerstein. N 4. New Press, 2000.

Dünya sistemlərin ssenarisinin tsiklli inkiaşfı nöqteyi-nəzərindən aparılan araşdırmaların nəticələrinin reallıqları elmi mənbələr də daha çox diqqəti cəlb edir.[104] Təhlillərinin nəticələri göstərir ki, industrializm mərhələsinə qədərki tsikllərin arasındakı dövrünün məsafə həddi 200-500 il arasında dəyişilməsi məqbul kimi daha çox reallığa uyğundur. Problemə ümumi dialektik tərzi ilə yanaşılsa, o zaman aşağıdakı tsiklli dövrləşməsinin ssenarisinin fərqləndirilməsini (yüksəliş & tənəzzül) mümkün edir.




□ *"Dünya sistem" ssenarisinin tsiklli dəyişilməsi məsafəsi.*

Ümumiyyətlə, klassik tədqiqatçılarının fikirlərindən belə bir nəticə çıxartmaq olar ki, "dünya sistem"in təkamülü ssenarisi bir strukturun digər strukturun keyfiyyətcə yenidən təşkilidir. Hər bir tsiklli dəyişilmələr dünya ölkələrinin inkişafına uyğun strateji istiqaməti müəyyənləşirdi.[105] Ən mühüm xarakter ondan ibarətdir ki, strateji istiqamətdə sənaye ölkələrində tsiklli inkişaf siyasəti yeni məzmuna çevrilməsi ilə fərqlənirdi. Sənaye ölkələrində məşğulluq siyasətində yeni formalı iqtisadi düşüncə tərzinə, dinamikasının üstünlüyü XVI əsrdən başlayaraq formalaşmaya məruz qalırdı.

Bütün bu gerçəkliklər "dünya sistem"in dinamikasında yeni məzmun kəsb edən praktiki yönümlü konsepsiyalarının meydana gəlməsinə şərait yaratmışdır. Bu konsepsiyalar tarixi-coğrafi prosesinin inteqrasiyasına əsaslanan ideyalar hakimdir. Meydana gələn hakim ideyaların qərb ölkələrlə, şərq ölkələri arasında iqtisadi-sosial yanaşmalarla bərabər, dəyərlərinin fərqliliyi də mövcuddur.

"Dünya sistem" ssenarisinin müxtəlif epoxalarında baş verən ictimai-iqtisadi-sosial-psixoloji düşüncə tərzinə, metasivilizasiyalarının təsirinə məruz qalmışlar. Bunula bərabər, Qərb və Şərq ölkələrinin sistem ssenarisinin həm mahiyyəti, həm də formalaşma gerçəklikləri baxımından geniş miqyasda reallıqlara söykənən fərqlərinin olmasına əsaslanırlar. Dünya sistemlərinin tarixini

[104] Gillis B., Frank A.G. Word System Cycles. Review. 15/14. 1992.
[105] Hacıyev Ş.N. və b. İqtisadiyyat fəlsəfəsi. Bakı, 2008.

və fəlsəfəsini tədqiq edən müəlliflər Qərb ölkələri ilə Şərq ölkələri arasında müəyyən səviyyədə cəmiyyətin idarə etməsinə dair fərqlərinin olmasına dair ideyalar irəli sürmüşlər.

"Dünya sistem" ssenarisinin əsasını təşkil edən elmi-metodoloji mənbələrindən biri də şəhər cəmiyyətinin industrial davamlı formalaşmasıdır. Bu cəhətdən Qərb ölkələri daha geniş formada özünü göstərmişdir. XVI-XVII əsrlərdən başlayaraq Qərbi Avropada formalaşan industrial şəhər cəmiyyəti dünya sisteminin ilkin sivil yolunun başlanğıcını hesab etmək olar.

| Gerçəkliklər | Qərb ölkələr | Şərq ölkələr |
|---|---|---|
| Sosial-iqtisadi | - inkişaf etmiş industrial cəmiyyət<br>- bazis: istehsal | - aqrar cəmiyyət<br>- bazis: bölgü |
| Sosiumun tipi | - şəhər cəmiyyəti<br>- şəhər<br>- müasirlik | - kənd cəmiyyəti<br>- kənd<br>- tayfalar |
| Tarixi | - xətti zaman<br>- tarixilik | - qeyri-tarixilik (durğunluq)<br>- tsikllik zaman |

***"Qərb-Şərq" ssenarisinin gerçəklik mahiyyəti.***

Qərb ölkələrində istehsal strukturlarının daimi olaraq dəyişməsi xammal və kapital resurslarının yüksəliş sferalarının arasında yüksəlişinə səbəb olması xarakterikdir. Bu yüksəliş istehsalın struktur dəyişkənliyinə; istehsalın tsiklli, texnoloji önəmə gətirilməsi ilə əlaqələndirilir. Məhz insan kapitalının əsasında istehsal komplekslərinə xüsusi diqqət yetirlməsi səbəbindən Qərb ölkələrinin iqtisadi inkişafının çevikliyinin dayanıqlığı formalaşmışdır. Bu çeviklikdə aqrar sahənin sənaye sahəsinə çevrilməsində insan kapitalının aparıcı sferası həlledici faktor kimi fəaliyyət göstərmişdir[106].

XIX əsrin axırlarından başlaraq "dünya sistem" ssenarisində baş verən dinamik inkişaf əvvəlki dövrlərdən yeni keyfiyyət formalarının yaranması ilə nəticələnmişdir. Bu dövrdə baş verən keyfiyyət dəyişkənliyinə daxildir :

* elmi-informasiya tərəqqisi ;
* "istehsal"ın "xidmət" iqtisadi inkişafına keçidin aktivləşməsi;
* keçid iqtisadi inkişafa malik olan ölkələrinin meydana gəlməsi;
* qloballaşmanın iqtisadi inkişafına təsirinin üstünlüyü və s.

"Dünya sistemi"in dialektikası = ölkələrdə urbanizasiya (xüsusən, aqlome-

[106] A.A.Qurbanzadə. Azərbaycanın aqrar-sənaye strukturunun ərazi təşkili problemləri //Azərbaycan Aqrar Elmi. 2004 (1-3).

rasiya) xəritəsinin formalaşmasında strateji əhəmiyyət kəsb etmişdir. XX əsrin əvvəllərindən başlayaraq iri şəhər məskənləri birləşərək 330-dan çox aqlomerasiya zonalarının yaranmasına səbəb olmuşdur. Bununla yanaşı, ABŞ, Yaponiya ölkələrində şəhər sistemlərinin iqtisadi-siyasi inkişafının xarakterinə uyğun olaraq meqalopolislərinin sərhədləri genişlənmişdir. Misal olaraq, Yaponiyanın iqtisadi-siyasi potensialının ≈ 60-62%-i Tokio-Osako-Naqoya meqalopolis sisteminin sərhədlərinin çərçivəsində təşkil olunmuşdur.

Urbanizasiya sistemində sənaye syrukturlarının yaradılması, coğrafi cəhətdən sərhədlərinin "genişləndirilməsi" və s. "dünya sistem"in ssenarisinin potensial inkişafı ilə əlaqəlidir. Məntiqi olaraq, urbanizasiya sadəcə olaraq, əhali məskunlaşmasının təsnifatı kimi qəbul etmək yanılışlığa gətirib çıxarda bilər. Dialektik coğrafiya elmi məzmunda = urbanizasiya = "dünya sistem"in funksional dayanıqlı iqtisadi-sosial və strateji sisteminin tərkib hissəsi olub, onun dinamik "hərəkətverici güc" qüvvəsinə çevrilməsi kimi yanaşılmalıdır. Bu "hərəkətverici güc" = "dünya sistem"in dinanmikasnda urbanizasiyanın funksional inkişafında ilkin olaraq elm və kapital tutumlu iqtisadi-siyasi məqsədləri üçün strateji hüquqa malikdir.

- **"Dünya sistemi"nin elmi-texniki tərəqqinin təsnifatı**

Elmi mənbələrdə dünya sistemlərinin inkişafında aqrar, sənaye və informasiya elmi-texniki tərəqqi təsnifatına ayrılmasına üstünlük verirlər. Bu üstünlük elmi-texniki tərəqqi təsnifatları dünya sistemlərin formlaşmasında yeni məzmun kəsb etməklə yanaşı, cəmiyyətin dayanıqlı inkişafının təminatında yeni keyfiyyət funksiyalarının yaranmasına imkanlar yaratmışdır.

**<u>Elmi -texniki tərəqqinin təsnifatı</u>**

▼

Sənaye tərəqqi (XVIII əsrin sonu-XIX əsr)



Elmi-texnoloji tərəqqi
(XIX əsrin sonu -XX əsrin əvvəli)

Elmi-innovasiya tərəqqi
(XX - XXI əsrlər)

"Dünya sistemi"inin coğrafiyasında sənaye elmi-texniki tərəqqinin inkişafı ilkin olaraq cəmiyyətin ərazi təşkilində revalyusion dəyişikliklərinin yaranmasına və inkişafına iqtisadi-siyasi keyfiyyətlər gətirmişdir. Cəmiyyətin ərazi təşkilində üç xronoloji təsnifata uyğun tarixən elmi-texniki tərəqqinin təsnifat göstəriciləri aktuallıq nümayiş etdirmişdir.

"Dünya sistem"inin sənaye tərəqqisinin ilkin mənbəyi Qərbi Avropa (xüsusən, Böyük Britaniyada) ölkələrində formalaşmış və sonrakı dövrlərdə isə bu proses qloballaşmağa məruz qalmışdır. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində sənaye strukturunun yaranması iqtisadi inkişafının coğrafiyasında hərəkverici dialektik çərçivəyə çevrilmişdir. Sənaye mərkəzlərinin yaranması, iqtisadi əlaqələrdə struktur sahələrinin xüsusi çəkisində sənaye məhsullarının hesabına artmasına, ərazi-istehsal kompleksinin inkişaf formalarının meydana gəlməsinə elmi-texniki tərəqqi səbəb olmuşdur.

Sənaye tərəqqinin yaratdığı struktur sferasının əsasında kapital yığımı, xammal resurslarından kompleks istifadə edilməsi, elm və istehsal arasında dialektik əlaqələrinin "cazibə reaksiyası"nın məntiqinə uyğun formalaşma meyilləri yüksəlməyə başlanmışdır.

Elmi-texniki tərəqqi (XIX əsrin sonu - XX əsrin əvvəli) tsiklinin inkişafı yeni bir keyfiyyət strukturlarının ərazi təşkilinin metodikasının elmi əsaslarla təhlillərinin meydan gəlməsinə səbəb olmuşdur. Bu dövrlərdə elmi əsaslarla sənaye coğrafiyasının sərhədləri genişlənmiş və sənayedə texnloji (konveyr) xətləri sistemi tədricən qlobal xarakterə çevrilməyə meyl göstərirdi. Qlobal mühitdə sənayedə baş verən texnoloji tərəqqi ABŞ, Almaniya, Şimali Avropa və s. ölkələrinin iqtisadiyyatında effektli tədbiq olunmağa başlanmışdır. Artıq XIX əsrin sonunda ABŞ sənayesində baş verən elmi-texniqi tərəqqi faktoru dünya sisteminin tərkibində önəmli sayılırdı. Sürətli zaman kəsiyindən istifadə edilməsinin iqtisadi strategiyası ölkə sənayesinin əsas məqsədlərindən sayılırdı. Misal olaraq, Detroit şəhər ətrafında formalaşan H.Fordun maşınqayırma sənaye kompleksində bir avtomobil istehsalı üçün konveyer yığımının tezliyi 1.5 -2.0 saata bərabər olmuşdur.

Elmi-texniki tərəqqi dünya sistemində yeni keyfiyyət kəsb edən yanacaq-energetika kompleksi, metallurgiya, maşınqayırma və s. elm tutumlu sahələrinin yaranmasına, diversifikasiyasına, optimal variantların tədbiqinə imkanlar yaratmışdır. Bununla yanaşı, dünyanın siyasi xəritəsində sənaye ölkələrinin dinamikasının artmasına səbəb olmuş və iqtisadi inkişafının təkamülündə sənaye strukturunun bir sistem kimi formalaşmasına təsir göstərmişdir.

XX-XXI əsrlərdə "dünya sistemi"in elmi-innovasiya tərəqqi formaları = ərazi-istehsal komplekslərinin dayanıqlı inkişafının ən yeni keyfiyyətli struktur

sahələrinin yaranmasına səbəb olmuşdur. Bu sistemin yaranmasının bir sıra iqtisadi, siyasi və eləcə də monopoliya xarakterlər üstünlükləri fəaliyyət göstərmişdir. İlkin olaraq bu dövrdə qloballaşan transmilli korporasiyalar “dünya sistem” çərçivəsində iqtisadi-siyasi miqyasda daha geniş məzmunda monopoliyalarına çevrilmişdir. Qloballaşan bazarın keyfiyyət dəyişkənlikləri elmi-innovasiya tsikllinin formalaşması üçün imkanlar yaratmışdır.

Elmi-innovasiya tərəqqinin təsiri ilə əlaqədar olaraq Qərb ölkələrində iqtisadi inkişafda sosialyönümlü və ərazi-istehsal klasterial proqramlarının həyata keçirilməsinə xidmət etməklə daha da aktivləşmişdir. Texnoloji-innovasiya sahəsində kəşf edilən elmi tədqiqatlarının praktiki olaraq tətbiqi və idarə etmənin yeni formalarının yaranmasına səbəb olmuşdur.

BMT-nin ekspertlərinin hesablamalarına (2005-2015-ci illər) əsasən yüksək innovasiya-texnologiyalarının tədbiqinə uyğun olaraq daxili təbii resirslardan optimallığına görə istifadənin xüsusi çəkisində: ABŞ-74%, Qərbi Avropa ölkələri-35 %, Yaponiya-15%, Kanada-14%, Hindiqstan-8%, Braziliya-5% və s. ölkələr fərqlənirlər.

“Yüksək texnologiya”lar ərazi-istehsal sahələrinin resurs potensialından kompleks istifadəsi üçün optimal variantlarının yaranmasına səbəb olan amillərdən sayılır. Xüsusən elmi-texniki innovasiya tədqiqat işləri “dünya sistemi”in dinamikası üçün “tədqiqat & praktika” tsiklinin dayanıqlığının effektliyini yüksəltmişdir. Məsələn, ABŞ- da elmi-innovasiyaya qoyulan vəsait ÜDM in ≈ 3.0-4.0%-ni təşkil edir. Yaponiya, Almaniya, Fransa, Çin və s. ölkələrdə elmi-innovasiya tsiklinin inkişafına yönəldilən vəsait yetərli səviyyədədir.

# ÜÇÜNCÜ  BÖLMƏ

# DİALEKTİK İNSAN COĞRAFİYASI
## GENETİK ANATOMİYASI, TƏKAMÜL TƏBİƏTİ

- *İnsan coğrafiya elmi: təkamülü, dialektik anlamı*
- *Etnologiya elminin dialektik-genetik təbiəti*
- *İnsan həyat ritminin coğrafiyası*
- *Qlobal dayanıqlı insan inkişafının funksional modeli*
- *İnsan potensialın genezisi və inkişaf mərhələləri*
- *"İnsan - ətraf mühit"ə  uyğunlaşma  reaksiyası*

Doqquzuncu önəm

# İnsan coğrafiya elmi: təkamülü, dialektik anlamı

## ▪ İnsan coğrafiya elminin dialektik modeli

İnsan coğrafiyası elmi bəşər cəmiyyətinin hərəkətverici, dinamik inkişafını öyrənən müstəqil və konseptual elm sahəsidir. İlkin eralarından başlayaraq insan təkamülünün çərçivəsi ətraf mühitlə (coğrafi mühitlə) vəhdətli əlaqədə olmuşdur. Sonrakı dövrlərdə isə insan coğrafiya elmi dialektik metodoloji formalarını özündə birləşdirməklə fundamental elm sahəsinə çevrilmişdir.

İnsan coğrafiya elminin yaranması və təkamül formalaşması əsasən iki fəlsəfi anlamında gerçəkləşmişdir:

1) insanın coğrafi mühitin dialektikasının dərk edilməsi gerçəkliyi;

2) insan coğrafiya elminin təkamülü, dialektik təfəkkür gerçəkliyi.

İnsan coğrafiya elmi fəlsəfəsinin birinci tərəfi,yəni coğrafi mühitin dialektiki gerçəkliyi ilə əlaqəsinə dair antik şərq və qərb filosoflarının dünyagörüş mənbələrində öz əksini tapmışdır.

İnsan coğrafiya elmi fəlsəfəsinin ikinci tərəfinə isə coğrafiya elminin təkamülündə metodoloji pradiqması, tədqiqat obyektləri və praktikası daxildir. İnsan coğrafiyası elminin metodologiyasının əsasını fəlsəfi dünyaanlamı funksiyalarının "hərəkət" mexanizmlərini əhatə edir. Problemə konstruktiv yanaşsaq, insan coğrafiyası elmi təbiətşünaslıq-fəlsəfi bilik sisteminə daxildir. Məntiqi olaraq, təbiətşünaslıq elmləri sistemində = insan coğrafiya elminin metodologiyasının anatomiyasında dialektik "cöğrafi məkan-zaman-insan "təfəkkür ideyalarının mövqeyi önəmli məzmuna malik olması ilə fərqlənir. İnsan coğrafiyası elmi dialektik anlamı əsasında təbiətşünaslıq fəlsəfəsinə daxil olmuş və rasional coğrafi təfəkkür anlayışlarının idealogiyasına çevrilmişdir.

İnsan coğrafiyası elminin fəlsəfəsinə = cəmiyyətin ərazi təşkilinin modelinin təkamülü ilə yanaşı, həm də onun virtuallığının, eləcə də rasional düşüncə tərzi daxildir. Rasionallığının önəmində insan coğrafiya modelinin fəlsəfi dün-

yagörüşünün elmi-praktiki dəyərlərini özündə birləşdirir. Elmi mənbələrdə kifayət qədər mülahizələrinin olmasına baxmayaraq, bu sahədə mübahisəli olan məqamlar da diqqəti cəlb edir.[107]

İnsan coğrafiyası elminin dialektik düşüncə tərzinin modelinə dair tədqiqatçılar tərəfndən müəyyən səviyyələrə uyğun araşdırılmalar aparılmış və nəticələrinin elmi praktiki əhəmiyyəti dəyərləndirilir. Bu səbəbdən də elmin məzmunu, tədqiqat istiqamətlərinn miqyası yeniləşmiş, yeni formaya çevrilmişdir.[108]

İnsan coğrafiyası elminin metodologiyasına və təkamülünə dair tədqiqatçıların problemləri ətrafında müxtəlif düşüncə tərzləri, mübahisələr, qeyri-konstruktiv mənbələr ifadə olunmuşdur. Məsələnin önəmi ondan ibarətdir ki, insan bioloji bir fərd kimi coğrafi mühitlə müəyyən tarixi xronoloji təkamülün dərkindən sonra yeni düşüncə tərzinə malik olmuşdur.

Antik filosof elmi məktəbinin əsaslandırdığı “insanın - ətraf mühit”lə dialektik əlaqəsinə dair fikirlərinin önəmində Qərb ölkələrinin təbiətşünaslığla məşğul olan tədqiqatçılar nəzəri baxışlarının formalarını irəli sürmüşlər (Vazeli, Harvey, Vaneski və b.). Ümumi metodoloji baxımdan (biologiya, arxeologiya, coğrafiya, psixologiya və s. elm sahələrində) antik dövrlərin filosoflarının irəli sürdükləri təkamül baxışlarının nəticələrindən, sonrakı mərhələlərdə isə insan elmlərinin təsnifatında müxtəlifliyinin meydana gəlməsinə səbəb olmuşdur.

İnsan coğrafiya elmi fəlsəfəsinin müxtəlif struktur sahələrində aparılan araşdırmalar arasında yalnız xronoloji deyil, həm də dialektik coğrafi ideyaları arasında müəyyən təkamüllü əlaqələrdə meydana gəlmişdir. XIX əsrin birinci yarısında elmin müxtəlif sahələrində olduğu kimi, insan coğrafiyası elmində də fəlsəfi baxışlar öz mövqeyini tuta bilmişdir. Odur ki, insan coğrafiyası elminin formalaşmasında ilkin klassik fəlsəfi baxışlarının insanın ətraf mühitlə əlaqə ideyalarının üstünlüyünün əsaslandırılması məsələləri önəmli hesab olunur.

Təkamül nəzəriyyəsinə uyğun olaraq, insan nəslinin və bundan yaranan mədəniyyətinin inkişafının vahidliyinə dair aşağıdakı ifadələrini göstərə bilərik:

✓ bu inkişafın düzxətt üzrə sadədən mürəkkəbə doğru getməsi;

✓ ictimai quruluşun və mədəniyyətin yaranmasının psixoloji əsaslarının mövcudluğu;

✓ hadisələrin inkişaf qanunlarının fərdin psixoloji xüsusiyyətlərinin nəticəsi olması və s. ilə izah etmək olar.[109]

[107] A.A.Qurbanzadə. İnsanşünaslıq. Bakı, 2009.
[108] Лейвин Б. “Модели мира” и образ человека. М., 1981.
[109] Quliyeva N. Etnoqrafiya və etnologiya. Bakı, 2009.

Təkamül məktəbinin nümayəndəsi Adolf Bastian “Tarixdə insan” və “Adi təfəkkür” əsərlərində əsaslı olaraq insanların eyni təfəkkür qabiliyyətinə malik olması və bəşər mədəniyyətinin vahidliyi haqqında fikirləri elmi mənbələrdə konseptual dəyər kimi qəbul edilir. A.Bastinin insan təkamülün tarixini və təfəkkürünə dair araşdırmalarının əsasında aşağıdakı mənbələr daha çox önəmli sayılır:

- insan nəslinin və şüurunun vahidliyi;
- insanın əqli tərəqqisi;
- insanın ətraf mühit ilə əlaqəsi.

Arxeoloq və etnoloq Con Lebbok “Mədəniyyətin başlanğıcı” adlı tarixi-xroloji mənbələrə əsaslanan əsərində insan cəmiyyətinin və mədəniyyətinin başlanğıc mənbələrinin təhlillərinə üstünlük verilmişdir.



**Eduard Taylor:** *Etnoqrafiya və antropologiya elminin banilərindən sayılır.*

İnsan həyat tərzinin aktivləşdirilməsinə dair ideyaları coğrafiya elmində aktuallıq kəsb etmişdir. Mədəniyyətin inkişaf tarixinin nəzəri baxışları coğrafiya elm məktəblərində dəyərli tədqiqatlardan sayılır.

İnsan coğrafiyasının fəlsəfəsinin tarixində Eduard Taylorun tədqiqtlarının elmi-metodoloji baxışlarının idealogiyası və təsnifat göstəricilərinin elmi məktəblərinin tərəfindən idealoji mənbə kimi qəbul olunmuşdur. E.Taylorun “Bəşəriyyətin qədim tarixinə dair tədqiqatlar” və “Antropologiya” adlı əsərlərində insan coğrafiyasının inkişafında xüsusi mövqeyi vardır. Bu əsərlərdə müəllif sivilizasiyaların qovuşduğu məkanlarda insan coğrafiyasının inkişaf formalarının əsaslandırmağa çalışmışdır. E.Taylorun ideyasına görə ayrı-ayrı xalqların məişət və mədəniyətlərinin arasında fərqli cəhətlərin yaranmasına səbəb həmin xalqların Yer kürrəsində qeyri-bərabər inkişafı və məskunlaşması ilə əlaqələndirirdi.

- **İnsan coğrafiya elminin xronologiyası**

İnsan coğrafiyası elmi klassik elmlər sisteminə daxildir. Onun əsas elmi məzmununa ümumi fəlsəfi dünyagörüşünün ideya mənbələrinə söykənən coğrafiya elminin tədqiqatçılarlnln rasional fuksiyaları daxilildir.

Nəzəri-metodoloji və praktiki funksiyası baxımdan insan coğrafiya elminin təkamülü və onun dialektik formalaşması elm tarixinin zərurətindən irəli gəl-

mişdir. Məntiqi olaraq, dialektik coğrafiya elmin inkişafı ilkin olaraq elm tarixinin tələblərinə uyğun yeniləşmiş, rasional dialektik funksiyalarını özündə birləşdirməklə coğrafiya elminin sisteminə çevrilmişdir. Ümumi elmi fəlsəfəsinin tədqiqat obyektlərinin metodologiyasının müstəfisində insan coğrafiya elminin tədqiqat mövqe strukturları reallığa çevrilmiş, geniş mənada qloballaşan coğrafiya elmi təsnifatına daxil olmuşdur.

Elm tarixinin evolyusiyon mənbələrinin reallıqları göstərir ki, hər bir elminin fəlsəfi mənbələrinə uyğun formalaşması və dinamik inkişafının qanunauyğunluqlarına malikdir. Bu baxımdan insan coğrafiya elminin təkamül modelinin çərçivəsi "coğrafi mühit – zaman-insan" idealogiyasına əsaslanmış, yeniləşmiş və müasirləşmişdir. Nəticə etibarı ilə ümumi coğrafiya elminin təfəkkürünün çərçivəsində insan coğrafiya elminin özünəməxsus nəzəri-metodoloji predmeti və tədqiqat obyekti vardır.

İnsan coğrafiya elminin xronoloji modelinin sosial-fəlsəfi anlamı və tədqiqat obyekti önəmli sayılır. Tədqiqat obyektin əsas ideya məzmununda sosial strukturun modelləşməsi, praktikası və kartoqrafik təhlillərinin aparılmasından ibarət olmasıdır.[110] Bu cəhətdən Le Pleya tərəfindən aparılan tədqiqatlarının nəticələri və praktikası insan coğrafiya elmi üçün məqsədli hesab edilir.

İnsan coğrafiya elminin inkişafında ABŞ-ın Vaşinqton elmi məktəbinin coğrafları = R.J.Charley, W.L.Garrison, R.L.Morril və b. = tədqiqat işləri insan coğrafiya elmi modelinin yaranması və dinamikasında mühüm əhəmiyyət kəsb etmişdir.

ABŞ Milli Akademiyası və Milli Elmi-Tədqiqat Şurasının konfranslarında insan coğrafiyası elminə xüsusi bölmələr ayrılır. Burada sosial coğrafiya, kreativ coğrafiya, qlobal bəşəri coğrafiya və s. elmlərinə dair konstruktuv məruzələr hazırlanır. Tədqiqat işlərinin praktiki istiqamətləri coğrafiya elminin yeniləşməsinə və təsnifatına yeni ideyalarla zənginləşməsində faydalı elmi mənbə kimi qəbul olunur.

- **İnsan coğrafiya elminin funksional məntiqi**

İnsan coğrafiya elminin məntiqinin təsnifatında demək olar ki, kompleks tədqiqat funksiyalarının çərçivəsini özündə tamamlayır. Məntiqi olaraq dialektik coğrafiya elminin çərçivəsini funksional modeli kimi qəbul etsək, insan coğrafiyası həmin çərçivənin bir hissəsidir. Coğrafiya elmində insan faktoru məna ifadəsində yanaşma müxtəlifliyinin önəmi mövcuddur. Bu önəm sistemində insan fərdinin bütün fəaliyyətinin kompleksi coğrafi məkanla bağlıdır.

[110] Urban sociology. London. 1998.

Təbiətşünaslıq elmlərinin evolyusiyon baxımından təhlili göstərir ki, insan coğrafiyasının funksional dəyərləri bütün elmlər taxrixinin epoxolarında konstruktiv olmuş və dialektik tədqiqatlarında mövqeli məzmun kəsb etməsi ilə fərqlənmişdir. Nəticə etibarı ilə dialektik coğrafiya elmi sisteminin metodologiyasının tamamlanmasında insan coğrafiya elminin funksional məntiqi modelləri praktiki cəhətdən effektli olmaqla yanaşı, həm də ümumi elmi idealoji əhəmiyyət daşıyır.

İnsan coğrafiya elmi təsnifatının funksional məntiqinin tərkibində insan fərdinin genezisi və evolyusiyası fonunda təhlillərinin aparılması zəruriyyəti yaranmışdır. İnsan coğrafiyasının genezisi ilə məşğul olan elmi mərkəzlərində “antropogenez” konsepsiyasına dair geniş miqyasda müqayisəli elmi-praktiki əhəmiyyətli tədqiqatlar aparılmışdır. Elmi tədqiqatlarda antroloqlarının rolu və mövqeyi şox aktuallıq kəsb edir. Bu sahədə ingilis antropoloqu Luis Likinin araşdırmaları elm mərkəzlərində qəbul olunmuşdur. L.Likin tərəfindən Oldovay mağarasında (Tanzaniya) ilk insan skletinin fraqmentlərinin tapılması və müəyyən olunması mühüm elmi kəşflərindən biridur.[111]



**Luis Liki:**
radioizotop metodu ilə ilk insan skletinin yaşı 2 mln. ilə yaxın olmasını təyin etmiş və bunu Homo habilis (ağıllı insan; beynin çəkisi 650 $sm^3$) adlandırmışdır .

Morfoloji, fizoloji və psixoloji müqayisələrinin nəticələrinə əsasən, insan fərdi vahid növdən (homo sapines), vahid kökdən əmələ gəlməsi haqqında baxışlarının elmi mənbələrində öz təsdiqini tapmışdır.[112]

Antropoloji tədqiqatlar göstərir ki, habililis mərhələsindən sonra insan evolyusiyası arxantroplar: qədim insan erası ilə əvəz olunmuşdur. Arxantroplar 800-300 min il bundan əvvəl Avroavraziya coğrafi məkanında yaşaması haqqındakı ideyalarının elmi əhəmiyyəti çox böyükdür.[113]

Müasir insanın genezisinə dair elmi araşdırmalarında iki mühüm ideya hökm sürür:

[111] Происхождения человека. М., 2002.
[112] Наука и человечество. М., 1998.
[113] Polь Клобаль. Пространство в географии человека. М., 1995.

1) monosentrist (lat. mono-bir, mərkəz deməkdir) baxışlardır ki, burada müasir insan bir yerdən (bir mərkəzdən) yaranması və yayılması haqqında ideyalarının varlıqları hökümranlıq edir;

2) polisentrist (lat. poli, çox deməkdir) baxışlardır.

Müxtəlif səviyyəli tədqiqatlarının mənbələrində bu və digər elmi baxışlara çox vaxt multiregional evolyusiya da adlandırırlar.

Elmi tədqiqatlarının mənbələrinin təhlilləri göstəriri ki, insan - primatlar dəstəsinə daxildir və bütün morfoloji, psixoloji və s. əlamətlərinə görə primatlar dəstəsinin digər ailələrindən fərqlənir. Bu fərqlər **üç funksional** fizioloji cəhətlərlə tamamlanır:

▼

*Dik (ayaq üstə ) yerimə hərəkəti*

▼

*Əllərin hərəkəti*

▼

*Beynin inkişafı – nisbətən çox inkişaf etmiş böyük beyin*

Azərbaycan coğrafi məkanı qədim insan məskənlərindən sayılır. Qarabağ diyarında aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, hələ çox qədim zamanlardan bəri bu ərazidə canlı həyatın inkişafı üçün əlverişli təbii coğrafı şərait olmuşdur. Ərazidə aparılan kompleks elmi tədqiqatlarından məlum olmuşdur ki, hələ 1,5 milyon il bundan əvvəl Quruçay vadisində mülayim iqlim şəraitində yaşayan çoxlu heyvanlar olmuşdur. Eyni zamanda Quruçay vadisi, Azıx və Tağlar düşərgələrinin yerləşdiyi ərazilərindən qədim insanlar əmək alətlərinin hazırlamaq üçün yerli xammal materiallarından istifadə etmişlər.



**Məmmədəli Hüseynov**:
Azərbaycan qədim paleolit arxeoloji elmi məktəbinin banisidir. İlk dəfə olaraq Azıx düşərgəsində qədim insanların ilkin məskunlaşmasına dair tədqiqatlar aparmışdır. Bunlar Avropa və dünyanın bir sıra ölkələrində elmi yenilik kimi dəyərləndirilmişdir.

1968-ci ilin iyun ayında M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin III layında daş məmulatı və heyvan sümükləri ilə bərabər qədim insana məxsus alt çənə sümüyü aşkar edilmişdir. Qədim insana məxsus olan alt çənənin elmi tədqiqi ilə D.V.Hacıyev məşğul olmuşdur.

D.V.Hacıyevin apardığı elmi-tədqiqatlar zamanı çənənin ibtidai insana məxsus olması müəyyən edilmiş və tapıntıya şərti olaraq azıxantrop tipli ibtidai insan adı verilmişdir.

- **"Coğrafi mühit – insan" elmi baxışın məzmunu**

"Coğrafi mühit-insan" fəlsəfəsinə söykənən insan coğrafiyası elminin formalaşmasının genetik təbiətində: "maddi varlıq-məskunlaşma-yaşamaq tərzi" sistemi durur. Bu sisteminin öyrənilməsində və tədqiqat obyektinə çevrilməsində insan sivilizasiyasının kompleks inkişaf meyillərinə dair araşdırmalar üstünlük təşkil edir.[114] Coğrafi mühitlə insanın fəaliyyətinin dinamikliyinin arasında funksional əlaqə qanunlarının dialektikasının genetik tipli struktur bağlılıqları mövcuddur. Bu mənada insan coğrafiyası elminin metodologiyasının ilkin əsasını fəlsəfi düşüncə tərzinin rasional biliklərinin sistemini təşkil edir.

Konseptual olaraq "coğrafi mühit-insan" genetik təbiətinin elmi məzmunun arasında aşağıdakı **dialektik qırılmalarının kompleksliyi** mövcuddur.

▼

"Coğrafi mühit-insan" dialektik coğrafiya elmi çərçivəsinin legitimliyinin funksiyalarını yaradır və formalaşdırır. Bu legitimlik dövlət-millət sistemininin "reaksiyası"nın dinamikasının ideyasını gerçəkləşdirir, iqtisadi-sosial inkişafının modellərinin strateji və dayanıqlı mühitinin yaranmasında iştirak edir.

"Coğrafi mühit-insan" modeli əsasında ətraf mühitlə insan fərdinin həyat tərzinin dinamikası sosial-iqtisadi və strateji məzmuna çevrilir. İnsanın ətraf mühitlə dayanıqlı inkişafının dialektik formaları gercəkləşir. Məntiqi olaraq, insanın varlığının coğrafiyası "məkan və zaman" dialektikası arasında yaranan boşluqdur. Bu boşluq coğrafi mühitin fəlsəfəsinin əsasında insanın idrak praktikası ilə tamamlanır.

"Coğrafi mühit-insan" qloballlaşan cəmiyyətin dialektik genetik təbiətinin kompleksində insan varlığının dayanıqlığınının təminatında fəallıq nümayiş etdirir. Bu mənada insanın həyat fəaliyyəti qloballaşan cəmiyyətinnin fonunda müxtəlif elmi cəryanlar tərəfindən idarə olunur.

Yuxarıda göstərilən genetik təbiətlə yanaşı coğrafi mühitlə insanın yaşayış həyat tərzi arasında müəyyən səviyyədə tarazlıq münasibətləri də hökm sürür:

*rasional qidalanma;

*xammal resurs təminatı və ondan istifadə edilməsi;

---

[114] Qurbanzadə A.A. İnsanşünaslıq. Bakı, 2009.

* insanın həyat tərzi arasında genetik enerji mübadiləsinin aktivliyi və s.

Genetik enerji mübadiləsinin potensialının səbəbindən planetar əhalinin təxminən 65-70 %-i tarazlığını özündə birləşdirir. Enerji "yükü"nə malik olan coğrafi areallarında, təxminən dağətəyi-dəniz sahili boyu məskunlaşmış sistemlər üstünlük təşkil edir.

Okeanların enerjisi ilə dağlıq ərazilərin enerji "yük"lərinin dağətəyi areallarında birlşdiyi səbəbindən "məhsuldar" məskunlaşmanın davamlı formaları yaranmışdır.

Bəşər cəmiyyətinin varlığı erasından başlayaraq coğrafi mühitin "məhsuldarlığı" ilə məskunlaşma arasında dialektik vəhdətlər üstünlük təşkil etmişdir. Bu səbəbdən də insan yaşayış həyat tərzinin genetik təbiətinin təbii zonalar üzrə qeyri-bərabər olmasına və resurslardan istifadə edilməsinin arasında müxtəliflilik fərqlərinin yaranmasına səbəb olmuşdur.

İnsan coğrafiyasının genetik təbiətinin bəşəri dəyərləri geniş informasiya mənbələrinə əsaslanır. Qlobal xarakerli bu informasiya mənbələrində bir çox fəlsəfi məzmunlu dəyərlərini özündə birləşdirir. Bu dəyərlərindən bir neçəsinin təhlilinə üstünlük verək.

Dinin bəşəri dəyərlərinin təbiətinə dair anamizm[115] nəzəriyyəsinə qarşı təhlillərdə tədqiqatçılar asanlıqla yol tapa bilmirdilər. Məsələnin dəyərləndirilməsində ilkin olaraq ingilis etnoloqu E.Lenqin "dinin yaradılması" tezisində əsaslı sürətdə təhlillər aparmışdır. E.Lenq bir çox xalqların dini inamlarında səma allahının və yaradıcısının obrazına rast gəlindiyini təhlillərlə əsaslandırmaya səy göstərmişdir.

Lenq səma allahını "ümumi ata" adlandırırdı. Onun fikrincə, bu xristian missionerləri tərəfindən gətirilməyib, ruha və ya ölmüş əcdada inam iddiasının təkamülü də deyildi. Lenq bildirirdi ki, ibtidai insan ilk dəfə ayrı-ayrı əşyaların kimlərinsə tərəfindən yaradıldığını dərk etməyə başlayanda bütövlükdə dünyanın da kimsə tərəfindən yaradıldığını, onun yaradıcısının, daha doğrusu allahın olmasını düşünə bilərdi.

İngilis etnoloqu C.Freyzerin əsərlərinin əksəriyyəti din tarixinə həsr olunmuşdur. Freyzeri məhşurlaşdıran 12 cildlik "Qızıl budaq" kitabında insan ruhuna inam, onun müxtəlif formalara keçməsinə dair fikirləri maraq doğurur. Freyzerin əsas ideyası bəşəriyyətin əqli inkişafının ardıcıl mərhələləri haqda ümumi nəzəriyyə idi. Bunlar insan təbiətinin dialektik qanunauyğunluqlarıdır. Əlavə olaraq qeyd edə bilərik ki, bioloji cərəyan etnoqrafiya elmində mühüm cərəyanlardan biri olaraq, insanın bioloji varlıq olmağı faktını təsdiq edir.

[115] **Anamizm** - insanın varlığına dair nəzəri baxışların ifadəsini əhatə edir.

XIX əsrin ortalarından başlayaraq formalaşan təkamül təlimi canlı aləmin inkişafındakı qanunauyğunluq və orqanizmlərin təbiətdən asılı olaraq dəyişmələrinə dair təbiətşünas alimlərinin təklif etdikləri elmi təlimlərinin praktikasının əhəmiyyəti çox böyük olmuşdur. Təbiətşünaslıq elminin inkişafında yeni bir mərhələ yaratmış alimlərinin sırasında təkamül nəzəri baxışlarının formalaşmasında J.B. Lamarkın xidmətlərinin fəaliyyəti çox dəyərlidir.



**Jan Batist Lamark** *(Fransız alimi)* Təbiətşünaslıq elmində üzvi aləmin təkamül nəzəriyyəsini yaratmışdır.

J.B.Lamarkın təkamül nəzəriyyəsinin məntiqində hər şeyin sadədən mürəkkəbə doğru dəyişməsi ideyası, tarixi-coğrafi inkişafının müəyyən qanunauyğunluqlarına əsaslanır. Odur ki, Lamarkın təkamül təlimi Etnoqrafiya (Etnologiya) elminin əsas elmi-metodoloji bazasına çevrilmişdir.

İnsan coğrafiyasının təkamülünə dair müxtəlif dövrlərdə tədqiqatlar aparılmış alimlər tərəfindən yetərincə ideyalar, təkliflər verilmişdir (F.Lankeni, O.Ammopu, Hekkel və s.). Tədqiqatlarda hər bir xalq, hər bir tayfa ictimai inkişafın quruluşu ilə bəşər tarixinin müxtəlif mərhələlərində baş verən cərəyanların təkamül formalarını önəmə gətirilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində insan coğrafiyası elmində geniş yayılmış cəryanlardan biri də diffuzionizm idi.[116] Müasir dövrdə də diffuzionizm insan mədəniyyəti sahəsinə tətbiq edililir. Elmi mənbələrdə diffuzionizm cərəyanı tarixi prosesinin əsas mahiyyəti kimi insanın mədəni əlaqələrinin mənimsənilməsi ilə ifadə edilməsidir.

Diffuziyonizmin cəryanını F. Ratsel tərəfindən ilk dəfə əsaslandırılmışdır.

F.Ratsel "Antropocoğrafiya", "Torpaq və həyat" və digər əsərlərində insanların yer üzərində yayılma arealını göstərməklə mədəniyyətin inkişafının coğrafi şəraitdən asılı olması ideyasının əsaslandırmağa cəhd etmişdir. O, təbii mühitin etnosun daxili həyatına, onun

[116] **"Diffuziya"** anlayışı fiziki anlayış olub (latınca diffusio - yayılma, qarışma, genişlənmə deməkdir). Bu cəryanın əsas məqsədi insan mədəniyyəti sahəsində xalqlar arasında əlaqələrinin yaranması səbəbləri, insanların miqrasiyası ilə mədəni amillərin coğrafiyasını öyrənməkdən ibarətdir.

mədəni səviyyəsinə, habelə xalqlar arasında əlaqələrin xüsusiyyətlərinə təsir göstərən bütün formalarını coğrafiya elmi cəhətdən təhlil etmişdir.

F.Ratsel "Antropocoğrafiya" kitabında əsaslandırır ki, xalqlarının Yer kürəsində yayılmasının müxtəlifliklərinin olması səbəbindən onlar arasında əlaqələr aradan qalxır, yəni tayfaların köçməsi, irqlərin qarışması və s. buraya daxildir. Onun ilk dəfə olaraq mədəni hadisələrinin ölkələr üzrə coğrafi mühitdə konkret şərtlərə uyğun olaraq yayılmasına diqqət yetirməsi məsələləri çox əhəmiyyətlidir. F.Ratsel ilk dəfə olaraq mədəni hadisələrinin xalqlar arasındakı qarşılıqlı əlaqələrin nəticəsi olması məsələlərini önəmə gətirmişdir. F.Ratsel qarşılıqlı əlaqələrinin məsələlərini adi "etnoqrafik əşyalar" (etnoqraphische Gegenstande) adlandırmışdır.

Məlumdur ki, irqi tiplərinin bir-biri ilə qarışır və antropoloji əlamətlərinin formaları tədricən aradan qalxır. Dil irqə nisbətən bir qədər sabit olsa belə o da, müəyyən zaman kəsiyində dəyişilməyə məruz qalır. Məsələn, almandilli ölkələrdə diffuzionizminin üç bölməsi mövcud olmuşdur:

1) Frobeniusun "Mədəni morfologiya" məktəbi;
2) Qrebnerin "Köln" məktəbi;
3) V.Şmidtin "Vyana" məktəbi.

Leo Frobenius diffuzionizm çərçivəsində "mədəniyyətin anotomiyası, morfologiyası, fiziologiyası" və "mədəni dairələr" nəzəriyyəsini yaratmışdır. Afrika mədəniyyətinin bilicisi olan Frobenius Afrika, Avstraliya və Okeaniya coğrafi məkanlarında xalqlarının mədəniyyətinin tədqiqi ilə əlaqədar 12 ekspedisiyada iştirak etmişdir. Tədqiqatlarının nəticələrini "Afrika mədəniyyətinin mənşəyi" (1898-ci il) əsərində cəmləşdirən Frobenius mədəniyyətə canlı orqanizm kimi baxmış, dəyişməsinin ümumi həyat qanunlarına tabe olduğunu bildirmişdi.

F.Qrebner XX əsrin əvvəllərindən etibarən Avstraliya və Okeaniyan coğrafi məkanlarda yerləşən xalqlarının ibtidai xalqlarının etnologiyasını təhlil edərkən tarixi müqayisə metodundan istifadə etmiş və 1914-cü ildə nəşr etdirdiyi "Etnologiyanın metodu" əsərində şərh etmişdir.

Diffuzionizmin inkişafında V.Şmidtin nəzəriyyəsinin **üç başlıca mənbəyi** əsaslandırılmışdır.

- Qrebnerin "mədəni dairələr sxemi";
- Kollmanın "piqmey" nəzəriyyəsi;
- Endriyu Lenqin allah-ataya əzəli etiqad konsepsiyası.

V.Şmidtin məqsədi etnologiya elmini kilsə ehkamlarına yönəltməkdən ibarət idi. O, Endriyu Lenqin "Dinin yaradılması haqda" əsərini din haqda elmdə çevriliş hesab etmişdir. V.Şmidtin dini kitablardan istifadə edərək, elmi faktla-

rın köməyi ilə “ilahi kəşflər” barədə kilsə ehkamlarının və “İncil” ənənələrinin doğruluğunu sübut etməyə çalışmışdır. O, bütün əməyini və biliyini “ibtidai monoteizm” nəzəriyyəsinin yaradılmasına sərf etmişdir.

Lokal tipli mədəniyyətin inkişafı üçün diffuziya mühüm əhəmiyyətə malik olmuşdur. Bu sahədə K.Uisslərin “Amerika hinduları” əsərində Şimali Amerika hindularını və onların mədəni elementlərinin coğrafi yayılmasını təhlil edərək bu nəticəyə gəlmişdir ki, mədəniyyət ayrı-ayrı qrupların müvafiq ekoloji mühitə uyğunlaşmasının nəticəsidir. O, Şimali Amerika hüdudlarını 15 mədəni dairəyə ayırmış, mədəni diffuziyanın ümumi qanunlarını müəyyənləşdirmiş və qeyd etmişdir ki, antropoloji cizgilərinin yarandığı yerdən Yer kürəsinin müxtəlif istiqamətlərdə yayılma xüsusiyyətinə malikdir.

Diffuzionist istiqamətdə məşhur norveçli antropoloq alim Tur Heyerdalın xidmətlərini xüsusilə qeyd etmək lazımdır. O, XX əsrin 50-ci illərindən etibarən XXI əsrin əvvəllərinədək öz əsərlərində diffuzionist elmi mənbərənin inkişafına xüsusi diqqət etdirmiş və elmi təlim yaratmışdır.



**Tur Heyerdal**: *Norveçin görkəmli elm xadimi*
Dünyanın bir çox regionlarında apardığı arxeoloji ekspedisiyaların nəticələri konseptual elmi-praktiki məzmun daşıyır.

Diffuzionizmin etnologiya elmindəki payını qiymətləndirərkən bu istiqamətin əsas qüsurlarını da göstərmək lazımdır. Bunlar əsasən aşağıdakılardır: mədəni amillərin onun yaradıcısı olan insan və xalqdan ayrı tutulması, insanın yaradıcı qüvvəsini nəzərə almaq, buradan da ortaya çıxan mədəniyyətin cansız əşyaların yığımından ibarət olması, yalnız zaman daxilində hərəkət edə bilməsi kimi sırf mexaniki təsəvvürlər (Qrebner); mədəniyyətin insandan asılı olmayan canlı və müstəqil orqanizmin olması fikri (Frobenius); bütün mədəniyyətlərin bir mərkəzdə bir dəfə yaranması; bütün dünyaya da buradan yayılması fikirə (Eliot Smit) və s.

**Onuncu önəm**

# Etnologiya elminin dialektik genetik təbiəti

## ▪ Etnologiya elmi mənbələrinin nəzəri təsnifatı

Etnologiya – etnik birliklərin yaranması və dialektik inkişafınının coğrafi mühitini özündə əks etdirən insan coğrafiyası elminin tədqiqat sahəsidir. Etnologiya elmində insanın formalaşmasının təkamül coğrafiya sistemlərinin kompleksinə xüsusi diqqət yetirilir. Elmi mənbələrdə etnologiya elminin formalaşmasını özündə əks etdirən müxtəlif dialektik elmi cəryanlar fəaliyyət göstərmişdir (göstərir).

Etnologiya elminin inkişafında funksionalizm cəryanı sosioloji məsələlərinin həlli yollarını özündə əks etdirir. Bu cəryan ilk dəfə ingilis sosioloji elmi məktəbinin nəzəri baxışlarının nəticəsi kimi qəbul edilir. Məsələ ondan ibarətdir ki, XX əsrin 20-ci illərində alman və ingilis funksionalizm elmi məktəbində etnologiyada əsas yer tuturdu.[117]

İngilis funksionalizm elmi məktəbinin banisi B.K.Malinovskinin (miliyyətcə polyakdır) əsas tezisinə görə insan mədəniyyətini, sosial inkişafını onun cizgilərinə görə deyil, etnologiya institutlarına görə təhlil etmək lazımdır. O, qeyd edirdi ki, funksional metodun başlıca tələbləri hər hansı bir xalqın bir-biri ilə qarşılıqlı əlaqədə olan və hər birinin öz rolu, funksiyası olan mədəniyyət sistemindən ibarət olmasıdır.

Funksionalizm cəyanının ümumi cəhətlərini aşağıdakı formula ilə təsnif etmək mümkündür:

✓ Mədəniyyət - insanın öz maddi tələbatını ödəmək iqtidarında olan təbii resursların spesifik problemlərini həll etmək üçün instrumental mexanizmdir.

✓ Mədəniyyət - insanın öz məqsədinə çatmaq üçün fəaliyyət obyekti, hərəkət və istiqamətli funksional sistemidir.

✓ Mədəniyyətin funksional komponentləri (ailə, nəsil, icma, tayfa və s. forması) insanın həyati fəaliyyətinin dinamikası üçün yaradılmışdır.

---

[117] Funksionalizm nəzəriyyəsini alman etnoloqu R.Turnvald 1911-ci ildə irəli sürmüşdür.

✓ İnsan fəaliyyətinin sahəsi kimi baxsaq mədəniyyəti müxtəlif aspektlərdən: təhsil, sosial nəzarət, iqtisadiyyat, idrak sistemi, dini, mənəvi və s. sahələrdə də göstrəmək olar.

Funksionalizm ideyasının inkişinda "Kembric məktəb"nin davamçılarından sayılan Alfred Radklif – Braunun xidmətləri dəyərlidir. Onun "Etnologiya və sosial antropologiyanın metodu", "Mədəniyyətin tarixi və funksional şərhi" və s. əsərlərində ilkin olaraq etnologiya elm kimi üç təsnifatını təqdim edir:

1) insan biologiyası, yəni, somatik antrpologiya;

2) tarixə qədərki arxeologiya;

3) qeyri-Avropa, xüsusilə də yazılı tarixi olmayan xalqların dilinin və mədəniyyətinin öyrənilməsi.

Etnologiyanın əsas sahələrindən biri kimi sosial antropologiya isə insan coğrafiyasının ümumi qanunlarının axtarışı ilə məşğuldur. 1931-ci ilədək Radklif - Braun "mədəniyyət" termininindən, sonra isə sosial antropologiyada "sosial quruluş" ifadəsindən çox istifadə edirdi. Fransız tədqiqatçısı Levi-Stross (1960-ci il) etnologiya elmi baxışlarının dəyərində "struktur antropologiya"sının formalaşmasına dair kompleks təkliflərini irəli sürmüşdür. Bu təkiliflərdə etnologiyanın coğrafiyasına dair nəzəri-metodoloji istiqamətlərinin formalaşmasında yeni bir mərhələnin yaranmasına səbəb olmuşdur .

ABŞ-ın insan coğrafiyası ilə məşğul olan elm məktəblərində antropologiyasının nümayəndələri strukturalizm metodu ilə müəyyən ərazilərdə coğrafi adları müəyyən edilməsinə üstünlük verirdilər. Strukturalizm - insan təfəkkürünün univerisallığına çağrışında "Tarixi etnologiyada Amerika məktəbi"nin xidmətləri çox böyükdür. Məktəbin nümayəndəsi F.Boasun tərəfindən "Etnologiyanın tapşırıqları", "Etnologiyanın metodları, "Evolyusiya və ya diffuziya" və s. əsərləri xüsusi rola malikdir. F.Boasinin tədqiqatlarından mühüm metodoloji qanun ortaya çıxır: "Ümumi sosial normaların, elmi tədqiqat zamanı tədqiqatçının özünün mədəni baxışlarından azad olması gərəkdir. Əgər biz hər bir mədəniyyəti öz bazasından öyrənə bilsək, obyektiv, ciddi elmi tədqiqat apara bilərik".

ABŞ etimologiya məktəbininin insan coğrafiyası elminə gətirdiyi əsas yeniliklərini aşağıdakı fomula ilə ifadə etmək olar:

➢ Yer kürəsində məskunlaşan insan qruplarının adət-ənənlərini, dilini, dinini, antropoloji tiplərinin hərtərəfli və kompleks öyrənilməsinin vacibliyi;

➢ Coğrafi arealda birgə yaşayış tərzinə uyğun etnik qruplarının kartoqrafiyalaşdırmaqla konkret qarışıqlı təsir formalarının əlaqə elementlərinin diffuziyasınının müəyyən edilməsinin mümkünlüyü;

➢ Etnik birliklərinin ümumi qanunlarının ehtimallığının dərəcələrinə kompleks yanaşılması tələb olunur;

➢ Hər bir etnik qrupun öz sosial idealı və öz mənəvi normalarına diqqətlə yanaşmaq mümkünlüyü.

Etnologiyada Fredizm cəryanı insanın qeyri-şüurunun bioloji instinktlər olduğunu iddia edən, insan yaşayışında ictimai, sinfi şəraitin həlledici rolunu isə inkar edən idealist baxışlar qərb ölkəlrində bir mənalı qəbul olunmamışdır. Freydiz cəryanının etnoloqlarınının təklif etdikləri - eqzoqamiya, müxtəlif qadağalar, magiya, animizm, totemizm anlayışlarına psixoanaltik izah verməyə üstünlük vermişlər.

Etnologiya elmində mühüm əhəmiyyət kəsb edən akkulturasiya baxışlar etnik birliklərin adət-ənənələrini, mədəniyyətini və s. qonşu etniklərin adətlərinin təsiri nəticəsində dəyişməsinə dair araşdırmalar üstünlük təşkil edir. Məsələ ondan ibarətdir ki, güclü dövlətlərin siyasi-iqtisadi inkişafı az saylı etnik birliklərinin ümumi inkişafıın dəyərləndirilməsinə maraq göstərmir. Bu səbəbdən də XX əsrin 30-cu illərində ABŞ-da etnopsixoloji məktəbin hakim mövqedə olmasına gətirib çıxardı. Azsaylı və pərakəndə hindu tayfalarının özünəməxsus sosial-mədəni quruluşu dağıldı, iqtisadiyyatları ölkənin ümumi sisteminə tabe olmağa məcbur oldu. Amerikan etnoloqlarının hinduların yalnız mədəni yenidənqurmada psixoloji proses kimi dərk edilməsinə səy göstərmişlər.

Ralf Linton (ABŞ) akkulturasiya cəryanı haqqında göstərir ki, "Mədəni dəyişiklik" prosesinin mahiyyəti fərdi psixoloji dərk etmə və unutma proseslərindən ibarətdir. Psixoloji məktəb cərəyanının nümayəndələri müxtəlif etnik təbəqələri arasındakı sosial ziddiyyətlərinin mənbəyini psixoloji profillərin müxtəlifliyində görür və ədalətli sosial cəmiyyətin yaradımasında profillərin arasındakı müxtəlifliyinin aradan qaldırılması fikrini əsas götürürdülər.

▪ **Etnik birliklərin genetik coğrafiyası**

Yer kürəsində tarixi-coğrafi mühitinin fonunda etnik birliklərinin coğrafiyası formalaşmış və bəşəri sivilizasiya ocaqlarının yaranmasına səbəb olmuşdur. Etnik birliklərinin yaranması və coğrafi areallarının formalaşmasına dair bir çox nəzəri baxışlar mövcuddur. Müəyyən olunmuşdur ki, insanların birgə fəaliyyətinin coğrafi areallogiyası etnik birliklərinin yaranmasınının ilkin şərtlərindən sayılır. Məsələ onunla izah olunur ki, "insanın ruhuna" əsaslanan dialektik coğrafi araşdırmalar müasir dövrdə də öz elmi aktuallığını saxlamaqdadır.

Elmi mənbələr sırasında "insanın ruhuna" əsaslanan təsnifatana dair etnik birliklərinin coğrafi areallarının **planetarlığı haqqındakı Ç.Hegelin** ideyası mühüm mövqeyə malikdir:

- Şərq dünyası (qədim Misir, İran, Hindistan, Çin) - azadlığın mahiyyəti dərk edilmir;
- Antik dövr (qədim Yunanıstan və Poma) - azadlığın mahiyyətini dərk edir;
- Alman - hamı azadlığın mahiyyətini dərk edir.

Problemlə bağlı aparılan araşdırmalar müəyyən mənada etnik birliklərinin anlayışında birgə həyat tərzini, ərazi, dil, mədəni və s. faktorlarına üstünlük verirlər. Sosial strtifikasiya (lat.- qat, lay deməkdir) konsepsiyasının banizi ABŞ sosioloqu E.Ross etnik qruplarının təsnifatında - ərazi, peşə, siyasi, dini və s. faktolarına üstünlük vermişdir.

Etnik birliklərinin planetarlığının qanunauyğunluqlarının aşkara çıxarmaq üçün əsasən aşağıdakı təsnifat tipoloji anlayışlarını önəmə gətirilir: coğrafi areallar; dil-din; məşğulluq; antropoloji və s. Bütün bu tipoloji önəmlər bir-biri ilə sosial, iqtisadi, siyasi və coğrafi dialektik əlaqələrlə uyğunlaşmış, tamamlanmışdır. Məntiqi olaraq yer kürəsində formalaşan etnik birliklərinin coğrafiyasının əsasında "coğrafi məkan-zaman-dialektika" sisteminin funksiyalarının mürəkkəb struktur formalarını özündə birləşdirir. Bu səbəbdən də insanlar öz etnik ərazisinə malik olduğu üçün onlar öz "oçaq"larında məskunlaşmışlar. Bu mənada "Afrika xalqları", "Avropa xalqları", "Asiya xalqları" və bu kimi dialektik-coğrafi məvhumlarının yaranmasına səbəb olmuşdur.

Etnoqrafik coğrafi xəritələrdə öz əksini tapan coğrafi mühitində xalqların əraziyə görə bölgüsünü təsnifatı, belə bir faktı sübut edir ki, xalqların müxtəlif ərazilərdə areallarının əmələ gətirməsin hər hansı təsadüfü olmaməş, tarixi – coğrafi təkamülünün eykumen dialektikasıdır[118].

Məlumdur ki, Yer kürəsində eykumen erasının ikin dövrlərində (Afrika və Cənubi-Şərqi Asiya və s.ərazilərdə) lokal coğrafi məkanlarının əhatəsində inkişaf etmişdir. Geoloji-palentoloji mənbələrə əsasən yuxarı paleolitdə, sonra isə neolitdə insanların yaşayış tərzinə uyğun olaraq eykumen genişlənmiş və yer kürəsinin potensial coğrafi areallarını əhatə etmişdir. Əhalinin artması və təbii ehtiyatlarından istifadə edilməsini qaydalarının yeniləşməsi və bu kimi səbəblər eykumenin planetarlığının fonunda daha da genişlənməsinə səbəb olmuşdur.

Tarixi-coğrafi aspektdə revalyusion inkişafının dialektikası formalaşmış, dinamik olaraq planetar xarakterli ölkələrin yaranmasına səbəb olmuş və buna uyğun olaraq insan qruplarının tərkibində dəyişilmələr baş vermişdir. Məsələn,

[118] Elmi mənbələrdə yer kürəsinin insanlar yaşayan hissəsi eykumen adlanır. Eykumen tarixi-coğrafi mühitə uyğun əsrlər boyu dəyişmələrə məruz qalmışdır.

hələ bizim eradan əvvəl II minillikdə Hindistan və Çin ölkələrinin etnik birliklərinin xeyli hissəsinin assimilyasiyaya mərzu qalmışdır. Bu ölkələrə gəlmələr indiki indoneziyalıların əcdadlarının olmasına dair faktlar müəyyənləşmişdir. Bizim eradan əvvəl II-I minilliklərdə isə Avropanın müasir xalqlarının əcdadları onlara qədər ki mərhələdən sonra, gəlmə xalqlarının təsiri nəticəsində yerli etnik birliklər sıxışdırılmış və ya assimilyasiyaya məruz qalmışlar. Qədim yerli əhalidən müasir dövrdə Avropada yalnız baskılar etnik qrupları öz dillərini və adət-ənənələrini saxlamışlar.

Mənbələr göstərir ki, müxtəlif dövrlərində sosial-iqtisadi-siyasi hadisələrinin yeniləşməsi və təkrarlanmasının səbəbindən Yer kürəsində etnik birliklərinin yerdəyişmə çərçivəsinin miqyası daha da genişlənmiş və qloballaşmışdır.

Böyük Coğrafi kəşflərdən sonrakı dövrlərdə etnik birliklərinin yer dəyişməsi daha kompleks xarakterə çevrilmişdir. Bu dövrlərdə Avropalılar Amerika materikinə, Cənubi Afrika və Avstraliyaya doğru hərəktləri artmağa başlanmışdır. Avropalılar son 3-4 əsr ərzində dünyanın bir sıra ölkələrinni, xüsusilə Avstraliya və Amerikanın əhalisinin tərkibinin əsasını təşkil etmişdir. Avropalılar, xüsusən ingilislərin dünyanın bölüşdürülməsində, yeni tipli dövlətlərinin yaradılmasında (ABŞ, Kanada, Avstraliya və s.) xüsusi mövqeyi olmuşdur.

İnsan coğrafiya elmi təhlili göstərir ki, ölkələrin əhalisinin etnik tərkibini təhlil edərkən, yerli əhalinin buraya çoxdan gəlmiş əhali qrupundan da fərqləndirməsi mühüm şərtdir (məslən, Şimali Amerikada yerli əhali sayılan, sayca çox az qalmış hindu və eskimoslar kimi).

Yerli etnik qruplarının özü də məskunlaşma dövrü etibarilə bir-birindən seçilirlər. Məsələn, hinduların əcdadları Amerika materikində on minlərlə il bundan əvvəl məskunlaşdıqları halda, eskimoslar isə cəmi 2-3 min il bundan əvvəl həmin yerlərin daimi sakinləri olmuşlar. Yaxud Hindistanda dravidlər yerli əhali, arilər isə oraya yalnız 3-4 min il bundan əvvəl gələnlər hesab edilir.

Latın Amerikasında etnik qruplarının formalaşması və inkişafı elm aləmində daha çox maraq doğurur. Təxmini hesablamalara görə, burada 260 etnik qrupları formalaşmışdır. Amerikanın kəşfinə qədər Latın Amerikasında aborigenlərinin sayı = 20-25 mln. nəfər olmasına dair mənbələr mövcuddur. Aborigenlər Mərkəzi Amerika və And dağlıq ərazilərində sivilizasiya ocaqlarının yaradılması haqqında elmə məlumdur. Astek, maya və ilk sivilizasiya ocaqları elm aləminə bir sıra mənbələr vermişdir. Maya hindularının yaratdıqları günəş ilinə dair təqvimlər, həndəsi, mexaniki, tibbi və s. elmlərinin yaranmasında xidmətləri olmuşdur.

Astek, maya və inklər ədəbiyyatın müxtəlif bölmələrini özündə əks etdirən mifoloji, tarixi əhəmiyyətli məsələlərlə məşğul olmasına dair faktlar müasir dövr üçün də aktuallıq kəsb edir.

Müasir mərhələdə Latın Amerikasında irqi-etnik təsnifat bölgüsündə: sambo (hindu – zənci törəməsi); metis (ağ irq – hindu) və mulat (ağ irq – zənci) üstünlüklər təşkil edir.

Latın Amerikasının etnik qruplarının xəritəsində Brazilya ölkəsi üzrə hindu qruplarının sayı 80-dan çoxdur: Meksika və Argentina ölkələrində - 50-dən çox yerli, aborigenlər məskunlaşmışlar. Müasir dövrdə 18 dövlətin rəsmi ispan dili hesab edilir. Əsas dinlərinin isə daxilində katolik dini üstünlük təşkil edir.

Yer kürəsində məskunlaşan etnik birliklərinin arasında genetik dialektik əlaqələr tarixən mövcuddur və bu proses müasir dövrdə də baş verir. Qeyd etmək lazımdır ki, bir müddət eyni bir ölkənin ərazisində yaşayan etnik qrupları onların genezisindən asılı olmayaraq bir-biri ilə əlaqə nəticəsində adətən oxşar məişət və mədəniyyət formalarını yaradmışlar. Məsələn, müxtəlif dilə və genezisə malik olan Qafqaz etnik qrupları əsrlər boyu bir-biri ilə qonşuluqda yaşadıqlarından onların arasında müəyyən səviyyədə mədəni, məişət ukladının bir çox oxşar xüsusiyyətləri yaranmışdır. Ümum Qafqaz geyim tipinin, xüsusən kişi paltarlarının oxşarlığını, silah, adət-ənənə və folklor materiallarının məzmunluğu buna misal göstərmək olar.

Etnik birliklər arasında **dialektik əlaqələrinin** mövcudluğuna dair termonoloji genetik anlayışlar formalaşmışdır:

| **Konsolidasiya** | **Asimilasiya** | **Etnoslararası əlaqə** | **Etnogenetik miksasiya** |
|---|---|---|---|
| Bir neçə qohum etniklərin bir etnik halında birləşləşməsi. | Kiçik etniklər mədəni cəhətdən az inkişaf etmiş olur. İnkişaf etmiş ölkələrə xasdır. | Müxtəlif etniklərin birləşməsini nəzərdə tutulur və çoxmillətli ölkələr üçün xarakterdir. | Bir-birilə qarşılıqlı əlaqədə olan qeyri-qohum etnosların yeni etnos yaratmasıdır. Buraya ən çox Latın Amerikası ölkələri daxildir. |

İnsanların tarixən ümumi mədəni, məişət xüsusiyyətlərinin formalaşdığı areallara elmi baxımdan tarixi-coğrafi etnoqrafik makroareallar kimi təsnifatlara ayırmaq mümkündür (məsələn, Qafqaz, Baltikyanı, Orta Asiya, Şimali Avropa, Mərkəzi Amerika və s.).

Etnik qruplarının coğrafi məkan çərçivəsində formalaşması və dinamikasının inkişafı = ilkin yayılması prosesi, insanın əmələ gəlməsinin bioloji təkamülün xarakterinə uyğun minilliklər ərzində baş vermişdir. İnsan təkamülün

dəyişilməsi səbəbindən, sonrakı epoxalarda yer kürəsində etnik qruplarının tarixi-coğrafi etnoqrafik areallarının sərhədləri, məskunlaşması və həyat tərzinin xarakteri dəyişilmişdir (bəzi etnik areallar öz funksiyasını itirmiş, bəzilərində isə əksinə yenidən meydana gəlmişdir).

Tarixi-etnoqrafik mənbərərinə əsasən, sonrakı bioloji varlıqlarının təkamülünün nəticəsində planetar xarakterli insan qruplarının assimiliyasiyası və davamlı yer dəyişməsi prosesləri genişlənmiş, yer kürəsininin "məhsuldar" coğrafi məkanlarının resurs imkanlarının istifadə edilməsinin dərəcələri ilə fərqlənməsinə səbəb olmuşdur. "Məhsuldar" dövrdə eyni zamanda etnik birliklərinin materikilər arasında (coğrafi areallarda) konsolidasiyasının aktivləşməsinin böyük epoxası başlayır. Bu epoxanın formalaşmasında Avropada məskunlaşan xalqlarının yeri və mövqeyi üstünlük təşkil etmişdir (ingilis, ispan, fransız və s.).

Avropalılar işğal etdikləri ölkələrinin etnik qruplarınları ilə əlaqəyə girmiş və özlərinin dil, din, adət-ənənələrinin qəbul edilməsinin siyasətini həyata keçirmişlər. Müstəmləkə ölkələrində aborigenlərinin çoxu məhv edilmiş və ya təcrid olunmuşdular. Bu mənada Amerikada, Afrika, Avstraliya və b. coğrafi məkanlarda "avropalaşma" siyasəti həyata keçirilmişdir.

### ▪ Etnik irq qruplarının coğrafiyası

Antropoloqlar yer kürəsində formalaşmış müxtəlif irq qruplarına dair çoxcəhətli tədqiqatlar yerinə yetirmişlər. Tədqiqatlarda tarixi-coğrafi areallarda morfoloji və fizioloji kompleks cəhətlərinə görə insan irqləri bir kökdən əmələ gəlməsinə dair təkliflər irəli sürülmüşdür.[119]

İnsan irqlərinin yaranması və planetarlığı ilkin olaraq coğrafi mühit çərçivəsində bioloji sferasının dinamikası və təkamülünun dayanıqlığının nəticəsində formalaşmışdır. Molekulyar biologiya və gen mühəndisliyi elmi mərkəzlərininin apardıqları təhlillərdə insanın afrikalı (qara iqr) mənşəyindən əmələ gəlməsi DNKvasitəsilə təsdiqlənmişdir. Molekulyar genetika üzrə tanınmış Kanna və Uilson öz tədqiqatlarında homo sapines (qədim insan tipi) 100- 400 il bundan əvvəl Afrikada yaşamaları haqqında fikirləri elmdə yeni bir mərhələnin yaranmasına səbəb olmuşdur.

İrqlərin yaranması və areallarının əmələ gətirilməsi və adaptasiyası coğrafi məkanla bağlıdır. Antropoloq V.V.Bunak göstərdiyiyi kimi "irq-mütləq kateqoriya deyildir. Hər bir tarixi dövrün özünə məxsus irq for-

> İrq = homo sabienslə = bağlı ideyalar qəbul olunmuşdur.

[119] Основы антропологии. Киев, 2002.

malaşması olmuş,sistemlənmiş və müasirləşmişdir”[120]. Onun ideyasına görə insanlar xarici görünüşünün fərqləri ilə tədricən irqlərə ayrılmışdır.

Elmi mənbələrdə irqlərin yaranmasının təkamülündə *homo sapienslə* bağlı tədqiqatlar müəyyən dərəcədə qəbul olunmuşdur.

İnsan irqlərinin əmələ gəlməsinin coğrafiyası – ilk növbədə “coğrafi mühit-bioloji təkamül-insan” ümumi dayanıqlı inkişafının nəticəsində formalaşmışdır. Molekulyar bioloji araşdırmalar göstərir ki, irqlərin əmələ gəlməsi və areallarının formalaşması uzun tarixi dövrlərinin evalyusion dəyişilmələrinin nəticəsində inkişaf etmış və müasirləşmişdir. Evalyusion dəyişilmələrinin reallıqlarına uyğun olaraq irqlər şərti olaraq xarici görünüşləri ilə bir-birindən fərqlənmişlər. Bəzi antropoloqlar isə göstərirlər ki, irq prosesinin mürəkkəb bioloji populyasiya sistemidir. İrqlərin təsnifatına görə elmi mənbələrdə ümumi formada eynilik olmasına baxmayaraq, müəyyən səviyyələrdə fərqlərdə mövcuddur.

XVII əsrdə ilk dəfə olaraq yer kürəsində formalaşan irqlərinin təsnifatına dair F.Berne tərəfindən aparılan kompleks tədqiqatlarının nəticələri daha çox maraq doğurur.

İrqlərin **<u>təsnifatına</u>** dair müxtəlif fikirlər irəli sürülmüşdür:

F.Berne – *avropoid, monqoloid, neqroid və lapanoid irqlərinə ayırmışdır.*
Y.Roqinski, M. Levin - *ekvatorial,avroasiya və asiya-amerika irqlərinin təsnifatını vermişlər.*
Q.Debes – *neqroid-avropoid , monqoloid və avstroloid irqlərini təklif etmişdir.*

*Avropoid, neqroid, monqoloid və avstroloid irqləri yer kürəsində məskunlaşan əhalinin 70 %-dən çoxunu özündə birləşdirmişdir.*

Ümumiyyətlə, antropoloqlar yer kürəsində əsasən üç böyük qlobal irq kompleksinin üzərində dayanırlar: Qərb xətti – avropoid, neqroid; şərq xətti-monqoloid və neqro-avstroloid (ekvatorial ).

*İnsan irqləri- coğrafi-bioloji dialektik təkamülünün nəticəsində formalaşmışdır.*

Avropoid irqinə aid edilən regionalara daxildir: Avropa, Cənub-Qərbi Asiya, Qafqaz və s. Avropoid əsas iki qola ayrılır: Şimal və Cənub ölkələrin irqləri.

[120] «Наука и человечество». М.,1995.

Avropoid dərisinin, gözlərinin və s. əlamətlərinə görə əsasən iki təsnifata ayrılır: cənub (hamar dəri, tünd saç rənginə və gözlər və s.): şimal irqlər isə (mavi göz, gümüşü saç, dərisi ağ və s.). Cənub qolunu antropoloqlar "hind-aralıq dənizi" və şimal qolunu isə baltik (nord) irqinə ayırırlar.

Avropoid irq təsnifatını antropoloqlar həm də ailə-nigah, məişət və birgə yaşamaq tərzinə görə də fərqlərinin olmasını qeyd edirlər.

Neqroid irqinin coğrafi arealı daha genişdir. Afrika, Avstraliya, Cənubi-Şərqi Asiya və s. ölkələrdə neqroidlər məskunlaşmışlar.

Yer kürəsinin ekvatorial zonasında neqroid və avstroloid irqlərinin populyasının nəticəsində " kondakt" irq qurşağı formalaşmışdır.

Monqoloid - geniş areallar əmələ gətirirlər. Yayılma arealına görə - materik və sakit okean - irqlərinin təsnifatına ayrılır. Monqoloidlər mənşəinə görə həmçinin amerikan hundularinin fizioloji və psixoloji funksialarına oxşar cəhətlərində də uyğunluqlar mövcuddur[121].

- **Dil qruplarının coğrafiyası**

Yer kürəsində məskunlaşan hər bir etnik fərdin düşüncə tərzinə uyğun nitq və dil mədəniyyəti reallaşmışdır. Məntiqi olaraq müəyyən etniklərin nitq mədəniyyəti müəyyən dil qanunlarına uyğun formalarının yaranmasına səbəb olmuşdur. Buna görə də nitq-insanlarn dil vasitəsilə həyata keçirilən ünsiyyət prosesinə daxil edilir.

Dil üç dialektik funksiyanı yerinə yetirir: 1) etnik birliklərinin dil mədəniyyətini qoruyur; 2) insanların davranış və müsahibə fuksiyasını yerinə yetirir; 3) insanın düşüncə tərzinin funksionallığını nümayiş etdirir.

İnsan coğrafiya elminin genetik kodunun formalaşmasında yer kürəsində yerləşən etniklərinin (xalqların) coğrafiyasının **dialektik coğrafi dil ailəsinin** (dünya dil ailəsinə görə-%) formalaşmasına səbəb olmuşdur:

- *Hind - Avropa- ( 48.3 %)*;
- *Çin - Tibet - ( 32.2%);*
- *Niger - Kordofan - ( 6.3%-);*
- *Semit - Hamid - (5.7%);*
- *Altay - (4.6%);*
- *Nil-Saxara - (1.5%);*
- *Ural - ( 0.9 %).*

[121] В.П. Алексеев. География человеская рас. М., 1974.

YUNESKO-nun məlumatına görə, dünyada 6 mindən çox dil vardır. Lakin dillərin 96 faizi dünya əhalisinin yalnız 4 faizi tərəfindən istifadə olunur (dillərin 52 faizində 10 mindən, 28 faizində isə mindən az insan danışır).

YUNESKO ekspertlərinin fikrincə, gələn əsrədək dünya dillərinin yarısının danışıq dili kimi istifadə olunmadığı üçün məhv olması gözlənilir.

Elmi mənbələrinin araşdırmalarının nəticələrinə əsasən bir dilin yaşaması üçün isə həmin dildə ən azı 100 min insan danışmalıdır. Beynəlxalq ekspertlərin araşdırmaları göstərir ki, yox olmaq təhlükəsilə üzləşən dillər əsasən, ölkələrin daxilindəki milli azlıqlarına aid edilən dilləridir. Belə dillərə həmin ölkələrdə geniş istifadə olunmadığı üçün ailələr nə özləri bu dillərdə danışır, nə də bu dili övladlarına öyrədirlər. Məhv olmaq təhlükəsilə üzləşən dillərin daha çox Afrikada yaşayan xalqlara məxsus olduğu bildirilr. YUNESKO-nun məlumatına görə, 2500-dən çox dil yox olmaq təhlükəsi qarşısındadır. Bu gün dünyada 200-ə yaxın dil var ki, onların hər birində cəmi 10 nəfər öz ana dilində danışır.

Beynəlxalq statistikaya görə, hazırda dünyada ən çox işlənən çin dilidir. Bu dildə təxminən 1 milyard 80 milyondan çox insan danışır. İkinci işlənən ingilis dili hesab olunur (≈ 515mln). Təxmini olaraq = hind dillərində- 500; ispan dilində - 425; rus dilində - 257; ərəb dilində - 256; benqal dilində- 215 milyon nəfərdən çox insan daşınır. Fransız dilində - 120 milyondan çox, türk dillərindən isə ümumilikdə 200 milyondan çox insan istifadə edir. Müasir dünyada ən işlək dilllər ingilis, ispan, ərəb, rus, fransız, alman, çin, portuqal dilləri hesab olunur.

Dünya ölkələrinin təmsil olunduğu Birləşmiş Millətlər Təşkilatında 6 rəsmi dildən istifadə edilir (*ingilis, fransız, ərəb, çin, rus, ispan*). YUNESKO ən azı üç səviyyəli dil bacarıqlarının; ana dili, milli dil, ünsiyyət dilinin öyrənilməsini təbliğ etməklə dilçiliklə bağlı əsas məsələ olan çoxdilliliyi təbliğ edir.

*Dil qrupları və poliqlotlar*. Dünya xalqlarının dilləri əsasən - Altay, Ural, Hind-Avropa, Avrasiya, Qafqaz dil ailəsində birləşiblər. Heç kimin danışmadığı dillər isə ölü dillər qrupuna aid edilir. Elə ölkələr var ki, orada çoxlu dillər mövcudur. Məsələn, Qafqazın dağlıq ərazilərində yaşayanlar 100-dən çox dildə, Yeni Qvineya əhalisi təqribən 700 dildə danışır. Afrikada 1000-dən çox müxtəlif kiçik dil qrupları yayılmışdır.

Dünya əhalisi linqvistik xüsusiyyətlərinə görə də bölünür. Bütün dillər qohumluq münasibətinə görə dil ailələrinə, dil ailələri də öz növbəsində dil qruplarına bölünmüşlər. Yer kürəsində geniş yayılmış dil ailələrinə daxildir: Hind-Avropa, Çin-Tibet, Malayziya-Polineziya, Sami-Hami, Bantu, Altay, Qafqaz, Ural, Sudan və s.

Dillərin bir neçə təsnifatına görə fərqlənir (ən başlıcası geneoloji və morfoloji təsnifatlar hesab edilir). Geneoloji təsnifatları üzrə dillərin maddi qohumluq prinsipləri üzrə qruplaşdırlır. Bu təsnifata görə qohum dillər elmi cəhətdən yüksək qiymətləndirilən tarixi-müqayisə metodu vasitəsilə öyrənilir. Dillər arsındakı qohumluq, həmin dillərin qrammatik və fonetik quruluşlarının yaxın olmasında özünü göstərir.

Məntiqi dil ailəsinin bütün dilləri əsas dil adlanan dilin dialektlərindən yaranmışdır. Əsas dilin dialektlərindən əmələ gələn dillər öz növbəsində inkişafın sonrakı mərhələsində müstəqil dillərə çevrilə bilən dialektlərə bölünürlər. Dilin inkişafındakı differensasiya prosesinin mühüm əhəmiyyəti vardır. Belə-ki, dilin gələcəkdə yeni dillər əmələ gətirən dillərə parçalanması ilə yanaşı, əks proses, ayrılması və ya birləşməsi prosesi də, yəni qohum dillərin vahid bir dil əmələ gətirilməsi prosesi də mövcud ola bilər.

- **Dinin coğrafiyası və cərəyanları**

İnsanın mədəni-irsi dəyərlərinin önəmində din və onun cəryanlarının yaranması mütləq reallıqlara malikdir. İnsan cəmiyyətinin təkamülü ilə birlikdə dinlərin yaranmasının prosesləri də baş vermişdir. Əqidə və inam anlayışlarının formalaşması dinin coğrafiyasında yeni təriqqətlərinin yaranmasına və tərəqqisinə səbəb olmuşdur.

Dinlər milli[122] və dünyəvi dinlərə ayrılırlar. Dünyəvi din geniş miqyaslı xalqlarının sitayiş etdiyi din hesab edilir ( xristian, buddizm, islam və s.). Dini baxışlarının özünüdərkin təsnifatının xarakterinə və fəlsəfi **dünyagörüşünün məzmununa** əsasən aşağıdakı kimi qəbul olunmuşdur.

**Monoteizm** (lat.”monos” bir əsas başlanğıc)–təkallahlıq deməkdir. İlk dəfə Qədim Misirdə dövlət səviyyəsində qəbul olunması haqqında məlumatlar vardır. Bu termin Henri Mora (1660-ci ildə) tərəfindən ilkin olaraq ifadə olunmuşdur.

**Politeizm** – (yun. poly - “çox”deməkdir) teologiya fəlsəfəsində çoxallahlıq ifadəsini özündə birləşdirir.

**Deizm -** (lat. *deus* - allah) - Allahın mövcudluğunu və kainatın onun tərəfindən yaradıldığını bəyan edən, lakin allahın insanlara və təbiətə müdaxiləsini, dinlərin allah tərəfindən yaradılmasını inkar edən təlimdir. Bu təlim Herbert Çerberi tərəfindən irəli sürülmüşdür

[122] Milli dinlərə - Hindistanda – induizm, Çində – konfisyanlıq, Yaponiyada – sintoizm, İsraildə - iudaizm daxildir.

**Dualizm** – ( lat. “ikili”) fəlsəfəsinin əsas mahiyyəti, iki başlanğıc varlığdan götürən deməkdir. Bu ideyanı irəli surən Dekart dualizm terminindən istifadə etməmişdir. Teologiyada ilk dəfə İran din xadimləri tərəfindən dualizm ifadəsini işlətmişlər.

**Taoizm –** xristianlıqdan V1 əsr əvvəl yaranmış və Çinin ən qədim dini hesab etilir. Taoizmin fəlsəfəsinin mahiyyəti - təbii həyatda dönuş, mədəniyyətə qarşı passivlik göstərir. Taoizm gerçəkliyin tək olduğunu qəbul edir.

**Animizm** – (lat. anima “ruh” sözündən yaranmış) ruhlara sitayiş deməkdir. Bu ifadə alman alimi K.Ştal tərəfindən irəli sürülmüşdür. Animizm - ruhların mövcudluğu, onların insanların həyatına, ətraf aləminin predmetinə və hadisələrinə təsir etməsinə dair inancdır. Animistik təsəvvürlər ibtidai cəmiyyətdə meydana gəlmişdir. Dünyanın bütün xalqlarının keçmişi üçün səciyyəvi olmuş bu dini görüşə görə dünyada hər şeyin (dağ, çay, dəniz, ağac və s.) ruhu vardır. Ona görə də qədim insanlar bu təbiət qüvvələrinə sitayiş edir və qurban kəsirdilər.

Din = tarixən insanların həyat tərzidir, insanın əxlaqi-mənəvi dəyələr sisteminin dialektik ayrılmaz bir hissəsini təşkil edir. Dünyada yayılmış hər bir din qruplarının özünəməxsus, özünün dərkedilməsinə uyğun simvolları mövcuddur.

İnsan tərəfindən qəbul edilmiş hər bir dini baxışlar onun varlığı, əxlaqi keyfiyyətini, yaşayış həyat səviyyəsini göstərir.[123]



***Din təriqətlərinin simvolları: soldan sağa.***

*Birinci cərgə:* Xristianlıq; İuduizm; İnduizm; Baxayu.
*İkinci cərgə:* İslam; Fetişizm; Yin-yanq; Şinto-Tori.
*Üçüncü cərgə:* Buddizm; Xanda; Caynizm; Ahinşa.
*Dördüncü cərgə:* Ayyavali; Triple Kodu; Patte xaçı; Rece Boqa.

[123] A.A.Qurbanzadə. İnsanşünaslıq. Bakı, 2009.

Dünya ölkərində yayılan dinlərinin coğrafiyasında insanların həyat tərzində, əxlaqi-mənəvi dəyərlərində **İBRAHİMİ** dinlərinin mühüm yeri və mövqeyi vardır. ▼

*İudizm * Xriatianlıq * İslam*

İudizm - e.ə. I minillikdə Fələstində yaranmışdır. Qədim Yəhudi dini olub, monoteistik - Təkallahlıq əqidəsinə malik olmuşdur. Dünyada ≈ 14 mln. yəhudi bu dinə sitayiş edir. İudizmin simvolu - Davud ulduzu hesab edilir.

Xristian dini (simvolu - xac hesab edilir) çox şaxəli təriqətlərinə ayrılır (katolik, pravoslav və protestant) və bütün materiklərdə yayılmışdır. Katolik dini əsasən İtaliya, İspaniya və Latın Amerikada; protestant dini - Böyük Britaniya, ABŞ, Avstraliya, Yeni Zenlandiya və s. ölkələrdə; provaslav dini isə Yunanıstan, Rusiya və s.ölkələrində üstünlük təşkil edir.

Xiristianlıq iki min il bundan əvvəl Fələstin, Aralıq dənizinin şərq sahilləri ölkələrində yaranmışdır. "Bibliya" dini kitabı xristianlıq aləminin inac mənbəyidir. Yer kürəsində yaşayan əhalinin 97-98 %-i öz ana dilində Bibliyanı oxuyur. Dünya əhalisinin 32.3%-i xristianlığa sitayiş edirlər.

İslam (simvolu - ay ulduz) dininə siyayiş edən ≈ 1.2 mlrd. nəfərdir (dünya əhalisinin ≈ 20%). İslam, əsasən Asiya və Şimali Afrikada geniş yayılmışdır. İslam dini sivilizaiyanın mərkəzi Səudiyyə Ərəvistanda Məkkə və Mədinə şəhərləridir. Müasir dövrdə 28 ölkənin rəsmi dini hesab edilir. Dünya əhalisinin 20%-ə yaxını islam təriqətini qəbul etmişdir. İslam dininə sitayiş edənlərinin: İndoneziyada -13%-i, Cənubi Asiya - 25%, Yaxın Şərq – 20%, Afrika-15% c və s. ölkələrində cəmləşmişdir. Dünyəvi dinlər arasında İslam dini öz fəlsəfəsinə görə fərqlənir. İslam dini fəlsəfəsi VII əsrdə yaranmışdır. Məkkə - islam sivilizasiyasının mərkəzidir. "Qurani-Kərim" qədim ərəb dilində yazılmış müqddəs səma abidəsidir.




***İslam dinin yayıldığı ölkələr.***

“Qurani-Kərim” fələsəfəsində - idrak, varlıq, insan və s. bəşəri dəyərlər elminə söykənən məntiqə əsaslanmışdır. İslam fəlsəfəsində öncə təbiət və insan varlığı bir-birini ilə harmoniya yaradır və dialektik əlaqələndirilir.

| **Dialektik əlaqələrə daxil edilir**: ▼ | | |
|---|---|---|
| **idrak** | **varlıq** | **insan** |
| emprik bilik; | kainatın yaranması | insanın yaranması; |
| rasional idrak; | varlığın qanunları | insan varlığı; |
| vəhy | varlığın mütləqliyi | insanın əqli dəyəri |

Heç bir dininin fəlsəfəsində “Qurani-Kərim” qədər dünyəvi elmi qanunlarına söykənən mənbələrinə rast gəlinmir. Bəşəri əxlaq, idrak, sosial, iqtisadi və s. məsələlər islam mədəniyyətinin dialektikasında önəmli elmi mənbələrinə əsaslandırılmış ideyalar üstünlük təşkil edir.

Buddizm = Asiya (Mərkəzi, Cənubi və Cənub - Şərqi ölkələri) və Cənubi Amerikanın abrogenlərinin əsas dinləri hesab edilir. Etnoqrafik və arxeloji mənbələrinə əsasən *buddizm* ən qədim dinlərdən biridir (b.e.ə. I minilliyin ortalarına yaxın yaranmışdır). Yayıldığı ölkələrdə buddizm fəlsəfi cərəyanları üstünlüyə malikdir. Asiyanın 18 ölkəsində buddizminin cəryanları fəaliyyət göstərir (“Theravada”,” Mahayana”, “Lamaizm” və s.).

Zərdüstlik dünyanın ən qədim dinlərindən biridir.Azərbaycanda (Urmiya gölü ətrafında) yaranmış, İran, Orta Asiya, Hindistan və s. ölkələrində geniş yayılmışdır.



**Avestanın simvolu**

Bu dininin əsasını əxlaqi, xeyrxah fikir fəlsəfəsi və s. üstünlük təşkil edir. “Avesta” Zərdüştlüyün müqəddəs kitabı olub, əsasən insanda həm maddi, həm də xəyali olan hər şey xeyr və ya şər başlanğıca malik olmaqla iki qismə ayrılır.

Dünyada hökm sürən din altında təriqətlər fəaliyyət göstərir. Ən mühüm təriqət “massonluq” hesab edilir. “Masson” sözü daş ustası mənasını verir. Başlanğıcda masson birlikdə yaranan yeni qrupa “Azad və qəbul edilmiş masson” (free masson) deyilir. Massonlar üçün sirr və gizlilik üçün olan simvolizm çox böyük əhəmiyyət kəsb edir.

“İlluminanti” (“işıqlandırılmış olanlar” deməkdir) 1776-cı ildə Münhen (Almaniya) şəhərində yaranmışdır. Bunun əsas məqsədi kilsə qanunlarına qarşı mübarizə aparmaqdır. Ən çox sui-qəsdlərin həyata keçirilməsi ilə məşğuldur.

"OPUS DEİ" katoliklərin təriqətidir. (1928-ci ildə Madriddə yaranmışdır) Katolikliyə sadiq, dünyəvi iş və peşə sahiblərini bir yerə yığaraq Papaya Vatikandan kənara dəstək verməkdən ibarətdir. Bu səbəbdən də OPUS DEİ Vatikan dövlətini inkişaf etdirir və kilsəni ikinci planda görür. Bu təşkilatın 3 milyard dollar sərvəti, 16 universiteti, 97 texniki məktəbi, 37 ibtidai təhsil məktəbi və s. qrupları fəaliyyət göstərir.

- **Etnologiya və insan azadlığının təbiəti**

Etnologiya elmi baxışlarının dialektikasında insan azadlığının təbiəti mühüm tədqiqat sahəsidir. İnsan azadlığının coğrafiyası qlobal təbiətə malik olub, ictimai tərəqqinin hərəkətverici "güc" qüvvəsinə çevrilmişdir. İdealogiya müstəvisində qəbul olunmuşdur ki, insan inkişafının formalaşan indeksi onun maddi - sosial həyat tərzi və sərbəst hərəkətinin müvafiq göstəricisi olmalıdır.

Müasir dövrdə insan inkişaf indeksinə azadlığın təbiətinin əsaslandırılmasına dair normaları daxil edilmir. Problem ondan ibarətdir ki, azadlığın təbiəti barədə fikir söyləmək asan olmasına baxmayaraq, onun təyinatının ölçülərinin əsaslandırılımasında bir sıra çətinliklər mövcuddur. İnsan azadlığının təbiətində iki anlayışından daha çox istifadə edilir: "mənfi" və "müsbət" anlayışlar.

"Mənfi "anlayış ifadəsinə əsasən daxil edilir – özbaşınalıq, məhrumiyyət, həbs və s., "müsbət" anlayışa isə nəyisə etmək azadlığı əhatə edir. Bunlara insanın yaşamaq, təhlükəsizlik, əmək hüquqları, birləşmək və dil, din azadlığı aiddir.

Etnik qruplarının azadlığının hüquqlarının hazırlanması metodlarında müəyyən təsəvvürlər yaradır. BMT-nın konvensiyalarına əsasən, azadlığın coğrafiyasının 40 ölçüləri təyin olunmuşdur. Ölkələr sadə metoddan: azadlığa zəmanət verilmişdir, azadlıq pozulur – meyarından istifadə olunur. Bu ölçüyə əsasən Şimali Avropa ölkələri, Yeni Zelandiya və bir sıra ölkələr daxildir.

Etniklərin azadlıq dərəcəsi ilkin olaraq ölkənin iqtisadi-sosial və siyasi inkişafının əsasında müəyyən olunur. İnsanlar öz real iqtisadi-sosial və siyasi imkanlarını dərk etdikdən sonra, bu azadlığın səviyyə göstəriciləri artır.

**On birinci önəm**

# İnsan həyat ritminin coğrafiyası

- **Oykumenin formalaşması və ərazilərin mənimsənilməsi**

İnsan cəmiyyətinin dialektikasının ilkin ritmik həyat tərzinin əsasını oykumeninin formalaşması və ərazi resurslarlnın potensialından istifadə edilməsi ilə əlaqəli olmasıdır. Məntiqi elmi dəyərlər göstərir ki, insan oykumenin (məskunlaşması) yaranması və inkişafının özünə məxsus dialektik qanunauyğunluqlarının təsiri altında idarə olunmasıdır. İnsan həyat dəyişkənliyinin ritmiliyi bununla ölçülür. Buna görədə, hər bir oykumeninin formalaşması tiplərinin dəyişkənlikləri, ritmik həyat tərzinin tərəqqisini özündə əks etdirir.

Yeni eranın başlanması və oykumenin yaranması xəritəsi tarixi-coğrafi şəraitə uyğun olaraq dinamik xarakterə çevrilmişdir. İnsan cəmiyyətinin inkişafı, qida normalarına və yaşayış məskənlərinə olan tələbat oykumenin ritmik inkişafına səbəb olmuş,sonrakı dövrlərdə isə daha da aktivləşmişdir.

Tarixi-coğrafi mərhələlər bir-birini əvəz etməklə əhalinin miqrasiyası başlanmış, təsərrüfatın coğrafiyası genişlənmiş və ritmik həyatın dialektikası yeni məzmunla əvəz olunması prosesinin meyilliyinin artması erasının başlanmasına səbəb olmuşdur.

> İnsan həyat tərzinin ritmik hərəkətləri = oykumenin dialektik əsasıdır.

İnsan həyat ritminin başlanğıc erasında ovçuluq, əkinçilik və s. üstünlük təşkil etmiş, sonrakı mərhələdə isə yeraltı resurslardan (xüsusən metallardan) istifadə edilməsinə insanlar üstünlük vermişlər. Resurslardan istifadə edilməsi, yaşayış məskənlərinin salınması, müəyyən səviyyədə insanların hərəkətinin sxemləri məskunlaşmanın virtual xəritəsinin formalaşmasına səbəb olmuşdir.

Oykumenin “neolit evalyusiya”sı təbii resurslarından istifadə edilməsi ilə başlanmışdır. Bunun əsasında yeni təsərrufat vərdişləri (suvarma əkinçiliyi, taxılçılıq, maldarlıq, toxuçuluq, metal əridilməsi və s.) yaranmışdır. Sonrakı evalyusiya insan məskunlaşmasının xarakterini dəyişdirmiş, ritmik həyat tərzi-

nin idarə edilməsi məqsədində quldarlıq dövlətlərin yaranmasına səbəb olmuşdur. İlkin quldarlıq dövlətləri Priney yarımadasından başlayaraq Sakit Okean hövzəsinə qədər coğrafi məkanlarını əhatə etmişdir. “Böyük tarixi çaylar”ın vadilərində (Dəclə, Fərad, Nil, Hind, Xuanxe və s.) yeni dövlətlərinin, təsərrüfat sahələrinin və şəhərlərinin yaranmasına dair geniş elmi mənada mənbələrdə öz əksini tapmışdır.

İnsanın ritmik inkişafı, potensial imkanları Qədim Misir, Qədim Roma və eləcə də Şərqi Asiya ölkələrində (xüsusən Çində) elmin inkişafı, istehsalın texnologiyası və s. sahələrinin dinamikası oykumen sistemlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Digər bir tərəfdən isə Avropa, Afrika və Asiya ölkələri arasında yaradılan ticarət-iqtisadi əlaqələrinin qovuşmasının nəticəsində qədim şəhər (Afina, Roma, İskəndəriyyə və s.) məskənlərinin sərhədləri genişlənmiş və mərkəzi mövqeyə çevrilmişlər.

Şimali və Cənubi Amerikanın nisbətən sıx əhali məskənlərində (Meksikanın orta dağlıq və And dağətəyi çökəklikləri ) ≈ Avropaya nisbətən bu ərazilərdə iki minilliklərdə dövlətlərin yaranması prosesləri başlanmışdır. Bu onu göstərir ki, Amerika materikində oykumen prosesləri Avropaya nisbətən daha erkən dövrlərdən başlayaraq yaranması epoxaya daxildir. B.e. II minilliyin epoxası ərəfəsində Astek (Meksika ərazisində) sivilizasiyasının ocaqları yaranmışdır. Sonrıkı dövrlərdə Mərkəzi, Şərqi və Cənubi Afrika ölkələrindən bantu etnik qruplarının miqrasiyası Mərkəsi Amerikda oykumeninin areallarının genişlənməsinə səbəb olmuşdur.

Orta əsrlər dövründa baş verən sosial-iqtisadi dəyişikliklər Avropa, Asiya və b. regionlarda feodal tipli dövlətlərinin formalaşmasında mühüm rol oynamışdır. Avropda feodalizm sənətkarlığın,ticarətin, mədəniyyətin, o cümlədən şəhərlərin inkişafı üçün əlverişli mühit yaratmışdır. Orta əsrlər dövründə Cənubi Avropa coğrafi məkanında Venesiya, Florensiya və s. iri ticarət mərkəzləri fərqlənirdi.

VII-XI əsrlərdə Ərəb xilafəti kimi böyük dövlətin yaranması yeni bir mərhələnin başlanğıcı hesab edilir. Ərəb xilafəti dövlətinin sərhədləri Priney yarımadasından başlayaraq Hindistan yarımadasına qədər ərazilərini əhatə etmişdir. Bütün bunlar müxtəlif istiqamətlərdə insan məskunlaşmasının xarakterini dəyişdirməklə yanaşı, ərazilərin mənimsənilməsində mühün rol oynamışdır.

Yer kürəsində ən böyük oykumen Böyük coğrafi kəşfləri ərəfəsində baş vermişdir. Sonrakı mərhələlərdə Avropalıların yeni coğrafi ərazilərinin kəşf edilməsi, dövlətlərinin yaradılması və s. proseslər oykumenin xarakterini dəyişdirməsinə səbəb oldu. Qərbi Avropada sənaye manufakturasının formalaşması, yeni tipli şəhərlərinin salınması, təsərrüfat sahələrinin genişləndirilməsi və s. proseslər böyük coğrafi kəşflərdən sonrakı epoxaya aiddir.

- **İnsan artımın ritmik dialektik coğrafiyası**

Tarixən insan artımının ritmik hərəkəti elmi mənbələrdə tədqiqat sahəsi kimi aktuallıq kəsb etməsi ilə fərqlənmişdir. Müəyyən olunmuşdur ki, insanın artım ritmik hərəkəti müəyyən zaman kəsiyində dəyişkənliyə məruz qalmışdır. Son 300 il ərzində yer kürəsində insanının dinamik artımında fərqlərinin yaranması müşahidə olunmuşdur. Belə ki, 1650-ci ilə qədər yer kürəsində ≈ 500 mln insan məskunlaşmasına dair mənbələr mövcuddur. Sonrakı yüzilliklərdə insan artımın ritmik coğrafiyası tarixi dinamik olaraq dəyişilmişdir.[124]

XX əsr dünya tarixində insan artımının səviyyəsinin dinamikası daha yüksək olmuşdur. BMT-nin məlumatında 1820-ci ildə yer kürəsində 1.0 mlrd, 1927-ci ildə, yəni təxminən 100 ildən sonra 2.0 mlrd., 1960-cı ildə, yəni 33 il sonra 3.0 milyard nəfərə qədər insan olmuşdur.

Dünya ölkələrində 1985-ci ildə orta hesabla illik artım 1.73% olduğu halda, 1960-cı illərdə isə illik orta artımı yüksək dərəcədə olması nəzəri cəlb edir (2.1%). 1950-1985-ci illər arasındakı 35 illik müddətdə dünya ölkələrinin insan artımı 2.5 milyarddan 4.8 milyarda qədər artmış, bu müddət ərzində yer kürəsinin əhali sıxlığı hər $km^2$ sahədə 17 nəfərdən 30 nəfərə çatmışdır.

İnsanın ritmik artımına müxtəlif faktorlar təsir göstərir. Yer kürəsinin geniş təbii-coğrafi şəraiti, bioloji resursları, tarixi-ictimai struktur formasiyaları və s. faktorlar insanın həyat tərzinə fizoloji xassəsinə, qida rasionuna təsir göstərir. Yer kürəsində məskunlaşan insanlarının ≈ 50%-i yalnız mülayim qurşağın potensialında cəmləşmişdir. Müasir mərhələdə 5 mln.-dan çox insan səhra təbii kompleksində daimi məskunlaşma prosesinə uyğunlaşmışdır.

Hər bir təbii-coğrafi zonalarının potensial resurs gerçəkliyinə uyğun demoqrafik, mədəni və iqtisadi inkişafa malik insan qrupları, müxtəlif səviyyələrdə məskunlaşma sistemləri formalaşmışdır. Faktiki olaraq dünya üzrə insanların ≈ 60%-ə yaxını Asiya materikinin təbii zonalarında məskunlaşmışdır.

Dünya ölkələrində insan artmı təbii və miqrasiya yolu ilə artır. Təbii artım-doğulanların sayından ölənlərin sayı çıxılır və hər 1000 nəfərə görə promillə ölçülür. Demoqraflar təbii artıma görə dünya ölkələrəni tipoloji cəhətdən dörd təsnifada ayrırlar: birinci təbii artıma inkişaf etmış ölkələr daxil edilir (müasir tip). Bu tipdə əhalinin sosial, tibbi, elmi səviyyələrinin yüksək olmasıdır. Müasir mərhələdə İEÖ təbii artım aşağı səviyyədədir, bu tipli ölkələr üçün "*Demoqrafiq böhran*" xasdır.

[124] С.П.Карица. Общая теория роста человечества. М., 1999.

***Dünya üzrə insan artımı (mlrd. nəfər)***

| İllər | Dünya | Asiya | Afrika | Avropa | Latın Amerika | Şimali Amerika | Avstraliya və Okeaniya |
|---|---|---|---|---|---|---|---|
| 2000 | 6.1 | 3.7(60.5%) | 0.8(13.4%) | 0.7(11.9%) | 0.5(8.5%) | 0.3(5.2%) | 0.003(0.5%) |
| 2005 | 6.5 | 3.9(60.5%) | 0.9(14.1%) | 0.7(11.2%) | 0.6(8.6%) | 0.3(5.1%) | 0.003(0.5%) |
| 2010 | 6.9 | 4.2(60.3%) | 1.0(15.0%) | 0.7(10.6%) | 0.6(8.5%) | 0.3(5.1%) | 0.003(0.5%) |
| 2015 | 7.3 | 4.4(60.1%) | 1.1(15.8%) | 0.7(10.1%) | 0.6(8.5%) | 0.4(5.0%) | 0.003(0.5%) |
| 2025 | 8.0 | 4.8(59.6%) | 1.4(17.5%) | 0.7(9.1%) | 0.7(8.4%) | 0.4(5.0%) | 0.004(0.5%) |
| 2030 | 8.3 | 4.9(59.2%) | 1.5(18.3%) | 0.7(8.7%) | 0.7(8.3%) | 0.4(4.9%) | 0.004(0.5%) |
| 2040 | 8.8 | 5.1(58.2%) | 1.8(20.1%) | 0.7(8.0%) | 0.7(8.2%) | 0.4(4.9%) | 0.004(0.5%) |
| 2050 | 9.1 | 5.2(57.2%) | 2.0(21.8%) | 0.7(8.0%) | 0.7(8.0%) | 0.4(4.9%) | 0.005(0.6%) |

*Dünya üzrə insan artımı cədvəli BMT-nın məlumatlarına əsasən tərtib edilmişdir. Möhtərizədə dünya əhalisinə görə xüsüsi çəkisidir.*

Təbii artımın ikinci tipi (ənənəvi tip) ölkələrində yüksək doğum, orta ölüm, yüksək təbii artım müşahidə olunur. Bu tipı inkişaf etməkdə olan ölkələri aid edilir. Dünya əhalisinin sayı əsasən bu ölkələrinin hesabına artır. Bu tip ölkələrdə “*Demoqrafik paratlayış*” xasdır.

Üçünçü tipə aid olan ölkələrdə isə təbii artımı azaltmağa müvafiq siyasət yeridilir. ÇXR-da ikinci uşağa əlavə vergi tətbiq olunur. Səudiyyə Ərəbistanı, Hollandiya ailədə doğulan ikinci uşağa görə həvəsləndirici yardım verilir.

Dünya ölkələrində əhalinin artımı ərzaq və sair məhsullara olan təlabatı artırır, əhalinin müəyyən areallarda məskunlaşmasını sürətləndirir və ekoloji gərginliklərinin yaranmasına səbəb olur. Dünya əhalisinin 45%-i aşağı səviyyədə qidalanır, 70-75%-i kalorinin catışmaması ilə üzləşmişdir. Bu səbəbdən də dünyanın mütərəqqi elm mərkəzləri tərəfindən biosferin məhsuldarlığının optimallaşdırmaq və əhalinin qida məhsulları ilə təminatına dair kompleks layihələr üzərində çalışırlar.

*Təbiətdə və cəmiyyətdə həyat ritminin mürəkkəb dialektikası mövcuddur. Cəmiyyətin həyat ritmi-mürəkkəb və zidiyyətli problemlərlə bağlıdır. Təbiətdə isə həyat ritminin özünə məxsus nizamlıdır. Canlılar özlərinin həyat ritmlərinə olduqca dəqiq əməl edirlər və bu onların normal inkişafına, enerji qənaətinə və s. kömək edir. Məsələn, işıldayan dəniz yosunları ancaq kecələr özlərindən soyuq işıltı verən lyuminisasiya edici (zəif işıltı verən) maddə ifraz edirlər. Lakin gündüzlər zəif işıltılar effekt vermədiyi üçün ifrazı dayandırırlar.*

- **Gepontologiya - ritmik inkişafının sərhədləri**

Gepontologya[125] elminin əsas məqsədi və vəzifələri insanın yaş mərhələri üzrə bioloji, sosial və psixoloji aspektlərini öyrənməkdən ibarətdir. “Geponto-

[125] **Gepontologya –** insan ömrünün yaş mərhələsini öyrənir.

logiya" termini elmə ilk dəfə E.Stimis (1940-cı il) gətirmişdir. Bu elmin inkişafında İ.Meçnikov, N.Amosov və b. tədqiqatçılarının xidmətləri də böyükdür.

İngilis gepontiliqu di Qrey "Endinq Aging" adlı əsərində insanın bioloji qocalıq hərəkətinin konsepsiyasını təklif etmişdir. Onun tədqiqatları demək olar ki, Qərb ölkələrində geniş yayılmışdır.

Gepontolgiya elminin öyrəndiyi obyektlər evalyusion məzmununa malikdir. İnsan bioloji varlıq kimi yaş mərhələlərində fizioloji inkişafının bütün ritmlərində özünü göstəririr.[126] Gepontologiya elmində ən çox tədqiqat obyekti kimi insanın sosial gepontoloji xarakterlərinin üstünlükləri təşkil edir. Müasir dövrdə sosial gepontoloji tədqiqat obyektlərini dörd istiqamətləri üzrə tədiqatları aparılır:

- ❖ İnsanın həyat tərzinin ritmik inkişafına uyğun qocalmanın səbəb və nəticələri;
- ❖ İnsanın ritmik yaş qruplarına görə sosial həyat şəraitinin tədqiqi;
- ❖ Ritmik yaş dövrünün bioloji,psixoloji xüsusiyyətlərinin araşdırılması;
- ❖ İnsan yaş qruplarının təbii-sosial funksiyalarının müəyyənliyinin tədqiqi.

Müasir dövrün insan problemlərindən biri də qocalıq və ona qarşı elmi araşdırmalardır. İnsanın həyat tərzində, fəaliyyətində yaş qruplarının və eləcə də qocalma mühitinin elmi mənbələrində diskusiya mövzusu hesab edilir.

Elmi mənbələrə görə, müasir insan yaşayış həyat tərzini və ritmini dünyada baş verən iqtisadi-siyasi və demoqrafik şəraitlə əlaqələndiril.[127]

BMT-nın statistik məlumatına əsasən müasir şəraitdə 600 mln.insan 60 yaş səviyyəsində yaşamaq qabiliyyətinə malikdir. Bu kəmiyyət göstəricisi isə 2050-ci il ərəfəsində isə 2 mlrd. nəfər olması proqnozlaşdırılmışdır (əsasən inkişaf etməkdə olan ölkələrdə). Stabil həyat tərzində baş verən sosial, təbii və siyasi dəyişikliklər yaş qruplarının dinamikasına müxtəlif səviyyələrdə (tibbi, psixoloji, ailə və s.) öz təsirini göstərməkdədir.

Son 25 il ərzində yer kürəsində 65 yaş həddindən yuxarı insan artımı il ərzində 70 mln. nəfərə çatması müşahidə olunmuşdur.Lakin gənc yaşlı insan artımı isə bu ərəfədə - yalnız 5 mln. hesablanmışdır.[128]

İnsan ömrünün yaş mərhələsinin öyrənilməsində və dinamik sosial-iqtisadi, siyasi həyat səviyyəsinin tədqiqində gepontologiya elminin müstəsna əhəmiyyəti vardır. Bu sahədə gepontologiya elminin formalaşmasında Beynəlxalq Konfranslarının təklif və nəticələrinin xidmətlini qeyd etmək olar.

---

[126] Анмсимов В.Н. Эволюция концерции в геронтологии. М., 1999.
[127] Andrews G. Aging in the 21 Century // Urban Age, zima. 2000.
[128] Creative Urban Agglomerations for the 21 st Century. Cambridge, 2002.

Konfranslarda səsləndirən bir kəlam daha mənalıdır: “Qocalmağa sərhəd qoyulmamış və belə bir sədd yoxdur və nə qədər ki, qocalar ölümə əhəmiyyət vermədən həyat yükünü çiyinlərində şərəflə daşıyırlar, bu, onların yaşamağına bəraət qazandırır. Buna görə də qocalıq hətta gənclikdən də güclü və mərdanədir”.

Beynəlxalq Gepontoloji Konfrasının ümumi rəylərinin təyinatının əsasında rirmik yaş dövrlərinin aşağıdakı **piramidasını** qurmaq mümkündür :



- Uşaqlıq dövrü – 14-15 yaşına qədər
- Ahılıq (yaşlı) dövrü – 30-45 yaşadək
- Piranilik dövrü- 60-75 yaşadək
- Yetkinlik dövrü – 15- 30 yaşadək
- Yaşı keçmiş dövr – 45-60 yaşadək
- Nuranilik dövrü (qocalıq) -75-90 yaşadək
- Uzunömürlülük dövrü - 90 yaşdan sonrakı illər

Birinci və ikinci yaş dövrlərinin başlıca xüsusiyyəti = birincliyinin təqlidçiliyə, ikincinin isə bir şey yaratmağa meylinin olmasıdır. Ahıllıq dövründə insan müəyyən səviyyədə həyat təcrübəsi qazanır, əldə etdiyi naliyyətlərinin möhkəmlətməyə çalışır.

Qədim yunan filosofu Diogenin belə bir fikir ifadə etmişdir: “Sən artıq qocalmısan, istirahıt elə. Əgər mən yarışmada qaçıramsa və finişə yaxınamsa, demək, mən qüvvəmi səfərbər etmək əvəzinə dayanıb dürmalıyam”. A.Mirzəcanzadənin fəlsəfəsinə görə, “qocalıq ömrün sonu yox,ömrün çələngidir”.[129]

Müasir dövrdə tibbi-bioloji, demoqrafik və başqa səbəblərinin üzündən coğrafi zaman çərçivəsində insanın sosial yaş qruplarında əhəmiyyətli dərəcədə dəyişiklikləri baş veirir.

[129] A.X.Mirzəcanzadə. İxtisasa giriş. Bakı, 1990.

- **İnsan miqrasiyasının (hərəkətin) ritmik coğrafiyası**

İnsan miqrasiyası (hərəkəti) – qlobal funksional məzmuna malik olub, ölkələrdə baş verən siyasi, sosial-iqtisadi, təbii fəlakətlər və eləcə də müharibələr nəticəsində baş verir. Yer kürəsində sivilizasiya ocaqlarının yaranmasında və davamlı inkişaf prosesində insan miqrasiyasının təsiri çox böyük olmuşdur. Bu ilk növbədə xalqlar arasında din, dil birliyini yaratmaqla bərabər, ölkələrin iqtisadi-sosial və siyasi həyat tərzinin dayanıqlı inkişafını təmin edən proseslərindən və qanunauyğunluqlarından sayılır. ABŞ, Kanada, Latın Amerika, Avstraliya və s. ölkələrinin yaranmasında və inkişafında qlobal miqrasiyanın qanunauyğunluqlarının mütləq üstünlüyü olmuşdur.

Orta əsrlərdə feodal dövlətlərinin inkişafı, əkincilik mədəniyyətinin yaradılması, müxtəlf ərazilərinin kəşf edilməsi və s. sosial-iqtisadi münasibətlər ilkin miqrasiyanının başlanğıc mənbəyi hesab edilir. Amerikanın kəşfindən sonrakı dövrlərdə 15 mindən çox ispanlar, 10 minlərlə fransızlar və başqa xalqlar bu ərazilərə davamlı olaraq Avropadan miqrasiya olunmuşdur. Böyük coğrafi kəşflərdən sonrakı illərdə miqrasiya artıq kontinental xarakterə çevrilmişdir. Xüsusi ilə İspaniya, Portuqaliya, Böyük Britaniya müstəmləkələrində işləmək üçün Afrika materikindən kütləvi surətdə əhalinin miqrasiyası baş vermişdir. Belə ki, XVI əsr - XIX əsrin əvvəllərinə qədər Afrikadan Amerikaya 40-50 mln. nəfər (o dövrdə Afrikada cəmi 100 mln. nəfər insan olmuşdur) miqrasiya prosesinə məruz qalmışdır. Müasir Amerika materikində yerləşən bir çox dövlətlər afrikalı mənşəlidirlər (Haiti, Yamayka və s.).

XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya dövləti Sibir, Uzaq Şərq ərazilərinə (300 mindən çox); Avstraliyanın mənimsənilməsi məqsədi ilə Böyük Britaniya dövləti tərəfindən miqrasiya siyasətini həyata keçirmişdir.

Miqrasiya - bir istiqamətli proses deyildir. Buna görə də, miqrasiyanın coğrafiyası çoxfunksional xarakterə malik olub, qloballığı və dayanıqlı inkişafı ilə fərqlənir. Qlobal miqrasiya ölkələrarası, materiklərarası insan hərəkətinin formalarını özündə birləşdirir. Bu formalara daxildir: siyasi miqrasiya, sosial miqrasiya, milli münaqişə səbəbindən yaranan miqrasiya və s.

Miqrasiya prosesləri Azərbaycanın siyasi-ictimai inkişafında mövqeyə malikdir. Ölkədən miqrasiya edilən insanların 85%-dən çoxu əmək qabiliyyətlidir. İnsan miqrasiyası ilkin olaraq Rusiyaının əmək bazarına xidmət edir.

Miqrasyanın metodoloji təhlili göstərir ki, qlobal münasibətlərinin transformasiyası ölkədaxili və ölkələrarası insan miqrasiyasının qlobal mühit çərçivəsində dəyişilməsinə səbəb olur.

Qlobal miqrasiyaya dair elmi mənbələrində bir sıra yanaşmalar və nəzəriyyələr fəaliyyət göstərir.

| Qlobal insan miqrasiya nəzəriyyələri |
|---|
| **M.Todor:** "Səmərəli seçim" nəzəriyyəsində insan miqrasiyasının (hərəkətinin) əmələ gəlməsində obyektiv iqtisadi-sosial faktorlarla əlaqələndirilməsini elmi əsaslarla önəmə gətirmişdir.<br>**O.Stak:** "Səmərəlik funksiyası "nəzəriyyəsində iqtisadi səmərəlilik baxımından insan miqrasiyasının funksiyalarını təyin etmişdir.<br>**E.Giddelens**: "Miqrasiyanın strukturlanması" nəzəriyyəsinə görə insan miqrasiyası struktur kompleks faktorlar sistemindən ibarətdir. |

Miqrasiyasa üzrə tədqiqat aparan elm mərkəzlərinin rəyinə görə ən mühüm qlobal miqrasiya prosesi Böyük Coğrafi Kəşflərdən sonra baş vermişdir. Sonrakı dövrlərdə də ölkələrdə baş verən sənaye dəyşkənlikləri, şəhərlərinin sürətlə artması və bu kimi dinamik inkişaf formalarının meydana gəlməsinin səbəbindən qlobal miqrasiyalarının yaranmasında yeni dinamik formalarının meydana gəlməsinə səbəb olmuşdur.

Birinci və ikinci dünya müharibələrindən sonrakı dövrlərdə miqrasiya dalğası, demək olarar ki, bütün dünya ölkələrini əhatə etmişdir.

XIX əsrin axırı və XX əsrin əvəllərindən başlayaraq dünya ölkələrində, xüsusən Qərbi Avropada və Şimali Amerika ölkələrində şəhər əhalisinin təxminən 60%-ə qədəri miqrasiyanın hesabına formalaşmışdır.

Miqrasiyaya əsas **səbəb** kimi göstərmək olar:

▼

| |
|---|
| *İnsanların həyat səviyyəsinin dəyişilməsi nəticəsində baş verən miqrasiyanın səbəbi. |
| *İnkişaf etmiş ölkələrdə istehsal sahələrinə ucuz işçi qüvvəsinə olan tələbatın olması səbəbi (ABŞ, Kanada və s. ölkələr). |
| *Dünyanın ən böyük elm mərkəzlərinin yerləşdiyi şəhərlərdə "düşünən beyin" axının miqrasıyasının baş verməsi səbəbi. |

Müasir dövrdə baş verən qloballaşma prosesləri "kapital" və "düşünən beyin" miqrasiyasiyaları intensiv xarakterə çevrilmişdir. İnsan kapitalımım hərəkəti nəticəsində inkişafın "ağırlıq qüvvəsi"nin tarazlığının təsiri altında dayanıqlı iqtisadi-sosial inkişaf formalaşmaqdadır.

- **İnsan fəaliyyət ritminin coğrafi mühitlə dialektik əlaqəsi**

İnsan fəaliyyət ritminin coğrafi mühitlə dialektik əlaqəsi: müşahidə və praktiki biliklərin gerçəklikləri yalnız insanın yaranması və təbiətlə əks əlaqəsi kontekstində formalşmışdır. Bu məqsədlə homo sapiensin tarixi genezisinə nəzər salaraq insanın, xüsusən də onun şüurunun və özünü dərk prosesinin coğrafi mühitdə müşahidə və praktik fəaliyyətinin rolunu təhlil etmək lazım gəlir.

İnsan sadəcə coğrafi mühitin bir hissəsi olmadığından, coğrafi mühitlə insanın fəaliyyətinin ritmilik əlaqələrinin təsirlərindən keyfiyyətcə yeni komplekslərə nail olmasının təhlilinin metodikası dialektik coğrafiya elminin mühüm sahəsini əhatə edir. İnsanın coğrafi mühitinin kompleksində maddi varlığının dialektikasının tamlığının yaradılmasına və nizamlanmasına səy göstərir. Bu mənada insan coğrafiyasının dialektik təhlilinin metodikasının əsasını fəlsəfi düşüncə tərzi təşkil edir.

Metodoloji yanaşmalar göstərir ki, insanla coğrafi mühit arasındakı dialektik əlaqələrin strukturu və praktikasının təhlil edilməsi mühüm konstruktiv coğrafiya elmi tədqiqatlarından biridir. Məntiqi yanaşma onunla izah etmək olar ki, coğrafiya elmi mənbələrində insanın coğrafi mühitlə dialektik əlaqəsi rasional və məntiqi tədqiqatlarla ifadə olunur.

> Ümumi təbiətşünaslıq elmi tədqiqatlarının (o cümlədən coğrafiya elmində) təhlilində əsasən vulqar antropologizm və ya vulqar sosiologizm üstünlük təşkil edir.

Qeyd etmək məqsəduyğundur ki, insan coğrafiyasının bir çox problemi dialektik aspektləri şox az tədqiqat obyektinə çevrilmişdir. İnsan coğrafiyasının tədqiqat obyektində coğrafi mühitlə insanın dialektik fəaliyyətinin gerçəkliyi insan idrakının sosial-iqtisadi strukturlarının formalarını özündə birləşdirir. Metafiziki antropololoji yanaşmalarda “idrakın subyekti yalnız maddi varlıq olan, onu təbiəti qavramağa və dərk etməyə qadir edən hisslərə və zəkaya malik fərddir” ideyası elmi mənbələrdə geniş istifadə edilir. İnsanın sosial mahiyyəti heç də onun bioloji, təbii başlanğıca malik olmasını istisna etmir. Bundan başqa, burada əsas məsələ insanın coğrafi mühitlə dialektik əlaqəsində sosial-iqtisadi nisbətinin kompleksində “coğrafi mühit-insan” mənəvi varlığının nisbətidir. Demək olar ki, bu məsələ coğrafiya elmi tədqiqatlarda öyrənilməmiş sahədir.

Önəmli məsələlərdən biri də “coğrafi mühit-insan” dialektikasının tarixi boyu bəşəri xarakterli inkişafının tərəqqisi ilə bağlıdır. Bu tərəqqini nəzərə almadan insan coğrafiya elmi tədqiqatının tamlığını yaratmaq mümkün deyildir. Eyni zamanda bu problemlə məşğul olan tədqiqatçılar bir qayda olaraq insanın coğrafi mühitlə qarşılıqlı təsirlərinin nəticələrinin təhlillərinə

daha çox üstünlük verirlər. Halbuki, bir çox coğrafi problemlərə, xüsusən də nəzəri və praktiki biliklərin genezisi probleminin təhlilləri "insan-təbiət-dayanıqlı inkişaf", "coğrafi məkan – sosial həyat tərzi" və s. dilaektik sistemləri çərçivəsində kompleks strukturunun təhlil edilməsinin parametrlərinin təyini məsələlərinin reallıqları daha effektli əhəmiyyət kəsb edə bilər.

Coğrafi sistemlərinin təhlili zamanı ilkin olaraq onların dayanıqlı olduqlarını və bu səbəbdən də əlavə parametrlərinin meydana gəldiyini nəzərə almaq lazımdır. Buna görə də insanla coğrafi mühitin arasında dialektik təsirləri prosesində insanın fərdi tələbatları və təkamül etməkdə olan bioloji (psixi) imkanlarının öyrənilməsinə və idarə edilməsinə üstünlük verilməlidir. Problemi daha ətraflı təhlil etmək üçün müəyyən zaman kəsiyində insanla coğrafi mühit arasındakı qarşılıqlı təsirinin tipoloji olaraq mühüm elmi və metodoloji cəhətlərini də nəzərə almaq lazımdır.

"Coğrafi məkan-insan" əlaqəli sistemi yalnız böyük zaman intervalı hüdudlarında determinasiya olunur, yəni onların bir-biri ilə qarşılıqlı əlaqələrinin təsirinin göstərildiyi anda üzə çıxmır. Buna görə də insan varlığının sosial proseslərində hər bir tərəfin müəyyən zaman kəsiyində təsirini ayrıca araşdırmaq lazımdır. Bioloji tsiklli inkişafa uyğun olaraq təbiətin insana təsiri duyğu orqanları vasitəsilə baş verir və müvafiq hissi obrazlarının yaranması ilə başa çatır. Öz növbəsində bu hissi obraz artıq fəaliyyətdə olan dinamik informasiya sisteminə qoşularaq idrak prosesinin tərkib hissəsinə çevrilir.[130] Coğrafi mühitin insana təsiri (passiv inikas) tarixən ilkin olmaqla insanla ətraf aləmin qarşılıqlı münasibətlərinin sonrakı mürəkkəbləşmə prosesində öz funksiyasını saxlamaqla yanaşı, həm də mühüm komponentlərdən biri kimi yeni struktura çevrilməsi kimi dərk olunmalıdır.

Çevrilmə proseslərinin nəticəsində insan coğrafi mühitin informasiya təsirinin passiv obyekti olaraq, qalmadığını nəzərə alaraq bu istiqamətdə araşdırılmalarının aparılmasına ehtiyac yaranır. Deməli, insanın fəallığının artması ilə əlaqədar "insan-coğrafi mühit" sistemi keyfiyyətcə yeni bir inkişaf mərhələsinə keçir. Buna görə də onu aşağıdakı iki müstəvidən nəzərdən keçirmək lazımdır: xarici mühitin informasiya təsiri prosesində insanın təşəbbüskar və tənzimləyici kimi iştirakı və insanın xarici mühitə əks təsiri, şüurlu dəyişdirici fəaliyyəti. Təsir və əks-təsir qüvvələrinin qiymətcə bərabər, istiqamətcə əks olmaları barədə məşhur Nyuton qanunu burada əlbəttə çox spesifik bir şəkildə özünü göstərir.

[130] A.A.Qurbanzadə. Ekologiya: sosial-iqtisadi əsasları. Bakı, 2010.

Belə ki, coğrafi mühitin dinamikasınının təsirinə məruz qalmış insan fəaliyyətində  tsiklli olaraq əks-təsir proseslərinə məruz qalması gerçəkliyi formalaşmışdır. Tsiklli əks-təsir qüvvələri insan fəaliyyətinə uyğunlaşdırılmış, texnogenləşmiş "coğrafi mühit-insan dialektikası" statusunda ifadə olunur. Deməli, coğrafi mühitlə insanın dinamik əks-təsir qüvvəsi nəticə etibarilə ekvivalent funksiyaya malikdir. Bu da insanın dialektik fəaliyyətinin inkişafına səbəb olur. İnsanın dialektik inkişafı özlüyündə coğrafi mühitlə əlaqəsinin tamlığını yaradır ki, buda dayanıqlı inkişafının ekvivalentliyi ilə əlaqədar olaraq simmetrik məzmuna çevrilməsi ilə müəyyənləşir.

On ikinci önəm

# Qlobal dayanıqlı insan inkişafın funksional modeli

## ▪ Dayanıqlı insan inkişafın konsepsiyası

Dayanıqlı insan inkişafının metodologiyası dialektik coğrafiya elminin ən aktual tədqiqat obyektlərindən biridir. Problemə kompleks yanaşsaq, uzun müddətli təkamül dövrünü və qismən qısa müddət keyfiyyət dəyişkənliyini özündə birləşdirən dialektik coğrafiya elminin tədqiqatlarının dayanıqlı insan inkişafının variantlarına münasibət bildirmək olar.

Dayanıqlı insan inkişafı həm də dialektik coğrafiya elminin əsasında ölkənin siyasi və sosial-iqtisadi funksiyalarının optimallığının dinamikası ilə əlaqəli sistemlərinin kompleks yanaşma tərzində öyrənilməsinə şərait yaradır. Buna görə də demoqrafik insan inkişafı bir başa olaraq əhalinin təkrar istehsalı və dayanıqlı iqtisadi-sosial inkişafla da bağlıdır. Bu inkişaf prosesə dair elmi mənbələrdə konstruktiv modellərinin və nəzəri baxışlarının tədqiqat obyektinə çevrilməsinə səbəb olmuşdur.[131]

BMT-nın son dövrlərinin statistik materiallarının təhlillərinə uyğun olaraq, yüksək iqtisadi və siyasi potensiala malik olan Qərbi Avropa, Şimali Amerika ölkələrində "demoqrafik keçid" proses demək olar ki, başa çatmışdır. Bu proses çərçivəsində yüksək doğum və ölüm göstəriciləri isə aşağı səviyyədədir.

> Demorafik keçidin ilkin mərhələsində doğumun azalması zamanı 0-14 yaş qrupunda əhalinin sayı azalır. Bu (15-64 yaş qrupu) himayədə olan əhali qruplarından (0 -14 və 65+yaş qrupları) nisbətən yüksək templərlə artır və demoqrafik yük indeksi aşağı düşür. Bu da iqtisadi inkişafa və sosial təminata investisiya qoyuluşu üçün resursları sərbətləşdirir, nəticədə isə əhalinin gəlirləri sürətlə artır.

Demoqrafik problemlərlə məşğul olan F.Noutstayn (ABŞ) tərəfindən "demoqrafik keçid" termini ilkin olaraq elmi tədqiqatlarında ifadə etmişdir. Problemə kompleks yanaşması nöqteyi-nəzərdən isə "demoqrafik keçid" konepsiyasının nəzəri-metodoloji əsaslarına dair elmi araşdırmalarının XX əsrin 20-

[131] Пространсво в географии человека. М., 2000.

30-cu illərində fransız A.Landri tərəfindən insan coğrafiya elminin tədqiqat obyekti kimi əsaslı təhlillər aparılmışdır.

Elmi mənbələrdə "demoqrafik keçid", "demoqrafik modelləşdirmə" və "demoqrafik revalyusiya" terminləri prinsip baxımından demək olar ki, eyni məna, təsnifat parametləri kimi əsaslandırılır.

Demoqrafik keçidin **<u>üç əsas təsnifat modeli</u>** geniş mənada elmi mənbələrdə ifadə edilir: ▼

*Yüksək doğum və yüksək ölüm (Meksika tipi)*
*Yüksək doğum və aşağı ölüm (İngilis tipi)*
*Aşağı döğum və aşağı ölüm (Fransız tipi)*

Əsrlər boyu insan cəmiyyəti yüksək doğum və yüksək ölüm modeli əsasında inkişaf etmişdir. BMT-nın statistik mənbələrinə əsasən XX əsrdə dünya əhalisinin sayı dörd dəfədən çox artmışdır. Əgər 50 min illik demoqrafik inkişaf tarixində yalnız 1820-ci ildə yer kürəsində əhalinin sayı 1 mlrd. olmuşdursa, ikinci milyarda çatmaq üçün cəmi 100 il vaxt tələb olunmuşdur.Lakin sonrakı 3 milyarda çatmaq üçün artıq 40 il, 4 milyard üçün - 15 il, 5 milyarda çatmaq üçün 12 il, 6 miyarda çatmaq üçün isə cəmi 12 il tələb olunmuşdur.[132]

Demoqrafik artımının iqtisadi rasionallıq ideyası BMT-nın və digər beynəlxalq institutlarının demoqrafik konsepsiyasında ölkələr üçün nəzərdə tutulmuş demoqrafik siyasətin nəzəri əsaslarının real həyatla uzlaşması hadisələri ilə bağlıdır. Demoqrafik keçid haqqında digər nəzəriyyə əsasən doğumun evalyusiyası müəyyən nisbətdə ölüm dinamikasından asılı deyildir.

Demoqrafik inkişafın rasional konsepsiyasının qeyri-dəqiqliyi bir sıra tədqiqatçıların neomaltuzianlıq cəryanına müraciət etməsini şərtləndirir. Keçən əsrin 50-ci illərində inkişaf etmiş ölkələrdə əhali artımının problemlərini öyrənən neomaltuzianlığın müxtəlif cəryanları meydana gəldi. Onlar hesab edirdilər ki, əhali sayının körtəbii artımı aclıq, yoxsulluq və qlobal ekoloji gərginliklər yarada bilər.

Qlobal səviyyədə BMT tərəfindən hər il "İnsan inkişaf İndeksi"nin əsasında ölkədəki insan kapitalının keyfiyyət parametrlərini təhlil edir. İnsan İnkişafı indeksi (İİİ) - BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr edilən "İnsan İnkişafı Hesabatı"nda dünya ölkələrində əhalinin rifahını əks etdirən göstərici hesab edilir. Bu indeks əhalinin rifahını ÜDM-dən istifadəsinin prosesindən daha geniş şəkildə özündə ehtiva edir. "İnsan İnkişafı indeksi" insan inkişafının üç ölçüsünü özündə birləşdirir:

- *uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır);*

[132] Население мира. Киев, 2000.

• *təhsil səviyyəsi (böyüklər arasında savadlılıq, həmçinin ibtidai, orta və ali məktəblərdə təhsil alanların say nisbəti əsasında hesablanır);*

• *layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti /AQP, gəlir əsasında hesablanır).*

Lakin, bu indeks insan inkişafının müfəssəl, hərtərəfli ölçü vasitəsi deyil. Məsələn, buraya gender və ya gəlir bərabərsizliyi, insan hüquqları və siyasi azadlıqların təmin olunması kimi göstəriciləri daxil edilmir. Buna baxmayaraq, məhz bu indeks insan inkişafının və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərinin nəzərdən keçirilməsi üçün daha geniş sahəni təmin edir.

BMT-nın təklif etdiyi “İnsan İnkişafı indeksinin” hesablanması metodikası:

İstənilən $x$ göstəricisini qiyməti 0 və 1 arasında dəyişən indeksə çevirmək üçün aşağıdakı formuldan istifadə edilir:

$$x - \text{indeks} = \frac{x - \min(x)}{\max(x) - \min(x)}$$

burada: $\min(x)$ və max (x) təhlil edilən bütün ölkələr üzrə $x$ göstəricisinin minimal və maksimal qiymətləridir.

Hər hansı ölkənin İnsan İnkişafı İndeksi aşağıdakı 3 göstərici əsasında formalaşır:

1. Gözlənilən həyat müddəti indeksi (LEI) = $\frac{LE-20}{83{,}2-20}$

2. Təhsil indeksi (EI) = $\frac{\sqrt{MYSİ \times EYSİ}-0}{0{,}951-0}$

• Orta təhsil müddəti indeksi (MYSI) = $\frac{MYSİ-0}{13{,}2-0}$

• Gözlənilən təhsil müddəti indeksi (EYSI) = $\frac{EYS-0}{20{,}6-0}$

3. Gəlir indeksi (II) = $\frac{\ln(GNI\ pc)-\ln(163)}{\ln(108211)-\ln(163)}$

İnsan İnkişafı İndeksi isə bu üç göstəricinin həndəsi ortasıdır:

$$* \text{ HDI} = \sqrt[3]{\text{LEI} \times \text{Eİ} \times \text{H}}$$

LE — Gözlənilən həyat müddəti

MYS — Əhalinin orta təhsil müddəti (illərlə)

EYS — Təhsili davam edənlərin gözlənilən təhsil müddəti (illərlə)

GNIpc — AQP-yə görə adambaşına düşən ÜMM (ABŞ dolları ilə)

***İnsan inkişafının İndeksləri (Human Development Report 2011.UNDP)***

| | **1980** | **1990** | **2000** | **2010** |
|---|---|---|---|---|
| İnkişaf etmiş ölkələr | 0.754 | 0.768 | 0.852 | 0.879 |
| İnkişaf etməkdə olan ölkələr | 0.361 | 0.440 | 0.510 | 0.592 |
| Zəif inkişaf etmiş ölkələr | 0.251 | 0.292 | 0.325 | 0.386 |
| Dünya üzrə | 0.455 | 0.526 | 0.570 | 0.624 |

Ayrı-ayrı ölkələrinin insan inkişafı göstəriciləri arasında mühüm fərqlər mövcuddur. Bu göstərici, Tropik Afrika ölkələrinin indeksi Latın Amerikası ölkələri ilə müqayisədə 1.2 dəfədən çox aşağı; Cənubi Asiya ölkələrinin göstəriciləri isə Şərqi Asiya ölkələrinə nisbətən 1.3 dəfə aşağıdır. Ötən əsrin ikinci yarısından başlayaraq inkişaf etməkdə olan ölkələr üzrə ÜDM-in hər nəfərə düşən göstəricilərinə görə inkişaf etmiş ölkələrdən geriliyini nisbətən azaltmışdır.

İnsanın inkişaf İndeksinin kişilər və qadınlar arasında bərabərlik təmin edilmədən mümkün olmasa da, bir çox ölkələrdə "İnsanın inkişaf İndeksi" və qadınların vəziyyəti arasında fərqlər vardır. Qadınların ən yaxşı vəziyyəti Şimal Amerika ölkələrində müşahidə olunur. Burada yaşlı əhalinin savad səviyyəsi demək olar ki, eynidir və qadınların gözlənilən ömür müddəti kişilərlə müqayisədə 7 il çoxdur(yaşdakı bioloji fərq 5 il qiymətləndirilir). Qadınların orta gəlirləri kişilərin gəlirlərinin ¾ hissəsi qədərdir.

Elmi mənbələrdə gender bərabərsizliyi indeksinin təhlilinə xüsusi diqqət yetirilir. Gender bərabərliyi prinsipi beynəlxalq və milli səviyyələrdə tətbiq edildikcə məlum olur ki, mövcud beynəlxalqstatistikada gender məlumatlarının keyfiyyəti cəmiyyətdə olan gender bərabər(siz)liyinin səviyyəsini tam izləməyə imkan verir.

İqtisadi artım tempinin sürətlənməsi və ya ümumdaxili məhsulun artması heç də ölkədəki gender vəziyyətinin yaxşılaşmasına səbəb olmur. İnsan inkişafının digər sahələrində olduğu kimi, gender sahəsində də olan keyfiyyət dəyişikliklərinin izlənməsi üçün müəyyən statistik metodların və kəmiyyət indekslərinin işlənib hazırlanması bir zərurətə çevrilir.

Yeni metodoloji (2010-cu ildə) yanaşmaların və alternativ göstəricilərin irəli sürülməsi ilə əlaqədar olaraq gender balansının yeni ölçüsü kimi gender bərabərsizliyi indeksi təklif olunmuşdur. Gender bərabərsizliyi indeksi (GBİ) üç parametrdə - reproduktiv sağlamlıq, səlahiyyətlənmə və əmək bazarında gender bərabərsizliyi əks etdirir. Bu parametrlərdə qadın və kişilərin nailiyyətləri arasında olan uyğunsuzluqlara görə potensial insan inkişafındakı itkini göstərir. İndeksin dəyəri 0 (qadın və kişilərin mövqelərində bərabərlik möv-

cuddur) və 1 (cinslərdən biri ölçülən bütün parametrlərdə mümkün olan ən pis vəziyyətdədir) arasında dəyişir.

GBİ Vanderbilt Universitetinin professoru Suman Setin təklif etdiyi 8 assosiasiyaya həssas bərabərsizlik ölçüsündən istifadə etməklə hesablanır. İndeks müxtəlif tərkibli ümumi orta dəyərlərin ümumi orta dəyərinin çıxarılmasına əsaslanır – birinci aqreqasiya bütün parametrlərin həndəsi ortasının çıxarılması ilə aparılır; qadın və kişilər üçün ayrıca hesablanmış bu orta dəyərlər sonra bütün cinslər üçün ümumi orta dəyərin çıxarılması ilə aqreqasiya olunur.

Müasir dövrdə dünya praktikasında yoxsulluğun ümumi qəbul edilmiş tərifi yoxdur. Yoxsulluğun ənənəvi indikatorları xüsusən Dünya Bankının göstərişi ilə uzun müddət gəlir səviyyəsi və istehlak təxminləri kimi meyarlarla müəyyən edilmişdir. Deməli, yoxsulluğun miqyası, xroniki cəhətləri və kəskinliyi, eləcə də onun monitorinqi və ölçülməsi hansı tərif və metodların istifadə olunmasından asılıdır.

İnsan inkişafı konsepsiyasında yoxsulluq çoxölçülü təzahür kimi qəbul edilir və onun mahiyyəti gəlir və ya istehlak anlayışları ilə məhdudlaşdırılmır. Əgər insan inkişafı insanın layiqli, sağlam və yaradıcı həyat yaşamaq imkanlarının genişləndirilməsindən ibarətdirsə, onda yoxsulluq belə imkanların olmaması və ya məhdudluğu deməkdir.

İnsan inkişafı konsepsiyası çərçivəsində yoxsulluğun ölçülməsi üçün istifadə olunan məcmu göstərici çoxfaktorlu yoxsulluq indeksidir. Çoxfaktorlu yoxsulluq indeksi (ÇYİ) təhsil, sağlamlıq və həyat şəraiti sahələrində fərdi insan səviyyəsində 10 göstərici üzrə çoxsaylı məhrumiyyətləri müəyyən edir. İndeks ev təsərrüfatları sorğularından əldə edilən mikroməlumatlardan istifadə edir və onun tərtibi üçün lazım olan bütün göstəricilər eyni sorğudan gəlməlidir.

ÇYİ metodologiyası Oksford Yoxsulluq və İnsan İnkişafı Təşəbbüsü təşkilatının Beynəlxalq İnkişaf Departamentində tərtib edilmişdir. Çoxşaxəli bir proses kimi insan inkişafının vahid indekslə ölçülməsi qeyrimümkün olduğu kimi, çoxölçülü təzahür kimi təsvir edilən yoxsulluğun da ancaq ÇYİ ilə ölçülməsi düzgün deyil.

Məlumdur ki, iqtisadi artım tempinin artması heç də ölkədəki yoxsulluğun vəziyyətinin yaxşılaşmasına səbəb olmur. İnsan inkişafının digər sahələrində olduğu kimi, yoxsulluğun coğrafiyası sahəsində də olan keyfiyyət dəyişikliklərinin izlənməsi üçün müəyyən statistik metodların və kəmiyyət indekslərinin işlənib hazırlanması bir zərurətə çevrilir. Yoxsulluq – insan həyat tərzinin ən mürəkkəb və dinamik proseslərindən biridir. Buna görə də, yoxsulluğu yarada bilən indekslərinin təyini bir sıra konstruktiv stratejli məqsədli metodlarını özündə birləşdirir.

Təhlillər göstərir ki,dayanıqlı insan inkişafı strategiyasında elə metodoloji modelləri nəzərdə tutulur ki, insan qruplarının müasir və prioritet inkişafı təmin edilmiş olsun. Bu cəhətdən,insan bioloji varlığının inkişafına dair demoqrafik tsikllər konseptual baxışlarının mühüm elmi-praktiki əhəmiyyəti vardır. Bu konsepsiyaya əsasən hər bir bioloji populyasiya ilk başlanğıcında inkişafı zəif gedir, sonra onun sayı, müəyyən səviyəyə qədər surətlə artır və sonda isə tədricən inkişafı zəifləyir.

Dialektik coğrafiya elmi mənbərinin araşdırmalarına və metodologiyasına əsasən funksional strukturlarının kompleksliyinə uyğun olaraq formalaşması və mövqe nümayiş etdirilməsinin əsasında demoqrafik tsikllər nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur.




□ ***Demoqrafik tsikllərinin nəzəri baxışları.***

Demoqrafik tsikllərinin nəzəri baxışların ilkin mənbə olaraq dayanıqlı inkişafda “demoqrafik qocalma”, “demoqrafik partlayış” kimi təsnifatlarından da istifadə edilir.

Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit qalmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Kapitalizmdən əvvəlki dövrdə dünya əhalisinin sayı çox yavaş artırdı. Bu hadisə daha çox aramsız müharibələr, epidemiyalar, insanların həyat səviyyəsinin aşağı olması ilə əlaqədardır.

Müasir dövrdə dünyada demoqrafik inkişafın aşağı düşməsi davam edir. Bu prosesə elmi mənbələrdə depopulyasiya (fr. Depopulation - əhalinin azalması) ifadəsi kimi qəbul olunmuşdur. Depopulyasiya dedikdə, bəzən demoqrafik böhranın təzahür formalarından biri kimi təhlil olunur. Depopulyasiya əhalinin təkrar istehsalı üzrə statistik göstəricilər sistemi kimi xarakterizə olunur. Problem haqda ilk dəfə Volter və Montesye tərəfindən elmə gətirilmişdir. Onlar təhlillər əsasında belə bir fikrə gəlmişlər ki, ildən ilə dünyada əhali sayının azalması min ildən sonra onun tamamilə yox olmasına gətirib çıxaracaq.

XX əsrin 30-40-cı illərində bir çox Avrpoa ölkələrində təbii artımın azalmasına dair adekvat tədbirlər proqramlarının təbliğinə başlandı. Hazırda depopulyasiya dünyanın 20 ölkəsini əhatə edir. BMT-nin ekspertlərinin proqramlarına görə depopulyasiya çərçivəsində yekun doğum əmsalı Yeni Zellandiyada – 1,96; Avstraliyada – 1,76; Yaponiyada – 1,29; Cənubi Koreyada – 1,24; ABŞ-da isə 2,05-dir. Ümumi forma ilə izah etsək demoqrafik proseslər dayanıqlı insan inkişafının kompleksliyindən asılıdır.

- **İnsan inkişafının coğrafiyası və proqramlaşması**

İnsan inkişafının coğrafiyası və onun proqnozlaşması elmi mənbələrdə müxtəlif formada araşdırmalar aparılmışdır.[133] Elmi araşdırmalarının nəticələri göstərdi ki, XX əsrin axırıncı dövrlərində müəyyən olunmuşdur ki, hər bir ölkənin iqtisadi artımı özü-özlüyündə dayanıqlı inkişafın əsas prioriteti sayıla bilməz. Həmin dövrlərdə bir çox ölkələrinin iqtisadi artım tempinin zəifləməsi və struktur sahəsində müəyyən səviyyədə böhranlarının əmələ gəlməsi müşahidə olunurdu. Bu səbəbdən də ölkələrin inkişaf strategiyalarında borclarının və xərclərinin azaldılması kimi keyfiyyətcə yeni prioritetlər tədricən ön plana çəkilirdi. Bununla bərabər getdikcə artan ölkələrarası yoxsulluq problemi və sosial infrastrukturun inkişafı problemləri öz həllini nə insan kapitalı, nə də başqa nəzəriyyələrdə tapa bilirdi.

Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının irəli sürdüyü makroiqtisadi stabillik siyasətinə alternativ olaraq YUNİSEF (1987-ci il) kəskin yoxsulluq və insanların həyat səviyyəsinin yüksəldilməsi problemlərinə daha çox diqqət ayrılmasını təklif edirdi. Məntiqi olaraq sosial aspektlər yeganə dəyişiklik fonunda uzunmüddətli perspektivdə insanın mənafeyinə xidmət göstərmək üçün inkişafın yeni kompleks mexanizminə inteqrasiya olunması siyasəti önəmə gətirilməlidir.

BMT-nin İnkişafın Planlaşdırılması üzrə Komitəsinin insan inkişafının sosial baxışlarına kompleks yanaşmasına dair geniş tərkibli tədqiqatçı qrupları fəaliyyət göstərir. Geniş tərkibli tədqiqatçı qruplarına *Amartya Senin,Mahbub ul Haqın, Kiyt Qriffinin və Con Naytın* rəhbərliyi altında əsaslı elmi-praktiki problemlərinin kompleks həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etmişdir (edir). Tədqiqatın nəticəsi olaraq çap olunan “İnsan potensialının inkişafı: İnkişaf strategiyasının unudulmuş aspekti” adlı hesabat əslində sosial insan inkişafı konsepsiyasının başlıca prinsiplərini əks etdirən ilk analitik mənbə - qanun hesab edilir.

[133] Успехи современной географии. М., 2001.

Sosiallaşan cəmiyyətinin insan inkişafının idealogiyasında *Amartya Senin* elmi xidmətlərinin strateji əhəmiyyəti çox önəmlidir. Müasir dövrdə insan inkişafı konsepsiyası Amartya Senin əsərləri ilə formalaşmışdır. Onun müxtəlif illərdə yazdığı "Yoxsulluq və Aclıq: Hüquq və məhrumiyyətlər haqqında esse" (1981), "Seçim, rifah və ölçü metodologiyası" (1982), "Resurslar, dəyərlər və inkişaf" (1984), "İnkişaf azadlıq kimi" (1998), "Qeyri-bərabərliyin yenidən tədqiqi" (1992) kimi əsərlərinin əsasında BMT-nin "İnsan inkişaf proqramları"nın hazırlanmasının əsas ideya mənbəyi hesab edilir və müasir dövrədək öz elmi-metodoloji əhəmiyyətini saxlamaqdadır.



**Amartya Sen:** Hindistanın görkəmli iqtisadiçi alimi, insan inkişaf konsepsiyası və insan inkişaf potensial indeksi metodoloji istiqmətlərinə dair təqiqatları qlobal xarakterə malikdir. 1998-ci ildə "İnsanın rifah halının iqtisadi nəzəriyyəsi" tədqiqatına görə Nobel mükafatına layiq görülmuşdür.

İnsan inkişafının konsepsiyasının və metodologiyasının formalaşmasına uyğun olaraq qlobal mühit çərçivəsində **Amartya Senin fikrləri daha çox aktuallığı ilə seçilir:**

| |
|---|
| • İqtisadi artım, sahibkarlığın inkişafı və əlverişli biznes mühiti. |
| • Sosial-iqtisadi ədalət, həssas təbəqələrin sosial müdafiəsi. |
| • İqtisadi inkişaf və sosial mühitin həssaslığı. |
| • Yoxsulluğun aradan qaldırılması. |
| • Gender bərabərliyi. |
| • Mütərəqqi təhsil və səhiyyə sistemi. |
| • Ekoloji prioritetləri ön plana çəkən dayanıqlı inkişaf. |
| • Düzgün idarəçilik və effektiv dövlət qulluğu sistemi. |
| • İnsanların qərar qəbulu proseslərində fəal iştirakı. |

1990-cı ildən etibarən BMT İnkişaf Proqramı tərəfindən hər il nəşr olunan və insan inkişafının müxtəlif sahələrini təhlil edən "İnsan İnkişafı Hesabatları"nın bölmələrin də gender bərabərliyi, insan hüquqları, miqrasiya, qloballaş-

ma, demokratik idarəetmə və s. aktual məsələlər daxil edilmişdir. BMT-nın 2000-ci ildə Minilliyin Bəyannaməsi ilə birlikdə qəbul edilmiş "Minilliyin İnkişaf Məqsədləri"nə dair qlobal, regional və milli inkişaf proqramlarının həyata keçirilməsinə dair insan inkişafı ilə bağlı məsələlər daha geniş məzmunlu təhlillərə üstünlük verilmişdir.

Milli proqramında həmçinin insan təhlükəsizliyinin təmin edilməsi və insan hüquqlarının qorunmasında və dayanıqlığının fonunda insan inkişafın konsepsiyasına böyük əhəmiyyət verilir. Ümumiyyətlə, insan inkişafının bir paradiqma və ya konsepsiya kimi formalaşması bilavasitə BMT fəaliyyəti ilə bağlıdır. BMT-nin konfranslarından və onların ortaya qoyduğu ideyalardan, prinsiplərdən, analitik yanaşmalardan, alternativ inkişaf modellərindən problemlərlə məşğul olan tədqiqatçılarının elmi mənbələrində istifadə edilmişdir. Müasir dövrdə də BMT tərəfindən nəşr edilən İnsan İnkişafı Hesabatları "insan inkişafı" anlayışının müxtəlif aspektlərini, elmi mahiyyətini və əhəmiyyətini tədqiqatçılar tərəfindən ön plana çəkməkdə davam etdirilir.

- **"İnsan inkişaf fəaliyyəti"nin qlobal çağrışları**

İnsan inkişafı coğrafiyasının formalaşması son onilliklər ərzində qloballaşma prosesinə daha çox məruz qalmışdır. Bu məqsədlə, elmi mənbələrdə konseptual məzmunlu dəyişikliklər fonunda qloballaşma mühitinə uyğunlaşmasının tələblərinə uyğun araşdırmalar önəmə gətirilmişdir.

Elmi təhlillərinə üstünlük verilən araşdırmalar cəmiyyətin inkişaf strategiyalarında yeni ideyalarının və yeni qlobal çağırışlarının məzmununda keyfiyyətli dəyişikliklər yaratmışdır. İnsan inkişaf problemi ilə tədqiqat aparan elm mərkəzlərində (ABŞ, Yaponiya, Almaniya, Çin, Hindistan və s.) konseptual araşdırmalarına daha diqqətli yanaşılır. Məsələ onunla ölçülür ki,elmlilik səviyyədə konseptual yanaşmalar qloballaşan insanın həyat tərzinin sosial-iqtisadi məsələlərinin önəmə gətirilməsinə dair bağışlar yeni məzmun kəsb edir. Bununla yanaşı dayanıqlı insan inkişafının iqtisadi-sosial praktikasının dövlət siyasətinin çərçivəsində yönəldilməsi məqsədləri qlobal çağrışlar ilə uyğunlaşdırılması effektlilik yaradır.

> *Qlobal çağrışlar dedikdə = qlobal səviyyədə ölkələrdə baş verən iqtisadi-siyasi böhranlar, qlobal istiləşmə, yeni geosiyasi mövqe uğrunda mübarizələr və s. daxil edilir.*

Müasir qloballaşan cəmiyyətinin özünəməxsusluğu ondan ibarətdir ki, müxtəlif ölkələrinin iqtisadi, siyasi və sosial-mədəni inkişafının qarşılıqlı asılılığı və təsiri insanların qlobal çağırışlar və problemlər qarşısında birləşməyə vadar edir. Belə çağrışlar yalnız coğrafi və təbii şəraitin zənginliyində deyil, həm də dün-

ya ölkələrinin iqtisadi sistemlərinin çoxluğunda, dövlətin milli-mədəni və siyasi ənənələrindədir. Müasir iqtisadi-sosial mühitinin potensiallığı və dialektikasının inkişaf tempi insanların həyat səviyyəsinin optimallığına eyni məzmunda təsir göstərə bilmir. Qlobal səviyyədə baş verən iqtisadi-maliyyə böhranları, təbii-coğrafi fəlakətlər nəticəsində dəyən ziyanların cəmi və s. proseslər önəmində dəyərləndirilir.

İnsan inkişafının coğrafiyasında qlobal iqtisadi-maliyyə böhran dalğaları, demək olar ki, planetar xarakterə çevrilmişdir. Müasir qloballaşmanın və eləcə də ölkələr arasında sosial həyat tərzinin qeyri-davamlılığı hökm sürür.Məsələ ilə bağlı ölkələr arasında sosial-iqtisadi, coğrafi-ekoloji faktorlar = insanın mənəvi "aşınma" təhlükələrinin yaranmasının meylləri artmaqdadır. Bu meyillərin təsiri ilə insan inkişafı konsepsiyasının yenidən işlənməsi və onun praktikasının reallıqların dərəcələri xeyli artmışdır. Məhz belə aktual ideyaların nəzərə alınması ilə planetar sosial oriyentasiya – insan inkişafına istiqamətləndirilmiş qlobal böhranlarının mənfi nəticələrinin aradan qaldırılması üçün ən effektiv yanaşma hesab edilir.

İqtisadi inkişafın sosial və coğrafi məsələlərin həllinə yönəldilmiş araşdırmalar xüsusilə nəzərə çarpır. Fikrimizcə, "İnsan inkişaf fəaliyyət"nin fonunda qlobal və lokal coğrafi problemlərin həlli yollarınının reallaşması mümkün deyildir. Məntiqi olaraq, qlobal miqyasda baş verən iqtisadi-sosial və coğrafi proseslərinin uyğunluğu çərçivəsində "insan inkişaf fəaliyyət"nın davamlı reallıqlarının təsnifatında üç komponent üzərində qurulmasına diqqət yetirilməlidir.

"İnsan inkişaf fəaliyyətı"ni informasiyalarının ümumi fonunda insan inkişafı paradiqmasının konseptual quruluşunu **<u>üç blok üzərində qurulmasını</u>** təklif edirik:




*Birinci* (**A)** – insan öz fəaliyyətində mənəvi cəhətdən sağlam həyat tərizinə malik olmalıdır. Sağlam həyat tərzində elmi təfəkkürə nail olmaq önəmində "ümumi həyat tərzi" daha effektli məzmuna malik olur.

Amartya Sen qeyd etdiyi kimi, inkişaf nəticəsində yüksələn rifah hər nəfərə düşən gəlirin artan səviyyəsi ilə deyil, onların ləyaqətli hesab etdiyi həyat obrazı yaşamaq imkanları ilə ölçülməlidir.

*İkinci* (**D**) – "insan inkişaf fəaliyyət"i üçün insanın elmi-praktiki dəyərlərə söykənən təfəkkürün "məhsuldar" imkanlarına malik olmalıdır. Buraya müx-

təlif resurslarının istifadə edilməsi, yeni resurslarının yaradılması, kompleks məsələlərinənin potensillığına reaksiyası aktiv olması nəzərdə tutulur. Məsələ onunla ölçülür ki, "insan inkişaf fəaliyyət"in imkanları cəmiyyətin təqdim etdiyi sosial və iqtisadi şərtlərdən də asılı olaraq genişləndirilməsinə dair "münbit şərait"dən, yəni ölkədə mövcud olan siyasi, iqtisadi və sosial imkanlarının optimal səviyyələrinin yaradılmasıdır.

"İnsan inkişaf fəaliyyət"nın *üçüncü* (**E**) əlaməti isə iqtisadi sahələrinin kompleksliyi ilə bağlı məsələlərdir. Burada insan resurslarından effektli istifadə edilməsi, zaman keçdikcə davamlılığı, insanın həyat səviyyəsinin artırılması və s. məsələlərinin həlli istiqamətləri nəzərdə tutulur. Bu üç blok bir-biri ilə qarşılıqlı təsirdədir, bunlardan biri təmin edilməyincə digərində irəliləyişin olmasına ümid etmək olmur.

Təhlillər göstərir ki, insanların yoxsullaşmasına və struktur bərabərsizliyə aparan proseslərin qarşısının alınmasınında "insan inkişaf fəaliyyət"in çoxfunksional bloklarının müəyyən edilməsindən çox asılıdır. Nəticə ehtibarı ilə insanların siyasi və iqtisadi həyatda imkanlarının hesabına rifah hallarının yaxşılaşdırılmasına meyillərinin artırılması mühüm şərtlərdən sayılır.

İnsan inkişafının məqsədinə uyğun maddi firavanlığını təmin edəcək, bir siyasi, iqtisadi, sosial və ekoloji şəraitin yaradılması sahəsində verilən ideyalar bir-birindən fərqlənir.

İnsan inkişafının qlobal çağrışlarına dair aparılan araşdırmalarının nisbətində A.Senin ideyaları daha çox müasir şəraitlə uyğunlaşmasıdır. Onun fikrinə əsasən, insan inkişaf strategiyasının nəticələrinin dayanıqlığını və uzunmüddətli olmasının təminatının nəticələri müəyyənləşməlidir. Nəticələrin davamlılığı (dayanıqlı inkişaf) imkanlarının həm indiki və gələcək nəsillər arasında, həm də mövcud nəslin daxilində də necə paylaşmasını nəzərə alınmalıdır.

Yuxarıdakı istiqamətlərini nəzərə almaqla, insan inkişafı konsepsiyası əslində həm yüksək səviyyədə inkişaf etmiş ölkələrdə, həm də inkişaf etməkdə olan ölkələrdə eyni dərəcədə tətbiq edilə bilən inkişaf paradiqmasıdır. Məntiqi nəticə ondan ibarətdir ki, insan inkişafı konsepsiyası ümumilikdə onların mədəniyyətini, dəyərlərini və cari prioritetlərini bir araya gətirmək iqtidarındadır.

İlkin olaraq bu konsepsiyanın yeniliyini nəzərə alaraq qeyd etmək lazımdır ki, burada hələ də cavabını gözləyən xeyli konseptual, metodoloji suallar qalmaqdadır. İkinci isə bu konsepsiya çoxşaxəli, kompleks iqtisadi-sosial dəyərlərini özündə birləşdirir və insanların tərəqqisi naminə davamlı inkişafının bünövrəsini, əsaslarını özündə birləşdirir.

- **Feminist coğrafiyanın funksionallığı**

Coğrafiya elmi tədqiqatlarının idealogiyasında feminizm[134] probleminin əsaslandırılması və coğrafi məkan kontekstində təhlillərinin aparılması problematik düşüncə tərzinə malik virtual proseslərdən biridir.

Coğrafiya elmi mənbələrdə feminizm idealogiyasının araşdırılmasının təlimində radikal ideyalara söykənən tədqiqatlar üstünlük təşkil edir. Problemin əsas ideya mənbəyi ondan ibarətdir ki, yer kürəsində məskunlaşan qadınların həyat fəaliyyətinin bütün şaxələrinə kompleks yanaşılır. Feminist coğrafiyası – insan coğrafiyasının təlimində aktual məna kəsb edən tədqiqat sahəsidir. Onun tədqiqat obyekti və metodoloji istiqaməti coğrafi məkanda qadınlarının dialektik həyat tərzi, cəmiyyətdə və ailədə davranışı, ölkənin və ailənin idarəedilməsi prosesində intellektuallığı və s. hesab edilir.

Məna ideya baxımdan feminist coğrafiya ictimai elmlərinin sintezinin dialektikasının nəticəsində formalaşmışdır. Bu elm hal-hazırda coğrafi məkanla uzlaşan və dialektik əsaslara söykənən **feminist coğrafiyanın şaxələnmiş strukturlardan ( FCŞS )** ibarətdir. ▼




E = Feminist coğrafiya elminin məkan strukturu
G = Feminist coğrafiya elminin qloballığı
D = Feminist coğrafiya elminin strateji mahiyyəti
R = Feminist coğrafiya elminin radikal önəmi

Müasir dövrdə feminist coğrafiyasının aktual problemlərinə dair geniş miqyasda elmi araşdırmalar yerinə yetirilir. Avropa, Şimali Amerika və eləcə də Türkiyə coğrafiya elm tədqiqatlarının mənbələri nəzəri cəlb edir. Türkiyə coğrafları əsasən qadın psixologiyası və onun coğrafi mühitdə davranış qaydalarına dair araşdırmaları coğrafiya elminin konstruktiv inkişafı üçün əhəmiyyətli sayılır.

[134] **Fenizm -** qadın coğrafiyasını öyrənən elm sahəsi.

İslam fəlsəfəsində cəmiyyətdə və ailədə qadınların şoxfunksional xarakerləri, bəşəri sivilizasiyanın təkamülündə qadınların mövqeyi əsaslandırılmışdır.

Feminist coğrafiya elminin konseptuallığının əsasını ilkin olaraq cəmiyyətin dialektik baxışlarının radikal gerçəkliyindən irəli gəlmişdir. Məsələ ondan ibarətdir ki, cəmiyyətin dayanıqlı və dinamik həyat tərzinin inkişafı bilavasitə qadın coğrafiyasından da asılıdır. Bu problemin elmi əsaslarla təhlil edilməsi və ümumiləşdirilmiş sosial, iqtisadi və siyasi məzmunda əsaslandırılması qadın coğrafiyası elminin müstəqil tədqiqat obyektinin yaranmasına səbəb olmuşdur.

İnkişaf etmiş ölkələrdə sosial coğrafiya,insanın rifah coğrafiyası ilə yanaşı feminist coğrafiya elmi məktəblərdə fəaliyyət göstərir. XX əsrin axırı və XXI əsrin əvvəllərindən başlayaraq insan coğrafiyası elminin tərkibində feminist coğrafi təfəkkür geniş miqyasda önəmə gətirilmişdir.

Bir çox elmi jurnallarda və elmi monoqrafiyalarda feminist coğrafiyanın müxtəlif istiqmətlərinə dair tədqiqat materialları (qadın azadlığının coğrafiyası, qadın hüququnun coğrafiyası, qadın miqrasiyasının coğrafiyası və s.) Böyük Britaniya, ABŞ, Kanada və s. ölkələrdə çap olunmuşdur.

Ən çox qadın problemlərini özündə əks etdirən elmi məqalələr radikal coğrafiya jurnalı sayılan "Antipode"də çap olunur. Burada radikallaşma və qadınının intellektual işküzarlığına, cəmiyyətin dayanıqlı inkişafında qadının mövqeyi və ailə coğrafiyasının problemlərinə dair materiallar mühüm yer tutur.

1982-ci ildə yazılan "On Not Excluding Half of the Human in Human Geography" (İnsanın Yarısını İnsan Coğrafiyasından xaric etmək üzərinə) məqaləsində "niyə coğrafiyada irqi ayrı-seçkiliklə bağlı suallar həmişə aktual olmuşdur, ancaq qadınlara qarşı olan ayrı-seçkilik məsələsinə isə toxunulmamışdır?" sualı ortaya qoyulub. Keçən əsrin 80-ci illərdə ilkin feminist coğraflar (McDowell, Lewis və Foord və s.) tərəfindən bu problemlərə diqqəti çəkməyə başladılar. Postmodern dövrdə artıq ağ dərili olmayan və Üçüncü Dünya qadınlarının həyat səviyyəsi müzakirə olunmağa başladı.

1990-cı illərin sonundan artıq qadınların sosial, mədəni, iqtisadi məsələlərdə, dövlət işlərində iştirak etməsi cəmiyyətdə qəbul olunur. BMT-nin (2013-cü ilin) hesabatlarına görə, 27 ölkənin üzvü olduğu Avropa Birliyində özəl sektordan əldə olunan gəlirin yalnız 16.6%-i qadınlar tərəfindən qazanılıb. Afrikada bu göstərici - Misirdə ən az 10%, Bostvanada ən yüksək 30% təşkil edir. Yaponiyada dövlət idarəçiliyində çalışan hər 100 insandan 93-ü kişidir. Bu göstərici ABŞ-da 100 nəfərdən 80-nə bərabərdir.

ABŞ-da 500 böyük korporasiyadan yalnız 23-ü qadınlar tərəfindən idarə olunur. Norveç və İsveç kimi yüksək inkişaf etmiş ölkələrdə belə idarəetmədə qadınların sayı çox azdır. Yalnız Çində yüksək vəzifəli qadınların sayı kişilərdən çoxdur. Yer kürəsində 150 ölkə başçısından yalnız 7-si, 192 hökumət başçısından yalnız 11-i qadındır.

WEF (World Economic Forum) təşkilatının “The Global Gender Gap Report” adlı hesabatında qadınlar üçün ən əlverişli ölkələrinin adları açıqlayıb. Bunlar əsasən inkişaf etməkdə olan ölkələrdir. Araşdırmada nəzərə alınan əsas meyarlar təhlükəsizlik, təhsil səviyyəsi, sağlamlıq və ən əsası isə ölkənin həyatında qadınların oynadığı siyasi-iqtisadi rolu olub. Bu siyahının ilk 10 sırasına İslandiya, Norveç, İsveç, Finlandiya, İrlandiya, İsveçrə, Filippin, Danimarka, və s. ölkələr daxil edilmişdir.

On üçüncü önəm

# İnsan potensialın genezisi və inkişaf mənbələri

- **İnsan potensialın çoxxətli mənbələri**

Dialektika məfhumi kimi insan potensialı yeni keyfiyyət gerçəkliklərini özündə birləşdirən elmi mənbələrindən sayılır. Məhz buna görə də insan potensialı nəzəri baxışlara söykənərək müəyyən dialektik qanunauyğun önəmində funksional dəyişilmələrə məruz qalır. Gerçəklik ondan ibarətdir ki, dəyişilən funksional insan potensialının elmi mənbələrdə təhlillərinin aparılması və praktikası effektli nəticələr verir.

Hər hansı ölkənin inkişafı başqa strukturlarla yanaşı, insan potensialının funksional strukturunun coğrafiyasından da çox asılıdır və ümumi elmi tədqiqatlar çərçivəsində onun praktikası daha effektlidir.

Qloballaşan cəmiyyətdə iqtisadi paradiqma, yəni hər hansı ölkənin potensialına iqtisadi nöqteyi-nəzərdən yanaşma dominantlıq təşkil etdiyindən, ədəbiyyat mənbələrində çox zaman “inkişaf” dedikdə məhz iqtisadi inkişaf yanaşmasına istinad edilir.

> “İnsan potensialın inkişafı” termini cəmiyyətin dinamik gerçəkliklərinə dair ideyaları önəmli sayılır. İnsan potensialın fərqli standartlarla ölçülməsi = sosial inkişaf, siyasi inkişaf və s. = həm də dialektik inkişaf ilə əlaqədardır.

İnsan inkişafı konsepsiyası ilkin olaraq iqtisadi nəzəri baxışlara söykəndiyi üçün problemin məqsədləri və keyfiyyəti ilə əlaqədar təkliflərin fəaliyyətinin əsası kimi qəbul edilir. Dialektik iqtisadi inkişafının önəmində təhlil edilən iqtisadi artımı, struktur dəyişmələrini, insanın həyat şəraitinin və keyfiyyətinin yaxşılaşdırılmasını əhatə edən çoxfunksionallığının bir prosesdir. Məlumdur ki, hər hansı ölkənin iqtisadi inkişafının xarakterinin önəmi və dinamikası insan potensialının yaratdığı struktur dəyişiklikləri ilə sıx əlaqəlidir.

XX əsrin ikinci yarısından başlayaraq fəlsəfi və eləcə də iqtisadi,sosial və coğrafi elmi mənbələrində “dialektik inkişaf”, “iqtisadi inkişaf”, “sosial inkişaf”, “demokratik inkişaf” və s. bu kimi anlayışlar elmi tədqiqatlarda mövqe üstünlüyü nəzəri cəlb edir. Bu baxımdan insan inkişafı konsepsiyasında yeni profilli və elmi-metodoloji dəyərlərə malik olan ideyalar irəli sürülmüşdür. Bu

ideyalarda insan inkişafı konsepsiyasının fəlsəfi baxışları, insan keyfiyyətinin sosial və iqtisadi inkişafın dərəcəsi, həm elmi-texniki nailiyyətlər kimi fundamental araşdırmalar əsaslandırılmışdır.

Mahbub ul Haqın "İnsan inkişafı haqqında düşüncələr" adlı monoqrafik əsərində göstərir ki, "insan inkişafı paradiqmasını bu gün mövcud olan ən mühüm tamamlanmış modellərindən biri kimi aktullıq kəsb edir. Bu model hər bir inkişaf problemini – iqtisadi artımı, sosial sərmayələri, insanların səlahiyyətlənməsini, baza ehtiyacların təminatını və sosial müdafiəni, siyasi və mədəni azadlıqları və insanların həyatının bütün başqa spektrlərini əhatə edir".



**Mahbub ul Haq**: *Pakistanın görkəmli elm xadimi*
İnkişaf etməkdə olan ölkələrdə insan potensialın inkişaf konsepsiyasına dair ideyalar təklif etmişdir. Qloballaşmaya uyğun olaraq "insan inkişaf indeksi" modeli BMT-nın proqramlarında strateji məqsəd kimi qəbul olunmuşdur.

Qeyd etmək lazımdır ki, ölkənin təkcə iqtisadi inkişaf baxımından deyil, həm də insan inkişafı nöqteyi-nəzərindən yanaşsaq, cəmiyyətin inkişafı həmişə müsbət xətti istiqamətdə getmir. Cəmiyyətin inkişafı ritmik olaraq yüksəliş və enişli olmaqla, kəmiyyət və keyfiyyət dəyişmələrinin fonunda tarixi dövrlərləşmənənin tələbinə uyğun bir-birini əvəz edir.

Sosial-iqtisadi və strateji mövqeyə malik olan insan inkişafının konseptual əsasları müəyyən elmi yanaşmalarının nəticəsində meydana gəlmişdir. "Məkan-zaman" gerçəkliyinin fəlsəfi düşüncə tərzininin müxtəlif baxışları, cəmiyyətin təbiətində insan potensialının dərk edilməsi məsələlərinin önəmi coğrafiya elminin mühüm idealoji təlimlərindən sayılır.

İ.Kant insanların bütün fəaliyyətinin həqiqi oriyentiri kimi qəbul edən qədim ənənəni davam etdirmişdir: "Elə hərəkət et ki, istər öz şəxsində, istərsə də başqalarının şəxsində insanlığa sadəcə vasitə kimi deyil, həmişə ümdə məqsəd kimi münasibət göstərəsən." [135] Buna oxşar fikirlər sonralar R.Maltus, K.Marks, C.Mill və b. elmi araşdırmalarının nəzəri baxışlarında öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, insan inkişaf problemlərinin əsaslandırılmasının optimal meyarlarının seçimi müxtəlif nəzəri elmi məktəblərinin nümayəndələri üçün əsas tədqiqat mövzusu olmuşdur. Bu nəzəri baxışlarının məzmunu ondan ibarətdir ki, inkişaf etməkdə olan və keçid iqtisadiyyatı dövrünü yaşayan ölkələr üçün insan inkişaf probleminin strateji sosial məsələlərinə üstünlük ve-

[135] Кант И. Сочинения. Том 1. М.,1966.

rilməsi olmuşdur. İnsan inkişafı konsepsiyasının formalaşması və praktiki olaraq dəyərləndirilməsi məhz bu dövrə təsadüf edir.

XX əsrin sonunda keyfiyyətli iqtisadi-sosial inkişaf anlayışına yeni yanaşma: insan inkişafın nəzəri baxışları optimal səviyyəyə çatdırıldı və praktiki olaraq iqtisadi cəhətdən güclü ölkələrinin davamlı siyasətinə çevrildi. Məntiqi nəticə ondan ibarətdir ki, insan inkişafı konsepsiyası yox yerdən yaranmamış, özündən əvvəlki dialektik inkişaf mənbələrinnin (fəlsəfi, iqtisadi, sosial və s.) rasional ideyalarına əsaslanmışdır.

- **İnsan potensialının davamlı inkişafı**

İnsan potenisalı üzrə geniş profilli ABŞ təfqiqatçı alimi *D.Bell* göstərir ki, "gələcəkdə yüksək sosial təbəqənin müəyyənləşdirilməsi və inkişafı insanın intellektual potensialından asılı olacaqdır" [136] konsepsiyası elmi məktəblər tərəfindən aktual ideya kimi qəbul edilir.



**D.Bell**:
İnsan potensialının funksional sosial problemlərinin formalaşmasına dair tədqiqatlar aparmışdır. Onun problemə dair araşdırmaları elmi tədqiqatlarda konseptual mövqe qazanmışdır.

Elm mərkəzlərinin apardıqları araşdırmalar göstərir ki, cəmiyyətin ərazi təşkili və idarə edilmısi konsepsiyasında başlıca ideya mənbələrinin formalaşmasında insan potensialı hərəkətverici "qüvvə"si hesab edilir. Məntiqi olaraq, qloballaşan cəmiyyətin dayanıqlığı insanın düşüncə tərzi ilə uzlaşan funksional konsepsiyalarının praktika ilə əlaqələndirilməsi önəmli strategiya hesab edilir.[137]

Məsələ onunla ölçülür ki, "innovativ texnologiya" tədbiqinə əsaslanan ölkələrinin iqtisadi-siyasi "güc" qüvvəsinin çərçivəsi insan elmi təfəkküru ilə idarə edilən davamlı inkişafa söykənir. İqtisadi və siyasi cəhətdən inkişaf etmiş sənaye ölkələrin əsas ideya istiqaməti insan potensialından elmi əsaslarla istifadə edilməsi ilə əlaqələdirməsidir.

İqtisadi-siyasi "güc" qüvvəsinə malik olan (əsasən "Yeddillər") dövlətlərin elmi tədqiqat mərkəzlərinin yaradılmasına və praktiki önəminə üstünlük verməklə yanaşı, insan potensialının kapitala çevrilməsinə strateji məqsəd kimi

[136] Белл Д. Социальные рамкий информационного общества. М., 1986.
[137] Устойчивое развития: методология и методики измерения. М., 2010.

xüsusi diqqət yetirilir. İnsan potensialının kapitala çevrilən resurslarından effektli istifadə edilməsi konsepsiyasının metodoloji istiqamətlərinə və real nəticələrinin əsasında baş verən iqtisadi sıçrayışlar inkişaf etmiş ölkələrdə dövlət səviyyəsində ehtimad göstərilir. İnkişaf etmiş ölkələrdə baş verən revolyusion dəyişikliklərinin əsasını insan resurslarından kompleks istifadəsinə əsaslanır.

- **İnsan potensialın funksional koordinat modeli**

Təklif etdiyimiz ideyanın elmi mahiyyəti ondan ibarətdir ki, "məkan-zaman" fonunda insan potensialı dayanıqlı inkişafının daima dəyişilən trayektorları müəyyən bir struktur yaradır. Bu struktur öz növbəsində ölkənin iqtisadi və sosial inkişafı ilə əlaqəli olan insan potensialı harmoniya yaradır və istehsal tsiklli inkişafının davamlı funksional modellərini formalaşdırır.

İnsan potensial modeli - cəmiyyətdə baş verən iqtisadi,siyasi və demoqrafik dəyişkənliklərə ritmik olaraq "reaksiyası"nın hərəkətini gerçəkləşdirir. Bu hərəkət gerçəkliyi dinamik olaraq iki modelli tsikllərinin: "hərəkətverici tsikllər"in və "korreksiya tsikllər"in fəaliyyətinin miqyası ilə formalaşır. İnsan potensialının hərəkətverici tsikllərinin konseptual elmi məzmuna malik olmaqla yanaşı, struktur formalarının kompleksli inkişafını da təmin edir. Korreksiya tsikllər isə insan potensialının inkişafını təmin edən ümumi tendensiyaya əks istiqamətdə dəyişdiyini xarakterizə edirməklə yanaşı, həmdə müvəqqəti dönüş hərəkətinin funksiyalarını özündə birləşdirir.

İnsan potensialının hərəkət tsiklləri "məkan-zaman" kəsiyində üç koordinat modelinin formalaşmasında iştirak edir: insan potensialın varlığı (Y); coğrafi məkan obyektləri (D); zaman gerçəkliyində "coğrafi mühit-insan" vəhdəti (G).




***İnsan potensialın funksional koordinat modeli***

İnsan potensialının dialektikası **D→G** coğrafi obyektinə müəyyən səviyyədə təsir edir, onun xarakterində insan potensialının varlığı durur. İnsan potensialının koordinat modelində "coğrafi mühit-insan" vəhdəti bir sıra rasional

dəyişikliklərinin yaranması funksiyasını aktivləşdirir. Bu funksiyalarının dialektik vəhdətinin dəyişikliklərinin əsasında ölkənin inkişaf konsepsiyasının məqsədli iqtisadi-sosial və siyasi institutlarının idarəedilməsinə və strateji məqsədli mühitinin yaranmasına səbəb olur. Fikrimizcə, insan potensialının varlığı strateji bir sistemdir. Bu sistem ölkənin dayanıqlı istehsal sahələrinin şaxələnməsini idarə edir, istehsal sahələrinin diversifikasiyasının əlaqələrini nizamlayır, texnoloji tsikllərinin əsasında ərazi-istehsal strukturlarının optimallığını təmin edir.

- **İnsan kapitalın nəzəri baxışlarının strateji önəmi**

İqtisadi və sosial inkişafın nəzəri baxışları ilə insan inkişafı konsepsiyası arasında dialektik vəhdəd yaradan insan kapitalı nəzəriyyəsi hər bir ölkənin strateji məqsədlərininin reallaşdırılmasınına geniş imkanlar yaradır. İnsan kapitalı resurslarına malik olan ölkələrinin siyasi və iqtisadi potensialının artırılmasında və qloballaşan cəmiyyətinin "güc" qüvvəsinə çevrilməsində aparıcı mövqe hesab edilir[138].



**Teodor Şults**: *ABŞ-ın görkəmli elm xadimidir.*
Onun insan kapitalı, xüsusən elm kapitalı ilə bağlı tədqiqatları XX əsrdən başlayaraq bir sıra ölkələrdə praktiki olaraq istifadə edilir. 1979-cu ildə aqrar sektorun dayanıqlı inkişafına verdiyi nəzəri ideyalarına görə Nobel mükafatını almışdır.

"İnsan kapitalı" anlayışı bu və ya digər formada araşdırımalarda istifadə edilməsinə baxmayaraq amerikalı iqtisadçı-alim Teodor Şultsun adı ilə bağlanır. O,insan resurslarının artmasının səbəb və faktorlarının təhlilinə həsr olunmuş araşdırmalarında "insan kapitalı" sisteminin ideyasını vermiş və sonrakı əsərlərində ("Təhsil yolu ilə kapitalın yaradılması" və "İnsan kapitalına sərmayə" və s.) onun insanın əldə etdiyi və reallaşdırdığı resurslarının kompleks iqtisadi artımına təsirinin formalarını müəyyənləşdirmişdir.

İqtisadi artımın yeni amillərinin elmi axtarışı zamanı T.Şults müəyyən etmişdir ki, məhz təhsil insanı sadə icraçıdan yaradıcı işçiyə çevirir, vəziyyəti təhlil etməyə, istehsal problemlərinin optimal həlli yollarını axtarmağa vadar

[138] Hesablamalara görə = 1 kq elmtutumlu məhsulun dəyəri 65-70 ton neftin qiymətinə bərabərdir.

edir. O yalnız orta və ali təhsil müəssisələrində birbaşa təhsil xərclərini deyil, həm də evdə özünü-tədrisi, işdə təcrübə artırılmasını, eləcə də səhiyyə, təhsil və elm sahələrinə kapital qoyuluşlarını da insan kapitalına sərmayə kimi əsaslandırırdı. Nəzəri-praktiki cəhətdən effektli məzmuna malik olan "insan kapitalına" sərmayə və insan əməyinin dəyərinə verilən yüksək qiymət əsasında ölkənin iqtisadi-sosial inkişafı modernizasiyası xəttinə keçə bilər.



**Qeri Bekker** *(ABŞ):*
İnsan kapitalı nəzəriyyəsinə görə Nobel mükafatı almışdır. Onun fikrinə əsasən insan kapitalı təhsilə qoyulan investisiyaların miqdarına, yəni biliklərin alınması və mənimsənilməsinə çəkililən pul məsrəfinə bərabərdir.

İnsan kapitalı konsepsiyasının elmi-praktiki istiqamətinə dair aparılan araşdırmalarının sistemində Q.Bekkerin "İnsan Kapitalı" (1964-cü il) adlı fundamental əsərində insan kapitalına qoyulan sərmayələrə təkcə təhsil xərclərini deyil, səhiyyəyə, informasiyaya, iş axtarılmasına, uşaqların tərbiyəsinə və sair sahələrə də sərf olunmasını təklif etmişdir.

Bekkerin "İnsan kapitalı nəzəriyyəsi"ndə irəli sürdüyü ideyalar elmi-praktiki əhəmiyyətə malikdir. Q.Bekkerin fikrinə görə, işçinin insan kapitalı ilə, yəni onun bilik ehtiyatları ilə müəyyən edilir. Əmək prosesində ondan istifadə əlavə gəliri də təmin edir. İnsan kapitalının fiziki kapitaldan əsas fərqi onun öz daşıyıcısı olan şəxsdən ayrılmaz olmasından ibarətdir. Buradan bir neçə nəticələr çıxır. Əvvəla insan kapitalının sahibi onun istehsalda istifadəsi zamanı şəxsən iştirak etməlidir. İkincisi, insan kapitalından gəlir əldə olunması üçün işçi öz əmək və qüvvəsini sərf etməlidir. Üçüncüsü, insan kapitalı, nə satıla, nə də vərəsəlik qaydasında verilə bilməz. Dördüncüsü, insan kapitalının xidmət müddəti insanın əmək həyatının davamlılıq ölçüsü ilə müəyyən edilir.

Q.Bekker göstərir ki, insan kapitalının formalaşmasına çəkilən məsrəflər özlərini investisiyalar kimi biruzə verirlər, çünki onlar resursların indiki zamandan gələcəyə yerdəyişməsini nəzərdə tuturlar. Onun fikrinə görə insan kapitalının üç əsas növünü ayırır - ümumi biliklər, əsas biliklər və digər növ biliklər.

Məntiqi olaraq,insan əməyinin səriştəliliyi yüksək olduqca, onun yaratdığı kapital da dəyərli olur, deməli belə kapital üzrə gəlir də (əmək haqqı) yüksək olmalıdır. İnkişaf etmiş ölkələrdə insan kapitalına sərmayə qoyuluşları cəmiyyət üçün ən effektiv və özünü ən tez doğruldan məsrəflər kimi qəbul edilir. İnkişaf etmiş ölkələrdə insan kapitalı ərazi-istehsal kompeksinin dayanıqlı inki-

şafında, iqtisadi potensialın optimallaşdırılmasında tədbiqi xarakter daşıyır. Tədbiqi yanaşmada inkişaf sadəcə iqtisadi artım tempinin artması deyil, həm də insan kapitalına sərmayə qoyuluşu və yoxsulluğun azaldılması ilə ölçülür.

İnsan kapitalı dünya iqtisadiyyatının aparıcı cahəsidir. Bir çox ölkələrdə formalaşan insan kapitalı strateji mövqeyə malikdir. XX əsrin axırında insan kapitalı dünya üzrə dəyəri 365 trln. $ və ya dünya sərvətinin 66%-i özündə birləşdirmişdir. Bu dövrdə, ABŞ da insan kapitalının dəyəri 95 trln. $ və milli sərvətin 77%-i təşkil etmişdir. Çində bu göstərici 25 trln. $ və ya milli sərvətin 77%, dünya üzrə isə 7% hesablanmışdır. Braziliyada müvafiq olaraq 7 trln. $, 74%, 2%; Hindiatanda – 7 trln. $ və ya milli sərvətin 58 %-ni (dünya üzrə isə 2% ) təşkil etmişdir.

“Yeddillər” inkişaf etmiş ölkələrdə dünya üzrə 59% və milli sərvətlərinin 78%-i insan kapitalının payına düşmüşdür.

Elmi-tədqiqatın xarakterik halı kimi,son onilliklər baxımından ölkələr arasında qlobal əməkdaşlıq sahəsində “insan resurslarının inkişafına dəstək” ideyaları aktuallıq kəsb etmişdir. “İnsan resurslarının inkişafı” ideyasının əsas məqsədi insan potensialının səviyyəsinin maksimuma çatdırılması və ölkənin kompleks strategiyasında istifadə edilməsindən ibarətdir.[139]

Elmi araçdırmalara əsasən: insan inkişafı ilə insan kapitalı nəzəriyyəsi (yaxud insan resurslarının inkişafı) arasında müəyyən asılılıq vardır. İnsan inkişafı konsepsiyası və insan kapitalı nəzəriyyəsinin ümumi mövqeyinə görə, insanın bacarıqları və imkanları istehsal prosesi üçün əhəmiyyətlidir. Lakin insan kapitalı nəzəriyyəsində insanlara istehsalın artırılması üsulu kimi baxılır, bundan fərqli olaraq insan inkişafı konsepsiyası ilkin olaraq hər bir ölkənin tərəqqisinə xidmət edir.

Müasir dövrdə biliklərə əsaslanan iqtisadiyyatın (“knowledge-based economy”) yeni konsepsiyasının coğrafiyası ölkələr üçün aktuallıq kəsb edir. İnformasiya texnologiyaları və kompüterləşmənin bünövrəsi üzərində formalaşan qlobalaşan iqtisadi və siyasi sisteminin hərəkətverici qüvvəsi intellektual fəaliyyət hesab edilir. İntellektual fəaliyyət artıq onun əlavəsi, köməkçi törəməsi deyildir. Kapitalın əşya və monetar formada toplanması prosesi öz yerini informasiyanın toplanmasına vermişdir. Məsələn, yer təkində yerləşən sənaye əhəmiyyətli resursların, dayanıqlı iqtisadi inkişafının ideya mənbələri və s. fundamental tədqiqatlar “düşünən beynlər” tərəfindən idarə olunur.

[139] Dünya ölkələrinin inkişafına dair araşdırmalar göstərir ki, büdcədən elmi tədqiqatlara ayrılmalar 2%-dən azdırsa, həmin elm-tədqiqatlar ölkənin iqtisadiyyatına təsir etmir.

Müasir dövrdə məşğulluğun strukturunda dinamik dəyişikliklər baş verməkdədir. Vaxtilə sənaye, aqrar və s. sahələr ölkənin əsas struktur kompleksləri hesab edilirdi. Artıq bu sferalar öz yerini "informasiya iqtisadi inkişaf", "biliklərə əsaslanan cəmiyyət", "intellektual iqtisadiyyat", "bilik məhsulları" kimi yeni məzmunlu termonologiyalarla əvəz olunmuşdur.

BMT-nin İnkişafın Planlaşdırılması üzrə Komitəsi özünün hesabatlarında ölkələrdə struktur yenidənqurmanın insan aspektini nəzərdən keçirməsinə dair təkilif paketinin hazırlanmasına dair elmi tədqiqatlardan istifadə edilməsi tövsiyyə olunmuşdur (1987-ci il). Bu tövsiyyələr Mahbub ul Haqın, Kiyt Qriffinin, Amartya Senin və Con Naytın rəhbərliyi altında əsaslı tədqiqatlarının aparılmasına stimul verdi. Tədqiqatların nəticəsi olaraq çap olunan "İnsan potensialının inkişafı: İnkişaf strategiyasının unudulmuş aspekti" adlı hesabat əslində insan inkişafı konsepsiyasının başlıca prinsiplərini özündə əks etdirən ilk analitik proqram idi.

On dördüncü önəm

## "İnsan - ətraf mühit"ə uyğunlaşma reaksiyası

- **İnsan orqanizmin ətraf mühitə uyğunlaşması**

İnsanın əmələ gəlmə dövründən başlayaraq Yer kürəsində[140] yayılmış insan qrupları yaşamaq uğrunda dinamik olaraq ətraf mühitə uyğunlaşma prosesinə məruz qalmışdır. Uğunlaşma: dinamik mühitin dilaktekasını özündə cəmləşdirdiyi səbəbindən insanların bütün həyat fəaliyyəti bununla bağlıdır.

Yer kürəsinin coğrafi en dairələrində iqlim resursları bir-birindən fərqləndiyi üçün, "insan-yaşayış mühit" tsikllərinin təsiri informasiyasında da fərqlərinin yaranmasına səbəb olmuşdur. İnsan orqanizmi eyni zamanda müxtəlif iqlim şəraitində yaşamaq qabiliyyətinə malik olması göstərir ki, onlarda xüsusi uyğunlaşma "reaksiyası" mövcuddur. Bütün canlı orqanizmlər kimi insan orqanizmi də yaşadığı coğrafi mühitin bütün komplekslərinə qarşı həssaslaq göstərmək qabiliyyətinə malikdir. Bu həssaslıq və orqanizmin müəyyən cavab reaksiyası göstərməsi insanda homeostazın[141] sabit saxlanılmasına tam cavab verir.

Dünyanın ən soyuq məskənlərində sayılan Verxoyanskdə (Şərqi Sibir) orta illik temperatur mənfi $18^0$C-dir, lakin ilin ən soyuq ayı sayılan yanvarda orta temperatur – $35^0$C-yə çatır. İlin bəzi günlərində temperaturun hətta – $68^0$ C-yə qədər aşağı düşür. Əlcəzair Saxarasının İn-Salah məkanında ilin ən isti ayında (iyul) orta illik temperatur $38^0$-yə qədər yüksəlir. Lakin daha yüksək və alçaq temperatur şəratində yaşayan insan populyasiıalarının uyğunlaşması halları da mövcuddur.

Xarici temperatur mühitinin belə kəskin dəyişilməsinə baxmayraq insan orqanizmin daxili temperaturu çox az dəyişilmələrinə məruz qalır. Bədən tempe-

[140] Yer kürəsinin quru sahəsinin təxminən 100 mln. km$^2$ sahəsində insan yaşayışı üçün faydalıdır.
[141] Homeostaz (yun. homeo-eyni, staz-hərəkətsiz deməkdir). Bu termini elmə ilk dəfə U.Kennon tərəfindən gətirilmişdir. Homeostaz – orqanizmdə daxili mühitin sabitliyi deməkdir.

raturu beynin hipotalamus mərkəzi tərəfindən tənzimlənir, bədən temperaturun qalxıb-enməsinə həssaslıq göstəri.[142] Əgər ətraf mühitin temperaturu 27-32$^0$ dəyişilərsə, bədən temperuturu 37$^0$-yə qalxmasına səbəb olur. Sübut olunmuşdur ki, nigeriyalılar, çinlilər, hindlilər, Kalixari səhrasında yaşayan buşmenlər, Cənubi Afrika bantuları, habelə tropik ölkələrdə və səhralarda yaşayan avropalılar isti iqlim şəraitinə eyni formada uyğunlaşır. Deməli, bütün irqlərə mənsub olan xalqlar ətraf mühitinin dinamikasının uyğunlaşma xüsusiyyətinə malikdirlər. Bu səbəbdən də ilk insan ekvatorial təbii komplekslərində yaranmasına dair yanaşmaları düzgün sayılır.

Bioloji varlıq kimi,insan orqanizmi həm də soyuq iqlim şəraitində yaşamağa da fizioloji cəhətdən uyğunlaşır. Təhlillərə əsasən, Artikada yaşan əhalinin enerjiyə olan tələbatı tropok ölkələrdə yaşayanlara nisbətən daha yüksəkdir. Nəticələr göstərir ki, insanda maddələr mübadiləsi zamanı istiliyin artması zülal tərkibli qida qəbul etməklə əlaqədardır. Müəyyən olunmuşdur ki, soyuq iqlim şəraitində yaşamağa uyğunlaşmış insanların dərisi, hətta soyuqda belə,isti olur. Məsələn, Avstraliyanın mərkəzi massivlərində yaşayan aborigenlər 0$^0$C temperaturda paltarsız yatır və bu zaman heç bir narahatçılıq hiss etmirlər. Lakin onlar üzərində müşahidə aparan avropalı alimlər belə şəraitdə yata bilməmiş və soyuqdan əziyyət çəkmişlər. Deməli, abrogenlər avropalılara nisbətən aşağı temperatura dözumlülükləri ilə fərqlənirlər. Avropalılar ilk vaxtlar soyuqda yata bilməsələr də, müəyyən vaxtdan sonra həmin şəraitə fiziloji uyğunlaşmışlar.

İnsanlar arasında bədən formasının xarakterlərinə görə mövcud olan fərqlər mühitə uyğunlaşmada mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlara görə isti ölkələrdə yaşayan bütün insan populyasıyalarının bədəninin orta çəkisi mülayim və soyuq iqlim şəraitində yaşayanlara nisbətən aşağıdır. İsti ölkələrdə yaşayan inasanların aşağı və yuxarı ətrafları bədənin ümumi ölçüsünə nisbətən uzundur.[143]

Günəşin ultrabənövşəyi, eləcə də kosmik və sair şüalar insan orqanizminə ciddi təsir göstərir. Yer kürəsinin müxtəlif enliklərində ultrabənövşəyi şüaların insan orqanizminə təsiri arasında fərqlər müşahidə olunur. Şüaların təsiri nəticəsində dəridə baş verən qaralma bir sıra mürəkkəb proseslərlə əlaqəlidir. Dərinin qaralması aşağı dozada baş verdikdə belə onun əlamətləri iki aya qədər qalır ki, bunun özüdə müdafiə effektini yaradır. Buna misal olaraq albinosları göstərmək olar. Onlarda dəri qaralmır, lakin epitem dozanın səviyyəsi yüksək olur.

[142] Основы экологии. М., 2010.
[143] Виология человека. М., 2002.

Tədqiqatların nəticələrinə görə,ultrabənöşəyi şüalarla dəri xərçənki arasında əlaqələr mövcuddur. Günəş radiasiyası yüksək olan coğrafi enliklərində dəri xərçənki geniş arealları əhatə edir. Dəri xərçənkinə ağ dərili insanların üzündə (bədənin paltarla örtülməyən hissəsində) daha çox müşahidə olunur. Avstraliyanın Kvinclend ştatı ekvatorda yerləşdiyi səbəbindən orada yaşayan insanlar arasında dəri xərçənkinin rastgəlmə tezliyi Böyük Britaniyada yaşan insanlarına nisbətən 20 dəfə çoxdur.

Coğrafi enliklərdə məskunlaşan insanların dərisinin rəngliyinin müxtəlifliyi ültrabənövşəyi şüalarının intensivliyi ilə əlaqəlidir. Sudan ölkəsində günəş radiasiyasının intensivliyi maksimum olduğu üçün orada yaşayan insanlar arasında güclü piqmentləşmə müşahidə edilir. Səhra və savanna zonalarında yaşayan insanların dərilərinin rəngi çox tünd olur. Mülayim qurşaqlarda bülüdlu günlərin sayı çox olduğu üçün orada yaşayan insanlar il boyu ən az günəş işığı qəbul edirlər. Arktika səması isə yayda bulud və tozdan azaddır. Qışda isə qar və buz qatı düşən işığı əks etdirdiyinə görə ultrabənövşəyi şüaların intensivliyi yüksəlir. Mülayim qurşaqlarda yaşayan insanlara nisbətən Arktika xalqlarının dərisinin qarabuğdayı olması da məhz bununla əlaqədardır.

Tibet dağlarında insanlar tərəfindən istifadə edilən torpaqlar dəniz səviyyəsindən 2700-4500 metr yüksəklikdə yerləşir. And dağlarında məkunlaşan insanlar isə dəniz səviyyəsindən 5200 metr yüksəklikdə daim oturaq yaşayır və işləyir. And dağlarında yaşayanların bir qismi hər gün filiz mədənlərində işləmək üçün hətta 5800 metr yüksəkliyə qalxır, işdən sonra isə 600 metr aşağı enerək özlərinin daimi yaşayış yerlərinə  (fərq 5200 metr ) qayıdır.

İnsan uzun müddət yüksək dağ şəraitində yaşadıqda onda bir çox uyğunlaşma əlamətləri meydana çıxır və nəticədə orqanizm daha dözümlü olur. Dəniz səviyyəsindən aşağıda yaşayanların hər $mm^3$ qanında 4.2 mln.eritrosit olduğu halda, 2400 metr yüksəklikdə 6.0 mln., 4100 metrdı 7.5 mln., 5600 metr yüksəklikdə isə 8.3 mln. eritrosit olur. Dəniz səviyyəsindən yuxarı - 3500 metrə qədər yüksəklikdə yaşayanların qanın tərkibindəki hemoqlobinin miqdarı ilə barometrik təzyiq arasında qarşılıqlı asılılıq mövcuddur. İrqi mənsubiyyətindən asılı olmayaraq 2500-3000 metr yüksəklikdə yaşayan kəşmirlilər, 4500 metr yüksəklikdə yaşayan tibetlilər, 5500 metr yüksəklikdə yaşayan And dağlarının sakinləri məskunlaşdıqları şəraitə eyni reaksiyada uyğunlaşma əlaməti qazana bilir. Məsələn, Perunun (And) yüksək dağ rayonlarının yerli sakinlərinin qanında eritrositlərin miqdarı dəniz səviyyəsindən aşağıda yaşayan populyasiyalara nisbətən 30% yüksəkdir. Alimlər yüksək dağ şəraitində yaşayan populyasiyalar üzərində apardıqları müşahidələrinə əsasən belə bir nəticəyə gəlmişlər ki,dəniz səviyyəsindən 3000 metr yüksəklikdə yaşayan şəxslər yüksək

iş görmək qabiliyyətinə malikdirlər. Himalayda yaşayan şəxslər ağır yükü fiziki qüvvə ilə həyata keşirirlər.

Yer kürəsinin bütün enliklərində yaşayan insanların xəstəliklərə qarşı reaksiyası da müxtəlifdir. Bu onunla ölçülür ki, insan xəstəlikləri ətraf mühit şəraitilə orqanizmin qarşılıqlı əlaqəsi sahəsində meydana çıxır. Ətraf mühitdəki mikroorqanizmlərinin daşınmasında su, hava, müxtəlif canlılar, o cümlədən insanlar da iştirak edir.

Bir sıra yoluxucu xəstəliklərin iqlim şəraitilə əlaqədar olması sübut olunmuşdur. Məsələn, çoxillik orta temperatur şəraiti $27^0$C olan ərazilərdə tropik xəstəliklər geniş yayılmışdır. P.T.Bejker (1981) müxtəlif alimlərin Peruda apardıqları tədqiqatlara əsaslanaraq belə qənaətə gəlmişdir ki, yüksək dağ rayonlarının iqlim şəraiti düzən zonasında yaşayan insanlarının sağlamlığı üçün qeyri-əlverişlidir. Yüksək dağlıqlarda yaşayan insanlarda bir sıra xəstəliklərin meydana çıxmasını və inkişaf etməsini oksigen təzyiqinin aşağı düşməsi ilə ağciyər şişi, xroniki dağ xəstəliklərinin əmələ gəlməsinə şərait yaradır.

- **“İnsan - qida enerji”nin mənbələrinin coğrafiyası**

İnsanların müxtəlif coğrafi enliklərdə məskunlaşması şəraitində qida enerji ilə təminatı arasında fərqlərin formalaşmasına səbəb olmuşdur. Qida - insanın yaşaması və hərəkət dinamikasında həlledici funksiya daşıyır. Çünki, qidanın tərkibindəki enerji maddələr mübadiləsinin getməsi ilə yanaşı, eyni zamanda insan orqanizminin fəaliyyəti (böyümə, çoxalma, sabit temperaturun saxlanılması və s.) üçün zəruri şərt hesab edilir. Orqanizm bütün fəaliyyətində enerji sərf etmək və uyğunlaşma qabiliyyətinə malikdir. İnsan qida əldə etmək məqsədilə müxtəlif növ fəaliyyətlər icra edir və bu zaman sərf edilən enerjinin ekvivalenti işin xarakterindən asılı olaraq dəyişilir. Qərbi Avropada sənaye sahəsində çalışan kişilər saatda 1250 və qadınlar isə 838 k C enerji sərf edirlər.

Qida enerjisinin resursları tsikli və onun mənbələri şox müxtəlif təsnifatlarına ayrılır. İnsan öz varlığı dövrdən başlayaraq ərzaq məhsullarından bir qida kimi istifadə etsələr də bunlar içərisində əsas enerji mənbəyi rolunu yağ, karbohidrat və zülallar oynayır. Lakin insanın yaşadığı iqlim tipindən, iqtisadi inkişaf fəaliyyətinin asılı olaraq yağ, karohidrat və zülalların hər nəfərə düşən gündəlik miqdarı dəyişkəndir. C.Uaynerə (1979) görə müxtəlif insan populyasiyalarının bir qida kimi qəbul etdikdə yağ, karbohidrat və zülal mənşəli maddələrinin miqdarı bir-birindən fərqli olduğu kimi, insan orqanizminin istifadə

etdikləri enerji də fərqlidir.[144] Orqanizmdə karbohidrat çatışmadıqda zülal və yağlar karbohidratlara,yağ çatışmadıqda isə karbohidrat və zülallar yağları əmələ gətirməklə orqanizmi müvafiq enerji ilə təmin etmiş olur.

Orqanizmin həyat fəaliyyətində mineral maddələr çox mühüm əhəmiyyət kəsb edir. Müxtəlif orqanizmlərdə suyun miqdarı çox geniş ölçüdə dəyişir, bu dəyişilmlər orqanizminin ümumi çəkisinin 1%-ni təşkil edir.

Təhlillə əsasən coğrafi enliklərdə yaşayan insanların müxtəlif təbii şəraitdən asılı olaraq onların qəbul etdikləri qidalanma rejimi də müxtəlif olur. C.Uayner qidalanma rejiminin xususiyyətlərinə görə mövcud olan fərqləri üç əsas coğrafi təsanifatına ayırır: 1) ovçuluq və maldarlıqla məşğul olanlar; 2) əkinçiliklə məşğul olanlar; 3) eyni vaxtda həm əkinçilik, həm də heyvandarlıqla məşğul olanlar. Birinci təsnifatların qidasının əsasını zülallar, ikinçilər – az miqdarda zülal olmaqla əsasən karbohidratlar və üçünçü də isə qarışıq qidalar təşkil edir. Şimali Amerikanın abrogenlərindən sayılan eskimosların qida rasionunda qışda dəniz ovçuluğu ilə məşğulluq üstünlük təşkil edir. Qışda suitilərini, yayda isə morjların ovundan alınan qida məhsulları üstünlük təşkil edir. Qidalanmaya görə eskimoslar heç vaxt raxit, sinqa və vitamin çatışmamazlığından əziyyət çəkmirlər.

Afrikada yaşayan Qambi icmalarının qidasının əsasını dənli bitkilər, tərəvəz, ət və süd məhsulları təşkil edir. Bunlar qarışıq olsa da əsas qida kimi dənli bitkilər (xüsusən düyü) üstünlüyə malikdir. Qambilərin qidasını eskimoslarla müqayisə etdikdə birincilərdə zülal çatışmamazlığı müşahidə olunur. Bu səbəbdən də Qambi icmalarında daha çox qaraciyər serrozu xəstəlikləri geniş yayılmışdır.

[144] Уайнер Дж. Экология человека. М., 1979.

# DÖRDÜNCÜ BÖLMƏ

# DİALEKTİK FUNKSİONAL COĞRAFİYA
## STRUKTURU, MODELLƏŞMƏ HƏSSASLIĞI

- *Funksional coğrafiya elmin model həssaslığı*
- *Coğrafi-iqtisadi tədqiqatın funksional konturları*
- *Həyat keyfiyyətinin funksional coğrafiyası*
- *Dayanıqlı iqtisadi inkişafının  funksional xəritəsi*
- *Dialektik funksional strukturunun həssaslığı*

On beşinci önəm

# Funksional coğrafiya elmin model həssaslığı

- **Funksional coğrafiya: rasional məntiqi, modelləşmə elmi xətti**

Coğrafiya elmi mənbələrdə funksianal struktur modellərinin formalaşmasına dair araşdırmalar aparılmışdır. Təhlillər göstərir ki, funksiyal modellərinin ərazi təşkili dayanıqlı iqtisadi inkişaf tempinin formalaşması üçün optimal variantlarını təmin edir. Funksional modellər hər bir ölkənin iqtisadi-sosial və siyasi xarakteristikasına dair müxtəlif istiqamətli tədqiqatlarının nəticələrinin elmi xəttinin kompleksliyini özündə əks etdirir[145].

Funksional coğrafiya elmi rasional məntiqli ideyalarının taktiki funksiyasının əsasının fonunda "dialektik münasibətlik" və "dialektik qeyri-münasibətlik" əlaqələrinin tamlığını özündə birləşdirən modelləşmə həssaslığının praktikasının strategiyasıdır.

Fikrimizcə, dialektik coğrafiya elmində funksionalılığın modeli: dayanıqlı inkişafının şaxələnmiş iqtisadi-siyasi və strateji xəttidir. Bu xəttin yaradılması istehsal ilə coğrafi məkan arasında texnoloji reaksiyasının təmin edilməsi, primadial açıq və qapalı sistemlərinin formalaşması üçün stimul hesab edilir.

Açıq və qapalı sistemlərinin əsas ideyası ölkənin makroiqtisadi kompleks funksional strukturlarının yaradılması və ərazi təşkilinə nail olmasından ibarətdir. Məna cəhətdən sistem anlayışında daha bir çox önəmli məsələ isə coğrafi və iqtisadi tədqiqatlar qapalı və ya açıq sistemlərinə dair mextəlif yanaşmalarının olmasıdır. Açıq sistem, sistemin özü və onu əmələ gətirən faktorların xarici mühitlə qarşılıqlı münasibətlərdə (əsasən informasiya) olması deməkdir. Təbii ki bunun nəticəsində sistem və sistemi əmələ gətirən hər bir mərhələ daim təsirdə ola biləcək və dəyişikliklərə məruz qalacaqdır. Qapalı

[145] Моделирование как метод научного исследования. М., 2002.

sistemdə isə bu qarşılıqlı münasibətin və ya informasiyanın olmaması və ya buna səd çəkilməsi əsasdır.

Ümümi Daxili Məhsul (ÜDM) ən mühüm funksional modellərinin formalarını təyin edən göstəricilərindən biridir. İqtisada inkişafın artım tempi, iqtisadi konyukturu və iqtisadi struktur dəyişiklikləri məhz ÜDM göstəricilərinin əsasında ümumi nəticələrə gəlmək mümkündür. Buna görə də ÜDM-in milli inkişafında funksional struktur model formalarının praktiki həlli yollarını nəzərə almadan şaxələnmiş iqtisadi və sosial inkişafa nail olmaq mümkün deyildir.

Funksional modelləşmə digər bir tərəfdən, ölkənin siyası mövqeyini,onun qlobal miqyasda reytinqini də təmin edir. Bu məqsədlə də modelləşmə ölkənin taktiki inkişafına çevik və adekvat reaksiya verir və dövlətin siyasi-iqtisadi və sosial ərazi-istehsal strukturlarının formalaşmasında strateji əhəmiyyət kəsb edir.

> Strateji inkişaf = hər bir ölkənin funksional coğrafiyasına uyğun ərazi-istehsal kompleksinin dayanıqlığının mühüm arqumentlərinin meydana gəlməsinə səbəb olur.

Strateji problemlərinin həyata keçirilməsi ilkin olaraq ölkənin təbii və iqtisadi potensialının şaxələnməsinə səbəb olmaqla yanaşı, onun "güc" qüvvəsini artırır və inteqrasiyaya səbəb olur. Problemə kompleks yanaşsaq ölkənin qlobal mühitə inteqrasiyası ilk növbədə iqtisadi modellərinin dayanıqlığının və onun təhlükəsizliyinin təmin edilməsi ilə əlaqəlidir. Milli iqtisadi inkişafının rəqabət qabiliyyətliliyini artirmaq, daxili və xarici bazarlarda rəqabətə davam gətirmək iqtidarında olan təhlükəsizliyinin təminatı optimal səviyyədə reallaşdırıla bilər. Ölkədaxili istehsal sahələrinin keyfiyyətinin yüksəldilməsi, istehsal olunmuş məhsulun qiyməti və s. amillər milli iqtisadi inkişafın rəabətqabiliyyətinin reallaşdıran mühüm optimal şərtlərindən biri kimi effektlidir.

Dialektik funksional struktur modelinin müqayisəli üstünlüyünün indeksinin müəyyən etmək şərtində iqtisadi inkişafın optimal səviyyəsində ölkənin strateji maraqlarını təmin edir və onu kompleksləşdirilir. Təhlillər göstərir ki, funksional müqayisəli üstünlüklər indeksinin təyini və onun kəmiyyət göstəricilərinin texnologiyası ərazi-istehsal strukturun kompleks dayanıqlığının effektliyini artırır.

Məsələ onunla izah olunur ki, ökənin davamlı inkişafı üçün resurs potensialından effektli istifadə etməklə funksional strukturun müqayisəli modelinin praktiki olaraq istifadə edilməsi istiqamətində kompleks rasional xəttini müəyyən edə bilərik.

Funksional dialektik yanaşma nəticəsində modelləşmə iqtisadi-sosial inkişafının effektliyini artırmaqla yanaşı ölkənin, strateji potensial səviyyəsinin indeksləşməsinin təsnifatına imkanlar yaradır. İlkin olaraq funksianal model-

ləşmə ölkə daxilində diversifikasiya struktur dəyişilmələrinin konsepsiyasının praktiki nəticələrini özündə birləşdirir.




**G** - ümumi daxili məhsul modeli ($g_1$ = daxili resurs potensialı; $g_2$ - ixrac resurs potensialı ).

**D** - ərazi-istehsal texnolji modeli ($d_1$ = ərazi struktur modeli; $d_2$ = tədbiqi struktur modeli; $d_3$ - strateji layihələrinin hazırlanması modeli; $d_n$....).

***Funksional strukturun (FS) müqayisəli modeli***

Funksional strukturun sistemləşməsində iqtisadi-riyazi modellərinin əsasında yerinə yetirilir. İqtisadi-sosial dəyişkənliyinin fonunda funksional modellərin təşkili və coğrafiya elminin tədqiqatlarında istifadə edilməsi daha çox effektlilik yarada bilər. Məsələ onunla bağlıdır ki, ərazi-istehsal modellər sistemi coğrafiya elminin məzmununa daxildir. Analitik coğrafi təhlillərinin metodlarına malik olmadan funksional elmi konsepsiyasının tətbiqinə nail olmaq qeyri-mümkündür.

- **Funksional strukturun klaster model həssaslığı**

Klaster[146] - eyni növlu müxtəlif elementlərinin (obyektlərinin) qarşıqlıqlı istehsal sahələrinin müəyyən vahidlərinin yaranması və ərazi təşkli kimi qəbul olunmuşdur. Klaster təlimi funksional coğrafiya elminin konstruktiv enerji-istehsal tsikllər nəzəriyyəsinin məntiqi ideyalarına daha çox yaxındır. Qərb ölkələrinin elmi mənbələrində daha çox istifadə edilən klaster modeli funksional strukturlarının təşkili və idarə edilməsi prosesində yeni məzmuna çevrilmişdir.

[146] Klaster -ingilis dilində - Cluster- “qarşıqlı vəhtəd” deməkdir.

Funksional struktur prosesində məqsədli formada klaster modeli əsasən iki istiqamətdə təhlillərinin aparılmasının ideyasına əsaslanır: resurs potensialın modelləşməsi əsasında funksional strukturun proqnozlaşdırılması və proqnoz funksional struktur modelinin strateji reallıqlarının elmi-praktiki istiqamətində əsaslandırılması.

Klaster modeli - funksional strukturun stratejiyasını önəmə gətirir, həssaslığını aktivləşdirir. Buna görədə elmi mənbələrdə muxtəlif strukturların formalaşmış klasterlərinə üstünlük verilir. Dialektik coğrafiya elmi üçün klaster modelin əhəmiyyəti o dərəcədə böyükdür ki, ölkənin dayanıqlı inkişafını təmin edən bu tip modellərin tədbiqi haqqında düşünmək daha effektli hesab edilir.

Klaster modelinin formalaşması, onun funksional fəaliyyətinin tam təmin olunması, istehsal coğrafiyasının yeni optimal variantlarının müəyyən etməklə yanaşı, coğrafi məkanda bu modellərinin müxtəlif səviyyələrdə kompleks təşkili daha optimal sayılır.

Məlumdur ki, funksional **klsater modeli** müəyyən ərazilərin potensial resurs təmiatına uyğun olaraq formalaşır:

Buraya daxildir:
**G** - resursların iqtisadi-sosial potensial modeli;
**G**$^x$ - strateji mövqeyi modeli ;
**G**$^y$ - strukturun klaster modeli.




Formalaşmış klaster modelinin praktikasının təyin edilməsi, bir tərəfdən geosiyasi, iqtisadi və coğrafi baxımdan kompleks yanaşmalarını tələb edirsə, digər tərəfdən isə idarəetmənin çevik forması kimi strateji məqsəd və vəzifələrin həlli üçün proqramların yerinə yetirilməsinə ideal mühüt yaradır.

Geosiyasi və coğrafi məkan baxımından funksional klaster modelinin optimal idarə edilməsi strateji mahiyyət daşımaqla yanaşı, resursların potensial məhsuldarlığının yüksəldilməsi üçün dayanıqlı inkişaf mühitini tənzimləyir.

Klaster tədqiqat mənbələrindən əsasən XIX əsrin ikinci yarısından başlayaraq istifadə olunmuşdur. Məsələyə ilkin olaraq şübhə ilə yanaşanlar da, sonrakı dövrlərdə isə elmi təlim kimi klaster yanaşma metodologiyasının mənbələrindən tədqiqatçıların ideya mənbəyinə çevrilmişdir.

İqtisadi-sosial inkişafının dayanıqlığının təminatında son illərdə klaster modelindən geniş istifadə edilir.

Klaster modeli vasitəsi ilə ərazi-istehsal strukturun idarə edilməsi, əhalinin məskunlaşması, sosial, siyasi, ekoloji və s. sferalarının dialektikası elmi-prak-

tiki formasında əsaslandırılır. Başqa ifadə ilə desək, klaster metodu ilə “təbiət-cəmiyyət”sisteminin şaxələnməsi probleminin dialektikasının təhlilləri aparılır və müəyyən səviyyə çərçivəsində kompleks xarakterə çevrilir.

Elmi-praktiki mənbələrdə klaster metodologiyası ilə hər bir ölkənin (regionun) struktur formalarının yaradılmasında və praktiki həlli yollarında geniş istifadə edilir. Bu da ilk növbədə ərazi-istehsal strukturlarının çoxfunksiallığının optimal variantlarının həll olunmasına əlverişli təkamül mühitini yaradır. Məntiqi olaraq coxfunksiallıq strukturlaşma = dayanıqlı iqtisadi təkamülünün xüsusi bir halıdır və ölkənin gələcək inkişafında fəallıqlar göstərir.

- **Funksional dayanıqlı inkişafının anatomiyası**

Funksional struktur önəmi-qlobal bir iqtisadi orqanizm kimi ölkənin və ölkələrarası dayanıqlı əlaqələrinin anatomiyasından asılı olaraq formalaşmışdır. Ölkənin iqtisadi əlaqəsinin funksional struktur modelinin formalaşması ərazi-istehsal sahələinin dinamikasını, milli və beynəlxalq bazarlarının inteqrasiyasını təmin edilmiş olur. Ən geniş mənadə = iqtisadi inkişafın orqanizmi = istehsal strukturun diversifikasiya fəaliyyətinin əsas ideya mənbəyinə çevrilir. Müasir dövrdə bir sistem daxilində istehsal strukturlarının kompleksinin təşkil edilməsi mümkün deyildir.

İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi potensial orqanizmi virtual səviyyədə müxtəlif ölkələrinin inkişafı üçün təminat vermək imkanına malikdir. XX əsrin ortalarından başlayaraq iqtisadi fikir ondan ibarət olmuşdur ki, regionlar (ölkələr) üçün ümumi olan iqtisadi və sosial idarəetmə mexanizmi olmadan kompleks struktur fəaliyyət göstərmək imkanından kənar hesab edilirdi.

Keçən əsrin 80-90-cı illərində regional iqtisadi sistemə keçid dünya ölkələri ilə yeni iqtisadi strukturlarının əlaqəsinin yaranması və idarəedilməsinin fonunda formalaşması ilə xarakteriza olunmasıdır.[147] Məntiqi nəticə ondan ibarətdir ki, ölkələrarası struktur dəyişkənliyinin virtual səviyyəsinə çatmış və ya çatmaq ərəfəsində olması xarakter hala çevrilməkdədir.

Virttual inkişaf səviyyəsinə uyğun funksional struktur modelinin dəyişkənliyinə aşağıdakı parametrləri daxil etmək olar:

* ölkənin rəqabətqabiliyyətli struktur modelinin dayanıqlığının yaradılması;

* resurs texnologiyalarının idxal-ixracı nəticəsində istehsal strukturunun hərəkət mexanizminin təmin edilməsi;

---

[147] Phal R.T. Region and regionalism . Routledge & Kegan Paul. London, 2000.

* virtuallaşmanın tələbinə uyğun istehsalın diversifikasiya modelinin aktivləşmə səviyyəsinin yüksəldilməsi və s.

Praktika göstərir ki, hər bir regionun (ölkənin) iqtisadi-siyasi formada strukturlaşma problemlərinin müxtəlif xarakter və parametrlərinin olması ilə fərqlənir. Təsadüfi deyildir ki, iqtisadi-sosial sisteminin ərazi təşkili strukturunun anatomiyasının öyrənilməsi dialektik coğrafiya elminin nisbətən qeyri-adi sahəsini əhatə edir və nisbətən fərqli yanaşma tərzini özündə birləşdirir.

Məsələn, Azərbaycanın iqtisadiyyatı özünə məxsus inkişaf xəttinə malik olsa da, beynəlxalq miqyasda baş verən siyasi-iqtisadi proseslərindən kənarda fəaliyyət göstərə bilməz. Son dövrlərdə ölkənin iqtisadi inkişaf funksiyasının tempi müəyyən çərçivələrdə beynəlxalq iqtisadi-siyasi hərəkətverici qüvvəsi kimi  təsir etmək inkanına malik olması ilə fərqlənir. Bu mənada qeyd etmək olar ki, "İnkişafın Azərbaycan modeli" milli sərhədlərini keçməklə, virtual iqtisadi inkişafının çəçivəsinə daxil olmaq meylliyi artmaqdadır.

BMT-nın son illərinin statistik-metodiki məlumatına görə beynəlmilən funksional sruktur orqanizminin çərçivəsində kapital resurslarına malik olan 3 mindən artıq şirkət fəaliyyət göstərir. Bu şirkətlərinin fəaliyyəti nəticəsində dünya ölkələrinin iqtisadi–sosial inkişafının coğrafiyasında kəmiyyət və keyfiyyət baxımında yeni tipli kompleks ərazi təşkilinin formalarının  mərhələsi yaranmışdır. Kəmiyyət və keyfiyyət baxımında makrostrukturun coğrafi təşkili və idarə edilməsinin xarakterinə təsir etmiş, daha effektli və şaxələnmiş  ərazi istehsal kompleks sahələrinin yaradılmasının səviyyəsi aktivləşmişdir.

Son onilliyinin əsas məsələlərindən biri də ondan ibarətdir ki, beynəlxalq inteqrasiya birlikləri arasında da əməkdaşlıqlar, müqavilələr həyata keçirilməsi prosesləri kompleks formada reallaşdırılır. Artıq ölkələrarası iqtisadi-siyasi inteqrasiya kompleksləri ölkələrinin davamlı formalaşmasının bir elementi kimi fəaliyyət göstəirir.

Problemin həlli ölkə üçün yalnız iqtisadi cəhətlə effektli olması ilə yanaşı, siyasi-psixoloji cəhətdən də konseptuallıq kəsb edir. Uzun bir dövri əhatə edən problemli dəyişilmələr ölkələrin iqtisadi, maliyyə, texnologiya və bütün digər sahələrini də əhatə etməlidir. Bu əhatə dairəsinin təsiri nəticəsində funksional struktur modelində iqtisadi və sosial dəyişikliklərinin yaranmasına səbəb olur, ümumi inkişaf sistemlərinin transformasiyasını özündə birləşdirir. Məntiqi nəticə ondan ibarətdir ki, transformasiya yönümlü proseslərinin struktur siyasi-iqtisadi faktorlarinın təsiri altında dinamik, şaxələnmiş sistem çərçivəsində proqnozlaşdırılır.

Müasir inkişaf mərhələsinin coğrafiyasında dinamik və şaxələnmiş struktur modellərinin tədbiqi gercəkliyində milli bazarların həcmi və səviyyəsi əhə-

miyyətli dərəcədə keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Müasir beynəlxalq iqtisadi inkişafının çərçivəsində inkişaf etməkdə olan ölkərinin siyasi-iqtisadi anatomiyasında yeni bir mərhələ - davamlı informasiyanın formaları keyfiyyət baxımdan yeni məzmuna çevrilməkdədir.

- **Funksional struktur modelinin qlobal effektliyi**

Qlobal mühitin reallıqlarının konseptuallığını nəzərə alaraq fundamental tədqiqatlar aparmış C.Stiqlis (ABŞ) funksional struktur modelinin inkişafına kompleks yanaşmış və müasir dövr üçün effektli sayılan elmi-praktiki önəmli məsələlərinin həllinə nail ola bilmişdir. Fundamental tədqiqat işinin məntiqi sayılan "Globalization and Discontents" monoqrafiyasnda C.Stiqlis tərəfindən qlobal iqtisadi inkişafının təkamulünə aid geniş miqyasda təhlillər aparılmışdır. Aparılan təhlillərinin ümumi məntiqi nəticəsi ondan ibarətdir ki, funksional struktur modelinin gələcək istiqamətlərinin taktiki təşkilinin proqnozlaşdırılmasını təklif etməsidir.

Məsələnin elmi mahiyyəti ondan ibarətdir ki, qloballaşma müəyyən səviyyədə tərəqqidir və innovasiya iqtisadi inkişafının formalaşması məqsədi üçün taktiki və strateji məsələlərini kəsb edir. Aktual olaraq hər bir ölkənin gələcək dialektik strategiyasının mühiti = qloballaşan cəmiyyətinin çərçivəsinin tərkib hissəsi kimi struktur siyasətini həyata keçirir.

Funksional struktur modelinin dialektikasının gerçəklikləri göstərir ki, heç bir dövlət qloballaşma mühitindən kənarda müstəqil iqtisadi-siyasi inkişafa nail ola bilməz. Reallıq ondan ibarətdir ki, müasir inkişaf mərhələsinin çərçivəsində ölkələrin qlobal sistem modelinin texnoloji və informasiya tərəqqisi də iqtisadi xarakterini dəyişdirmişdir. Bu dəyişmələrdə bir çox ölkələr (o cümlədən Azərbaycan) özünəməxsus dialektik inkişafının əsasında yeni davamlı inkişaf mərhələsini qəbul etmişlər.

Onu da qeyd etmək lazımdır ki, qloballaşmanın verdiyi imkanlardan siyasi-iqtisadi inkişafı üçün effektli istifadə olunmasına diqqət yetirilir. Bu səbəbdən də qloballaşma istər beynəlxalq miqyasda,istərsə də ölkə daxilində keyfiyyətcə yeni strateji mühitininin yaranmasına şərait yaradır. Elmi-texniki tərəqqinin yüksəlişi funksional struktur modelinin "güc" qüvvəsini artırır və siyasi xarakterli parametrlərinə söykənməsinə yeni formalı mühitlər yaradır.

Funksional struktur siyasəti önəmli bir dayanıqlı faktoru kimi = ölkənin (regionun) milli iqtisadi sahələrinin ərazi təşkili tendensiyasınının yenidən qurulmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bunula belə qlobal iqtisadi inkişaf idealogiyası özünün məxsusi problemləri ilə bir sıra ölkələrində (xüsən in-

kişaf etməkdə olan ölkələrdə) tam reallığa çevrilməmişdir. Dünya iqtisadiyyatının inteqrasiya formalarının yaranması, istehsalın, bazar sisteminə çevrilməsi = özünün müsbət və mənfi enerji mənbələrində göstərir[148].

Müasir cəmiyyətin idealogiyasının reallıqlarının nəticələri göstərir ki qloballaşma tendensiyası elmi mənbələrində bir mənalı qarşılanmır.[149] Qloballaşma və ya fransız kökdə mondializm "tarixi inkişaf ənənələri" ilə əks qütbdə gerçəkləşməsi ideyaları hökm sürür. Mondalizmin idealogiyasının məqsədi yalnız qlobal inkişafının enerji "yükü"nün prinsiplərinin həyata keçirilməsinə diktə edir.

Qlobal mühitin iqtisadi cəhətdən yüksək sənaye ölkələrinin davamlı formalaşması ilk növbədə funksional modelin ərazi-istehsal strukturun və texnologiyaların yeni metodlarla təşkilinə zəmin yaratmışdır. Bu sahədə ABŞ, Yaponiya və bir sıra Avropa ölkələrində fəaliyyət göstərən TMK "hökümdarlıq" siyasətini həyata keçirirlər. Hazırda TMK adlanan çoxfunksional transnasional qurumlar dayanaqlı iqtisadi-maliyyə struktur sistemlərini idarə edirlər. İntellektual idarəetmə funksialarının əsasında TMK qlobal inkişafının strategiyasını təmin edir. Məntiqi baxımdan, belə strateji istiqamət = milli kapitalın fəaliyyətinin qloballaşması ilə gerçəkləşdirilir.

Dünya iqtisadiyyatının dayanıqlı təminatı kimi TMK ÜDM-in 20-25% arasında olmaqla qloballaşmanın əsas "lokamativi", dialektik "güc" qüvvəsü hesab edilir. Dünyanın strateji baxımdan dayanıqlığı qloballaşma ilə yanaşı eyni zamanda funksional modelləşmə idealogiyası da güclü formada təsir qüvvəsinə mailkdir. Funksional modelləşmə idealogiyası nəticəsində ölkələrarası birliklər, maliyyə-investisiya qrumları və s. təşkilatlar yaradılmaşdır. Funksional modelləşmə idealogiyasının müasir qütbündə ABŞ, Yaponiya, Çin və s. dövlətləri durur. Belə bir ideya vardır ki, müasir dayanıqlı inkişaf sivilizsiya mərhələsində maliyyə, siyasi və idealoji "güc qüvvəsinin dalğaları" ilkin olaraq ABŞ dövlətindən gəlir.

### ▪ "Dünya İqtisadi Forum"un funksional strategiyası

Funksional modelin dialektikasında Dünya İqtisadi Forumun strateji məqsədlərindən biridir. Dayanıqlı inkişaf sahələrinin dinamikası baxımından Dünya İqtisadi Forumun ideyalarının təsnifatında mühüm strateji araşdırmalarını aşağıdakı istiqamətdə əsasən təyin etmək olar:

---

[148] Ş.Hacıyev, Ə.Bayramov. Dünya iqtisadiyyatının tarixi. Bakı, 2012.
[149] Новейший филосовский словарь. М., 2003.

➢ Dövlətin texnoloji infrastruktur və insan kapitalının gerçəkləndIrilməsi sahəsindəki strateji funksiyasının dinamikası əsas amillərini önəmə gətirir.

➢ Texnologiya və insan kapitalı sahəsində infrastrukturunun yeniləşməsi və dayanıqlı inkişaf etdirilməsinin mənbəyində mühüm əhəmiyyət kəsb edir; daxili və xarici bazarların rəqabət mənbələrini, dövlətin maliyyə strukturlarını tənzimləyir.

➢ Xarici kapitalının gətirdiyi valyuta, idxal-ixrac malların istehsalının daxilində təşkil edilməsinə və ixrac potensiyalının artırılması üzrə fəaliyyətinin inkişafı üçün strateji əhəmiyyətli proqaramlar həyata keçirir.

➢ Xarici kapitalın iqtisadi inkişafının dinamik xarakterini təyin edir və ölkələrinin investisya siyasətinin fəaliyyətini artırır.

➢ Xarici kapital özü ilə birlikdə ümumi şaxələnmiş iqtiasdiyyata texnologiya və intellektual idarəçılık təcrübəsini ölkələrə gətirir, elmi-tədqiqat proqramlarını reallaşdırır və hər bir ölkənin strateji məqsədini müəyyən edilməsində iştirak edir.

“Dünya İqtisadi Forum”un funksional model strategiyasının təhlillərinin nəticələri göstərir ki, müasir inkişaf strategiyasında ölkələrin təbii resurslarının zənginliyi ilə deyil, resurslardan elmi-praktiki (xüsusən kreativ resurs praktikası) mənbələrindən asılıdır. Dünya ölkələri Forumun strateji mənbələrindən istifadə etməklə öz iqtisadi inkişafına dair proqramlarının hazırlanması və tədbiqinə dair fəaliyyətlərini qururlar.

Məsələn, qlobal mühitdə ərazi-istehsal struktur Azərbaycanın dayanıqlı inkişafının başlıca strateji istiqamətinə çevrilməsi, resurstutumlu, elmtutumlu iqtisadi sahələrinin optimallıq səviyyəsinin artirılması siyasəti həyata keçirilir. Bu səbəbdən də informasiya-kommunikasiya, kosmik sənaye, texnoparkların və s. yeni strukur sahələrinin dövlət səviyyəsində yaradılması davam etdirilir.

Dünya İqtisadi Forumun “Qlobal Rəqabət Qabiliyyəti Hesabatı”nda Azərbaycanın mövqeyi (GCR-2009-2010-cu il) haqqında məlumatlar verilmişdir. Məlumdur ki, Dünya İqtisadi Forumu ölkələrin rəqabət gücü indeksini ölçmək məqsədilə ölkələri inkişaf səviyyəsinə görə qruplaşdırır. Hər bir qrup üçün iqtisadi inkişafın amillərini müxtəlif nisbətlərdə nəzərə alır. İlk meyar olan Alıcılıq Qabiliyyəti Pariteti (PPP) əsasında hesablanan hər nəfərə düşən ÜDM Azərbaycanda ildən-ilə artım müşahidə olunur. Bu səbəbdən də Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən dərc edilən Dünya İqtisadiyyatının Perspektivləri (World Economic Outlook) hasabatının məlumatına əsasən, Azərbaycan 2007-ci ildən iqtisadiyyatı effektivliyə əsaslanan ölkələr sırasına aid edilməlidir. Bu hal ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin statistik göstəricilə-

rində də özünü göstərir. Növbəti illər üçün verilən proqnoz qiymətlərində də Azərbaycan qabaqcıl ölkələr qrupu daxilində təhlil edilməlidir.

Son beş ilin statistikasına əsasən, Azərbaycanda neft və neft məhsullarının ixracda payının 76-97% aralığında dəyişməsi iqtisadi inkişafının fonunda resurs amilinin təsir çəkisinin çox olduğunu göstərir.

Beləliklə də, rəqabət qabiliyyətinin yüksəldilməsində ortamüddətli ilk yerdə duran ixracda qeyri-neft məhsullarının payının artirlmasının stimullaşdırılması olmalıdır. Azərbaycan Cənubi Qafqaz Region ölkələri ilə müqayisədə rəqabət qabiliyyəti indeksinin ümumi qiymətinin göstəricilərinə əsasən irəlidədir.

> Azərbaycan Cənubi Qafqazın iqtisadiyyatının 85%-ni, demoqrafiyasının 65%-ni təşkil edir. Azərbaycan geoiqtisadi məkan olaraq çox çevik və intensiv şəkildə formalaşan ölkələrinin sırasındadır.

"Qlobal Rəqabət Qabilliyyəti Hesabatı"nda Azərbaycan Cənubi Qafqaz Ümumi Rəqabət Gücü İndeksinə (GCİ) əsasən müəyyən edilən reytinkinqdə müvafiq olaraq 51; 90 və 97-ci yerlərdə qərarlaşıb. Bu mövqelərin daha detallı öyrənilməsi üçün indeksini formalaşdıran amilləri üzrə mövqe göstəricilərinin təhlinin aparılması tələb olunur. Bunun üçün mərkəzdən uzaqlaşmaya əsaslanan qrafik təhlildən istifadə etmək olar. Ötən hesabatlarla müqayisədə Azərbaycan xeyli dərəcədə irəlidə olmuşdur. Artıq Azərbaycan beynəlxalq rəqabət üstünlüklərini və gələcək imkanlarını üzə çıxarmaq qabiliyyətinə malikdir.

Azərbaycanın müvafiq sahələri üzrə təhlil aparmaqla beynəlxalq rəqabət üstünlüklərinin gələcək potensial imkanlarını müəyyən etmək mümkündür. Beynəlxalq rəqabət qabiliyyətinin formalaşmasında institutlar birinci pilləni əhatə edir. Beynəlxalq rəqabət qabiliyyəti nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, ölkə şirkətlərinin dünya bazarında uğuru, ilk növbədə, institusional amillərdən asılıdır. Bu pillə öz tərkibində ictimai və özəl institutların müxtəlif strukturlarını birləşdirir. Mülkiyyət hüquqlarının qorunması, xüsusən də intellektual mülkiyyətin qorunmasina görə ölkə öndədir**.**

İnfrastruktur **-** ölkənin beynəlxalq rəqabət qabiliyyətini formalaşdıran ikinci mühüm pilləsidir. Həm ümumilikdə fiziki infrastrukturun, həm də ayrı-ayrı istiqamətlərinin inkişafı iqtisadi sahələrininin fəaliyyəti üçün müstəsna əhəmiyyətə malikdir. Azərbaycan ümumi infrastrukturun vəziyyəti ilə bağlı sorğunun nəticələrinə görə müqayisə edilən ölkələrdən irəlidir.

Azərbaycanda davamlı makroiqtisadi sabitlik-iqtisadi sahələrin və onun tərkib hissəsi olan müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətində əhəmiyyətli mövqe tutur. Son dövr tənəzzülləri bir daha göstərdi ki, makroiqtisadi sabitlik iqtisadi sahələrin və onun tərkib hissəsi olan müəssisələrin beynəlxalq rəqabət qabiliyyətinin təhlili ön plana çəkilmişdir. Təhlillərin nəticələri göstərir ki, mak-

roiqtisadiyatın tarazlığın bazar subyektlərinin gələcək fəaliyyətlərinilə əlaqədar olaraq qərar qəbul edilməsində daha dəqiq çıxış nöqtələrinə söykənməsinə şərait yaradılmalıdır.

Ali təhsil və ixtisasartırma - üç amil əsasında formalaşır: təhsilin kəmiyyət göstəriciləri stasistik göstəricilər əsasında; məcmu orta təhsil almış vətəndaşların sayı və əlavə peşəkar texniki təhsil alanların sayı. Bu istiqamət üzrə Azərbaycan  digər ölkələrdən geri qalır. Buna səbəb sahibkarların  işçi qəbulu zamanı yüksək ixtisaslı biliklərə qarşı tələbinin aşağı səviyyədə olmasıdır.

On altıncı önəm

# Coğrafi-iqtisadi tədqiqatın funksional konturları

- **Coğrafi-iqtsadi tədqiqatın həssaslığı**

Coğrafi-iqtisadi həssaslıq konturları milli struktur sahələrinin ümumi effektliyini müəyyən edən istehsal funksiyalarını özündə birləşdirir. İstehsalın coğrafi parametrləri üçün informasiya yenilikləri və texnoloji dəyişiklikləri sayəsində kreativ, kapital və xammal resurslarının istifadə edilməsi ölkənin potensial imkanlarını artırır.

İstehsalın milliləşdirilməsini müəyyən edən siyasi, sosial və strateji önəmli strukturlar coğrafi-iqtisadi tədqiqatlarının həssaslığında fəaliyyət göstərir. Funksional istehsal sahələrinin resurs təminatında yeni məzmuna çevrilməklə yanaşı, dəyişən konturlarının funksiyası kimi ifadə də həssaslıq nümayiş etdirilir.




**R** - Resurs həssaslığı. Bu coğrafi-iqtisadi strukturun ilkin mənbəyi hesab edilir. Resurs funksionallığına görə ayrılır: $\mathbf{R^0}$- kreativ resursa; $\mathbf{R_1}$-kaptal resursa**;** $\mathbf{R_2}$ - xammal resursa. **D** - şaxələnmiş istehsal həssaslığı. **R** - resursun əsasında $\mathbf{D^0}$ (əsas istehsal sahələr) və $\mathbf{D_1}$ (qeyri-istehsal sahələr) dayanıqlı inkişafa məruz qalır və bunun nəticəsində də ərazi-istehsalin strateji diversifikasiyası formalaşır. **G** - ixrac potensial həssaslığı. Bu həssaslığın konturları **(**$\mathbf{G^0}$-daxili bazar potensialı; $\mathbf{G_1}$-beynəlxalq bazar potensialı) şaxələnmiş strukturlara xidmət edir.

***Funksional struktur modelinin həssaslığının konturları.***

Praktiki olaraq, iqtisadi inkişafının dialektikası gerçəkliyində **R & D & G** həssaslıq mənbələrinin dayanıqlığının yaradılması və diversifikasiyasının coğrafi parametrlərindən asılıdır. Bu gerşəkliyə söykənən sənaye diversifikasiyasına malik olan ölkələr dünya iqtisadiyyatının şaxələnməsində və dayanıqlı inkişafının formalaşmasında daha çox çeviklik nümayiş etdirirlər.

Ən yeni texnologiyaya əsaslanan R & D dünyanın güc qüvvəsinə malik olan ölkələrdə xətti inkişaf getmir, daha çevik diversifikasiya strukturlara çevrilməsinin həssaslığı ilə fərqlənirlər.

- **Sosial həssaslığının funksional konturları**

Sosial həssaslıq - cəmiyyətin maddi varlığını təmin edən, coğrafi təfəkkürün dialektikasının ehkamıdır. Sosial həssaslıq çoxmənalı və cəmiyyətin varlığını təmin edən anlayışlarından sayılır. Bu anlayışa daxil edilir: insanın rifah halının davamlı inkişafı, onun seçim imkanlarının təminatı, sosial bərabərsizliklərdən azad olunması və s. Müasir inkişafının mühitində insanın rifah halının kompleksliyinə dair Amartya Sen tərəfindən "İnsanın rifah halının iqtisadi nəzəriyyəsi" fundamental tədqiqatında geniş mənada təhlilləri aparılmışdır.

Amartya Senin təhlilləri göstərir ki, iqtisadi artımın kəmiyyət və keyfiyyət göstəricilərinin əsasında sosial bərabərsizlikdən azad olmaq mümkündür. Bu yanaşma tərzi sosial həssaslığın coğrafiyasında insanın rifah halının yaxşılaşdırılmasını əsaslandırmağa imkan yaradır. Məsələ onunla ölçülür ki, insanın sosial həssaslığı iqtisadi, psixoloji və coğrafi şəraitin faktorlarından asılılığının variantlari effektli məzmuna malik olmasıdır.

Sosial tərəqqi - cəmiyyətin effektli sosial həssaslıq variantlarının əsası sayılır. İnsan həyat tərzi, yoxsulluq və aclıq coğrafiyasının təhlilinin mexanizmi sosial tərəqqinin dərəcəsinin funksiyalarının miqyası ilə ölçülür. Sosial həssaslıq insanın həyat tərzinin "hərəkəti"ni nizamlayır, yaşamaq uğunrda mübarizəsinin aktivləşməsinə şərait yaradır. Bu inkişaf tərzi tipoloji cəhətdən mütləq və nisbi kateqoriyaya ayrılır.

Mütləq kateqoriyanın reallıq miqyasının ölçülərində təbii komplekslərinin məhsuldarlığından və onun iqtisadi idarəedilməsi mühitinin səviyyə parametrlərindən asılılığının əsas götürülməsi ilə nəticələnir. Mütləq kateqoriyanın dərəcəsində insanın fizioloji və mənəvi həyat tərzinə uyğunlaşması ilə daha geniş diamozunda həssaslıq çərçivəsinə malik olmasını yüksəldir.

Nisbi kataqeoriya isə əsasən istehsal sahələrinin iqtisadi artımının yaradılması nəticəsində fəaliyyət göstərir. İqtisadi artım sosial tərzinin təlabatlarının

miqyasını nizamlayır və yeni xidmət sahələrinin coğrafiyasının həssaslığını təmin edir.

İnsan rifahın yüksəlməsi və ya aşağı düşməsi ilk növbədə onun müxtəlif komponentlərinin faydalığının son sərhədləri arasndakı nisbətətlərdən asılıdır. İqtisadi inkişafı sürətlə artan ölkələrdə insanların həyat tərzinin olmasına səbəb yüxarıdakı ideyalara söykənməsi ilə əlaqəlidir. Bu əlaqələrinin metodoloji çərçivəsində obyektiv zəruri və sosial həssaslığı mövcuddur.

Tarixən iqtisadi inkişafın sənayeləşdirmə mərhələsindən başlayaraq mütləq təlabatlar üstün mövqeyə malik olması ilə fərqlənmişdir. Sonrakı dövrlərdə isə iqtisadi inkişafın yüksəlməsi əsasında maddi istehsalın təlabatında həssaslıq nisbətən az nümayiş olunur.

İqtisadi artım istehsal prosesinə əlavə istehsal amillərinin (əmək, kapital və s.) cəlb olunması, yaxud istehsal texnologiyasının təkmilləşməsi nəticəsində ümumi daxili məhsulun (ÜDM) həcminin, o cümlədən hər nəfərə düşən ÜDM-in həcminin yüksəlməsidir. Məntiqi düşüncədən göründüyü kimi iqtisadi artım əsasən kəmiyyət dəyişməsini, yəni əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan verən daha çox əmtəə və xidmətlərin istehsalını ifadə edir. İqtisadi artımdan fərqli olaraq iqtisadi inkişaf dedikdə iqtisadiyyatdakı keyfiyyət dəyişikliyi başa düşülür. İqtisadi inkişaf əlavə iqtisadi artım üçün əsas yaratmaqla birlikdə, sosial-iqtisadi və mədəni strukturda, həmçinin əhalinin həyat səviyyəsində keyfiyyət dəyişikliyinə yol açır. Dolayısı ilə, geniş mənada iqtisadi inkişaf anlayışı həm kəmiyyət, həm də keyfiyyət dəyişməsini ehtiva edir. ÜDM milli hesabatlar sisteminin və iqtisadiyyatın ən mühüm göstəricilərindən biri kimi istehsal fəaliyyətinin son nəticəsinin, son istehlak üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri ilə ölçülür. O, özündə iqtisadi-sosial inkişafının bütün sahələri üzrə yaradılan ümumi əlavə dəyərlə xalis vergilərin cəmini əks etdirir.

- **Funksional inkişafın həssaslıq kəmiyyətin parametrləri**

BMT-nın təklif etdiyi (1990-cı il) həssaslı insan inkişaf indeksi konsepsiyasında ÜDM-in hər nəfərə düşən göstəricilər indeksi kəmiyyətləri etalon kimi qəbul olunmuşdur. Aparılan araşdırmalarının optimal səviyyəsinin parametrlərinə görə bu indeks kəmiyyətlərinin reallıqları iqtisadi inkişafının fəaliyyətində önəmli effekt yaradır. Bu indeks ümumi formada milli gəlirin hər nəfərə düşən məbləğ kəmiyyətinin göstəricisi əsasında hesablanır. 2000-ci ilin sonundan başlayaraq həssaslı inkişaf indeksi şkalası 0-dan 1-dək bölünmüşdür və kəmiyyət göstəricisi 0.4-dən aşağı olan ölkə yoxsul hesab edilir.

Funksional inkişafın həssaslığı çərçivəsində Qlobal Məcmu Məhsul,sənaye istehsalı, beynəlxalq ticarət, ölkələrdə həyat səviyyəsinin dinamikası və s. iqtisadi-sosial və satrateji indikatorlar fəaliyyət göstərirlər. Strateji araşdırmaların nəticələri göstərir ki, son dövrlərdə Qlobal Məcmu Məhsulun kəmiyyət göstəricilərində ABŞ, Avropa İttifaqı, Yaponiya və qismən Çin üstünlüyə malikdirlər.

Dünya Bankının strateji proqnozlarına görə yaxın 25 il dövründə inkişaf etməkdə olan ölkələrinin potensial funksional strukturlarının əsas hərəkətverici qüvvəsininin aktivlik hala çevrilməsi gözlənilir. Məntiqi nəticəyə əsasən bu tipli ölkələrin iqtisadi-sosial potensial səviyyələrinin 2030-cu illər ərəfəsində Qlobal Məcmu Məhsulun həcminin iki dəfə artması gözlənilir. Başqa ifadə ilə desək,bu dövrdə Qlobal Məcmu Məhsulun mütləq həcmi 72 trln. $ dollara çatacaq. Bu kəmiyyət göstəricisi inkişaf etməkdə olan ölkələrinin xüsusi çəkisi isə 38%-ə bərabər olması proqnozlaşdırılmışdır.

Təhlillərə əsasən, Qlobal Məcmu Məhsulun dəyişilməsinə uyğun olaraq inkişaf etməkdə olan ölkələr qrupunun xüsusi çəkisi 22%-dən 32%-ə qədər genişnəlməsi gözlənilir. Asiya, Şərqi Avropa, Latın Amerika ölkələri Qlobal Məcmu Məhsul səviyyələrinə görə inkişaf etmiş ölkələrə yaxınlaşması (Türkiyə, Meksika, Hindistan, Argentina və s.) gözlənilir.

Müasir dövrdə əhali artımının təxminən 76%-i inkişaf etməkdə olan ölkələrinin hesabına formalaşır. BMT-nin hesablamalarına əsasən inkişaf etməkdə olan ölkələr üzrə gündəlik gəliri bir dollardan az olan insanların sayı (1 mlrd.-dan çox) iki dəfə azalacaqdır. İnkişaf etməkdə olan ölkələrdə illik 4000-17000 dollara qədər gəliri olan insanların sayı dünya əhalisinin 15%-ni əhatə edilməsi gözlənilir.

Qlobal Məcmu Məhsula görə ölkələrin təsnifatı: ABŞ-21.69%; Qərbi Avropa ölkələr-21.4%; Çin- 12.0%; Yaponiya -7.0%; Hindistan -6.0%-ə sahibdirlər.

On yeddinci önəm

# Həyat keyfiyyətinin funksional coğrafiyası

- **“Həyat keyfiyyəti” anlayışının indikatorları**

Elmi mənbələrində “həyat keyfiyyəti” anlayışı sosial məsələlərini əhatə etnəklə yanaşı, istehsal və qeyri-istehsal sahələrinin keyfiyyət dinamikasını, siyasi, hüquqi, coğrafi və s. ideyalarını özündə birləşdirir.

Həyat keyfiyyəti funksionallığına görə obyektiv və subyektiv gerçəkliyə malikdir. Obyektiv gerçəkliyə insanların miqrasiyası, ölüm faizi, gəlirlərin bərabərlik bölgünüsünün dərəcəsi, təhsilinin keyfiyyəti, cəmiyyətdə baş verən “əsəbi” hadisələr (cinayətkarlıq, narkomaniya, intihar, boşanma və s.). daxildir. Subyektiv gerçəkliyə isə müxtəlif sosial, psixoloji və s. ictimai rəy sörğuları daxil edilir.

Məntiqi yanaşma ondan ibarətdir ki, həyat keyfiyyəti çoxfunksional anlayış olduğundan onu vahid göstəricilər əsasında təhlil edilməsində çətinliklər mövcuddur. Həyat keyfiyyəti anlayışı, insanın layiqli gəlir səviyyəsinə sahib olduğu, fizioloji tələbatları ilə yanaşı sosial və mədəni ehtiyaclarının da ödəndiyi inkişaf etmiş cəmiyyəti ifadə edir. Buna müvafiq olaraq, həyat keyfiyyəti - ictimai mənafeyi ön planda tutan, iqtisadi inkişafının həssaslığına əsaslanan bir anlayışı təmsil edir.

Sosial həyat keyfiyyətinin səviyyə artımının yüksəldilməsi dövlətinin başlıca məqsədləri aşağıdakılardır: - insanın minimum yaşayış səviyyəsini və standartlarını təmin etmək; gəlirlərin ədalətli bölgüsünə nail olmaq; ictimai mal və xidmətlərin təklifini artırmaq və bunun davamlılığını təmin etmək və s.

Həyat keyfiyyəti və onun indikatorları insanların gəlir səviyyəsi, yığımları, istehlak xərcləri içərisində qeyri-ərzaq mallarının xüsusi çəkisi, səhiyyə xidmətlərindən istifadə səviyyəsi və s. kimi olduqca müxtəlif amillərlər də birbaşa əlaqəlidir. Bu baxımdan həyat keyfiyyət indikatorları ölçülərkən ayrı-ayrı məqsədlərinin də ön plana çəkilməsi məqsədəuyğundur.

Sosial indikatorlar həyat keyfiyyətlərin insan qrupları arasında yayılmasının orta səviyyəsini əks etdirir. Sosial indikatorlarının səviyyəsini ölçmək üçün

müxtəlif mənbələrə, o cümlədən beynəlxalq hesabatlara istinad olunmaqla Economic Intelligence Unit tərəfindən hazırlanan “Həyat Keyfiyyəti İndeksi” aşağıdakı doqquz göstəricini ehtiva edir: - sağlamlıq; - ailə həyatı; - ictimai həyat; - maddi rifah; - siyasi stabillik və təhlükəsizlik; - coğrafi mühit; - iş təhlükəsizliyi; - siyasi azadlıqlar; - gender bərabərliyi.

Bir sıra ölkələrdə hər nəfərə düşən ÜDM-in həcminin yüksək olmasına baxmayaraq, yaşayış keyfiyyətinin aşağı olması iqtisadi artımının iqtisadi inkişafla dəstəklənmədiyini ortaya qoyur.

Həyat standartlarını ölçmək üçün alternativ yanaşmalardan biri də, Cənubi Afrikanın İctimai Tədqiqatlar Fondu (South African Audience Research Foundation, SAARF) tərəfindən hazırlanmışdır və marketinq araşdırmalarında geniş istifadə edilir. Bu metodun digərlərindən əsas fərqi ondadır ki, bu zaman gender bərabərliyi, urbanizasiya səviyyəsi və s. kimi indikatorların əvəzinə həyat standartı baxımından daha konkret göstəricilərindən istifadə edilir.

- **Həyat keyfiyyəti və yoxsulluğun coğrafiyası**

Yoxsulluğun coğrafiyası - sadəcə iqtisadi yanaşma deyil, sosial və əxlaqi xüsusiyyətləri ilə birlikdə kompleks problemdir. Qeyd edək ki, BMT-nin “Minilliyin İnkişaf Məqsədlər” proqramlarının ən birincisi məhz ifrat yoxsulluğun və aclığın aradan qaldırılmasından ibarətdir.

BMT-nin ekspertlərinin üzünmüddətli təhlil və araşdırmalarının əsasında həyat keyfiyyətinin coğrafiyasına dair tövsiyələrinə əsasın **üç hədəf** yoxsulluğun önəmində məqsədli olaraq aşağıdakı kimi qəbul edilir:

| | | | | |
|---|---|---|---|---|
| Gündəlik gəliri - 1 ABŞ dollarından az olan əhalinin nisbətini yarıyadək azaltmaq. | ↔ | Qadınlar və gənclər də daxil olmaqla hər kəsə layiqli iş təmin etməklə tam və məhsuldar məşğulluğa nail olmaq. | ↔ | Aclıqdan əziyyət çəkən əhalinin nisbətini yarıyadək azaltmaq. |

Ümumiyyətlə, yoxsulluq anlayışını izah etmək üçün vahid yanaşma mövcud deyil və əsasən aşağıdakı yanaşmalarının tərzinə uyğun elmi mənbələrində rast gəlmək mümkündür.

*Mütləq yoxsulluq.* Bu mənbədə yoxsulluq coğrafiyasının səviyyəsi Dünya Bankı tərəfindən irəli sürülən yoxsulluq səviyyəsi kimi təyin olunmuşdur:

- Zəif inkişaf etmiş ölkələr üçün alıcılıq qabiliyyəti paritetinə görə bir nəfər üçün gündəlik 1,25 ABŞ dolları həcmində təyin olunmuşdur.
- İnkişaf etməkdə olan ölkələr üçünsə 2 ABŞ dolları səviyyəsində müəyyənləşdirilmişdir.

Bu metod vasitəsi ilə yoxsullua dair məlumatlarının əldə edilməsi və ölçülmə baxımından asan olsa da, real mənzərəni tam əks etdirmir. Öz növbəsində, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) iş qabiliyyətinin bərpa olunması ilə bağlı əsas ehtiyacların ödənilməsi məqsədilə bir nəfər üçün gün ərzində tələb olunan qida istehlakının enerji dəyərinin 2100 kilokalori səviyyəsində olduğunu bildirir.

*Nisbi yoxsulluq.* Bu tip yoxsulluq yanaşmasına görə isə bir ölkədə həyat standartları üçün tələb olunan xərclərin səviyyəsi gəlirlərindən yüksək olan fərdlər (və ya ailələr) yoxsul sayılırlar. Ona görə də nisbi yoxsulluq standartı hər bir cəmiyyət üçün fərqli olmaqla birlikdə, həm də ümumi rifah səviyyəsinin dəyişməsindən asılıdır.

*Subyektiv yoxsulluq.* Təyin olunmuş bu yanaşmada fərdlərin öz rəyləri (sorğu) əsasında müəyyən edilir. Subyektivlik amilinə baxmayaraq, sosial bir problem kimi yoxsulluğun qiymətləndirməsində nisbətən daha məqbul yanaşmadır.

*Məhrumiyyət* yanaşması yoxsulluğu sosial təcridin bir növü kimi qəbul edilir. Yəni, yaşayış səviyyələri həm fiziki, həm də sosial baxımdan yaşadıqları cəmiyyətdə hakim olan həyat standartlarından əhəmiyyətli dərəcədə aşağı olanlar yoxsul hesab edilir.

İnsan həyatına yoxsulluğun birbaşa və dolayı yollarla təsirlərini (savadsızlıq, aclıq, qidalanma, xəstəliklərlə mübarizə və s.) nəzərə alan və 1997-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının İnsan İnkişafı Hesabatında öz əksini tapan insani yoxsulluq anlayışı Amartya Sen tərəfindən irəli sürülən qabiliyyət yanaşmasına əsaslanır.

İnsan inkişafı ilə bağlı 2010-cu ilin hesabatında Oxford Universiteti ilə birlikdə insani yoxsulluq yanaşması daha da inkişaf etdirilərək Çoxfaktorlu Yoxsulluq İndeksi təqdim olunmuşdur. Məlum olduğu kimi, İnsan İnkişafı İndeksi üç alt indeksə əsaslanır ki, bunlardan biri yaşayış standartlarıdır. Yaşayış standartları da öz növbəsində adambaşına ÜDM göstəricisi ilə müəyyən edilir. Digər tərəfdən Çoxfaktorlu Yoxsulluq İndeksi təhsil illəri, içməli su kimi İnsan İnkişafı İndeksinin əhatə etdiyi bir sıra alt göstəricilərini də ehtiva edir.

Bu baxımdan çoxfaktorlu yoxsulluq yanaşmasının ortaya qoyulması ilə birlikdə "yoxsulluğa qarşı mübarizədə iqtisadi artıma, yoxsa insan inkişafına fokuslanmalı?" sualı da xüsusi əhəmiyyət qazanmışdır. Yoxsulluq səviyyəsinin ölçülməsində ən yeni yanaşma olan Çoxfaktorlu Yoxsulluq İndeksi (ÇYİ) fərdlərlə bağlı səhiyyə, təhsil və yaşayış standartı üzrə bir sıra çatışmazlıqlarını da nəzərə alır.

Ümumilikdə isə, yoxsulluqla mübarizədə milli infrastruktur formalaşdırılmalı, bir sıra beynəlxalq qurumlar tərəfindən dəstəklənən müəyyən layihələr

və lokal qeyri-hökumət təşkilatlarının fəaliyyətləri yoxsulluq probleminə kompleks yanaşma çərçivəsində əlaqələndirilməlidir.

Yoxsulluğa qarşı qlobal mübarizədə beynəlxalq təşkilatlar tərəfindən ön plana çəkilmişdir. Problemini həllinin əsas vəzifəsi yoxsulluqla mübarizə olan Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı hesab edilir və bu qurum yoxsulluqla əlaqədar demək olar ki, bütün sahələrdə lokal təşəbbüsləri dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun da təşəbbüsü ilə bir sıra ölkələr tərəfindən yoxsulluq səviyyəsinin azaldılması ilə bağlı strategiya sənədləri, dövlət proqramları (Poverty Reduction Strategy Papers) qəbul olunmuşdur. Bu sənədlər Minilliyin İnkişaf Məqsədlərinin reallaşdırılması baxımından mühüm vasitə hesab edilir və onlar hazırlanarkən ölkənin spesifik iqtisadi, sosial və coğrafi şraiti və s. şərtləri, dövlətlə maraqlı tərəflər arasında əməkdaşlıq imkanları nəzərə alınmalı, uzunmüddətli yanaşma çərçivəsində əhatəli olmaqla birlikdə nəticələrə əsaslanmalıdır.

BMT-nın hesablamalırına əsasən yoxsulluğun coğrafiyası ölkələr arasında qeyri-bərabərdir.Yoxsulluğun təqribən 40%-i Cənubi və Cənubi-Şərqi Asiya, 22%-i Tropik Afrikada ölkələrinin payına düşür. Yoxsulluq özünü kənd yerlərində daha çox özünü göstərir (Hindistanın Qanq çayı vadisində, Cənubi Amerikada And dağlıq massivlərində, Afrikanın Qərb zonalarında və s.).

- **Həyat keyfiyyəti və iqtisadi artım coğrafiyası**

Həyat keyfiyyətinin formalaşması prosesində iqtisadi artım funksiyası elmi mərkəzlərində aktual məsələ kimi qəbul olunmuşdur. Problemin əsas məqsədi insanlara sağlam və yaradıcı həyatlarında kompleks mühitinin yaradılmasından ibarətdir. İnsan inkişafı bu baxımdan insanların seçim imkanlarının artırılması prosesi kimi aktual məsələlərini özündə birləşdirmək imkanına malikdir.

Amartya Sen qeyd edir ki, "İnkişafın məqsədləri ilə vasitələri arasındakı əsas fərqin bilinməsi zəruridir. Bütün fəaliyyətlərin son məqsədi insanlardır və inkişaf insanların nailiyyətləri, azadlıqları və bacarıqları üzərində qurulmalıdır. Əsl əhəmiyyətli olan, fərdlərin yaşadığı həyatdır, əldə etdikləri mallar ya da gəlirləri deyil."

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən (1990-cı ildən etibarən nəşr edilən) İnsan İnkişafı Hesabatları, "iqtisadi artıma, yoxsa insan inkişafına fokuslanmalı?" sualının aktivləşməsinə öz töhfəsini vermişdir. İqtisadi artım insan inkişafının davamlı yaxşılaşması üçün zəruri resurslarını təmin edir. Digər tərəfdən, əmək resurslarının keyfiyyətinin yaxşılaşması iqtisadi artım baxımından mühüm əhəmiyyətə malikdir.

Araşdırmalar göstərir ki, həyat keyfiyyəti ilə iqtisadi artım arasında qarşılıqlı əlaqə mövcuddur. Alıcılıq qabiliyyəti paritetinə (AQP) əsasən 96 ölkə üzrə hazırlanan proqramlar bu əlaqənin kompleks şəkildə müşahidə etmək mümkün olmuşdur[150].

Məsələn, ərzaq, təhsil xərcləri və s. gəlirlərin səviyyələrinin arasında bölgüsündən, təsərrüfat daxilində xərclərə kimin nəzarət etməsindən asılı olaraq dəyişir. Ümumilikdə, əhalinin yoxsul təbəqəsinin gəlirləri artdıqca, gəlirin nisbi olaraq daha böyük hissəsi insan inkişafı ilə əlaqədar xərclərə yönəldilir. İnsan inkişafı xərcləri əhalinin yoxsul təbəqəsinin gəlirləri artdıqca yüksəlir. Beləliklə, daha yüksək və bərabər paylanan iqtisadi artım həyat keyfiyyətinin inkişafı xərclərini də artırır. Empirik araşdırmalara görə, ev təsərrüfatı xərcləri üzərində qadın nəzarəti yüksək olduqda həyat keyfiyyətin inkişafı ilə əlaqədar mal və xidmətlərə daha çox vəsait ayrılır.

Dövlət sektoru xərclərinin nə qədərinin və hansı kanallarla həyat keyfiyyətinin inkişafına yönəldilməsi mühüm əhəmiyyətə malikdir. Elmi mənbələrdə[151] bu baxımdan əsasən üç göstəricinin əhəmiyyətini xüsusi ilə qeyd edilir:

- dövlət xərclərinin ÜDM-ə nisbəti;
- dövlət xərclərində həyat keyfiyyətin inkişafı ilə əlaqədar sosial ayırmalarının payı;
- dövlət xərclərində bu sektoru üzrə prioritet sahələrinin payı.

Həyat keyfiyyətinin inkişafı sektoru üzrə prioritet sahələr anlayışı iqtisadi arımın irəliləyişlərə nail olmaq baxımdan daha məhsuldar sahələrini özündə ifadə edir. Ümumilikdə, hər bir ölkənin iqtisadi və sosial inkişafına uyğun həyat keyfiyyəti və iqtisadi artım arasında qarşılıqlı əlaqənin mövcud olmasına baxmayaraq, bu rabitə öz-özünə yaranmır və iqtisadi-sosial strukturu, gəlirlərin bölgüsü, həyata keçirilən siyasət tədbirləri kimi bir sıra amillərdən asılıdır.

Həyat keyfiyyətinə qoyulan xərclərin səmərəliliyinin artırılmasında əhəmiyyətli gerçəkliklərdən biri də “həyat keyfiyyəti və iqtisadi artımın dayanıqlı funksiyası”dır. Məsələn, bu gerçəklik də səmərəli istehsal sahələrinin kompleksliyinin təminatında insan kapitalının rolu və təsiri mühüm şərtlərdən biridir. İnsan kapitalının yüksək səviyyəsinin imkanlarının genişlənməsi, nəticədə onların yaradıcılığı və məhsuldarlığı sayəsində iqtisadiyyata təsir göstərir. Texnologiya və yüksək ixrac potensial sahələrinin təsiri də iqtisadi artıma daha çox yardım edir. Həyat keyfiyyəti və iqtisadi inkişafın coğrafiyası arasında müəyyən ziddiyyətlərinin olması da nəzəri cəlb edir.

---

[150] Ходжсон Дж. Экономическая теория и институты. М., 2003.
[151] Введение в развивающего экономики. М., 2003.

On səkkizinci önəm

# Dayanıqlı iqtisadi inkişafın funksional xəritəsi

- **İqtisadi inkişafın funksional xəritəsinə qısa xülasə**

Dialektik coğrafiya elmi tədqiqatlarda funksional xəritəsinin prizmasında ideya mənbələrinin tədbiqi mühüm elmi-metodoloji mahiyyət daşıyır. Məntiqi olaraq, coğrafiya elminin araşdırmalarında sistem qruplarının xəritəsinin dayanıqlı formalaşmasının təminatında idealoji xarakterə çevrilmişdir. Elmi mənbələrdə formalaşan nəzəri baxışlar (neoklassik nəzəriyyələr) coğrafiya elmi tədqiqatlarının kompleks inkişafında uzun müddətli metodoloji faktorial mövqe kəsb etmişdir.

Klassik nəzəriyyənin əsas ideya mənbəyinin ilkin reallıqları funksional coğrafiyanın dialektik inkişafının strukturları arasında azad rəqabət nisbətlərinin, iqtisadi-sosial və siyasi sisteminin yaradıclılıq qabiliyyətini artıran idealoji faktorlarının kompleksliyinə əsaslanması ilə fərqlənmişdir.

Klassik nəzəriyyəyə əsaslanan (*Lyeş, Kristaller, İzard, Haqqet* və b.) iqtisadi inkişafın xəritəsində geosiyasi, geostrateji coğrafi və funksional xüsusiyyətlərini nəzərə alınmaqla həm milli, həm də qlobal səviyyədə rəqabət qabiliyyətli strukturlarının fəaliyyətinin aktivləşdirilməsinə dair araşdırmaları elmi-praktiki məzmunlu olub, müasir dövrdə də öz aktuallığını saxlamaqdadır.

XIX əsrin ortalarından başlayaraq Berlin universitetnidə yaradılan coğrafiya kafedrasının əməkdaşlarının *(K.Ritter, F.Ratsel* və b.) fundamental tədqiqatları "coğrafi mühit-cəmiyyət" dialektikasının təbiətinə dair elmi ideyalarının əhəmiyyətinin nəticəsində Avropa ölkələrinin ümumi siyasi-iqtisadi xəritəsinin formalaşmasında mühüm rol oynamışdır.



**V.Launhardt** - *alman iqtisadçı alimi:*
İqtisadiyyatın riyazi modellərinin tədqiqatlarını aparmışdır. İqtisadi strukturların effektli yerləşməsinə dair araşdırmaları coğrafiya elmi üçün dəyərli olmuşdur.

Alman tədqiqatçısı *V.Launhardt* istehsalın funksional inkişafında riyazi modellərinin yaradılmasını təklif etmişdir. Tyünenin ştandort nəzəriyyəsində göstərilən modelə V.Launhardt istehsal mərkəzlərini, ölkənin təbii resurs potensiyallarına dair ideyalarını da daxil etmişdir. Təklif edilmiş yeni modelinin sonrakı dövrlərdə "Launhardt üçbucağı" modeli kimi elmi mənbələrdə qəbul olunmuşdur.

V.Launhardt öz tədqiqatlarında riyazi modellərlə ərazi-istehsal sahələrinin proporsianal yerləşməsinin təhlillərinə üstünlük vermişdir. O, həmçinin satış bazarlarının müəyyənləşməsinə aid təklif etdiyi model regional iqtisadiyyatının formalaşması ilə məşğul olan nəzəriyyəci alimlərinin tərəfindən müasir dövrdə də istifadə olunur. Bu nəzəri baxışlarında funksional inkişafın optimallıq səviyyəsinə uyğun olaraq təklif edilmiş istehsal sahələrinin ərazi təşkilində xammal bazasına və əmək ehtiyatlarına nisbətən əlverişli yerləşdiriməsi daha az xərclərinin sərf edilməsinə dair tövsiyyələrinin nəticələri daha effektlidir.

Funksional coğrafi tədqiqatlarında istehsalın ərazi təşkilinə dair təklif edilən müxtəlif səviyyəli nəzəri baxışlarina dair geniş miqyasda önəmli təkliflər irəli sürülmüşdür. V.Kristaller tərəfindən irəli sürülən "Mərkəzi yerlərin yerləşdirilməsi" modeli qlobal funksional coğrafiya elmi araşdırmalarında nəzəri və metodoloji əsas kimi qəbul olunmuşdur. Bu modelinin əsas məqsədi: coğrafi məkanda tədqiqat obyektlər əksər hallarda yaxın məsafələrdə yerləşmirlər. Kristallerin fikrinə əsasən coğraf məkanda obyektlər arasında "həndəsi naxış"ların yaranmasına səbəb olur.

**V.Kristaller**:
Alman coğrafiya elminin inkişafında xidmətləri çox böyükdür. Coğrafiya elmində ilk dəfə olaraq Mərkəzi Yerlər konsepsiyasının şəbəkəsini irəli sürmüş və "Kristaller şəbəkəsi" kimi coğrafiya elmində qəbul olunmuşdur.



XX əsrin 60-cı illərində Qərb ölkələrində coğrafiya elmi istiqamətində komplekslilik prinsiplərinə üstünlük verilmiş və bunun nəticəsində kompleks struktur dəyişilmələrinin xəritəsinin xarakterik çevrilmələrinin "reaksiyası"nın təliminin istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır. Problemə dair bir sıra nəzəri və metodoloji dəyərli coğrafi tədqiqatlar yerinə yetirilmişdir .

"Kəmiyyət revalyusiyası" metodoloji prinsiplərini coğrafiya və iqtisadiyyat elmləri üçün əsas ideya kimi qəbul edən U.İzard regional elminin dialektikasında ərazi (regional) strukturunun modelinin elmi-metodologiyasının formalarını təklif etmişdir.

Q.Murdelin "Kumulyativ artım nəzəriyyəsi" funksional modellərin elmi konsepsiyası alimlər tərəfindən (xüsusən, coğrafiya elmində - Q.A.) maraqla

qarışlanmışdır. Onun fikrincə zaman keçdikcə ölkələrin üstünlüyü (artım "nöqtələri") ərazilələrin inkişafının sürətlənməsini təmin edir. Belə artım mərkəzlərinin olmadığı gercəklikdə regionların ümumi inkişafı cəhətdən gerilənməsi daha da sürətlənə bilər.

*X.Riçardsonun* fikrinə görə, iri şəhərlər qruplari (aqlomerasiyalar, meqapolislər) funksional "artım qütbləri"dir. Onun fikrincə, coğrafi məsafə daxilində istehsal məsrəflərinin aqlomerasiya qənaəti intelektual səviyyədə idarə olunmasına, elmi-texniki tərəqqinin reallaşmasına səbəb olur.

X.Riçardsonun modelində iqtisadi artımının formalaşması daxili qeyri-mobil resurslara və mobil resursların başqa regionlardan cəlb olunmasına əsaslanır. Təklif olunan model = aqlomerasiya effektini yüksəldir, regionlarin innovasiyalara və müasir texnologiyalara tətbiqinin qabiliyyətini artırır. Bunula yanaşı investorlar ücün cəlbedici sahibkar və investisiya iqliminin yaradılması üçün əsas ideya mənbəyi kimi fəaliyyət göstərir.

*C.Fridmen* və digər tədqiqatçılar ümumi inkişaf problemində şəhər iqtisadiyyatına üstünlük verərək belə bir nəticəyə gəlmişlər ki, ümumi inkişafın artım səviyyəsi şəhərlərdə cəmləşir. Bu səbəbdən də iri şəhərlərin struktur sahələrinin kompleks inkişafı funksional iqtisadi-sosial inkişafının tempinə təsir etmək qabiliyyətinə malikdir.

> Artım nəzəriyyəsinə görə = ərazi- istehsal komplekslərinin formalaşması iri şəhərlər hesabına qeyri-bərabər yerləşməsi nəzəriyyəsi ilə tamamlanır.

*J.Rudvilin* modelinə əsasən, ölkənin funksional inkişafı qeyri-bərabər formada reallaşır. Bütün inkişafda şəhərlərinin yaranması və davamlığının təlimi "inkişaf qütbləri" kimi təhlil edilir.

*V.Leontyevin* təklif etdiyi "məsrəflər-istehsal buraxılış"ın əlaqələr sisteminin vasitəsilə istehsal artımının effekti bütün funksional strukturlara aid təhlilləri elmi-praktiki cəhətdən konseptual məzmuna malik olub, müasir dövrdə də istifadə edilir.

*J.Budvilə* görə, müstəqil funksional iqtisadi inkişafın yalnız yuxarı iyerarxiya səviyyələrnə aid etmək olar. Hərçənd aşağı ərazi stukturların artımın innovasiyalarının diffuziya mexanizmləri ilə müəyyən edilir. Məlumdur ki, keyfiyyətli insan kapitalı şəhərlədə cəmləşmişdir. Bu barədə vaxti ilə, (2005-ci ildə) *T.Xoen, C.Xokc-Vord və A.Tivari* tərəfindən təqdim edilən məruzələrində göstərirlər ki, dünyanın 100 ən iri səhər ərzisində "dünyanın iqtisadi xərtəsi"xeyli dəyişəcək.

- **İqtisadi inkişafın qarşılıqlı asılılıq formulası**

Keçən əsrin 70-ci illərindən başlayaraq iqtisadi inkişafnın funksional nəzəri baxışlarının siyasi-iqtisadi önəmində yeni bir mərhələninin formalaşmasının əsası qoyulmağa başlanmışdır. Virtual cəmiyyətinin tələblərinə uyğun olaraq milli dayanıqlı inkişafının funksional strukturlarında qarşılıqlı əlaqələrinin yeni formalı konsepsiyalarının yaranmasına səbəb olmuşdur. Bu konsepsiyalarının daxilində funksional asılılığının nəzəri baxışlarının mövqeyi mühüm yer tutur.

İqtisadi inkişafın funksional qarşılıqlı asılılıq termini ilk dəfə S.Hoffman (ABŞ) tərəfindən istifadə olunmuşdur. Sonrakı illərdə R.Kuper tərəfindən elmi mənbə kimi əsaslandırılmışdır. Təhlillər göstərir ki, qarşılıqlı asılılıq səviyyəsinin optimallıqlığının artırılması nəticəsində dövlətlərarası xarici əlaqələrinin formalaşması və onun iqtisadi-sosial struktur sahələrinin ərazi təşkilinin qarşılıqlı inkişafının təminatı yüksəlir.

İqtisadi inkişafın qarşılıqlı asılılıq sistemi özünün müxtəlifliyi, diversifikasiya istiqamətinin formulası ilə fərqlənir. İqtisadi-sosial funksionallığının formalaşması sistemində dünya ölkələrinin bir-biri ilə asılılığının fonunda demək olar ki, neoliberal model çərçivəsində fəaliyyət göstərməsi ilə bağlıdır. Məsələ onunla izaf olunur ki, neoliberal bazar modeli ölkələrinin virtual inkişafının manevr imkanlarını məhdudlaşdırmaqla yanaşı, beynəlxalq səviyyədə tam gücü ilə fəaliyyət göstərməsinə məhdudiyyətlər yaradır.

Müasir dövrdə neoliberalizmin "güc" qüvvəsinin coğrafi məkanı ABŞ sayılır. Bu səbəbdən də ABŞ iqtisadi-siyasi cəhətdən dünyanın ağırlıq mərkəzinə, qlobal müstəvidə dünya ölkələrinin dəyişiklik və asılılıq sisteminin reallığına çevrilməsi ilə fərqlənir. Bu səbəbdən də ABŞ-da baş verən siyasi-iqtisadi dəyişikliklər tez bir zaman çərçivəsində planetar xarakerə vevrilməsinə səbəb olur. Strateji dəyişkənlik siyasəti ABŞ dövlətinin başlıca ideya istiqaməti olub, davamlı olaraq dünya ölkələrinə öz nəzarətini gücləndirir.

Geosiyasi təhlillər göstərir ki, inkişaf etmiş ölkələr tam mənada "klassik dövlət" funksiyasını daşımaq iqtidarında deyildirlər. Onlar geniş miqyas çərçivəsində qloballaşma mühitinin təsirinə uyğun hərəkət edirlər. Müasir dövrdə transmillişmə siyasətinin coğrafiyasının sərhədləri lokal çərçivədən qlobal çərçivəyə doğru transfer olumuşdur. Bu səbəbdən də dünya ölkələrinin iqtisadi-siyasi formalaşmasında "qütbləşmə" prosesi daha da aktivləşmişdir. Qütbləşmə siyasəti mövcud metodoloji arsenalın virtuallaşan yeni dövrünün tələblərinə adekvat olmadığını, kardinal siyasi-iqtisadi dəyişkənliklərinin məqsədini önəmə gətirmişdir.

Müasir dövrə qədər davam edən ölkələrin iqtisadi inkişafının nəzəri baxışları müəyyən dərəcədə dəyişikliklərə məruz qalmışdır. Ölkələrin iqtisadi-sosial dialektikasının davamlı inkişafının coğrafiyası yeni nəzəri-metodoloji funksiyalarının yaradılmasının problemləri ilə üzləşmişdir. Coğrafi reallıq ondan ibarətdir ki, dünya ölkələrinin davamlı inkişafının metodologiyaının əsası elmi fəlsəfəyə daha da yaxınlaşmaqdan ibarətdir. Bu məqsədlə, dialektik coğrafiya elmi tədqiqatlarında ərazi-istehsal strukturlarının kompleksliyi problemlərinin önəmə gətirilməsi ideyalarına üstünlük təşkil edilməsindən ibarət olmasıdır.

Fikrimizi əsaslandırmaq məqsədində bir sıra metidoloji situasiyalarına diqqət yetirək. İlkin olaraq qlobal funksional transformasiyasının strateji mövqeyinin seçilməsi və optimal variantlarının potensialının əsaslandırılmasıdır. İkincisi isə qlobal mühitin yaratdığı interpretasiya formalarından ölkənin gələcək inkişafına tətbiqi hesab edilir. Qeyd etmək lazımdır ki, qlobal funksional xəritəsinin situasiya səviyyə müxtəlifliyi arasında fərqlərin mövcudluğu bütün ölkələr üçün xarakterikdir.

Müasir qlobal mühitin yaratdığı qeyri-xətti inkişafın nəticəsində "iqtisadi insan" fəaliyyətinin asılılığının mütləqliyinə səbəb olmuşdur. Bu səbəbdən də asılılığının paradiqmal yeniləşməsinin zəruriliyi ölkələrin funksional iqtisadi və strateji inkişaf prosesində yeni məzmunun formalaşmasına gətirib çıxartmışdır.

Dünya ölkələrinin funksional xəritəsinin çərçivəsində tarixi-siyasi dövrlərinin dialektik asılılığı "məhsullar"ın hesabına qərarlaşmışdır. XIX əsrin axırlarından başlayaraq "klassik" inkişaf dövrünün başa çatması və yeni dövrün başlanması ilə əvəzlənmişdir. Planetar səviyyədə baş verən asılılığının səviyyəsinə uyğun ölkələrarası dəyşikliklər istehsalın, kapitalın, işçi qüvvəsinin miqrasiyasının aktivləşməsini özündə ehtiva edir. Avropanın inkişaf etmiş ölkələrinin iqtisadi-siyasi və sosial qrumlarının digər regionlarına (xüsusən Amerika materikinə) asılılıq mühitinin miqrasiyası bir sıra funksional dəyişkənliyinin yaranmasında mühüm strateji əhəmiyyət kəsb etmişdir.

Funksional coğrafi sistemlərin dialektikasında istehsal və kapitalın dayanıqlığının nəticəsində inkişaf etmiş ölkələrinin yaranmasına, inhisarçı blokların yeniləşməsinə səbəb olmuş və nəticədə isə qloballaşma xəritəsinin strategiyasında qütbləşmənin aktivləşməsinə səbəb olmuşdur.

Qloballaşan funksional iqtisadi-siyasi xəritəsinin başlanğıcı ilkin olaraq Qərb ölkələrində formalaşmış və tədricən digər regionlarına miqrasiya olunmuşdur. XIX əsrin sonu ərəfəsində (1870-ci il) dünya sənaye məhsulları istehsalında B.Britaniya-44%, Almaniya-34%, Fransa -18%, ABŞ -11% mövqe üstünlüyünə malik olmuşlar. XX əsrin əvvəllərindən başlayaraq sənaye funksi-

onal strukturlarının xüsusi çəkisi ABŞ-ın hesabına artması ön plana keçmiş və müasir dövrə qədər bu artım hegomonluq səviyyəsini saxlamaqdadır.

Asılılığın sistemləşməsinin coğrafiyası yeni məzmunlu virtuallaşan cəmiyyətin dialektikası həlledici üstünlüyə çevrilməsi erasının başlanmasına səbəb olmuşdur. Bu erada ilkin olaraq insan həyat səviyyəsinin  coğrafiyasında yeni funksiyalara çevrilməsinə: "kreativ resurs-iqtisadi inkişaf"nın mövqeləri aktivlikliyinə səbəb olmuşdur. "Elm-industrial" tərəqqinin formalaşması siyasəti Qərb ölkələrinin strateji maraqlarının üzərində qurulduğu səbəbindəndir ki, həmin ölkələr qlobal dayanıqlı funksional inkişafının coğrafiyasında liderlik statusuna malikdirlər.

İqtisadi inkişafının qlobal sisteminin dialektikasında qeyri-formal qurum: "Böyük yeddilik" unikal strategiyaya malikdir. Qlobal miqyasa malik olan bu quruma (1970-ci ildə yaranmışdır) ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya və Kanada daxildir. Onun fəaliyyətininin forması dövlət başçılarının birgə zirvə görüşləridir. Zirvə görüşlərində bir mənalı olaraq qlobal iqtisadi və sosial problemlərinin həlli məsələlərinin önəmə gətirilməsi hesab edilir.

Son dövrlərdə dünya ölkələrinin siyasi-iqtisadi inkişafda yeni ritmik formalaşma meyilləri artmaqdadır. İlkin olaraq milli dəyərlərə söykənən iqtisadi-sosial və siyası kompleks qarşılıqlı əlaqələrinin məzmununda keyfiyyət formalarının inkişaf etdirilməsi məsələləri diqqət mərkəzinə çevrilməsidir. Aparılan araşdırmalara görə, problemin kompleks həlli ölkələrarsı iqtisadi-siyasi dialoqlarının əsasında optiamllığının səviyyəsi artmış və istehsal sahələrinin ərazi təşkilindəki fərqlərinin azalması müşahidə olunur.

Qərb ölkələrinin inkişaf etməkdə olan ölkələrlə strateji əməkdaşlığına dair L.Pirson tərəfindən irəli sürülən bərabər əməkdaşlıq nəzəri baxışının mühüm əhəmiyyəti mövcuddur. Bu nəzəri baxışın strategiyasında inkişaf etməkdə olan ölkələrinin səyinə əsaslanaraq yardım siyasətinin (ticarət,investisya və s.) həyata keçirilməsini özündə birləşdirir.

Elmi mənbələrdə bu yanaşma tərzi bir çox hallarda ölkələrinin iqtisadi asılılığın inkişaf problemləri ilə əlaqələndirilməsi fikirləri üstünlük təşkil edir. Fikirlərin əsasını Qərb ölkələrinin zəif inkişaf etmiş ölkələrinin iqtisadi-sosial həyat tərzinin  müəyyən dərəcə də yüksəldilməsinə xidmət etməsi məsələlərini təşkil edir.

Qlobal nəzəri baxış nöqtələrində neotəkamül, modelləşmə yanaşmaların coğrafiyası ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid dialektikası kimi qəbul olunmuşdur. Bu nəzəri baxışların ideya mənbəyində müasir iqtisadi artıma keçidi maddi maraq dairəsi ilə yanaşı, həmçinin mənəvi dəyərlərlə, sosial

struktur sahələrinin davamlığını təmin edilməsi ilə əlaqələndirilməsidir. Modernləşmə konsepsiyasının metodoloji əsasları M.Vederin, T.Pirsonun, Ş.Eyzenştadın və başqalarının tədqiqatlarında verilmişdir.

Modernləşmə nəzəri yanaşmaların əsas mənbəyində qlobal dəyişkənliklərinə söykənən siyasi və iqtisadi inkişafla birlikdə, təbii resursların geostrateji funksiyalarının müxtəlif cəhətlərini əhatə edən məsələlərin kompleks inkişafı asılılığın strategiyasının durur. Dialektik əsaslarla təbii resurs tsikllərindən istifadə edilməsi regionun effektli strategiyasını təmin edir və onu reallaşdırır. Geoloji tədqiqatlara əsasən yer kürəsində 250-dən artıq təbii resurs (faydalı qazıntı növləri) potensialı areallar əmələ gətirirlər. Təsnifat nöqteyi-nəzərdən təbii resurslar kəmiyyət və keyfiyyət göstəricilərinə görə inkişaf etməkdə olan ölkələr (İEOÖ) fərqlənirlər.

Enerji ehtiyatlarının ≈ 70 %-ə yaxın hissəsi neft və qazla ödənilir. Proqnoza görə, XXI yüzillilin əvvəllərində istilik-nüvə elektrik stansiyalarının müxtəlif variantlarının yaranması enerji probleminin əsaslı həlli yollarında və istifadə olunması effektli mühit yaranacaqdır. Son illərdə enerji mənbələrindən istifadə edilməsinə diqqət yetirilir.[152] Beləliklə, XXI yüzilliyin enerji ehtiyatında neftin və qazın rolu xeyli azalacaq və onların əvəzində mikrobioloji sintezdə - süni zülal, dərman maddələri və bitkiləri mühafizə vasitələri alınmasında əsas xammal kimi istifadə olunacaqlar.

Mineral potensial ehtiyatlarn istehsalında karbohidrogen resurs tsikllərinin ehtiyatı təmiatının təsnifatında kömur (70%); neft-qaz resursları (27%) üstünlük kəmiyyətinə malikdirlər. *Kömür* resursları strateji xaraktera malik olmaqla yanaşı yer kürəsində ən çox yayılan (3.7minə qədər) karbohidrogen hövzələrindən sayılır. Geoloji təhlillər göstərir ki, kömür hövzələri ümumi materik ərazinin 15%-ni əhatə etməklə, dünya ölkərinin əksəriyyətində (84 ölkə) kömür yataqları yerləşmişdir. Dünya ölkələrinin kömür resurslarının potensial ehtiyatı (geoloji ehtiyat) 15 trln.tona yaxın hesablanmışdır.

“Dünya Energetika Şurası”nın məlumatına əsasən kömür resurs ehtiyatının əsasını (60%) daş və qonur (30%) kömürləri təşkil edir. Yüksək keyfiyyət balansına malik olan antrasit kömür yataqları sənaye cəhətdən daha effektlidir. Dünya ölkələri sistemində potensial kömür resurslarının balans ehtiyatının 80%-i ABŞ-Çin-Rusiya coğrafi məkanlarında cəmləşmişdir. Ümumiyyətlə, kömür resurs potensialı şimal yarımkürəsində (90%) daha cox areallar əmələ gətirirlər.

[152] ABŞ-da 4.5 meqavatt elektrik enerjisi qoz qabığının, 8.5 meqavatt badam qabığı, şaftalı və qara gavalı çəyirdəyi hesabına istehsal olunur.

Neft-qaz strateji resurs kimi dayanıqlı inkişafında əsas xammal məhsullarından biridir. Geoloji tədqiqatlarının yekun göstəricilərinə əsasən neft-qaz resurs potensialının areallarının ümumi miqyasının sərhədləri 70 mln. $km^2$-dən (yer kürə səthinin 16%) çoxdur. Neft-qaz təbii resursları yanacaq-energetikası kompleksinin strateji komponentidir. Sənaye ölkələrinin energetika siyasətində, milli təhlükəsizlik konsepsiyasında mühüm mövqeyə malikdir. Qlobal iqtisadi-siyasi inkişafının tələbləri konteksində neft-qaz resursları dayanıqlı inkişafının əsası hesab olunur. Odur ki, yer kürəsinin neft-qaz resurslarının potensialı müasir texnoloji iqtisadiyyatda transmilli mahiyyət kəsb etməklə yanaşı, ölkələrin başlıca davamlı resurs təminatının strategiyası kimi qəbul edilir.

Neft resurslarının ehtiyatlarının arealları ilə məşğul olan alimlərinin hesablamalarına əsasən, yer kürəsində potensial maksimal ehtimal həddi 310-315 mlrd. ton olmasına dair ideyalar irəli sürürlər. Lakin müasir dövrdə kəşf olunmuş neft ehtiyatları isə 136 mlrd. tona bərabərdir. Dünya baş verən elmi-texniki tərəqqinin yüksəldiyi dövrdən başlayaraq neftdən sənaye məqsədləri üçün istifadə XIX əsrdən başlayaraq istifadə edilməyə başlamış və XIX əsrdə yerin təkindən 120 mlrd. ton neft hasil edilmişdir. XXI əsrin əvvəlində isə dünya neft hasilatı 3.34 mlrd. ton təşkil etmişdir. Dünyanın neft ölkələrində hər gün 10.3 mln.ton neft hasil edilir. “Dünya Energetika Şurası”nın ekspertlərinin hesabatlarına əsasən dünyanın neft xəritəsində hasilatının 65%-ni on ölkələrində cəmləşmişdir: Səudiyyə Ərəbistanı (12%), ABŞ və Rusiya hər ikisi - (10%), İran, Venesuella, Meksika, Çin, Norveç, B.Britaniya və İraq hərəyə - 4-5% Dünya neft ixrac potensialının 17%-i Səudiyyə Ərəbistannın payına düşür (Rusiya10%, İran, İraq-4-6% və s.). Ən böyük istelakçı ölkə ABŞ sayılır.

ABŞ dünya neft idxalının ən böyük istehlakçı ölkəsi hesab olunur. Məntiqi olaraq ölkə neft bazarının 60%-i idxal məhsuluna bağlıdır (hər gün 11 mln. barrel neft idxal edir). İnkişaf etmiş ölkələrdə neft rezervləri 4 mlrd. barrel hesablanır. Dünya  miqyasda enerji balansının 40%-i neft resurslarının təminatına əsaslanır.

Dünyada unikal və nəhəng yataqlar bütün neft yataqlarının 2%-ni təşkil edir və hasilatının 80%-i verir. Dünyanın ən iri neft yatağı” Qafar” Səudiyyə Ərəbistanın ərazisində yerləşir. Bu yataqda hasilatın 100 il davam edəcəyi proqnozlaşdırılır. Meksikaya mənsub Kantarre yatağı tarixdə belə miqyaslı yataqlar aşkar edilməmişdir.

Neft ixrac edən ölkələr OPEK təşkilatında birləşmişlər. OPEK dünya neft hasilatının 41%-nə nəzarət edir. Hər il dunya bazarında 1.5 mlrd. ton neft ixrac potensialına malikdir.

Planetin ən zəngin neft resursuna malik olan Yaxın və Orta Şərq ölkələrində dünya neft ehtiyatlarının 63%-i cəmləşmişdir. Bu ehtiyatlar ümumilikdə 95.6 mlrd. tona bərabərdir. Regionda 63 nəhəng neft yataqları yerləşmişdir. Dünya ehtiyat, hasilat və ixracati ilə üstünlüyə malik olan Səudiyyə Ərəbistanı bu regionda yerləşir. Bu ölkəyə mənsub ehtiyatlar 35.3 mlrd.tona bərabərdir. Rusiya ərazisində dünya proqnoz neft ehtiyatlarının 12% və daş kömürün 20%-i cəmləşmişdir. Ölkə büdcəsinin 40%-i neft-qaz sənayesindən daxilolmalar hesabına formalaşır. Rusiyada hər il orta hesabla 360 mln.ton neft hasil edilir.

Təbii qazın mənbələrdə ehtiyatı 400 trln.$m^3$ həcmində göstərirlir. Hər il 2-2.5 trln.$m^3$ qaz çıxarılır. Qaz ehtiyatına görə Rusiya-48.1 trln.$m^3$, İran-22.0, Qatar-8.5, BƏƏ-5.8, Əlcəzair-3.7 trln.$m^3$ və s. ölkələri fərqlənirlər. Hər il dünya ölkələrində orta hesabla 2.6 trln.$m^3$ qaz istehsal olunur ki, bununda 60-70%-i ABŞ, Almaniya, Yaponiya, Fransa və s. Avropa ölkələrində istelak olunur.

Son 25 ildə enerji istehlakı 40% artmışdır. Bu artım tempində neftin xüsusi çəkisi yüksək kəmiyyətə malikdir. Dünyanın əsas neft istehlakçısı ABŞ-dır (48%). Müasir dövrdə dünyanın 80 ölkəsində 2.8-3.2 mlrd. ton neft istehsal olunur (ümumi ehtiyatın 2%-i həcmində). Karbohidrogen xammalları hər bir ərazi-istehsal kompleksinin dayanıqlı inkişafının əsasını təşkil etməklə yanaşı, onun kapital dəyərinin müəyyən hissəsini özündə birləşdirir. Qlobal miqyasda karbohidrogen resurslarının həcminin artması öz növbəsində hər bir istehsal sahələrinin optimal səviyyədə artması deməkdir.

Regional anlamda Fars körfəzi ölkələri dünyanın neftlə zəngin ən əhəmiyyətli geoiqtisadi və geosiyasi potensialı hesab olunur. Xəzər dənizi hövzəsi ölkələri yanacaq enerji resurslarının həcminə görə dünyanın geoiqtisadi və geosiyasi regionlarından sayılır. ABŞ ekspertlərinin hesablamalarına əsasən Xəzər hövzəsi ölkərinin (İrandan başqa) birgə yanacaq və energetika resurs ehtiyatları 51-57 mlrd. tona yaxındır. ABŞ ekspertlərinin fikrincə, bu hövzədə yalnız neft resursunun miqdarı 35-37 mlrd. tondur.

İqtisadçı analitiklərinin ideyalarına əsasən mineral xammal resurs ehtiyatlarının kifayət qədər olması heç də dayanıqlı inkişafın bütün istehsal tsikllərinin yaradılmasını təmin etmək qeyri mümkündür. BMT-nin ekspertlərinin verdikləri statistik kəmiyyətlərinə görə qeyri-yanacaq mineral xammal ehtiyatının orta hesabla 37%-i, neftin isə 6%-i "yeddilər" qrup ölkələrinin payına düşür. Bununla yanaşı mineral resurslarının emalı kompleksinin 80 %-ə qədəri inkişaf etmiş sənaye ölkələrində formalaşmışdır.

Metal filizləri metallurgiya ərazi-istehsal kompleksin dayanıqlı inkişafını təmin edən xammal resursları hesab edilir. Metallogen kompleksində dəmir filiz resursları strateji iqtisadi cəhətdən effektlidir. Kəşf edilmiş dəmir filiz re-

surslarıı 270 mlrd. ton həcmindədir. Geoloji təhlillərə əsasən yer kürəsində dəmir filizin potensiaı ehtiyatı 600 mlrd.ton proqnozlaşdırılmışdır. Dünyanın yeddi ölkəsində dəmir filiz yataqlarının potensialı yüksəkdir.

Dünyanın faydalı qazıntılarının xəritəsində inkişaf etmiş sənaye ölkərinin təsnifatında ən çox iqtisadi effektə malik olan mineral resurs ehtiyatları Avstraliya = uran, dəmir, manqan; CAR = manqan, xromit, platin, qazıl, almaz, uran; Kanada = uran, qurğuşun, sink, kobalt, qızıl, kalium duzları; ABŞ = mis, molibden, fosfat xammalı və s.

Qeyri-yanacaq mənşəli mineral resurs kompleksinin təqribi hesablamalara əsasən 50%-i, neft-qaz resurslarının 60-50%-ə qədəri inkişaf etməkdə olan ölkərinin coğrafi məkanlarında cəmləşmişdir. Ümumi konteksdə isə yuxarıda göstərilən resurslarının emalı sahələrinin 20%-i inkişaf etməkdə olan ölkələrinin payına düşür. Faktiki olaraq dünya çərçivəsində fosfat xammal ehtiyatının 85%-i, qalayın-87%-i, kobaltın-87%-i, o cümlədən mis, qurğuşun, nikel və s. sənaye əhəmiyyətli filiz yataqlarının yarıdan çoxu həmin qrup ölkələrinin potensial resurslarının tərkibini təşkil edir. Dünya neft ehtiyatının 60%-dən çoxu İran körfəzi ölkələrinin payına düşür.

Dünyanın iqtisadi inkişaf tempini idarə edən sənaye ölkələri qeyri-yanacaq mineral resurs xammalının cəmi 35%-ni istehsal edir. Lakin qeyri-yanacaq xammalın istehlakı isə 64%-ə bərabərdir. Bu səbəbdən də ölkələr arasında diferensiallaşma xarakterikdir. Avropa İttifaqı ölkələri öz tələbatlarını 65%-ə qədərini ödəmək qabiliyyətinə malik olmasına dair mənbələr mövcuddur. Avropa ölkələrində, eləcə də ABŞ-da neft-qaz ilə təmin olunması səviyyəsi çox da yüksək deyildir. Yaponiyada  təbii resurs imkanları məhduddur.

Elmi mənbələrinin təhlilləri göstərir ki, ölkə daxili miqyasında ərazi-istehsal kompleksinin yaradılması və idarəedilməsi məqsədilə ölkənin təbii resurs potensialına malik olub-olmamasından bir o qədər asılı deyildir. Problem ondan ibarətdir ki, hər bir ölkənin iqtisadi-sosial təminatında təbii resurslarının kəmiyyət və keyfiyyət reallıqları çərçivəsində ərazi-istehal kompleksinin təşkilinin dayanıqlığı ilə üzlaşmasından ibarət olmasıdır.

Qlobal iqtisadi əlaqələr sistemində mineral resurs xammalları potensial ölkələrarası ticarətin formalaşması və dinamik inkişafında strateji mahiyyətə malikdir. Ölkələrarası təbii resurs ixracının xüsusi çəkisi təqribən il ərazində 20-22% arasında dəyişilir. Beynəlxalq ticarət təşkilatlarının məlumatına əsasən ümumi təbii resurs ixracının tərkibində 55%-i nisbətində karbohidrogen xammal məhsulları təşkil edir.

Elmi-texniki potensialı zəif olan ölkələr qrupunda  əsasən xammal resurslarını ixrac etmək yolu ilə iqtisadi - sosial inkişafı təmin etməklə formalaşırlar.

Sənaye potensialına malik olmayan ölkələrinin ÜDM-nun başlıça gəlir mənbəyi ixracyönümlü resurslarının hesabına yaradılır (Marvitaniya-73% dəmir filizinin, Zair-75% misin, Qvineya-73% boksitin ixracı hesabına və s.).

Elmtutumlu və kapitaltutumlu istehsal sahələrinə uyğunlaşmağa cəhd göstərən inkişaf etməkdə olan ölkələr artıq daxili resurs imkanlarının hesabına ərazi-istehal komplekslərinin yaradılması siyasətini həyata keçirirlər. Bu reallıqla əlaqədar olaraq TMK-lar artıq inkişaf etməkdə olan ölkələrdəki axtarış-kəşfiyyat geoloji işlərinə qoyulan sərmayələri idən-ilə azaltmaqdadır.

- **Geosiyasi xəritənin funksional strategiyası**

Yer kürəsinin ümumi sahəsi 510 mln. $km^2$, bunun 362 mln. $km^2$ (71%-i) okean, 148 mln.$km^2$ materik ərazilərindən ibarətdir. Şimal yarımkürəsində okean suları ümumi ərazinin 60.6%-ni, materik sahə isə 39.4% təşkil edir. Cənub yarımkürəsində okean suları-81%, materik isə 19%-ə bərabərdir. Şimal yarımkürəsində materikin sahəsi cənub yarımkürəsinə nisbətən 10.4 % artıqdır.

Dünya ölkələrinin şimal-cənub, qərb-şərq coğrafi məkanlarının siyasi xəritəsində siyasi və iqtisadi inkişafının səviyyəsinə uyğun ölkələr və ərazi inzibati təsnifatlarına bölünür. Beynəlxalq səviyyədə tanınmış 193 müstəqil dövlətlər mövcuddur. Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən müstəqil 192 dövləti üzv kimi tanımışdır. Yalnız Vatikan şəhər - dövləti BMT-nın üzvi deyildir. Geosiyasi dialektik inkişafının xəritəsinin şimal yarımkürəsində dünya ölkələrinin 79.2 %-i, cənub yarımkürəsində isə 20.8%-i cəmləşmişdir. Dünya ölkələrinin 80.3%-i şərq və 19.7%-i isə qərb coğrafi məkanında yerləşmişdir. Dayanıqlı iqtisadi inkişaf səviyyəsinin strateji xəritəsinin dialektikasının əsasını təşkil edən ölkərinin iqtisadi inkişafının təsnifatında Qərbi Avropa ölkələri (Almaniya, Fransa, B.Britaniya və s.) mütləq üstünlüyə malikdir. Dayanıqlı iqtisadi inkişfının xəritəsində dünya ölkələri üzrə (37 ölkə) 73%-i Avropada, 16.2%-i Asiya və hər ikisi 5.4%-ni təşkil edən Şimali Amerika və Avstraliya coğrafi məkanlarında yerləşmişdir.

Müasir iqtisadi və sosial xəritəsinin dialektikasına əsasən BMT-nin ekspertləri tərəfindən dünya ölkələrini ümumi formada üç təsnifata ayırırlar:

*iqtisadi cəhətən dayanıqlı inkişafa malik olan ölkələr;

*inkişaf etməkdə olan ölkələr;

*keçid iqtisadiyyaı ölkələri.

Qloballaşan dünya ölkələrinin strategiyasının müasir geoiqtisadi xəritəsi yeni dialektika ilə formalaşır. Əsas problem ondan ibarətdir ki, ölkələr arasında siyasi-iqtisadi və idealoji yeni güc mərkəzininin konturları müəyyənləşir, iq-

tisadi inkişafın dayanıqlı strategiyası xarakterik olaraq dəyişilməkdədir. Sivil iqtisadi inkişaını yaradan qərb dünyasının geosiyası strateji araşdırmaları mərkəzlərinin təqdim etdikləri "təkqütüblü" dayanıqlı hesablanmış modellər əks qütüblərin (ölkələrin) qeyri-bərabər reaksiyaları ilə üzləşməkdədir. Məntiqi olaraq müasir dünyanın geosiyasi və geoiqtisadi xəritəsinin dialektikasında "çoxqütblü" mərkəzləri dinamik olaraq formalaşmaqdadır.

XXI əsrin ilk dövrlərinə qədər Avropa ölkələrinin dünyanın güc mərkəzlərindən biri kimi dünyanın geoiqtisadi xəritəsində strateji əhəmiyyətli proqram və lahiyələrində aktiv iştirak edirdi. ABŞ-ın strateji maraqların dairəsinin genişlənməsinin səbəbindən, artıq Avropa ölkələrinin məqsədli strateji maraqlarının qorumaq imkanlarını itirmək üzrədir. Maliyyəçi Corc Soros ideya kimi göstərir ki, Avropa İttifaqı (Aİ) və Avropazona (AZ) təhlükə altındadır. "Die Welt" nəşri qeyd edir ki, son illərdə baş verən siyasi-iqtisadi strateji funksiyalar effektsiz qala bilər. Maraqlı haldır ki, Almaniya artıq özünüün iqtisadi inkişafını Avropa geoiqtisadi coğrafi məkanı ilə məhdüdlaşdırmaq istəmir. Ekspertlərin fikrinsə, Aİ-nın tərkibinə daxil olan ölkələr var ki, onların milli maraqlarını ümumi birlik maraqlarından üstün tutması nəticəsində çoxsaylı problemlərinin meydana gəlməsinə səbəb olmuşdur.

Eyni zamanda Fransa, Almaniya kimi ölkələrinin milli-etnik birliklərinin amilini tez-tez irəli sürməsi Avrozona daxilində münasibətləri zəiflədir. İqtisadi cəhətdən dayanıqlı inkişafa malik olan ölkələr təsnifatına Avropa İttifaqına daxil olan 27 ölkə, Qərbi Avropanın digər 3 ölkəsi (İsveçrə, Norveç, İslandiya), ABŞ, Kanada, Yaponiya, Çin, Avstraliya, Yeni Zelandiya daxildir.

BMT-nın qeydiyyatında (1997-ci ildən) Cənubi Koreya, Sinqapur, Honkonq, İsrail və Cənubi Afrika Respublikası da inkişaf etmiş ölkələrinin sırasına daxil edilmişdir. Türkiyə və Meksika iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının üzvü olduqları üçün inkişaf etmiş ölkələrinə aid olunması BMT fərəfindən təklif olunur.

Qlobal miqyasda dayanıqlı iqtisadi inkişaf dərəcəsində ilk növbədə ölkənin daxili və xarici siyasətində sahibkar kapitalının miqrasiyasının genişliyi, geridə qalmış ölkələrə yardımının fəallığı,beynəlxalq valyuta hesablaşmalarındakı üstünlüklərinə əsaslanırlar. Optimal səviyyədə iqtisadi və innovasiya texnologiyalarının potensialı, maliyə mərkəzləri, TMK-lar və s. dayanıqlı monofunksionallığını göstərən komplekslər bu ölkələrində artıq iqtisadi inkişafının formalaşmışdır.

Elmi mənbələrinin təhlili və nəticələri göstərir ki, funksional modelinin siyasəti əsasən üç bloklarının = elmtutumlu, resurstutumlu və kapitaltutumlu = sənaye komplekslərinin üzərində qurulmuşdur. Milli iqtisadi inkişafda fəaliy-

yət göstərən müxtəlif institutların ideyaları əsasında sənaye ölkələrinin modelləri elmi cəhətdən əsaslandırılmışdır. Bu modellərinin tədbiqi nəticəsində sənaye ölkələrinin geosiyasi və geoiqtisadi xəritəsinin dayanıqlı inkişafa nail ola bilmişlər.

ABŞ iqtisadiyyatının formalaşmasında bazar münasibətlərinin mövqeyi strateji əhəmiyyət kəsb edir. Milli TMK-lar ABŞ-ın iqtisadi-siyasi həyat tərzini reallaşdırır və tənzimləyir. Kreativ resurslardan istifadə edilməsi sistemində bu ölkənin öz xarakterik cəhətləri vardır. Ölkədə elmin inkişafına yatırılan investisiyalar maksimum səviyyədə dövlət büdcəsinin hesabına həyata keçirilir.

Dünyanın siyasi-iqtisadi xəritəsində demokratik sistem üzərində qurulan dövlət sahibkarlığı yüksəkdir. Məsələn, Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf tempinin səviyyəsi daxili və xarici geosiyasətinin əlaqəsinin çərçivəsində formalaşır.

Sənaye ölkələrində məşğulluq siyasətinin coğrafiyasında kreativ iqtisadi inkişaf, ümumi təhsil, işsizlik normasının müəyyən edilməsi (ABŞ-da bu norma 4-5%, B.Britaniyada 1.2-1.5%-dir) və s problemlərindən ibarətdir. Sənaye ölkələrində məşğulluq və işsizlik probleminin həlli yolları bütün dövrlərdə diqqət mərkəzində olması xarakterikdir. Məşğulluq siyasətinin həyata keşirilməsi nəticəsində xərclərin xüsusi çəkisi B.Britaniyada 1.6-2.4%, Danimarka 5.8-7.3%, Almaniyada 3.2-4.3 %, Avstriyada-2.8-4.9 % arasında dəyişilir (2005-2015 il).

Sənaye ölkələrinin iqtisadi inkişaf fəaliyyətində daxili bazarının faydalılığı tarixən geosiyasətinin diqqət mərkəzində olmuşdur. Hər bir ölkənin daxili bazarının həcmi ilk təsnifatda ÜDM-in həcminə görə müəyyənləşir. İqtisadi fəaliyyətinin səviyyəsi, onun idxal və ixrac kvotası ÜDM-də idxal-ixracın xüsusi çəkisi ilə müəyyən edilir. Məlumdur ki,ərazicə kiçik olan ölkələrdə ixrac kvotası (Belçikada-70%, Hollandiyada-56%, İsveçrədə-37% və s.) yüksək olduğuna görə bu ölkələrdə daxili bazar da kiçikdir, beynəlxalq bazar münasibətlərindən çox asılıdır.

Dünya ölkələrində baş verən iqtisadi inkiaşaf fonunda istehlak tələbi mühüm əhəmiyyət kəsb edir. Daxili bazarın inkişafı məhdud olan ölkələrdə bu tələbin təsiri daha böyük olur. Məlumdur ki, istehlakın həcmi ilk növbədə əhalinin intelektual məşğulluq səviyyəsindən, əhalinin gəlirlərindən və s. asılıdır. İnkişaf etmiş sənaye ölkələrində intellektual əmək üstünlük təşkil etdiyi üçün bu sahədə çalışanların əmək haqqları daha yüksəkdir. BMT-nin iqtisadi ekspertlərinin təhlillərinə əsasən (2010-2014-il) sənaye ölkərlərinin emal sənaye komplekslırində çalışan intellekt işçilərinin bir saatlıq əmək haqqı = Almaniyada-27, Yaponiyada-25, ABŞ-da-24 dollar təşkil edir.

Dünyanın geosiyasi xəritəsində iqtisadi inkişafda aparıcı qüvvə kimi sənyae ölkələrinin coğrafiyasında dayanıqlı istehsal komplekslərin ərazi təşkili ön plandadır. Digər bir tərəfdən isə dünya ölkələri arasında zəif inkişaf etmiş ölkələrin geridə qalmasının başlıca səbəbi onların sənaye ölkələrindən asılı vəziyyətdə olmasıdır.

Məntiqi olaraq, inkişaf etməkdə olan ölkələrin təsnifatında bir sıra ölkələr vardır ki, onlar (Braziliya, Meksika, Hindistan və s.) intensiv inkişaf edərək geridə qalmış ölkələr üçün “ iqtisadi mərkəz”ə çevrilirlər.

On doqquzuncu önəm

# Dialektik funksional strukturunun həssaslığı

- **Qloballaşma məntiqində funksional struktur həssaslığı**

“Qloballaşma” məntiqi XX əsrin 50-ci illərində meydana gələn anlayışlardan biridir. Qlobal funksional inkişafı ilə əlaqədar olaraq ilk dəfə *Teodor Leviti* tərəfindən (ABŞ, 1983-cü il) “Bazarların qloballaşması” adlı məqaləsində təhlil edilmişdir. Fransa elmi mərkəzlərində “qloballaşma” termini altında iki mühüm ideya istiqamətlərini önəmə gətirirlər: mondiallaşma (fransısça-dünya) və qloballaşma. Mondiallaşma müəyyən ölkələrinin və iqtisadi-sosial sahələrinin dairəsinin əhatə edən internasionallaşması ifadəsini özündə birləşdirir. İnformasiya texnologiyalarının imkanları sahəsində ölkələrin sərhədləri və zaman anlayışını inkar edən mondiallaşma ifadəsinin məzmunu qloballaşmadan fərqlənir. Qloballaşma isə ən çox dünya ölkələrinin maraq dairəsinin iqtisadi inkişafının yeni mərhələsi kimi təhlil edilir.

*N.Kissincerin* fikrincə “...qloballaşma ABŞ-ın mütləq geosiyasi üstünlüyünü təmin edən çoxqütüblü dünya qaydasından bir qütblü dünya qaydasına tarixi keçid dövrünü əhatə edir”. Elmi mənbələrdə həm də “əks qloballaşma” terminindən də istifadə edilir. Bu isə qərb ölkələrinin kapitalının,istehsalının və texnologiyalarının miqrasiyasının assimetrik hərəkəti ilə şərtlənir.

*Manuel Kastels* “İnformasiya epoxası” adlı əsərində qloballaşmanın əsasında informasiya iqtisadiyyatını və “şəbəkə cəmiyyətini” təhlili zamanı qloballaşma ifadəsini də dünya texnokommunukasiya və rəqəmli elektron şəbəkəsinin formalarını əsas götürmüşdür. Təhlil zamanı müəyyən olunmuşdur ki, informasiyanın daha yüksək səfərbərlik qabiliyyəti yeni rəqəmli kommunukasiya şəbəkəsi ilə əlaqədardır və bunun nəticəsində də ölkələrarası kapitalın miqrasiya qabiliyyəti yüksəlir.

ABŞ-ın tədqiqat elmi mərkəzlərində *İmmanuel Vallerstayn* tərəfindən yaradılmış “dünya sistemləri” adlı nəzəriyyəsində ilk dəfə olaraq dünya ölkələrini bir tam kimi, sistem kimi tədqiq etməyə başlamışdır. Tədqiqatın nəticəsi kimi

dünya ölkələrini mərkəzə və periferiyaya bölünmüş, "mərkəzçi" geosiyasi elmi məktəb yaradılımışdır.

Araşdırmalar göstərir ki, dünya ölkələrinin iqtisadi inkişaf dialektikasının yenidən qurulması dövründə və ona müvafiq siyasi-iqtisadi xəritəsinin transformasiyasının prosesləri yalnız periferiya ölkələrinin hesabına baş verir. Oradan bəzi ölkələr yuxarı pilləyə keçir, digərləri isə periferiya səviyyəsinə qədər deqradasiyaya uğrayır. Dünya ölkələrinin iqtisadi sisteminin, uzun dalğalarına üç tsiklli modelini *(Kondratyev tsiklləri*) tətbiq edən Vallerstayn son iki yüz ildə dünya ölkələri "nüvəsi"nin yerdəyişməsini müəyyən etmişdir. Dünya iqtisadi inkişaf tempinin ağırlıq mərkəzi Böyük Britaniyadan Almaniyaya, sonralar isə "qlobal sivilizasiya"lar dövründə qərbə - ABŞ-a "miqrasiya" olunmuşdur.

*Ferman Brodelin* "Maddi sivilizasiya, iqtisadiyyat və kapitalizm XV-XVIII əsrlər" (1967-ci il) əsərində "böyük məkanların avtarkiyası" anlayışının əsasında dünya ölkələrinin iqtisadiyyatı haqqında təsəvvürlərini elmi dövriyyəyə çıxartmışdır.

*Samyuel Xantinqton* "Sivilizasiyaların toqquşması və dünya qaydaların yenidən qurulması" adlı fundamental əsərində (1996-cı il) göstərir ki, XX əsr ideyalarının qarşı-qarşıya durması əsri idisə, XXI əsr sivilizasiyaların və dinlərin toqquşması əsri olacaqdır. O, yeni dünya quruculuğunda ABŞ-ın rolunu həlledici faktor kimi göstərir.

*Ferdinant Drayker* belə hesab edirdi ki, inkişaf etmiş ölkələrin ən böyük üstünlüyü orada çoxsaylı yüksək səviyyəli zehni əmək işçilərinin olmasıdır. Onun "İdustrial insanın sonu", "Korporasiyalar nəzəriyyəsi", "Poskapitalist cəmiyyət" və s. əsərlərində dünya ölkələrinin qlobal inkişafına dair yanaşmalarının faktorlarını təhlil etmişdir.

Qloballaşma sisteminə aid *Lester Kral Turoy* hesab edir ki, əgər XIX əsrin sonunda lokal təsərrüfat sistemləri milli iqtisadi inkişaflarla əvəz olunmuşdursa, XX əsrin sonunda isə onun yerinə qlobal iqtisadi inkişaf mərhələsi gəldi.

*Cozef Stiqlits* "Qloballaşma və ondan narazılıq" (2002-ci il) əsərində qloballaşmanın neqativ təzahürünə görə məsuliyyətini BVF-nun üzərinə düşməsinə dair təkliflər vermişdir. Onun fikrincə, dünya ölkələrin iqtisadi və sosial inkişafında ideoloj və siyasi faktorlar qloballaşma şəraitində nəzərə alınmalıdır.

- **Funksional həssaslığının dialektik anatomiyası**

Funksional həssaslıq problemi elmi mənbələrdə daha geniş məna daşıyır. Müəyyən dialektik yanaşma tərzi göstərir ki, iqtisadi inkişafda kapitalın hərəkətini sürətləndirən və yeni ideyaların tədbiqini təmin edən vahid dünya iqtisa-

di və texnologiya məkanın formalaşması funksional həssaslıqdan asılıdır. *Manuel Kastels* iqtisadi inkişafı bütün planet miqyasında real "məkan-zaman" funksiyalarını vahid iqtisadi sistem kimi qəbul etmişdir. Onun ideyasına əsasən iqtisadi inkişafının funksional anlayışı iqtisadi sahələrinin inteqrasiyası anlayışından daha geniş məna daşıyır.

Müasir dünya iqtisadi siyasətinin xəritəsi lahihəsi Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə institutları tərəfindən qeyri-qərb ölkələrinə münasibətdə reallaşdırılmış və "Vaşinqton konsensisu" adını almışdır. Layihənin əsasında iqtisadiyyatın dövlət tərəfindən nizamlanmasının "köhnəlmiş" Keyns modelinin neoliberal monetarist modeli ilə əvəzlənməsi durur. Bu siyasətin reallaşması TMK və "qızıl milyard" ölkələrinin xeyrinə təbii-istehsal resurslarının potensialından təzədən bölgüsünü sürətləndirməyə imkan verir.

Qlobal iqtisadi inkişafın tərəfdarları olan ölkələr hər il Ümumdünya Davos Forumunda görüşürlərdə fikirlərini bölüşdürürlər. Görüşdə dövlət başçıları, tanınmış iş adamları və siyasi elitanın nümayəndələri iştirak edir. Forumun əsas məqsədi dünya iqtisadiyyatın qloballaşma institutlarının yaradılması və idarəedilməsindən ibarət olmasıdır.

İqtisadi qloballaşma şəraitin də dövlətin davranışını geoiqtisadiyyat elmi öyrənir. Bu elm geoiqtisadi ölkələrdə geosiyasət kimi qloballaşma və regionlaşma faktorlarının inkişafında rəqabətədavamlı iqtisadi inkişafa nəzarət edir. Geoiqtisadi ölkələr (regionlar) dialektik inkişaf kodla, iqtisadi-sosial praktika ilə və geostrategiya ilə birləşdirən "böyük məkanlar"nı təmsil edir. Dünyada baş verən siyasi və iqtisadi sahələrinin dinamik inkişafı "kapital istehsalı" funksiyasının formalaşmasında yeni formalar yaratmışdır. Bu formalar ilkin olaraq sənaye ölkələrinin qütbləşməsinə imkanının yaratması ilə fərqlənirlər. BMT-nin iqtisadi ekspertlərinin təhlillərinə görə, yaxın dövr ərzində inkişaf etməkdə olan bir sıra ölkələrin (Brazilya, Argentina, Hindistan və s.) qismən olması yeni texnologiyaların mənimsənilməsinin nəticəsində sənaye ölkələrinə çevrilməsi proqnozlaşdırılır. Ümumi elmi dəyərli məntiqi yanaşmaya görə, iqtisadi və siyasi cəhətdən inkişaf edən ölkələr arasında qütbləşmə proseslərinin davam ediləcəyi gözlənilir. Nəticədə transmilli ölkələrin (regionların) və qütblərin yaradılması tendensiyası sürətləndirilir.

İqtisadi və texnoloji inkişafının üç qütbünün hər biri müxtəlif iqtisadi dialektikaya malikdir. Şimalı Amerika qütbündə (ABŞ) monopoliya sistemli (TMK) idarəetmə və makostruktur sahələrinin yaradılması siyasətinin nümunəsidir. Qərbi Avropada ölkələrarası sərhədlərində iqtisadi inteqrasiya önəmdədir, Asiya-Sakit okean qütbü ölkələrində isə texnologiyalarının bacarıqla istifadəsi üzərində qurulmuşdur. Burdan belə bir nəticə hasil olunur ki, dünya

ölkələrinin iqtisadi və texnoloji inkişafının qütbləri böyük iqtisadi inkişafa malik olan "səhrası"dır.

Dayanıqlı inkişaf metodologiyasına əsasən inkişaf etmiş ölkələr (İEÖ) dünya iqtisadiyyatına və siyasətinə hökmranlıq edirlər. İEÖ ölkələr sisteminə (33 dövlət): Yaponiya, Çin, Cənubi Koreya, Tayvan, Sinqapur, İsrail istisna olmaqla, onların əksəriyyəti Qərbi Avropa, ikisi isə (ABŞ, Kanada) Şimali Amerika, Avstraliya və Yeni Zelandiya daxil edilir. Bu ölkələrin dayanıqlı inkişafında kompleks struktur sahələrinin ərazi təşkilinin formaları üstünlük təşkil edir. İEÖ daxili və xarici siyasəti qloballaşma mühitinin dəyişdirilməsində, NATO hərbi-siyasi blokunda mütləq üstünlüyə malikdirlər.

İnkişaf etmiş ölkələrnin coğrafiyasında çoxfunksionallıq aşağıdakı formada ümumi məzmuna malikdir:

* inkişaf etmiş sənaye kompleksinə malik dövlətlər sayılır. Yüksək texnologiyalarını özündə birləşdirən sənaye kompleksləri dünya iqtisadiyyatında mütləq mövqe nümayiş etdirir;

* inkişaf etmiş ölkələrin potensial iqtisadi inkişafı optimal səviyyədədir. İEÖ-də ÜDM-in hər nəfərə düşən həcminin valyuta məzənnələri əsasında hesablanmış göstəricisi dünya üzrə orta səviyyəni 4-5 dəfə üstələyir.

Dialektik coğrafiya elminin formalaşmasında Qərb-Şərq modelinin srategiyasının mövqe üstünlüyünə malikdir. Antik dövrlərdən başlayaraq ümumi inkişaf fonunda Qərb-Şərq arasında müəyyən oxşar və fərqli cəhətlər fəaliyyət göstərmişdir. Tarixən Şərq modeli daha erkən təkamül eralarını əhatə etmişdir. İlkin olaraq Şərqdə dövlətçilik feodal dövrlərdə yaranmış və funksionallığına görə Qərb ölkələrindən seçilmişdir. Şərq modelində dövlətçilik monorxiya tipli mərkəzləşdirilmiş idarəetmə sistemi olduğu halda, Qərb modelində isə yetkin feaodalizm dövründə siyasi parçalanma hökm sürmüşdür.

Dövlətçilik ənənələri Çində daha erkən dövrlərdə formalaşmışdır. Erkən III əsrdən başlayaraq formalaşdırılmış "dövlət pay sistemi" V əsrdə "bərabər sahələr sisteminə" modifikasiya olunmuşdur. Məntiqi baxımdan, Çin orta əsrlərdə texnoloji cəhətdən daha yüksək inkişaf etmiş dövlət hesab olunurdu. VIII əsrdə kağız pullar buraxılmışdır. Böyük həcmdə istehsal sahələr yaranmışdır (çay, duz, müxtəlif metallar və s.). Daha erkən dövrlərdə Hindistan,Yaponiya və s. Şərq ölkələrində feodal mülkiyyət modelləri fəaliyyət göstərirdi.

Orta əsr şərq tipli şəhərlərində əhalinin yüksək səviyyədə yerləşməsi (15-25%); şəhər sənətkarlığının inkişafı; ticarət kapitalının üstün olması; dövlət müəssisələrinin mövcudluğu (məsələn, Hindistanda XIV-XV əsrdə karxanalar) və s. Şərq modellərini göstərə bilərik.

Böyük coğrafi kəşflərdən sonra Qərb modeli üstünlük qazanmış və müasirləşmişdir. Qərb modelində XIII-XIV əsrlərdə şəhərlər xüsusi rol oynamışdır. Şəhər əhalisinin əksəriyyəti müxtəlif istehsal sahələrində çalışırdı. Metal emalı, toxuçuluq və s. sahələr şəhər əhalisinin məşğuliyyəti hesab edilirdi. XVI-XVII əsrlərdə Qərb modelində ilk manufakturalar meydana gəlməyə başlamış və sonrakı illərdə isə yeni kapitalist istehsal münasibətlərinin formalaşmasına səbəb oldu. Pul vahidlərinin yaranması nəticəsində ilkin olaraq İtaliyada, sonralar isə Niderland və İngiltərədə bank sisteminin yaranmasına gətirib çıxartmışdır.

Qloballaşan cəmiyyətin dialektik coğrafiyasının formalaşmasında Şərq və Qərb təkamül gerçəklikləri və inkişaf təmayülləri strateji mahiyyət daşıyır. Qərb-Şərq dialektik inkişafının müxtəlifliyi bir sıra iqtisadi və sosial kompleksini yaratmışdır. Müasir qlobal situasiyanın problemlərinin çoxluğu bununla bağlıdır. Tarixi dövrlər ərzində siyasət, iqtisadi inkişaf və s. problemlərində oxşar modellər əsasında inkişaf etmiş Qərb-Şərq dialektikası,sonrakı dövrlərdən sonra Qərb yolu daha effektli, təkamül çərçivəyə çevrilmiş və müasirləşmişdir. Bu səbəbdən də sivilizasiyaların inkişaf tarixini öyrənən müəlliflər Qərblə Şərq arasında coğrafi fərqlərinin olmasına dair mülahizələrinin nəticələrinin öyrənilməsi elmi əhəmiyyət kəsb edir.

- **Transmilli korporasiya sistemi və funksional coğrafiyası**

Müasir dövrdə transmilli korporasiya (TMK) sisteminin homogenliyi dayanıqlı inkişafın hərəkverici və güc qüvvəsi hesab edilir. Dövlətin daxilində dövlət kimi fəaliyyət göstərən TMK-lar dünya ölkələrinin siyasi, iqtisadi və hərbi strukturlarını yaradır və balanslaşdırılması funksiyalarını fəallaşdirmaq iqtidarına malikdirlər. Dünya ölkələrinin siyasi-iqtisadi və dayanıqlı inkişaf strategiyası cəmiyyətin təkamülü ilə əlaqəlidir və bu inkişafın dinamikası "kapital-istehsal"ın dialektikasının məntiqi yanaşmasının nəticəsi kimi formalaşmışdır.

Avropa ölkələrində yeni tipli struktur inkişafının əsasında formalaşmaya məruz qalan sənayenin yeni sahələrinin yaranması və texnoloji əsaslarla istehsalın idarə edilməsi prosesləri XIX əsrin sonu və XX əsrin əvvəllərində "kapital-istehsal"ın dialektik vəhdətinin əsasında monopoliyaların yaranmasına səbəb olmuşdur.

Dünya xəritəsində ilk monopoliyalar Avropa ölkərində və ABŞ-da yaranmışdır. BMT-nin iqtisadi ekspertlərinin proqramlarında göstərilir ki, iki və daha çox ölkədə istehsal kompleksləri olan, bazar iqtsadiyyatı ilə əlaqəsi olan, müxtəlif ölkədə mülkiyyəti olan və BMT-nin qeydiyyatından keçən beynəl-

xalq şirkətlərin birliyi TMK adlandırılır. Dünya iqtisadi inkişafının qloballaşması ilə əlaqədar olaraq elmtutumlu, kapitaltutumlu ərazi-istehsal kompleksinin xarakterində yeni elmi-texniki laboratoriyalarının yaradılmasının əsasında formalaşan istehsal sahələrinin kompleks formaları üstünlük təşkil etmişdir. Bu üstünlük sahələrarası və regionlararası optimal səviyyədə birliklərin, konsernlərin yaranmasına səbəb olmuşdur. XX əsrin əvvəlində ABŞ-da 80 iri konsern öz məhsullarının 60%-nə nəzarət edirdi.

Müasir iqtisadi inkişaf mərhələsində TMK-lar dünyanın siyasi-iqtisadi həyat tərzinin aparıcı sahələrini özündə birləşdirir. Dayanıqlı iqtisadi inkişaf səviyyəsində 100-dən çox TMK avtomobil, elektronika və elektron avadanlığı, neft, neft-kimya sənaye kompleksinin 70%-nə nəzarət edirlər. Optimal inkişaf səviyyəsi baxımında 100-dən çox TMK-ın 95%-i ABŞ, Yaponiya və Qərbi Avropanın qabaqcıl ölkərinin sisteminə daxil edilir.

İnkişaf etmiş Qərb ölkələrinin siyasətinin əsas strateji istiqamətlərindən biri də transmilliləşməsinin ideyasıdır. Bu ideyanın aparıcı qüvvəsi məhz TMK-lardır. Məsələ ondan ibarətdir ki, müasir dövrdə dayanıqlı iqtisadi strategiyasının həyata keçirilməsi prosesində TMK-nın təsiri ilə əlaqəli siyasəti üstünlük təşkil edir.

Dünyanın iqtisadi xəritəsində TMK investisiya siyasəti; beynəlxalq ticarət; innovasiya və texnologiyaların yaradılması və yayılması; qlobal səviyyədə kreativ miqrasiyasına maraq yaradılması və s. məzmunlu problemlərinin fəaliyyəti və idarəedilməsi ilə çıxış edirlər. Bunlar beynəlxalq kapitalın hərəkətinə, rəqabətədavamlı sənaye məhsullarının ixrac potensialına nəzarət etməklə yanaşı, dünya bazarında onların realizasiyasını müəyyənləşdirirlər.

Transmilliləşmə ideyasına əsasnan TMK ərazi-istehsal komplekslərin qloballaşmasında həlledici mövqeyə malikdirlər. Dünya rəqabətədavamlı sənaye kompleksin 55%-ə qədəri, xarci ixrac potensialının 60%-ə yaxnı TMK-lar tərəfindən reallaşdırılır. Bunula yanaşı yeni inovasiya yeniliklərinə, "nou-xau"ya olan patent və lisenziyaların 75-80%-nə TMK nəzarət edirlər. Bu səbəbdən də ÜDM göstəricilər sistemində TMK-rın xüsusi çəkisi son 20 ildə 18%-dən 35%-ə qədər yüksəlmişdir.

Qlobal iqtisadi səviyyədə 500-dən artıq nəhəg TMK yaradılmışdır. Beynəlxalq ixrac potensialının inkişafında TMK-ın fəaliyyət miqyasını artırılması ilə əlaqədar BMT-nın "Ticarət və inkişaf konfransı" 1990-cı ildən TMK-lar üçün "Transmilliləşmə indeksi"ni təklif etmişlər (üç göstərici əsas götürülür: xarici

aktivləri, satışın və məşğulluğun xüsusi çəkisi). Transmilliləşmə indeksinin[153] əsasında İçveçrə elektron avadanlıqları TMK-nın indeksi-95.7; ABŞ-ın General Elektrik TMK-33.1; Kanadanın Seagram TMK-nın indeksi - 97.1 və s. hesablanmışdır.

TMK sistemində beynəlxalq dərəcəli maliyyə mərkəzləri fəaliyyət göstərirlər. Nyu-York, Çikaqo, London, Tokio, Bazel, Amsterdam, Honkonq dünyanın maliyyə mərkəzləri sayılır və TMK tərəfindən idarə olunur. Ekspertlər tərəfindən TMK-ın kapital ixracı məsələrini ön plana çəkirlər.

Təhlillər göstərir ki, xarici ölkələrin iqtisadi inkişafına yönəldilmiş birbaşa kapitalının 90%-nə TMK-lar tərəfindən yerinə yetirilir. ABŞ-da fəaliyyət göstərən "Çeyz", "Morqan", "Melon", "Limen-Qoldmen", "Saks"; Yaponiyada - "Sumitomo", "Dançi-Kanti; Almaniyada - "Deutsche Bank AG", "Dresdner Bank AG" və s. maliyyə mərkəzləri TMK dünyanın dayanıqlı iqtisadi inkişafını təmin etmək siyasəti ilə fəaliyyət göstərirlər.

İnnovasiya iqtisadiyyatına dair ideya mənbəyini ilk dəfə olaraq Y.A.Şumpeter (ABŞ) tərəfindən təhlilləri aparılmışdır. İnnovasiya - sadəcə olaraq yenilik kimi qəbul olunmur. Yeni kəşfin, texnoloji yeniliyin yaradılması və onun intellektual səviyyədə tətbiqini nəzərdə tutulur. Bu məqsədlə də "texnoloji aktivliyin yeni qloballaşması" ideyası məqsədi ilə TMK fəaliyyət göstərirlər. Qlobalaşan iqtisadi inkişaf strategiyasının tələb və nəticələrinə uyğun olaraq TMK elmtutumlu, resurstutumlu və kapitaltutumlu müasir məhsullar yaradırlar. Ümumilikdə TMK-lar daha çox maliyyə vəsaiti tələb edən layihələr həyata keçirmək, ölkələrin intellektual alimlərinin tədqiqatlarından istifadə etmək və s.imkanlarına malikdirlər.

[153] "Transmilliləşmə inedksi" – xarici aktivin cəmi aktiv vəsaitə olan nisbəti; xarici ticarətin cəmi satışa olan nisbəti; xarici filiallarda işləyənlərin cəmi işçilərə olan nisbəti kimi hesablanır. Bu üç göstəricilərinin orta həddi indeksləşmənin müəyyən edilir.

# BEŞİNCİ BÖLMƏ

# VİRTUAL DİALEKTİK COĞRAFİYA
## TAKTİKİ XƏRİTƏSİNİN ANATOMİYASI

- *Virtual coğrafi mühütin dialektikası*
- *Kreativ inkişafın virtual coğrafiyası*
- *Virtual coğrafi məkan siyasəti*
- *Virtual coğrafiyanın monetar xəritəsi*

İyirminci önəm

# Virtual coğrafi mühütin dialektikası

- **Virtual coğrafi mühitin dialektik məzmunu**

Virtual[154] coğrafi mühit = dayanıqlı inkişafının tamlığının dərk etmə, bütov coğrafiya elmi anlamına idrakın mümkünlük sferasından reallığa çevirən dialektik bir elmi sistemdir. Dünyada baş verən siyasi, iqtisadi və coğrafi proseslərinin real empirik formalarının təhlil edilməsi, ümumi konseptual ideyalarının praktikasının baxımından virtual coğrafiyanın mühüm rolu və mövqeyi mövcuddur.

Ərazi - istehsal komplekslərinin diversifikasiyasına, idarəetmə strukturunun maksimal effektliyinə nail olmaq taktikasında virtual coğrafiya elminin son dərəcə mühüm əhəmiyyəti vardır. Coğrafiya elmi tədqiqatlarda sistemli yanaşmalarının praktikasının önəmindən virtuallığının mümkünlüyü daha effektliyə malik olması ilə fərqlənir. Bu baxımdan inkişaf etmiş sənaye ölkələrinin taktiki və strateji inkişaf potensiallarının (istiqamətlərinin) virtuallaşma mümkünlük fenomeni isə yüksələn xətlə getməkdədir.

Virtual mümkünlük fenomeni – müasir elmi araşırmaların mənbəyi və dialektik gerçəkliyidir.

Müasir dialektik inkişafa uyğun olaraq, həm beynəlxalq, həm də milli taktiki inkişafda virtual coğrafi mühitinin sərhədləri genişlənmiş, konkretləşmiş və vahid hala çevrilməkdədir. Məsələnin mahiyyəti onunla ölçülür ki, müasir dövrdə heç bir ölkə (dövlət) “tək yaşamaq” iqtidarında deyildir. Dünya ölkələrinin ümumi dialektik qanunauyğunlarının coğrafiyasının metodoloji istiqamətlərinin miqyasında virtual inkişafının taktikası önəmli məzmun daşıyır.

[154] **“Virtual”** anlayışı = lat. mümkün olan, müəyyən şəraitdə yaranır ( yaxud yaranmalıdır) = ifadəsi kimi qəbul edilir.

Dünya ölkələrinin dayanıqlı inkişafının coğrafiyasının potensial tələbinə uyğun olaraq = "Homo vitualis" (virtual insan) = problemi üçüncü minilliyinin taktiki və strateji probleminə çevriləcəkdir.

Virtual coğrafiya elminin məqsədyönlü olaraq "coğrafi məkan-zaman" təfəkkürünün siyasi, iqtisadi və sosial formaları tədqiqat obyektinə çevrilir və bununla da ərazi-istehsal funksional strukturlarının optimal variantlarının təbiəti də dəyişilir. Bu səbəbdən də virtual coğrafiya real mövcud olan ərazi resursun kompleks istifadəsinə yönəldilən hegemonluğa meyilli olan münasibət problemidir.

Dialektik məzmunda isə, virtual coğrafi problemlər məkan "dairəsinin" potensialının struktur formalarında "hərəkət-inkişaf" elmi-praktiki konseptual istiqamətlərini özündə ehtiva edir.

Yuxarıda qeyd edilən ifadələr göstərir ki, virtual coğrafiya elminin aparatında fenomenallığının siyasi və iqtisadi sistemlərinə malikdir və mütləq mümkünlüyü ilə fərqlənir. Mütləq mümkünlük isə ərazi sistemlərinin formalaşmasında və effektliyində tamamilə fərqli məzmun daşıyır. Bu da öz növbəsində milli və regional davamlı iqtisadi və siyasi əlaqələr komplekslərinin yaradılmasında fəallıq göstərir. Məhz bu mövqedən ölkənin təbii resurslar hesabına ərazi-istehsal strukturunun kompleksliyini təmin etmək mümkünlüyünün formaları yaranır və bu məqsədlə də idarə edilir.

Ərazi-istehsal struktur kompleks fenomenləriinin virtuallığı ölkənin daxili potensianlığının keyfiyyətini önəmə gətirir. Ölkələrarası ixrac potensialının struktur formalarının yaradılmasında, strateji məqsədlərə yönəldilən kapital yığımının fəaliyyətinin aktivləşməsinə virtual mühit geniş imkanlar yaradır.

- **Virtual coğrafiya elmi tədqiqatın diaqnostikası**

"Virtual problemlər" və buna oxşar iqtisadi, siyasi, coğrafi anlayışlarının ilkin ideya istiqamətləri XIX əsrin axırı və XX əsrin əvvələrində elmi mənbələrdə əsas taktiki yanaşma kimi dəyərləndirilmişdir. Dünyada baş verən taktiki, strateji proseslərinin meydana gəlməsi virtual coğrafiya elminin dialektik yanaşmasının dəyərini artırmış və inkişaf etdirilməsinə səbəb olmuşdur. Problemə kompleks elmi tədqiqat müstəvisindən yanaşsaq, virtual coğrafiyanın diaqnostikası ölkənin (regionun) davamlı inkişafının iqtisadi və siyasi taktikasının tərkib hissəsidir.

Dünya iqtisadi və siyasi xəritəsində baş verən qütbləşmə prossesləri = ölkələrarasında virtuallaşma mühütinin tədqiqatlarında müxtəlif istiqamətlərinin reallıqları meydana gəlmişdir. Bu reallıqlarının əsas tədqiqat mənbəyinin sıra-

larında = dünya ölkələrinin arasında “güclü” və “asıllılıq” şəbəkəsinin = yaranmasının virtuallaşma ilə əlaqə səbəbləri durur.

Virtual coğrafiya elmi anlayışının məzmunu və ideya mənbələrinə dair yanaşmalarının təhlillər göstərir ki, əsasən üç mühüm formalaşan və ideoloji istiqamət sayılan **dialektik xəritə** çərçivəs elmi cəhətdən daha çox aktuallıq kəsb edir:

▼

*Cəmiyyətin təkamül coğrafiyasının mövqeyi*

▼

*Virtuallaşan coğrafi mühütin dəyərləndirilməsi*

▼

*Virtual iqtisadi-siyasi taktikasının formalaşması*

Virtual coğrafiya = cəmiyyətin taktiki və strateji inkişafının dialektikasının kompleks xəritəsini təhlil edir.

Virtual coğrafiya mühütinin məntiqi onunla ölçülür ki, müəyyən regionların (ölkələrin) beynəlmiləlliyinin coğrafi sərhədlərinin xəritəsinin təyini taktiki və strateji cəhətdən effektlik yarada bilsin. Digər bir tərəfdən isə coğrafi sərhədlərinin təsirinin əhatə dairəsinin önəmə gətirən ölkənin strateji maraqlarından irəli gələn geosiyasi və geoiqtisadi mövqe nümayiş etdirməyə imkanlar yaransın.

Virtual iqtisadi-siyasi taktikasının formalaşmasında ilkin olaraq ölkənin innovasiya - texnologiyalarının imkanlarının təyini və idarə edilməsi məsələləri durur. İnnovasiya-texnologiyalarının imkanlarının taktiki və strateji önəmli strukturlarının yaranmasına və iqtisadi inkişafın sərhədlərinin müəyyən çərçivə daxilində dəyişmələrinə “reaksiya” verir. Bu dəyişmələrin dialektikası struktur sahələrinin formalaşması prosesindən fərqlidir. Bu fərq ilk növbədə virtual olaraq milli iqtisadi inkişafının coğrafi sərhədlərinin müstəqilliyini qoruyur.

Virtual anlayışının kifayət qədər təsnifatı vardır və onların əksəriyyəti iqtisadi-siyasi yanaşma mövqeyindən təhlilləri edilir. Digər tərəfdən virtual coğrafiya ölkənin geosiyasi üstünlüyünü təmin edən çoxqütblüdən bir qütblü dünya ölkələrinə keçidinin diaqnostikasını göstərir.

Müasir dövr informasiya və texnologiyalar epoxası olduğunu nəzərə alsaq dünya ölkələri üzrə qütbləşmə “şəbəkə cəmiyyəti”nin formalaşması dinamik hala çevrilmişdir. Virtual coğrafi ”şəbəkə cəmiyyət”in formalaşması dünya ölkələri arasında tarazlıqlarının pozulmasına səbəb olmuşdur. Məntiqi olaraq ölkələr arasında nisbətlərinin pozulmasına səbəb inkişaf etmiş ölkələrində informasiya-texnologiya resurslarının optimallıq səviyyəsinin yüksək olması ilə səciyyələnir.

Bu ilk növbədə daha yüksək texnoloji resurslarının səfərbərlik qabiliyyətinin olması səbəbindən dünyanın sənaye ölkələrinin virtual coğrafiyasında geniş məzmuna malik olmasına imkanlar yaratmışdır. Bununla yanaşı, virtuallaşma dünya ölkələrinin periferiyasına mənfi təsiri də müşahidə olunur. Əsas istiqamət ondan ibarətdir ki, periferiya regionlar açıq iqtisadi bazar və ixrac potensiala malik olan istehsal sahələrinə hazır deyildirlər. Bununla yanaşı dünya ölkələrinin iqtisadi-siyasi qütbləşməsinin imitasiyası periferiya ölkələrinin ümumi iqtisadi-siyasi formalaşmasına müəyyən səviyyələrdə fəaliyyət göstərirlər.

Dünya ölkələrinin iqtisadi-siyasi formalaşması və dinamik coğrafiyası keyfiyyətcə yeni bir mərhələyə = virtuallaşma çərçivəyə çevrilməsi = erasına daxil olmuşdur. Virtual coğrafi mühitinin dialektik proseslərinin qarşılıqlı diaqnostikası getdikcə ölkələrdə radikal istiqamətli yanaşmalarının yeni məzmun kəsb etməklə yanaşı, həm də siyasətləşmə proseslərinə məruz qalmışı ilə fərqlənir.

Həqiqət ondan ibarətdir ki, dayanaqlı iqtisadi-siyasi sisteminə malik olan "Yeddilər" sistemi virtual coğrafiyanın formalaşmasında mühüm mövqe nümayiş etdirir. "Yeddilər" sisteminin hegemonlluğu (ABŞ, Almaniya, Fransa və s. ölkələr) müasir virtual siyasətdə digər ölkələrinin iqtisadi-siyasi istiqamətlərinə təsir etməklə yanaşı, həm də onların inkişaf yollarını özlərinin strategiyasına uyğunlaşdırırlar.

Müasir iqtisadi inkişaf siyasəti getdikcə virtual siyasətin məzmununa çevrilməkdədir. Məsələnin əsas elmi-praktiki mahiyyəti ondan ibarətdir ki, virtual coğrafiyanın məzmunu siyasi-iqtisadi və sosial inkişafa məruz qalan ölkələrin əksəriyyəti İEÖ-in transformasiya proseslərini yarada bilən nəticələrinin təsirilə nizamlanırlar.

Mürəkkəb və çoxşaxəli strateji sferalarını özündə birləşdirən virtual coğrafiya mühiti daim hərəkətdə olan və dialektik inkişafının formalarını özündə birləşən ölkələr təkamül proseslərinə daxil olmuşlar (Çin, İsrail, Hindistan, Braziliya, CAF, Cənubi Koreya və s.). Bu ölkələrdə = texnologiya - maliyyə - innovsiya = adlanan müasir virtual coğrafiya önəmində iqtisadi-siyasi kompleksininn bütün "şaxələnmiş ağacın budaqlarında" kreativ-istehsal tsikllin modelinin transformasiyası proseslərinin dinamikası baş verməkdədir.

Müasir mərhələdə dünya ölkələrində baş verən siyasi, iqtisadi və eləcə də hərbiləşmə prosesləri həqiqi mənada virtuallaşmaya məruz qalmışdır və bu məqsədlərdə də ölkələr arasında keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olur. Eyni zamanda, ölkələr avtonom status əldə etməklə öz-özünü ölçü vahidi kimi fəaliyyət göstərir və mərkəzi önəmə çevrilirlər.

Virtual coğrafiya mühitinin çərçivəsində "İnkişafın Azərbaycan modeli"nin dialektikası və diversifikasiyası qısa zaman kəsiyində keyfiyyətcə yeni məz-

munda iqtisadi-siyasi inkişafa nail olmuşdur. Azərbaycanın gələcək dayanıqlı inkişafı istiqamətində həyata keçirilən virtual dayanıqlı iqtisadi-siyasi və strateji reallıqlarının davamlı fonunda beinəlmilən iqtisadi inkişafının strategiyasında mövqe nümayış etdirir.

- **Virtual struktur təsnifatının coğrafiyası**

Coğrafiya elmi tədqiqat obyektlərində qloballaşma ilə paralel olaraq virtual yanaşma ideyası da müəyyən dərəcədə təhlilləri aparılmışdır.[155] Coğrafiya elmi araşdırmalarında virtual ərazi-iqtisadi sisteminin dialektikasının gerçəkliyi əsas ideya mənbəyi hesab edilir.

Coğrafiya elmi baxışlarının virtual yanaşmasının çərçivəsində dünya ölkələrinin təsnifatlaşması və transformasiyası önəmli problem kimi aktual mənbəyə çevrilmişdir. Məntiqi olaraq, müasir dünya ölkələrininin təsnifat göstəricilərinə uyğun olaraq "mərkəz dövlətlər"ə və "periferiya dövlətlər"ə bölünmüşdür. Bu səbəbdən də virtual coğrafiya elmi təliminin əsasında təsnifatlaşan ölkələrinin sistemi dinamikdir və tarixi-iqtisadi gerçəkliklərini özündə əks etdirmək qabiliyyətinə malikdirlər.

Virtual coğrafiya elmi struktur formalarının tarixi formalaşması sistemində strateji əhəmiyyətli "iqtisadi-siyasi dayanıqlı gücə" malik olmuş, digərləri isə tarixi inkişaf mərhələlərində periferiya səviyyəsinə yenmiş ölkələr meydana gəlmişdir.

Makroiqtisadi və siyasi "güc qüvvəsi"nə malik olan dövlətlərinin təsiri ilə deqredasiyaya məruz qalmış ölkələr qrupuna – inkişaf etməkdə, zəif dövlətlər dünyanın xəritəsində yer almışlar. İnkişaf etmiş sənaye dövlətlər tərəfindən virtuallaşan ölkələrinin təsnifatında yerdəyişmə dalğası daha da aktivləşmişdir. İqtisadi potensialı yüksək olan ölkələrinin "dayanıqlı güc"ün ağırlıq mərkəzinin ilkin dalğası Qərbi Avropa, ikinci dalğa isə sonrakı dövrlərdə Şimali Amerika və başqa ölkələrinin iqtisadi inkişafına daxil olmuşdur.

Dayanıqlı inkişaf konsepsiyasının məntiqi baxımdan ölkələrin virtual struktur coğrafiyasının təsnifatının mədsədli ərazi təşkilinin formaları kimi beynəlxalq təşkilatlar tərəfindən irəli sürülmüş ideya mənbələri mühüm əhəmiyyət kəsb edir. İdeya mənbəyinin dialektik mühitinin əsasını ölkələrin iqtisadi-siyasi ərazi təşkilinin optimal səviyyəsinin kəmiyyət və keyfiyyət dəyişikliklərinin meydana gəlməsindən ibarətdir. Bu təsnifatın konteksində virtual modernləşmə ideyası cəmiyyətin elmi-nəzəri və praktiki nəticələrinin konsepsiyasının fəaliyyəti ilə əlaqəlidir.

[155] A.A. Qurbanzadə. Dünya ölkələri: siyasi-iqtisadi və dialektik coğrafiyası. Bakı, 2013

- **Virtuallaşan siyasi xəritənin anatomiyası**

Virtuallaşan dünyanın siyasi xəritəsinin anatomiyası antik dövrlərdən başlayaraq dinamik olaraq müasir dövrə qədər formalaşması davam edir. Ölkələrin dialektik inkişaf tempini özündə əks etdirən virtuallaşan siyasi xəritəsinin formalaşması tarixən antik və yeni ölkələrin yaranmasında aktivlik nümayiş etdirilməsi ilə fərqlənmişdir.

Virtuallaşan siyasi xəritənin formalaşması və tarixi-coğrafi mərhələrdə dövrləşmənin müxtəlif variantları vardır.[156] Buraya "mənimsəmə"; "istehsal"; "qloballaşma"; "informasiya" və s. iqtisadi-sosial və siyasi variantları daxil edilir.

Eramızdan xeyli əvvəl IV-III minilliklərdə - Mesopotamiyada, Çində, Misirdə ilk quldarlıq dövlətlərinin formalaşmasının epoxası başlamışdır. Feodal istehsal münasibətlərinin yaranması bu prosesə daha qüvvətli təkan vermişdir. Lakin qədim şahər-dövlətləri demək olar ki, zəif inkişaf etmişlər. İlk şəhər dövlətlərinə e.ə III minillikdə (Hind çayı vadisində), şəhər dövlətlərə II minillikdə Xuanxe vadisində yaranmasına dair məlumatlar mövcuddur. Yeni Dünyada isə ilk şəhər-dövlətlər eramızın ilk minilliyinin birinci yarısında müasir Meksika və Perunun ərazilərində yaranmışdır.

Böyük coğrafi kəşflərdən sonra dünyanın siyasi xəritəsində əsaslı sürətdə dəyişikliklər baş vermişdir. Bu dövrdə xristian dini parçalanmış, iri imperiyalar yaranmış, bəşəriyyətin, xüsusilə demokratiyanın inkişafına səbəb olan bir neçə inqilab baş vermişdir. Ən mühüm məsələ bu epoxada Böyük Britaniya dövləti monarxiya və müstəmləkəsi geniş ərazilərini əhatə etməyə başlamışdır. Sonrakı dövrlərdə Böyük Britaniyanın müstəmləkə siyasətinin təsiri altında Hindistan, Avstraliya, Kanada və s. dövlətlərinin formalaşmasında müstəsna rolu olmuşdur.

Avrora ölkələrində, xüsusən sənaye iqtisadiyyatının tələbinə uyğun olaraq coğrafi biliklərə ehtiyac artmaqda idi. Dəniz yollarını idarə etmək, beynəlxalq ticarəti nizama salmaq, sənaye müəssisələrini yaratmaq və onları xammalla təmin etmək və sairə üçün coğrafi biliklərinin olmasını tələb olunurdu. Artıq XX əsrin başlanğıcında müstəmləkəçi dövlətlər tərəfindən dünya ərazisinin bölüşdürülməsi başa çatmışdı. Belə ki, 1876-cı ildə Afrikanın yalnız 10%-i Qərbi Avropa ölkələrinin əsarəti altında idisə, artıq 1900-cü ildə bu 90% ərazini təşkil edirdi. Siyasi xəritənin formalaşmasının ən yeni dövrü Birinci Dünya mü-

[156] Сб. Виртуальная  реальность и проблемы ее описания. Киев, 2007.

haribəsinin qurtarması və ölkələrinin yenidən bölüşdürülməsi başlamışdır. Bu dövrdə həmçinin yeni hərbi qurum - NATO yaranmışdır.

Müasir siyasi xəritədə sahəsinə görə on dövlət fərqlənir: Rusiya Federasiyası (17.1 mln.kv.km.), Kanada (10 mln.kv.km.), Çin (9,6 mln.kv.km.), ABŞ (9,3 mln.kv.km.), Braziliya (8,5 mln.kv.km.), Avstraliya (7,7 mln.kv.km.), Hindistan (3,3 mln.kv.km.), Qazaxıstan (2,8 mln.kv.km.), Argentina (2,7 mln. kv.km.) və Sudandır (2,5 mln.kv.km.). Bu ölkələrdən hər birisinin ərazisi 3 milyon kv.km -dən artıq olan 7 ölkə - Rusiya. Kanada, Çin, ABŞ, Braziliya, Avstraliya və Hindistan dünyanın quru hissəsinin yarıya qədərini tutur. Ərazisinə görə ən kiçik dövlətlər Avropada, Asiyada, Afrikada, Latın Amerikasında və Okeaniyada yerləşirlər. Bunlardan 5-i - Andorra, Lixtenşteyn, San-Marino, Monako və sahəsi 44 ha olan Vatikan Avropada yerləşir. Afrikada yerləşən Seyşel adaları və Mavriti, Amerikada Barbados və Qrenada, Okeaniyada Tonqa və Nauru mikro dövlətlərdir.

Ölkələr əhalisinin sayına görə də qruplaşdırılırlar. Dünyada 11 dövlətin hər birisinin 100 milyondan artıq əhalisi vardır. Bunlar Çin Xalq Respullikası, Hindistan, ABŞ, Indoneziya, Braziliya, Pakistan, Rusiya Federasiyası, Banqladeş, Yaponiya, Nigeriya, Meksikadır. Əhalisi 100 milyon nəfərdən çox olan ölkələr dünya əhalisinin 3\5 hissəsindən, əhalisi 50 milyon nəfərdən çox olan 24 ölkə isə dünya əhalisinin 4\5 hissəsindən artığını özündə cəmləşdirmışlər.

Müasir siyasi xəritədə özünə yer tapmış dünya ölkələri coğrafi mövqelərinə görə də qruplaşdırılırlar. Bunlardan materikdaxili, dənizkənarı, yarımada, ada, arxipelaq ölkələrini göstərə bilərik. Bu qruplara aid olan bəzi ölkələrin adlarını çəkə bilərik. Məsələn, yarımada dövlətlərinə İtaliya, İspaniya, Türkiyə, Hindistan, Səudiyyə Ərəbistanı, ada dövlətlərinə - Böyük Britaniya, İrlandiya, Madaqaskar, arxipelaq dövlətlərinə - Yaponiya, İndoneziya (13000 ada), Filippin (7000 ada) aid edilirlər.

**İyirmi birinci önəm**

# Kreativ inkişafın virtual coğrafiyası

- **Kreativ iqtisadi inkişafın virtual coğrafi effektliyi**

İnformasiya epoxasında kreativ iqtisadi inkişafın coğrafiyasının effektliyinin məsələlərinə dair elmi mənbələrdə müxtəlif ideyalar mövcuddur[157]. Fikrimizcə, məntiqi olaraq kteativ iqtisadi inkişafının önəmində "təklif və tələb"in dialektik əlaqələrinin coğrafi və iqtisadi biliklərin praktikasının effektliyi ölkənin dayanıqlığı üçün strateji mahiyyət daşıya bilər. Elmi və metodoloji düşüncə tərzi ondan ibarətdir ki, makroiqtisadi səviyyədə kreativ iqtisadi inkişafının formalaşması və ərazi təşkilinin nisbətində tarazlı funksiyalarının çərçivələri fəaliyyət göstərmək qabiliyyətinə malik ola bilsin.

Bu çərçivələrə aşağıdakı **iqtisadi və coğrafi resurs funksiyaları** daxildir.

▼

***Xammal resursun potensialı və effektliyi***

▼

***Resursun kompleks istifadəsinin virtuallığı***

▼

***Kreativ virtual resursun iqtisadi inkişafı***

▼

***Texnoloji tərəqqinin tədbiqi***

▼

***Kreativ ixrac –idxal məhsulunun coğrafiyası***

Kreativ virtual coğrafi və iqtisadi problemlərinin reallaşdırmaq məqsədi ilə bir neçə istiqamətlərini təhlil edək. Minillik sammitin materiallarında kreativ resurslarından kompleks istifadə edilməsinə dair məsələlərinə önəm verilmişdir. Önəmin ideyasında kreativ resurslarından dünya ölkələrində istifadə edilməsinin real imkanları dəyərləndirilmişdir. Paradoks ondan ibarətdir ki, inki-

[157] Форрестер Дж. Мировая динамика. М., 2003.

şaf etmiş sənaye ölkələrində bu problem daha optimal formada tədbiqi və reallaşdırılması məsələlərinin coğrafiyası daha effektlidir.

Kreativ resurslara söykənən inkişaf etmiş ölkələrinin iqtisadi sisteminin dayanıqlı strukturlaşmış resurs təminatından kompleks istifadə edilməsi zəruriyyəti, ən yeni innovasiya-texnologiyaya modelinin dinamik imitasiyasının ideyası üstünlük təşkil edir. Məntiqi olaraq sənaye ölkələrinin gəlir mənbəyinin miqyasında kreativ resurslarının ixrac potensialında kapital yığımının strategiyasının əsasını əhatə edir. İnformasiya texnologiya səviyyəşivsində kreativ kapitalının tətbiqinin potensial imkanları daha üstündür.

> İnkişaf etmiş sənaye ölkələrində dünya əhalisinin 15%-i məskun laşmışdır. Lakin dünya resurslarının 85%-dən çoxu bu ölkələrin iqtisadi inkişaına xidmət edir.

Kreativ iqtisadi inkişafın "məhsuldar" kodunun effektliyi ölkənin optimallığını təyin edən əsas faktorlarından sayılır. İnkişaf etmiş sənaye ölkələrinin dayanıqlı inkişaf tempində kreativ iqtisadi inkişafının xüsusi çəkisi 70%-dən çoxdur (ABŞ-da=78%, Yaponiyada-75% və s.).

Kreativ iqtisadi inkişafın coğrafiyası hər bir ölkənin struktur kompleksininn keyfiyyət göstəricisidir. Dünya Bankının hesablamalarına (100 ölkənin milli resurslarının istifadə göstəricilərinə) əsasən təbii kapital orta hesabla 2.0-4.0 % dəyişilidiyi halda, bu kəmiyyət göstəricilər sistemində insan kapitalı isə 40-80% arasında dəyışilir. Bununla yanaşı İEÖ sistemində milli inkişafının xüsusi çəkisində təbii kapital orta hesabla 10%, insan kapitalın 70% təşkil edirsə, İEOÖ sistemində aqrar-sənaye məhsullarının hesabına təbii kapital 80% həcminə bərabərdir.




"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında kreativ resursun strategiyasının kompleksi təhlil edilir. Problem ondan ibarətdir ki, ölkənin kreativ resursun qloballaşma məkanına inteqrasiyasının effektliyinə diqqət yetirilir. Əsas məqsəd kreativ "məhsul" yaradılması istiqamətlərinin əlaqələrinin tarazlaşdırılmasının nəticəsində ölkədaxili rəqabətədavamlı məhsulunun potensialının artırılması nəzərdə tutulmuşdur.

- **Virtual kreativ inkişaf müəyyənliyinin coğrafiyası**

Kreativ coğrafiya modelində virtual mənbə kimi insan resurslarının keyfiyyət müəyyənliyinin təyin edilməsidir. Bu isə hər bir ölkənin iqtisadi-sosial və funksional struktur formalaşmasının effektliyini təmin edir. Ümumi yanaşma fonunda virtual kreativ coğrafiya müəyyənliyinin təyini ərazi resurslarının istifadə edilməsi məqsədində optimal mühitin yaranmasına səbəb olur.

$$\mathbf{F} = \{F_1\},\ \{F_2\},\ \{F_3\} \ldots \{F_n\}$$
$$\mathbf{B} = \{B_1\},\ \{B_2\},\ \{B_3\} \ldots \{B_n\}$$
$$\mathbf{E} = \{E_1\},\ \{E_2\},\ \{E_3\} \ldots \{E_n\}$$

**F** = ərazi resursun müəyyənliyi; **B** = kreativ resursun istifadəsi
**E** = kreativ funksional virtual strukturun müəyyənlik təsnifatı
***Virtual kreativ coğrafiyanın təsnifat müəyyənliyi***

Virtual mühitində kreativ dayanıqlı inkişaf modelinin müəyyənliyi hər bir ölkənin (regionun) yeni meyar və paradiqmalarına əsaslanır. Bir cox hallarda isə iqtisadi inkişaf konsepsiyasında ənənəvi ilkin mənbələrindən imtina etməsi zəruriyyətini qarşıya məqsəd qoyur. Nəticə etibarı ilə bu zərurət ölkədə kompleks islahatlarının həyata keşirilməsi və idarə edilməsinin təminatında həledici rol oynayır.

Kreativ dayanıqlı inkişafının virtual istiqamətinin təsir dairəsi yeni formalaşan və dinamik sənaye ölkələrinin ümumi strateji məqsədlərinin həyata keçirilməsində əhəmiyyəti daha önəmlidir.

Problemin həlli və önəmi “Azərbaycanın inkişaf modeli”nin forma və iqtisadi-siyasi xarakterləri misal ola bilər. Ölkənin makroiqtisadi inkişaf sisteminin virtual mühitə transformasiyası daha effektli məzmuna çevrilməsinə səbəb olmuşdur.

Azərbaycanın coğrafi cəhətdən virtual genişlənməsi həm Qafqaz regionunda, eləcə də materik ölkələrinin sistemində strateji potensialları ilə reallaşmaqdadır. Məsələ ondan ibarətdir ki, iqtisadi-siyasi baxımdan respublikanın gələcək dayanıqlı inkişafına uyğun olaraq virtual coğrafi kreativ meyilli strukturlarının yaradılması strategiyası davamlılığının təmin olunmasına dövlət səviyyəsində həyata keçirilir. Məqsədyönlü formada şaxələnmiş struktur formalarının yaradılması və modernləşdirilməsi Azərbaycanın dayanıqlı kreativ inkişaf modelinin ideyasının əsasını təşkil edir.

Yaxın gələcəyinin strategiyasının əsasında neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun potensial tempini qoruyub saxlamaq və

onun ixrac imkanlarını şaxələnmiş strukturlarının hesabına genişləndirməkdən ibarətdir. *"Azərbaycan 2020: Gələcəyə baxış"* İnkişaf Konsepsiyasında virtual kreativ istehsalın və həmçinin ixrac potensial yönümlü ərazi-istehsal sahələrinin genişləndirilməsinə üstünlük verilmişdir. Ölkənin gələcək potensial imkanlarından kompleks istifadə edilməsi və texnoloji proseslərinin tədbiqi nəticəsində rəqabətədavamlı məhsul istehsalında kreativ inkişafının müəyyənlik üstünlüklərinin təsnifatlarının dinamikası nəzərdə tutulmuşdur.

Kreativ inkişaf modellər və onlarda baş verən siyasi-iqtisadi infornasiyalar ölkənin diversifikasiya sisteminin aktivləşməsində daha çox fəallıq göstərir. Buna görə də kreativ inkişaf modellərində olan qeyri-müəyyənlik halları başqa modellərdən köklü surətdə fərqlənir və əsasən ölkənin iqtisadi-sosial strukturlarının kompleks idarə edilməsindən asılı olaraq yeniləşir (hərəkətdədir).

Kreativ coğrafiya elmi informasiyasının əsasında ərazi-struktur sahələrinin təşkili və idarə edilməsinin optimal modellərinin müəyyənləşdirilməsinin təsnifatında ABŞ,Yaponiya və Qərbi Avropa ölkələrində XX əsrin axırı XXI əsrin əvvəllərindən başlayarq aparılan tədqiqat işlərinin nəticələri praktiki hala çevrilmişdir. Ona görə də kreativ inkişafının proqnoz göstəriciləri ancaq müəyyən ehtimalda iqtisadi-siyasi və coğrafi funksiyalarının faktiki göstəriciləri ilə üst-üstə düşməsinin şərtində formalaşması virtual effektlik yaratmaq imkanına malik ola bilər.

Təhlillər göstərir ki, ölkənin kompleks idarəedilməsində əsas problemlərdən sayılan kreativ qərarların qəbulu əsasında müəyyənlik təsnifatının dialektikasında geniş mənada özünü biruzə verir.

Məsələn, Yaponiyanın inkişafının dialektikasının müəyyənliyini təmin edən siyasi, texnoloji, coğrafi mühit, sosial-psixoloji və s.faktorlar iqtisadi-sosial idarə etmə sistemlərinin fəaliyyətində kreativ tənzimləmə funksiyalarinda özünü göstərir. Yaponiyada kreativ düşüncə keyfiyyətinin təhlilindən istifadə edilən praktiki metodlarının tətbiqi ölkənin sürətlə inkişafına təsir göstərmişdir.

- **Virtual coğrafiya ilə kreativ inkişaf arasında dialektik əlaqə**

Virtual coğrafiya elmi ilə ilkin olaraq kreativ resurs arasında dialektik əlaqə mövcuddur. Ölkə və eləcədə beynəlxalq mühitdə kreativ istehsal inkişaf sahələrinin uzlaşması və idarəedilməsində digər yanaşmalarla birlikdə virtual coğrafiya elmi araşdırmalarının praktikası aktual məsələlərindən biridir. Elmi informasiya və virtual coğrafiya arasında dialektik əlaqə cəmiyyətin ərazi təşkili fəlsəfəsinin ayrılmaz hissəsi hesab edilir.[158]

[158] A.A.Qurbanzadə. XXI əsr dayanıqlı inkişafının aqrar-sənaye klaster faktoru. Bakı, 2015.

Müasir informasiyanın fəlsəfəsində aşağıdakı funksiyalarının fəaliyyətinin formalaşması virual coğrafiya ilə kreativ inkişaf arasında əlaqələrdə özünü göstərir:

✓ ərazi potensialının istifadə edilməsinin dialektik məntiqi əlaqəsinin çərçivəsində kreativ resurslarının kompleks yaratmaq fəaliyyətinin funksiyaları əlaqəsinin çərçivəsində;

✓ ölkədaxili ərazi-istehsal kompleksin virtuallaşmasında kreativ inkişafının "cazibə reaksiyası"nın dinamik əlaqə yaranır;

✓ coğrafi məkan informasiya sistemi kreativ inkişaf ilə virtuallaşma arasında dayanıqlı iqtisadi, siyasi rasional əlaqələr formalaşır.

Müasir dövrün virtual tələbləri baxımdan ölkələr arasında rəqabətqabiliyyətli informasiya şəbəkələrinin göstəriciləri əhəmiyətli dərəcdə dəyişikliklərə məruz qalmışdır. Müasir dövrdə "bilik iqtisadiyyatı"nın praktikasına söykənən dövlətlərin əksəriyyəti dayanıqlı inkişaf yolu ilə formalaşmışlar.

Ümumi coğrafiya elmi təfəkkürünün məqamı ondan ibarətdir ki, kreativ resurs potenasialı iqtisadi strukturun dayanıqlı inkişaf prosesləri ilə əlqəsi daha çox aktiv mövqeyə malik olur. Aktiv mövqeyə malik olan iqtisadi-sosial və siyasi sisteminin funksiyasının əsaslandırılması prosesinin elmi təhlilində elmi-metodoloji təlimlər kreativ inkişafla əlaqəli formada yaradılması önəmli sayılır

Elmi tədqiqatların, o cümlədən kreativ düşüncə tərzinin keyfiyyət göstəriciləri hər bir ölkənin virtual baxımında önəmli məsələ kimi dəyərləndirlir. Bu məsələ ilə bəzi informasiya mənbələrinə müraciət etmək məqsədəuyəundur. *Elmi İnformasiya İnstitutunun* (ABŞ) dövrü olaraq keyfiyyət göstəricilərinə ( o cümlədən virtual olaraq kreativ düşüncə əlaqə ilə) elmi məqalələrinə verilən iqtibasların sayı ilə əlaqədar təhlil olunur. Məsələn, ABŞ-da (1993-2003-cü illər arasında) elmi məqalələrinin sayı 2.6 mln., Böyük Britaniyada -712 min., Yaponiyada-686 min., Rusiyada isə cəmi 277 məqalə ən nufuzlu jurlanllarda çap olunmuşdur. Lakin ABŞ-da aparılan tədqiqatlarına iqtibasların sayı - 31 min; Böyük Britaniya -7 min; Yaponiya-5 min olduğu halda, Rusiyada isə bu göstərici cəmi 800-ə bərabərdir.

Elmi İnformasiya İnstitutu başqa bir araşdırma da aparmışdır. Hər nəfərə düşən illik gəlir ilə müqayisədə məqalə və iqtibasların nisbəti aşağıdakı kimidir. Hər nəfərə illik gəlirin ən çox olduğu ölkələrdə bir qayda olaraq elmi dərəcələr də yüksəkdir. Məsələn, İsveçrə, Kanada, İsveç, İsrail kimi ölkələr də elmi göstəricilərinə nisbətində ABŞ,Yaponiyadan geri qalmırlar.

**İyirmin ikinci önəm**

# Virtual coğrafi məkan siyasəti

▪ **Virtual coğrafi məkanın siyasi dialektikası**

Virtual coğrafi məkan siyasətinin təsnifadında optimal diversifikasiya strukturuna malik olan ölkələr dayanıqlı inkişafına malikdirlər. BMT-nın təsnifat göstəricilərində dünya ölkələlərinin 18.2 %-i (37ölkə) optimal dayanıqlı struktur səviyyəsinə malikdirlər. Müasir ölkələrinin dayanıqlı inkişafının xəritəsinin dialektikasına əsasən BMT-nin ekspertlərinin ümumi elmi nəticələrinə əsasən yeni tipli ölkələrinin təsnifatlarının sxemi verilmişdir. Əsas problem ondan ibarətdir ki, ölkələr arasında iqtisadi, siyasi və coğrafi xəritəsinin konturları müəyyənləşmişdir. Qərbi Avropa, Şimali Amerika, Şərqi Asiya ölkələrinin virtual coğrafiyasında inkişafın diversifikasiya modelləri və optial ərazi təşkilinin formaları əsas meyarlar kimi götürülür.

XX əsrin ilkin müddətlərinə qədər Qərbi Avropanın sənaye struktur potensialına malik olan ölkələr qruplarının iqtisadi siyasətində dövlətlərarası və dövlətdaxili kompleks proqram və lahiyələrinin fəaliyyəti effektliyi ilə seçilirdi. Sonrakı illərdə ABŞ və Yaponiya, eləcə də Çin dövlətlərinin strateji virtual coğrafi dairəsinin genişlənməsi səbəbindən Avropanın mərkəzi mövqeynə malik olan ölkələrinin iqtisadi-siyasinin təsir dairəsinin çərçivəsi daralmağa meyil göstərmişdir. Avropa analitik-siyasi mərkəzlərinin təhlillərinin əsasında bu səbəbdən Avropa İttifaqı (Aİ) və Avropazona (AZ) təhlükəsizliyi gedikcə aşağı düşməsi reallaşmaqdadır.

Müasir dövrdə Aİ daxil olan ölkələrinin əksəriyyəti müstəqil siyasət yeritməyə üstünlük veririrlər. Böyük Britaniyanın Aİ-dan çıxmağı buna misal ola bilər. Almaniya, Fransa və başqa ölkələr Avropa İttifaqı coğrafi məkanı ilə məhdudlaşdırmaq siyasitinə münasibət bildirirlər. Ekspertlərin fikrinsə, Aİ-nın tərkibinə daxil olan elə ölkələr var ki, onların milli maraqlarını ümumi birlik maraqlarından üstün tutması nəticəsində çoxsaylı problemlərinin meydana gəlməsinə səbəb olmuşdur. Bu ölkələrinin milli-etnik idektikliyi faktorunun tez-tez irəli sürməsi Avrozona daxilində münasibətlərinin getdikcə təsirinin miqyasını zəiflədir.

Məsələnin elmi-praktiki düşüncə tərzi ondan ibarətdir ki, Aİ ölkələrinin daxili və xarici siyasətində baş verən dəyişikliklər dünya ölkələrinin ümumi strategiyasının coğrafiyasınada öz təsirini göstərməkdədir. Optimal səviyyədə iqtisadi və innovasiya texnologiyalarının potensialı, maliyə mərkəzləri, TMK-lar və s. strateji struktur monofunksionallığını göstərən komplekslər Aİ ölkələrinin dayanıqlığının"parçalanması"na səbəb olması xarakterik hala çevrilməkdədir.

Virtual məkan siyasətində iqtisadi-sosial dinamik coğrafiya daimi olaraq baş verir. Məsələ ondan ibarətdir ki, XX əsrdən başlayaraq planetar səviyyəli dövlətlərinin inkişafının sərhədləri daxilində "piramidal" ərazi təşkili formaları qurulmuşdur. Yəni, ərazi-istehsal strukturların, maliyyə resurslarnın mərkəzləşməsi virtuallaşma mühiti ilə reallaşmağa başlamış və nəticədə isə "sənaye ölkələr"sisteminin "güc" qüvvəsinin hökmranlığı böhranlarının dinamikasının sərhədlərinin genişlənməsinə şərait yaradılmasına səbəb olmuşdur. Bu səbəbdən də XX əsrin 30-cu illərinin ərəfəsində virtual coğrafi məkanda "piramidal" quruculuğu prosesi özünün fiziki sərhədlərini tamamlamaqla öz funksiyasını yerinə yetirdi. Sonrakı quruculuq mərhələsində dünya ölkələrində baş verən neoliberal modellə virtuallaşmaya doğru gedən iqtisadi inkişafda yeni formalaşma meyillərinin arxitekturasında (xüsusən, dayanıqlı iqtisadi tsiklilik siyasəti) özünü göstərmişdir.

Virtual coğrafi məkanın ümumibəşəri siyasi prosesinin məntiqi nəticəsi kimi qəbul etsək, bu proses özünün daxili təbiətindən deyil,cəmiyyətin siyasiləşən, sosiallaşan və iqtisadi böhranlaşan mühitinin yaratdığı anlamdır. Bu mənada virtual coğrafi məkan asimmetrikdir.

> G = ölkələr qrupu (19 ölkə + Aİ-27 ölkə) ümmdünya ticarətin 90%-ni, əhalisinin isə 2/3 hissəsini əhatə edir.

Məsələ onunla ölçülür ki, hər bir ölkənin siyasi iqtisadi səviyəsi və mental xüsusiyyətləri ilə determinə olunmuş inkişaf yolları mövcuddur. Lakin virtual coğrafi məkan siyasətinin tələbləri baxımından yanaşsaq, "həlledici səsə balik" ölkələrinin sistemliyi, sərbəstliyi və tamlığının pozulması tədricən prosesləri də baş verir.

Virtual səviyyədə qeyd olunan proseslərin inkişaf etmiş ölkələrinin hökmranlığının səbəbindən digər ölkələrinin fəaliyyət sferasını daha çox dar çərçivəyə salmağa təzyiq göstərir. Məlumdur ki, ABŞ, Almaniya, Fransa və s. ölkələr planetar iqtisadi inkişafının virtual "ağırlıq" mərkəzinə çevrilmişlər. Bu günün təfəkkürünə görə, inkişaf etmiş ölkələr artıq "klassik ölkə" ifadəsini tam əhatə etmə imkanına malik deyillər. Virtual coğrafi məkan siyasəində "milli tamlıq", "milli bütövlük" anlayışı pozulmuşdur. Virtual reallıq siyasəti

göstərir ki, iqtisadi inkişafın transmilliləşməsi ritmi dinyanının xəritəsinin sərhədlərini dəyişdirilməsinə səbəb olmuşdur.

- **Dayanıqlı sənaye ölkələrinin virtual siyasi-iqtisadi modelləri**

Müasir dövrdə dayanıqlı sənaye ölkələrinin virtual coğrafiyası elmi-texniqi tərəqqinin üzərində qurulmuşdur. Dayanıqlı siyasi-iqtisadi inkişafının konstruktiv praktikasına söykənən elm mərkəzlərinin təklif etdikləri sənaye modellərinin tipologiyası əsaslandırılmışdır. Taktiki olaraq siyasi iqtisadi sənaye modelləri tipoloji məzmunda aşağıdakıları göstərə bilərik.

**Liberal model** = ABŞ iqtisadiyyatının inkişafında mühüm yer tutur və bazar münasibətlərinə uyğunlaşdırılmışdır. İnvestisiyada, işçi qüvvəsindən istifadə və s. problemlərini tənzim edir. Milli və yerli orqanlar qanunvericilik və inzibati prosseslərlə xüsusi bölməni idarə edir. İşçi qüvvəsindən istifadə edilməsi sistemində ABŞ-ın öz xarakteri vardır. Bu ölkədə müəssisələr səviyyəsində əmək müqavilələri bağlanması, mərkəzləşmiş həmkarlar hərəkatı yoxdur. Kollektiv müqavilələr üç illiyə bağlanır, əmək haqqının dəyişməsi müqavilədə göstərilir. Bu sistem modeli - Kanada, Belçika, Fransa, İtaliya, B.Britaniya və s. ölkələr üçün də xarakterikdir.

**Korporativ model**. Bu model tənzim olunan bazarı nəzərdə tutur. Bu da dövlətin yaxından iştirakı ilə baş verir. Həmin model iki sistemə ayrılır: demokratik (sosial-islahat forması) və iyerarxiya (aşağıdan yuxarı tabeçilik). Demokratik sistemdə dövlət sahibkarlığı yuksəkdir. İsveçdə, Avstraliya və s. ölkələrində bu model xarakterikdir. Sosial-bazar modelindən Almaniyada daha çox istifadə edilir.

Hər bir ölkənin sənaye siyasəti virtual olaraq daxili və xarici əlaqəsinin çərçivəsində formalaşır. Sənaye ölkələrinin sosial siysətinin əsasını məşğulluq strategiyası təşkil edir. Sənaye ölkələrində məşğulluq siyasətinin dialektikasında kreativ iqtisadi inkişaf,ümumi təhsil,işsizlik normasının müəyyən edilməsi (ABŞ-da bu norma 3-4%, B.Britaniyada 1.0-1.5%-dir) və s problemlərindən ibarətdir. Sənaye ölkələrində məşğulluq siyasətinin həyata keçirilməsi nəticəsində xərclərin xüsusi çəkisi B.Britaniyada 1.5-2.3%, Danimarka 5.8-7.1% təşkil edir. Hər bir ölkənin daxili bazarının həcmi, iqtisadi fəaliyyətinin səviyyəsi, onun idxal və ixrac kvotası ilkin təsnifatda ÜDM-də idxal-ixracın xüsusi çəkisi ilə müəyyən edilir. Məlumdur ki, ərazicə kiçik olan ölkələrdə ixrac kvotası (Belçikada - 70%, Hollandiyada - 56%, İsveçrədə - 37% və s.) yüksək olduğuna görə bu ölkələrdə daxili bazar da kiçikdir, beynəlxalq bazar münasibətlərindən çox asılıdır.

Hər bir ölkənin iqtisadi-sosial strategiyasının əsasında istehlak tələbi mühüm funksiyalardan sayılır. Daxili bazarın inkişafı məhdud olan ölkələrdə bu tələbin təsiri daha böyük olur. Məlumdur ki, istehlakın həcmi ilk növbədə əhalinin intellektual məşğulluq səviyyəsindən, əhalinin gəlirlərindən və s. asılıdır. İnkişaf etmiş sənaye ölkələrində intellektual əmək üstünlük təşkil etdiyi üçün bu sahədə çalışanların əmək haqqları daha yüksəkdir. BMT-nin iqtisadi ekspertlərinin təhlillərinə əsasən (2008-2012-ci il) sənaye ölkərlərinin emal sənaye komplekslırində çalışan intellekt işçilərinin orta hesabla bir saatlıq əmək haqqı = Almaniyada - 27; Yaponiyada - 25; ABŞ-da - 22 dollar = təşkil etmişdir.

Ümumiyyətlə, dayanıqlı kreativ inkişaf yüksək faydalı məhsul səviyyəsinin iqtisadi artımını təmin edir. Ona görə də bu iqtisadi artımının əsaslandırılmasında makroiqtisadi səviyyədə təhlillərinin aparılmasına üstünlük verilir. Bunun başlıca məqsədi istehsalın real və ya yüksək faydalılığında son məhsul əldə olunması ilə xarakteriza olunmasıdır. Dayanıqlı kreativ inkişaf dialektikasında köhnə ideya siyasi doktrinası yeniləşmə formada daha aydın reallaşır. Məlumdur ki, *"iqtisadi inkişaf sivilizasiyalarının toqquşması"* iqtisadiyyatın kompleks yaradılmasının nəticəsidir. Dünya ölkələrinin siyasi coğrafi xəritəsinin bu istiqamətdə yenidən qurulması problemlərinin inkişaf etmiş dövlətlərlə yanaşı, beynəlxalq iqtisadi münasibətlərinə maraqları olan inkişaf etməkdə olan dövlətlər üçün də sınaqa çevrilir.

- **Virtual məkan siyasətin paradiqması**

Müasir epoxanın xarakterik cəhətlərindən biri virtual məkan siyasətinin dinamikasında anqlosaksion modellərinin[159] üstünlük təşkil etməsidir. Məntiqi önəm ondan ibarətdir ki, ölkələrin müxtəlif iqtisadi-siyasi inkişafının və formalaşmasının kardinal dəyişkənliyinə reaksiya verən dialektik virtual modellərə ehtiyac duyulur.

Virtual məkan siyasətində baş verən radikal dəyişikliklər inkişaf etməkdə olan ölkələrinin yaxın dövr ərzində dünyanının hərəkətverici qüvvəsinə çevrilməsinə dair yeni paradiqma modellərinin fəaliyyəti aktivləşməkdədir. Dünya Bankının strateji təhlillərinin reallıqlarına görə, yaxın illərdə (≈ 2030-ci illər ərəfəsində) Qlobal Məcmu Məhsulun (QMM)[160] mütləq həcmi 72 trln. $ olma-

---

[159] Anqlosakson modellər: bu günkü virtuallaşmaya "itaət" ediməsinin labüd olmadığını, onun kardinal formada məzmun dəyişkənliyinə məruz qalmasının zəruriliyini ifadə edir.

[160] Qlobal Məcmu Məhsul dedidikdə - dünya üzrə sənaye istehsalı, dünya ticarəti, həyat səviyyəsi göstəriiləri, eləcə də digər iqtisadi-sosial indikatorlar daxildir.

sı faktoru dəyərləndirilmişdir. Bu artımda inkişaf etməkdə olan ölkələrinin xüsusi çəkisi isə 38%-dən çox olması müəyyən edilmişdir. Artım dinamikasında Şərqi Avropa ölkələri, Asiyanın bir sıra ölkələri (Hindistan, Tailant, İran, Türkiyə və s.) inkişaf etmiş sənaye ölkələrinə yaxınlaşması imkanı yaranacaqdır. BMT-nın hesabatlarına görə,yaxın dövr ərzində inkişaf etməkdə olan ölkələrdə insanların illik 9000-dən çox dollara qədər gəliri dünya üzrə təxminən 16%-dən çoxunu təşkil edəcəkdir.

Məlumdur ki, Qlobal Məcmu Məhsul çərçivəsində ən yüksək xüsusi çəkiyə malik olan ABŞ hesab edilir (21.7%). Bu kəmiyyət göstəriciləri: Aİ-21.4%, Çin - 12.0 %, Yaponiya - 7.0 % və s. ölkələr üzrə hesablanmışdır.

Virtual reallıq baxımından yanaşsaq, yaxın dövr ərzində dünya ticarətin illik həcmi iki dəfə artaraq 27 trln. $ çatacaq, QMM-də xüsusi çəkisi 25%-dən 30%-ə qədər yüksəlməsi nəzərdə tutlulmuşdur. Bu artımın 50%-dən çoxu inkişaf etməkdə ölkələrinə aiddir.

Son 30 ildə Çin XR-nın iqtisadi potensialı sürətlə artmışdır. Bu ölkə dünyanın yeni dayanıqlı güç mərkəzinə çevrilməkdədir. Proqnozlar göstərir ki, Braziliya, Hindistan, Meksika və s. ölkələr də virtual reallıqlala üzləşmişdir.

Tarixi inkişafının reallıqları və təzadlı nəticələri göstərir ki, virtual məkanın rasional idarə edilməsi və kompleks iqtisadi-sosial inkişaf problem olaraq qalmaqdadır. Virtual  məkan siysətinin dayanıqlı inkişafı prosesində mühüm rol oynayan "ərazi-istehsal-bazar" modelinin tsiklliyinin miqyası genişlənməşi başlıca strateji faktora çevrilmişdir. Bu da problemlə məşğul olan tədqiqatçıların optimizm ideyalarını önəmə gətirilməsi kimi çıxış etməsinə səbəb olmuşdur. Dünya ölkələrində baş verən iqtisadi-siyasi virtual dəyişikliklər paradiqmal yeniləşməni zəruri edir. Ölkələrin inkişafını təmin edən universal xarakterli nəzəri konstruksiyaların effektsizliyini meydana çıxardır. Fikrimizcə, elmi paradiqma cəmiyyətin ərazi təşkili prosesində konstruktiv və gerçəkliyə adekvat olan virtual tsikllik davranış modellərinin qurmağa imkan verməlidir. Təhlillər göstərir ki, ölkənin paradiqmal konstruksiyası hər hansı bir konkret konseptual modelə isdinadən qurula bilməsi effektli sayılmır.

> Tsiklilik-dayanıqlığının əlverişli fonu rolunda  o vaxt çıxış edə bilər ki, virtual məkan siyasətinin paradiqması real optimal uyğunluğa söykənsin.

XX əsrin ikinci yarısımdan başlayaraq virtual "geosiyasi güc"un mövqeyində ABŞ, Almaniya, Fransa və Böyük Britaniya üstünlüyü nəzəri cəlb edir. Rusiya imperiyası artıq dağılmaq ərəfəsinə yaxınlaşırdı. Elmi mənbəlrədə bu durum "ikiqütblü  hökmranlığın dağılması" kimi təhlil olunur. Həmin illərdə  bir vaxtlar Rusiyanın nüfuz dairəsində olmuş geosiyasi məkanları (Şərq Avropa

ölkələri) ABŞ və Qərb Avropa ilə yaxınlaşdı. Qafqazda etnik zəmində yaradılmış münaqişələr qeyri-müəyyənlik hala çevrildi. Baltikyanı ölkələr Avropa ilə əməkdaşlığı gücləndirdilər. NATO-nun Şərqə doğru genişlənmə siyasəti aktivləşməyə başladı. ABŞ-ın siyasətciləri "demokratiyanın genişlənməsi" konsepsiyasının strateji istiqamətlərinə dair təkliflər paketini elan etdi. Bu paket ABŞ-ın "Cəlbetmə və genişlənmə vasitəsi ilə milli təhlükəsizlik strategiyası" (A National Security Strategy of Engagement and Enlargement) adlı sənədində əks olunmuşdur.

"Demokratiyanın genişlənməsi" ideyası (1993-2000-ci illərdə) ABŞ-ın beynəlxalq-siyasi fəaliyyətinin əsasını təşkil etdi. Nəticədə virtual məkanda "birqütblü dünya" modelinin formalaşmasına diqqət önəmə gətirildi. Rusiya ABŞ-la siyasi-iqtisadi sahəsində rəqabətə davam gətirə bilmədi və birbaşa rəqabət aparmaq taktikasından imtina etməli oldu.

Virtuallaşan dövlətlərarası əməkdaşlıqda inteqrativ[161] təşkilatlar yaradırdı. XX əsrin 80-ci illərinin axırında dövlətlər tərəfindən yaradılan koordinasiya xarakterli beynəlxalq təşkilatların sayı 400-ə yaxın idi. XX əsrin sonunda siyasi-iqtisadi inteqrasiya modellərinin fəaliyyəti virtual varlıqlarının yaratmaq imkanını əldə etdilər: Avropa İttifaqı, And qrupu, Karib "Ümumi bazarı", NAFTA (Şimal Amerika azad ticarət sazişi) və s. Eyni zamanda, dünyada yeni siyasi, hərbi və sosial-iqtisadi birliklər formalaşmağa başladı. Bütün bunlar "birqütblü dünya"da tamamilə fərqli geosiyasi mənzərənin yaranmaqda olduğunu təsdiq edirdi.

[161] "İnteqrasiya" anlayışını siyasi termin kimi leksikona alman alimləri R.Şmed, H.Kelzen və D.Şindler işlətməyə başlamışdılar. Bu müəlliflər inteqrasiya anlayışını siyasi mənada dövlətlərin sosial-siyasi birlik yaratması kimi başa düşürdülər.

İyirmi üçüncü önəm

# Virtual coğrafiyanın monetar xəritəsi

## ▪ Monetar həssaslıq xəritəsinin formalaşması

Beynəlxalq Valyuta Fondunun elmi-tədqiqat institutlarının hesabatlarında qeyd edilir ki, "...zahirən dünya ölkələri öz suverenlik nüfuzlarını müəyyən milli pul vahidinə malik olmaq və müvafiq hüquqi dairəsində onun istifadəsini qorumaqla ifadə edirlər. Pul bayraq kimidir; hər ölkənin özünün olmalıdır". Fransız iqtisadçısı Pascal Salinin isə məntiqi olaraq ifadə edir ki, "...pul buraxılışı qanunlarının istehsalı kimi dövlət suverenliyinin əsas atributu deyil".

Praktiki cəhətdən pullar mənsub olduqları ölkənin sərhədlərini aşaraq millətlər arasında pul əməliyyatlarında və ya xarici ölkələrdə də istifadə edilir. Eyni zamanda pulun beynəlmiləlləşməsi ölkələrarasında rəqabəti gücləndirir. Bu halda bəzi pul vahidləri, məsələn, ABŞ dolları və ya alman markı kommersiya, maliyyə məqsədləri üçün daha cəlb edicidir.

Valyuta münasibətlərinin məkan təşkili-pulun coğrafiyası barədə dialektik bir anlayışdır. Hazırda monetar coğrafiya sosial elmlər tərəfindən çox az tədqiq edilir. Problemin əsas elmi mahiyyəti ondan ibarətdir ki, monetar coğrafiya termini beynəlxalq səviyyəli iqtisadi inkişafının əsas dialektikasının obyektiv reallıqlarının tərkib hissəsidir.

> İlkin həqiqi beynəlxalq valyuta b.e.ə. V əsrdə dominantlıq edən Afinanın gümüş dirhəmi olub. Üzərində Afinanın, əks tərəfində ilahə rəmzi olan qartal əksli bu sikkə öz dövrünün ən nüfuzlu pulu olub.

Dünya ölkələri heç də həmişə monetar inhisarının bütün üstünlüklərindən bəhrələnə bilmirlər. Bir çox dövlətlər monetar bazar tələbatı üçün istifadəçilərin az və ya çox dərəcədə imkanlarına uğrunda rəqabət aparan yerli inhisardan strateji oliqarxiyaya çevrilirlər.

Pulun kəşf edilməsi bəşər sivilizasiyasının təkamül inkişafı ilə əlaqəlidir. Bunun nəticəsində istehsalın və əmək bölgüsünün artan səmərəsinə təkan verərək coxfunksional mübadiləni inkişaf etdirmək oldu.

XX əsrin əvvəlində alman iqtisadçısı George Knappinin *dövlət pul nəzəriyyəsinə* əsasən: pul qanun məhsuludur və onun etibarlığı dövlətin qərarlarından asılıdır. Lakin bu, real vəziyyətə qeyri-dəqiq məhdudlaşdırılmış baxışdır.

Bəzi tədqiqatçılar "pul ictimai faktordur"ideyasına üstünlük verirlər.[162] Başqa ifadə ilə desək, pul ən yaxşı məntiqi və formalaşdırıcı, real tarixi faktora əsaslanan ictimai institutdur-bazar təcrübəsi və davranışı modellərinin özünü möhkəmləndirən məhsuludur.

Sosioloq Nigel Dodd qeyd edir ki, "...pulun xüsusiyyətini başa düşmək üçün onun transaksiyasını mümkün edən sosial əlaqələr şəbəkəsinə istinad etmək lazımdır".

Faktiki olaraq, ərazi (ölkə) valyutası ideyası millət-dövlət məfhumu kimi çox gec kəşf olunub. Yalnız "bir millət-bir pul" ideyası XVII əsrin Vestphalia[163] sülhündən bəri standart siyasi coğrafiya konvensiyalarından irəli gəlmişdir. Bu konvensiyanı elmi mənbələrində monetar coğrafiyanın "Vestphalia modeli" adlandırılır. Bu model əsasında dövlətlər ilk dəfə olaraq pul buraxılışı və idarəedilməsi işində nəzarətin inhisarlaşdırılması hüququnu legitimləşdirmək iddiasını irəli sürdülər. Məlumdur ki, suveren sikkələrinin büraxılmasının coğrafiyası çox qədim dövrlərə aiddir. Monetar suverenlik xəritəsi nisbətən təzə hadisədir. XIX əsrin sonlarında heç bir Qərb dövləti tam monetar suverenlik əldə etməmişdir.

Sonrakı dövrlərdə dövlətlərarası monetar siyasəti genişlənmiş və bazar münasibətlərinin idarəedilməsi arasındakı fərqlər nisbətən azalmağa başlanmışdır. Bu səbəbdən monetar coğrafiyasının funksional şərtlərlə valyuta əməliyyatları və əlaqələri şəbəkələrinin yaradılması səbəbindən yenidən konseptuallaşdırılmışdır.

Monetar geniş mənada virtual coğrafiya siyasətidir. Coğrafi məkanda formalaşan monetar siyasət ölkələrarası valyuta əlaqələrinə söykənir. Ölkənin iqtisadiyyatı və siyasəti monetar virtual coğrafi məkan təsiri ilə bağlı dialektikasının nəticəsində həyata keçirilir.

Monetar coğrafiya sosial sferanın tərkibinə daxil olmasına baxmayaraq, siyasi və iqtisadi cəhətdən dünya sisteminin dəyişilməsində mövqe nümayiş etdirir. Belə ki, dünyada monetar virtual məkanlar formalaşmışdır ki, buda dövlətlər, maliyyə mərkəzləri arasında bazar fəaliyyətinin bölüşdürülməsində siyasi və iqtisadi aktivlik göstərir. Virtual coğrafi reallıq ondan ibarətdir ki, monetar bazarlar rəqabət və texniki innovasiya ölkələrarası ilə inteqrasiya olunur.

---

[162] Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı, 2014.
[163] Almaniyanın şimal-qərbində tarixi vilayətdir.

Monetar coğrafiya şəbəkələrinin ideya mənbəyində[164] əsasən üç funksional yanaşma daha çox aktivlik göstərir:

1) Ərazi aktivliyi = dövlətlərin siyasi gücü ilə müəyyənləşən pulun ənənəvi coğrafi məkan yeridir. Bu monetar siyasət Vestphalia modelinin əsasıdır.

2) Transaksiya aktivliyi = pulun nisbi axınının coğrafi məkanı kimi qəbul edilir. Bu da hər bir valyutanın öz ölkəsində və ya digər ölkələrdə müxtəlif məqsədlər üçün istifadəsini xarakterizə edir.

3) Nufuz aktivliyi = transaksiyanın və ərazinin funksional aspektdə vahid istifadə və nufuz əlaqəsində nəzərdə tutulur. Bu ideya monetar coğrafiyada iki əsas təsirinin, yəni bazarların və dövlətlərin fəaliyyəti kimi meydana gəlmişdir. Nufuz aktivlik ideyası monetar coğrafiyanın dəyişkən modelinin əsasını təşkil edir.

- **Qızıl-valyuta resurslarının virtual coğrafiyası**

Qızıl-valyuta resursları ölkənin strateji məqsədlərində fəaliyyət göstlərən qızılın özü və sərbəst dönərli valyutası hesab olunur. Elmi mənbələrin nəzəri baxışlarında pul və sərbəst yığımında qızılın funksiyaları kimi qəbul edilir. Tarixi dövrlərdən başlayaraq əksər dövlələrinin əsas sərvəti qızılla ölçülürdü.

Müasir dövrdə monetar coğrafiyasının əsas problemi milli valyutaların, o cümlədən dolların sabitliyinin təminatında qızılın üzərində aktivləşməsidir. Beynəlxalq mübadilənin başqa növlərinin miqyasənın genişləndiyi şəraitində ölkələrin rəsmi orqanlarının sərəncamında olan qızıl resurslarının da çoxalmasına səbəb olmuşdur. Təhlillər göstərir ki, beynəlxalq qızıl resursların kütləsində həm struktur, həm də onların ayrı-ayrı regionlarının coğrafiyasında dəyişikliklər baş verir.

Dünya üzrə qızıl-valyuta resurslarına malik olan inkişaf etmiş ölkələr (2011-ci il) üstünlük təşkil edir (milyard dollar): Almaniya-143.3; İtaliya-98.2; Yaponiya- 32.1; ABŞ- 11.0 və s. Müasir dövrdə milli və regional valyutalarla müqayisədə, ABŞ dolları hələlik iyerxiyada birinci yeri tutur. Eyni zamanda İEÖ-in qızıl-valyuta və qızıl resurslarının ehtiyatları azalır. Qlobal miqyasda qızıl resurslarının nizamlanması Beynəlxalq Valyuta Fondu tərəfindən idarə olunur.

Beynəlxal valyutanın əmələ gəlməsi iki səbəbdən formalaşmışdır: pulun dəyərdən düşməsi mümkünlüyü və qızıl və ya gümüşün satış qiymətində dəyişikliklərinin meydana gəlməsi. "Zaman-məkan" müddətdən sonra dövlətlər

[164] Model of Monetary Polisy. London, 1999.

arasında bazar tutumlu pullar arasında iyerarxiya yarandı. Eyni zamanda, yalnız bir sikkə təbii seçmə yolu ilə, yəni ən çox tələb edilməsiylə dominant beynəlxalq pul rolu qazana bilməsi ideyası meydana gəlməyə başlanmışdır. İqtisadiçı Cipollanin fikrinə əsasən "...əgər mövcud və dövriyyədə olan iki sikkənin növünə və xarakterinə diqqətlə nəzər salsaq, görərik ki, onlar az və ya çox dərəcədə beynəlxalq valyuta rolu oynayıb, lakin arasında həmişə bir sikkə dominatlıq edib, daha böyük nüfuzə malik olub".

Qədim Afina dirhəmindən dünyanın Hindistan və Avropa ölkələrində istifadə olunması faktları vardır.Yunanıstanın Roma imperiyasına qatılması ilə bu sikkənin çəkisi və keyfiyyəti ilə Roma dinarının modelinə çevrildi. İntibah dövründə (1252-ci il) Florensiyanın qızıl florini ilə beynəlxalq valyutaların yeni nəsli meydana gəldi. Bu sikkə şəhər-dövlətin emblemi olan zanbaq (*firino*) çiçəyinin adı ilə adlandırılmışdır. Bu sikkə bir əsr ərzində dominantlıq etmişdir.

Yeni dünyanın yaranması ilə beynəlxalq üstünlük qazanan və sonradan *ispan* və ya *meksika* dolları adlandırılan digər bir sikkə İspan-Meksika gümüş pesosu və ya reali ("royal") meydana gəldi. 1535-ci ildə Meksika birinci sikkəxanası yaradılandan XIX əsrin ortalarına qədər, demək olar ki, dünyanın bütün gümüş təchizatının əsas hissəsi İspan Amerikası, xüsusilə də Mexikodan gəlirdi. Bu Şimali Amerikada yeganə sikkə idi və sonrakı dövrlərdə ABŞ üçün dəqiq modelə çevrildi. Konqres dolları ABŞ-ın əsas pul vahidi seçdi (yeni ABŞ dolları dəyərində mövcud "səkkiz parça"ya bərabər idi və onun dörddə biri, məşhur ifadə ilə desək, "25 sentlik qəpik" dəyərində idi). XIX əsrdə dominant pul vahidi Britaniya funt sterlinq oldu, bu ilk növbədə London şəhərinin dünyanın qabaqcıl maliyyə mərkəzi olmasından irəli gəlirdi.

Mövcud pulları bir ümumi valyutaya dəyişmək fikri Avropa Birliyində, xüsusən də Britaniya və Almaniyada geniş müqavimətlə qarşılandı. Bir ingilis mənşəli arxiyepiskop göstərir ki, "...mən əskinasların üstündə kralın əksini görmək istəyirəm... milli mənsubiyyət məsələsi çox vacibdir. Britaniyalı olaraq mənim üçün bu, çox əhəmiyyətlidir. Mən fransız və ya alman olmaq istəmirəm".

Pulun mahiyyəti ilkin olaraq oynadığı funksiyalarla müəyyənləşir. Britaniya iqtisadçısı Havter qeyd edir ki, "Pul zəlzələ və ya qaymaq çiçəyi kimi deyil, çay qaşığı və ya çətir kimi ilkin olaraq istifadə məqsədinə görə müəyyənləşdirilir". Burdan belə bir nəticəyə gəlmək olur ki, pul onun fizki və qanuni xarakterindən asılı olaraq adətən və prinsipial olaraq müəyyən spesifik funksiyasını yerinə yetirir.

Monetar coğrafiyanın ifadə etməyin ən ideal yolu ənənəvi siyasi coğrafiyanın analoqu olaraq elementar ərazi terminləridir. Millət-dövlətlər kimi, valyu-

ları da mənsub olduqları ölkənin siyasi funksiyalarından biri kimi qəbul edilir. Buna görə də insan cəmiyyətinin siyasi obrazının formalaşmasında ilkin monetar coğrafiya ifadəsi aparıcı növqe nümayiş etdirir. Məlumdur ki, suveren dövlətçilik ideyası 1648-ci ildə Vestphalia sülhündə qəbul olunmuş və Müqəddəs Roma İmperiyasının konstitusiyasında öz əksini tapmışdır. Vestphalia sülhündən sonra Avropanın siyasi xəritəsinin əsası qoyuldu. Beynəlxalq mühitdə siyasi monetar coğrafiyanın Vestphalia modeli adlandırılan millət-dövlət sisteminin şərtləri ilə ifadə edilir.

Milli-dövlət sistemində valyuta siyasi hüquqi vasitələri ilə getdikcə daha çox beynəlxalq mühitə uyğunlaşmışdır. Siyasi suverenlik kimi, monetar suverenlik də əsas komponent fonunda fəaliyyət göstərir. Monetar coğrafiyasının qeyri-əraziləşdirmək məqsədində irəli sürülən məkanın fiziki və funksional ideyaları arasında müəyyən fərqlər vardır. Bunlardan birincisi, yerləşmə və ərazi, ikincisi isə əməliyyat və əlaqələr şəbəkəsinə bağlıdır.

Valyuta domenləri siyasi sərhədlər daxilində deyil, hər pulun effektiv istifadəsi və nufuzu ilə müəyyənləşdirilir. Monetar şəbəkələr ideyasının formalaşmasında ərazi domeni – dövlətin siyasi gücü ilə müəyyənləşən pulun ənənəvi məkan yeridir. Transaksiya domeni-pulun nisbi axınıdır ki, bu da hər valyutanın öz ölkəsində və ya digər məkanlarda müxtəlif məqsədlər üçün istifadəsini müəyyənləşdirir. Nufuzun domeni – yeni konsepsiyadır, transaksiyanı və ərazini funksional və fiziki aspektdə vahid istifadə və nufuz qarışığında nəzərdə tutur. Buna görə də nufuz dairəsi ideyası monetar coğrafiyanın axın modelinin dəyişkənliyinin əsasıdır.

***Dünya valyuta sistemlərinin formaları***

* Qızıl sikkələrin fəal sərbəst tədavülə buraxıldığı: **qızıl-sikkə standartı;**
* Qızıl sikkələrin fəal tədavüldə olmadığı, onların sərbəst qaydada kəsilmədiyi, pul-kredit idarələrinin vəzifəsinin isə qızıl külçə satmaqdan ibarət olduğu: **qızıl-külçə standartı;**
* Pul-kredit idarəlrinin yerlı pulu qızıl stnadartı mövcud olan xarici valyutaya dəyişdirdiyi: **qızıl-valyuta standartı.**

Ümumidünya valyutanın coğrafiyasında qızıl standartı sisteminin formalaşması bütün dövrlər üçün strateji əhəmiyyət daşımışdır. Qızıl standartı - pul tədavülünün dinamik təşkilinin sistemidir. Burada ölkənin pul vahidinin dəyəri rəsmi qaydada qızılın müəyyən miqdarına bərabərləşdirilir. Qızıl standartı sistemi ilk dəfə Paris şəhərində keçirilmiş (1821-ci il) konfransda rəsmləşdirilmişdir.

Rəsmiləşdirilmiş qaydalara əsasən milli valyutaların məzənnələri təsbit olunmuş qaydada qızıla bağlanır və valyutanın qızıl məzmunu vasitəsilə başqa valyutalarla müqayisə edilirdi. Paris valyuta sistemi dünya pulu qismində yalnız qızılı qəbul edirdi.

ABŞ, Böyük Britaniya və Fransanın təşəbbüsü ilə Genuyada (İtaliya) keçirilmiş konfransın (1922-ci il) qərarına əsasən ölkədaxili tədavüldə qızıl standartı ləğv edilmiş, kağız pullarının qızıla dəyişdirilməsi dayandırılmışdır.

1944-cü ildə ABŞ-ın Bretten-Vuds şəhərində yeni beynəlxalq valyuta sistemi yaradıldı. Onun mahiyyəti təsbit olunmuş valyuta məzənnələri sisteminə istinad edilməsindən ibarət idi. Sistemin ən mühüm cəhətlərindən biri milli valyutaların məzənnələrinin ABŞ dollarında yaxud qızılda (1 troya unsiyasına (31.1 qram) görə 35 dollar) təsbit olunması idi. Sonrakı illərdə ABŞ dövləti (1971-ci il) qızıl külçələrinin dollara satılmasını rəsmi olaraq dayandırdı. Tezliklə ABŞ dolların 1 troya unsiyası = 35 dollar pariteti üzrə qızıla bağlanmasının ləğvi barədə qəbul etdi. Beləliklə, Bretton-Vids valyuta sistemi dağıldı.

Müasir valyuta sistemi (1976-ci il) BVF çərçivəsində keçirilən Yamayka konfransında (Kinqston şəhərində) öz həllini tapmışdır. Yamayka konfransında ümumdünya valyuta sistemində qızılın valyuta vahidlərinin dəyər ölçüsü qismində funksiyası aradan qaldırılır və buna müvafiq olaraq,qızılın möhkəm qiyməti ləğv olunmuşdur. Qızıl adi əmtəyə çevrilir və qiyməti tələblə təklif arasındakı nisbətlə müəyyənləşir. 1987-ci ildə yaradılan Ümumdünya Qızıl Şurası isə həmin dövlətlərdə mövcud olan qızılın miqdarı ilə bağlı statistika aparır.

Statistik məlumatlara görə dünyanın ən böyük qızıl[165] ehtiyatına malik dövləti Amerika Birləşmiş Ştatlarıdır. Burada ilk dəfə 1933-cü ildə qızıl fondu yaradılıb. 1946-cı ildə qızıl ehtiyatı ABŞ tarixinin ən böyük həcminə - 20 min 205 tona çatıb. Hazırda ABŞ 8 min 133 kiloqram qızıl ehtiyatı ilə dünyada ən böyük qızıl fonduna malikdir. Daha 60 ölkənin qızıl ehtiyatının fondları Amerikadakı xüsusi xəzinələrində saxlanılır.

Dünyada ikinci yeri tutan Almaniya isə 1951-ci ildən qızıl ehtiyatı toplamağa başlayıb. 1968-ci ildə ehtiyatlar özünün ən yüksək həddinə - 4 min tona çatmışdır. Hazırda bu göstərici 3.384 kiloqrama qədər azalıb. Maraqlıdır ki, Almaniyanın qızıl ehtiyatlarının 70 faizi ABŞ Federal Rezerv Bankında, Londonda yerləşən İngiltərə bankında və Parisədki Fransa bankında yerləşir.

İtaliya Benito Mussolini diktaturası başladığı andan qızıl potensialının aktiv şəkildə artırılmasına səy göstərilmişdir. Qeyri-stabil siyasi və iqtisadi durum İtaliya hakimiyyətinin qızıl ehtiyatından isitfadə etməyə sövq edirdi. Buna

[165] Əsas qızılçıxarma ölkələr: CAR, ABŞ, Kanada, Avstraliya və s.

baxmayaraq, Ümumdünya Qızıl Şurasının son məlumatları İtaliyanın dünyada ən böyük 3-cü qızl ehtiyatına malik olduğunu göstərir.

Fransa ötən əsrin 60-cı illərində dollar ehtiyatlarını qızıla dəyşiməklə özü üçün böyük qızıl ehtiyatını yaratmışdır. 1965-ci ildə rəsmi Paris 4 min 400 ton qızıl ehtiyatının olduğunu elan etmişdir. Hazırda bu ehtiyatlar 2 min ton azalsa da, Fransa dünyanın qızıl ehtiyatı çox olan 4-cü dövlətidir. Fransızlar 3-cü pillədəki İtaliyadan 16 ton geri qalırlar. Qeyd olunmalıdır ki, əksər ölkələrdən fərqli olaraq, Fransa öz qızıl ehtiyatlarını yalnız ABŞ Federal Rezerv Bankında saxlayır.

Rusiya son 10 ildə dünya bazarlarında aktiv şəkildə qızıl əldə etdiyi üçün ilk "beşliy"ə daxil ola bilib. 1993-cü ildə 267,2 ton, 2003-cü ildə isə 387,6 ton qızıl ehtiyatına malik Rusiyanın hazırda 1149 min ton qızıl ehtiyatı vardır.

Dünya ölkələri arasında Çin - 1054 min ton xalis qızıl ehtiyyat olduğu halda, bu kəmiyyət Yaponiyada - 754; Böyük Britaniyada - 736; Hindistanada- 557 min ton və s. ölkələr qızıl ehtiyatlarına malikdirlər.

Müasir dövrdə maliyyə bazarlarının yaranması və təşkilatı-hüquqi formaya malik olmasında monetar iqtisadi inkişafının əsas mahiyyətlərini əhatə edir.[166] Beləliklə, maliyə bazarı pul vəsaitlərinin nizamlanmasında aparıcı funksiyasını yerinə yetirir.

Milli bazarların əsasında 13 qlobal maliyyə mərkəzləri fəaliyyət göstərir = Nyu York, London, Tokio, Paris, Sürix, Lüksenburq, Frankfurt -na Mayn, Sinqapur, Bəhreyn və s. Bunlar beynəlxalq valyuta, maliyyə - kredit fond əməliyyatlarını və s. həyata keçirən institutlar hesab olunur.

Qızıla əsaslanan pul sisteminin reallaşmasının cəmiyyətin tarixi inkişaf mərhələlərində qızılın monetar istehlakı üstün olması ilə fərqlənmişdir. Monetar sferada hər il sərf edilmiş qızıl kütləsinin enib-qalxmasına baxmayaraq, hasil edilmiş metalın ≈ 50%-i pul funksiyasını yerinə yetirir.

## ▪ Virtuallaşma mühitində qızıl bazarın coğrafiyası

Dünya iqtisadiyyatının dialektik inkişafında fəaliyyət göstərən milli valyutalarının geniş miqyas (dollar, avro və s.) almasına baxmayaraq virtuallaşma mühitində qızıl və qızıl bazarının mütləq üstünlüyü mövcuddur. Qızılın rəsmi qiymətinin dəyişməsi valyutanın müstəqil siyasəti ilə bağlıdır. Bu məqsədlə qızıl bazarı kateqoriyalara ayrılır. Virtual reallıqda qızıl bazarları valyuta-maliyyə sisteminin strateji mənbəyi hesab edilir. Dünyanın qızıl bazarları ölkələrin valyuta sferasında aparılan siyasətlə bağlı olaraq inkişaf edir.

[166] B.X.Ataşov. Maliyyə bazarları. Bakı, 2016.

Virtuallaşma mühitində qızıl bazarının xarakterində dəyişikliklər baş verməkdədir. Bu dəyişiklik xeyli dərəcədə qiymətli metallarının topdansatış dövriyyəsinin külçə qızıl formasında aparılmasında ifadə olunur. Təhlillər göstərir ki, dünya qızıl ticarətinin müasir qanunauyğunluğu bazarda tələbatın vəziyyəti və meylindən asılıdır. Təbii ki, qızıl bazarının ümumi tutumunun azalması qızıl bazarının dövriyyəsini zəiflədir və qiymətli metallara ölkələrarası tələbatının dəyişilməsinə səbəb olur.

“Qızıl həyəcanı” əsasən neft ixrac edən dövlətlərində baş verir. Məsələn, ilkin məlumatlara görə, Küveytdə 2010-2014-ci illərdə qızıl satışının həcmində orta illik 33 artım 15-18% arasında tərəddüd etmişdir. Dünya miqyasında qızıla və qızıl məmulatlarına tələbatın ən yüksək artımı Çin, Türkiyə və Vyetnamda müşahidə olunmuşdur.

Məlumdur ki, qızıl hasilatının ümumi həcminə dörd amil: qızılın ABŞ dollarında qiyməti; istehsalçı dövlətlərin valyutasında qızılın maya dəyəri və qiyməti; qızıl hasil edən başlıca ölkələrinin valyutasının dollara nisbətən məzənnəsinin dinamikasının dəyişməsi təsir edir. Bu gün bir sıra ölkələrdə yerin təkindəki qızıl ehtiyatı tükənir. Bu, xüsusilə Cənubi Afrika Respublikasına aiddir. Son on ildə ölkənin mədən yataqlarında qızıl tutumu 20% aşağı düşmüş və bu hasilatın azalması ilə müşayiət olunur.

Dünyada qızılı bazarının potensialında Avstraliya üstünlüyə malikdir – tarixən buradan lom halında qızıl çıxarılmasına dair faktlar mövcuddur.

Dünyada hasil edilmiş qızılın həcminə dair rəsmi statistikası real sayılmır. Çünki, bu qiymətli metalın hasilat həcmləri heç vaxt tam qeydiyyata düşmür. Buna görə dünya qızılını hesablayarkən rəsmi statistik məlumatları ən azı ikiyə vurmağı məsləhət görülür.



Virtual reallıqda qızıl bazarları valyuta-maliyyə sisteminin strateji mənbəyi hesab edilir. Dünyanın qızıl bazarları ölkələrin valyuta sferasında aparılan siyasətlə bağlı olaraq inkişaf edir. Müasir dövrdə beynəlxalq səviyyədə qızıl bazarlarının xarakterində dəyişikliklər baş verməkdədir. Bu dəyişiklik xeyli dərəcədə qiymətli metallarının topdansatış dövriyyəsinin külçə qızıl formasında aparılmasında ifadə olunur.

Təhlillər göstərir ki, dünya qızıl ticarətinin müasir qanunauyğunluğu bazarda tələbatın vəziyyəti və meylindən asılıdır. Təbii ki, qızıl bazarının ümumi tutumunun azalması qızıl bazarının dövriyyəsini zəiflədir və qiymətli metallara olan tələbatının strukturunu da dəyişdirir.

Virtual mühitdə dövriyyə həcminə görə ən böyük qızıl bazarları sayılan London, Sürix, Nyu-York və Çikaqoda yerləşir. London və Sürix bazarlarında əsasən CAR-dan gətirilən qızıl satılır. Bu bazarlarda satılan qızılın demək olar ki, yarısı satış üçün təkrar bazarlara yönəldilir.

London qızıl bazarı virtual reallıqda ən optimal sayılır. Beş firmanın nəzarətində olan bu bazarda hər iş günü ərzində iki dəfə orta qiymət müəyyənləşdirilir (1968-ci ildən etibarən qızılın qiyməti istisnasız olaraq ABŞ dolları ilə hesablanır).

ABŞ-ın qızıl bazarları daha aktivdir. Nyu-York, Çikaqo və s. qızıl bazarları Beynəlxalq Valyuta Bazarının ən iri mərkəzlərindən sayılır. Bu mərkəzlər ABŞ-ın TMK tərəfindən idarə olunur (C.Morqan, C.Aron end $K^0$ və s. ).

Son illərdə dünya dövlətləri və onların mərkəzi banklarının, beynəlxalq maliyyə qurumlarının qızıl ekvivalentli monetar ehtiyatlarının artımı müşahidə olunur. Milli valyutaların mövqeyinin zəifləməsi insanları öz vəsaitlərini daha etibarlı görünən qızıla yatırmalarına səbəb olur. Dünyada əsas qızıl istehlakçısı olan ölkələr iki qrupa bölünür.

Birinci qrupa - texniki cəhətdən inkişaf etmiş ölkələr daxildir: onlar qızıldan sənaye və texniki istehsal sahələrində geniş istifadə edirlər. Qızıldan texniki məqsədlərlə istifadə edən belə ölkələr arasında liderlik Yaponiya, ABŞ və Almaniyaya məxsusdur. Ölkə və təşkilat Ehtiyatında olan qızıl (tonla) Ümumi qızıl-valyuta ehtiyatında payı (%-lə) ABŞ 8.2; Almaniya 3.4; Fransa 2.5; İtaliya 2,4 və s.

İkinci qrup - qızıl istifadəçisi ölkələrində bu metalın böyük hissəsi yuvelir sənayesinin payına düşür. Belə ölkələrdən Avropada İtaliya, Portuqaliya, Cənub-Şərqi Asiyada Çin və Hindistan, İndoneziya, Malayziya, Yaxın Şərq, Kiçik Asiya və Şimali Afrikada Ərəb Əmirlikləri, Küveyt və Misir öndə gedir. Avropada istehsal edilən yuvelir məhsullarının 15,6 faizi İtaliyanın, Asiyada isə 15,2 faizi Hindistanın payına düşür.

**AĞAZEYNAL ALI OĞLU QURBANZADƏ**

**DİALEKTİK COĞRAFİYA**
***Nəzəri coğrafi-dialektik təhlil***

---

| | |
|---|---|
| Nəşriyyatın müdiri: | Əhməd Ziyəddinoğlu |
| Kompüter tərtibatı: | Hacı İsmayılov |
| Korrektor: | Ramin Rəsulov |

Yığılmağa verilib: 20.09.2016
Çapa imzalanmış: 10.01.2017
Kağız formatı: 70x100, 1/16
Fiziki çap vərəqi: 15,25
Tirajı: 200

Kitab Azərbaycan Kooperasiya Universitetinin
mətbəəsində çap olunmuşdur.
Ünvan: Bakı şəhəri, Nəcəf Nərimanov küç. 93.